“SİMURQ“ AZƏRBAYCAN MƏDƏNİYYƏT ASSOSİASİYASI

# AZƏRBAYCANDA YENİ MƏDƏNİYYƏT SİYASƏTİNİN FORMALAŞDIRILMASINA YARDIM

# SUPPORT IN ESTABLISHMENT OF NEW CULTURAL POLICY IN AZERBAIJAN

# СОДЕЙСТВИЕ ФОРМИРОВАНИЮ НОВОЙ КУЛЬТУРНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - 2001

*"Simurq" Azərbaycan mədəniyyət assosiasiyası bu layihəyə göstərdikləri dəstəyə görə cənab Corc Sorosa və professor Lidiya Varbanovaya öz səmimi minnətdarlığını bildirir.*

*Association of Azerbaijan Culture "Simurg" would like to express its sincere gratitude to Mr. George Soros and Professor Lidiya Varbanova for their support and assistance in the realization of this project.*

***Redaksiya heyəti:***

prof. Fuad Məmmədov (baş redaktor), akademik Maqsud Əliyev, akad. Asəf Nadirov, akad. Fuad Qasımzadə, prof. Rafiq Əliyev, prof.Arif Əzizov, ilahiyyat elmləri namizədi Hacı Sabir Həsənli, MEA müxbir üzvü Rəna Məmmədova, prof.Əli Abbasov, prof. Rəhman Bədəlov, dos. Səlmina Dadaşova, dos. Oqtay Sultanov, Rauf Mukimov, dos. Ağazəki Məlikov.

***Tərtib edənlər:***

Fuad Məmmədov, Firudin Əhmədov, Roman Şulman, Rüfət Əliyev, İsmayıl İsmayılov.

***Buraxılışa məsul şəxs:*** Firudin Əhmədov.

ISBN 5-861-06-238-2

Məcmuədə "Simurq" Azərbaycan mədəniyyət assosiasiyasının Açıq Cəmiyyət İnstitutu-Budapeşt Soros Fondunun köməyi ilə Azərbaycanda ilk dəfə həyata keçirdiyi "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsinin əsas nəticələri və praktiki tövsiyələri öz əksini tapmışdır.

The present anthology includes the outcomes and practical recommendations on the project "Support in Establishment of New Cultural Policy in Azerbaijan", implemented for the first time in Azerbaijan by the Association of Azerbaijan Culture "Simurg" under the support of the Open Society Institute – Budapest Fund of Soros.

4401000000
029 - 2001

©"Sabah" nəşriyyatı, 2001

"Simurq"
Azərbaycan mədəniyyət assosiasiyası

"AZƏRBAYCANDA YENİ MƏDƏNİYYƏT SİYASƏTİNİN FORMALAŞDIRILMASINA YARDIM"
layihəsi üzrə Açıq Cəmiyyət İnstitutu – Budapeşt SOROS Fondunun himayəsi ilə keçirilmiş Beynəlxalq konfransın və sosioloji tədqiqatın

# SƏNƏD VƏ MATERİALLARININ MƏCMUƏSİ

Bakı 27-29 iyun 2001-ci il.

*Redaksiya heyəti:* prof. Fuad Məmmədov (baş redaktor), akad. Maqsud Əliyev, akad. Asəf Nadirov, akad. Fuad Qasımzadə, prof. Rafiq Əliyev, prof. Arif Əzizov, ilahiyyat elmləri namizədi Hacı Sabir Həsənli, MEA müxbir üzvü Rəna Məmmədova, prof. Əli Abbasov, prof. Rəhman Bədəlov, dos. Səlmina Dadaşova, dos. Oqtay Sultanov, Rauf Mukimov, dos. Ağazəki Məlikov.

*Tərtib edənlər:* Fuad Məmmədov, Firudin Əhmədov, Roman Şulman, Rüfət Əliyev, İsmayıl İsmayılov.

## *MÜNDƏRİCAT*

- *Giriş.*
- *Fuad Məmmədov.* Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına vətəndaş köməyi haqqında.
- *Nigar Axundova.* Azərbaycanda mədəni siyasət: reallıqlar və perspektivlər.
- *Fuad Qasımzadə.* Mədəniyyət siyasəti və azərbaycan xalqının mədəni irsi.

- *Solmina Dadaşova, Oqtay Sultanov.* Kulturologiya mədəniyyət siyasətinin metodoloji əsası kimi.
- *Əli Abbasov.* Mədəniyyət - qloballaşma, "üçüncü təbiət" sisteminin təşəkkül tapması və cəmiyyətin sosial dəyərlərinin transformasiyası şəraitində.
- *Cəmilə Səttarova.* Azərbaycanda mədəniyyət siyasətinin formalaşmasında Həmkarlar İttifaqlarının rolu.
- *Rəhman Bədəlov.* Mədəniyyət siyasətinin fəlsəfəsi haqqında.
- *Ceyms Süart.* ABŞ-da mədəniyyət siyasəti.
- *Steyn İversen.* Mədəniyyət sahəsində Norveç siyasəti. Beynəlxalq müqayisə perspektivində Norveç modeli.
- *Jerar Nero.* Fransanın mədəniyyət siyasəti.
- *Morino.* Yaponiyanın mədəniyyət siyasəti.
- *Sergey Adasinski.* Rusiyada mədəniyyət quruculuğunun müasir təcrübəsi – regionlaşdırma problemi.
- *Leonid Medvedko.* Dünya mədəniyyəti və sivilizasiyaların dialoqu.
- "Simurq" AMA-nın "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsi çərçivəsində Azərbaycan əhalisi arasında apardığı sosioloji tədqiqatın nəticələri.
- Konfrans iştirakçılarının qərarları və praktiki tövsiyələri.

**Layihə ilə əlaqədar toplanmış və istifadə olunmuş bəzi materiallar**

- Mədəniyyət məsələləri və mədəniyyət siyasəti haqqında əhalinin sosioloji sorğusu materialları
- Konfrans iştirakçılarının anketləşdirməsinin nəticələri
- Fotoşəkillər və videokassetlər
- Mədəniyyət və mədəniyyət siyasəti üzrə seminar-treninqlərin materialları



- Daycestlər
- Konfransdakı çıxışların icmalı

***Layihənin həyata keçirilməsində iştirak edənlər:***

- *Layihənin müəllifi və rəhbəri:* Fuad Məmmədov.
- *Koordinatorlar:* Firudin Əhmədov, Roman Şulman, Rüfət Əliyev, İsmayıl İsmayılov.
- *Sosioloji qrup:* Roman Şulman (rəhbər), Yuliya Adilova, Yaşar Zeynalov, Könül Əliyeva, İlham Əliyev.
- *Supervayzer:* akad. Maqsud Əliyev, beynəlxalq konfransın təşkilat komitəsinin sədri.
- *Seminar-treninqlərin və konfransın moderatorları:* Maqsud Əliyev, Rəhim Hüseynov, Solmina Dadaşova, Rafiq Zeynalov, Sevda Əlizadə, Rafiq Kaşanlı, Rəhman Bədəlov, Firudin Qurbanov, Tahirə Salmanova, Rüfət Əliyev, Şahin Seyidzadə, Şəhla İsrafilova, Cəmilə Səttarova, Svetlana Bayramova, Elmira Hüseynova, İsmayıl İsmayılov.
- *Ekspertlər:* prof. Fuad Məmmədov, prof. Rəhman Bədəlov, prof. Əli Abbasov, akad. Fuad Qasımzadə, MEA müxbir üzvü Rəna Məmmədova, prof. Nurəddin Həbibov, dos. Solmina Dadaşova, dos. Fidan Fərəcova, dos. Larisa Lembenskaya, dos. Vaqif Əliyev, dos. Oqtay Sultanov, dos. Maral Məmmədova, dos. Leyla Quliyeva, dos. Qəmər Mürşüdlü, dos. Taliyə Məmmədova.
- *Fotoqraf-rəssam:* Fəridə Məmmədova
- *Tərcüməçilər:* Ağazəki Məlikov, Arif Əliyev, Əbülfət Fətullayev və Nailə Mehrabova.
- *Buraxılışa məsul şəxs:* Firudin Əhmədov.

Association of Azerbaijan Culture "Simurg"

# ANTHOLOGY OF DOCUMENTS AND MATERIALS

of the International Conference and
the sociological research on the project
"SUPPORT IN ESTABLISHMENT OF NEW CULTURAL POLICY IN AZERBAIJAN",
implemented under the support of the Open Society Institute – Budapest Fund of Soros.

Baku, Azerbaijan

June 27-29, 2001

## *CONTENTS*


- Introduction
- *Fuad Mamedov*. On Civil Support in Establishment of New Cultural Policy in Azerbaijan.
- *Nigar Akhundova*. Cultural Policy in Azerbaijan: Status and Perspectives.
- *Fuad Gasimzade*. Cultural Policy and Cultural Heritage of the Azeri nation.
- *Solmina Dadasheva, Ogtay Sultanov*. Culturology as the Methodological Foundation for Cultural Policy.
- *Ali Abbasov*. Culture in the Conditions of Globalization, Establishment of the "Third Nature" System and Transformation of Social Values in Society.
- *Djamilya Sattarova*. The Role of Trade Unions in the Establishment of Cultural Policy.
- *James Seward*. Cultural Policy in the USA.
- *Stein Iversen*. Cultural Policy in Norway. The Norwegian Model in the International Comparative Perspective.
- *Gerard Neraud*. Cultural Policy in France.
- *Morino*. Cultural Policy in Japan.
- *Sergey Addasinsky*. Contemporary Method of Cultural Establishment in Russia – the Problem of Regions.
- *Leonid Medvedko*. Culture of Peace and Dialogue of Civilizations.
- Results of the sociological research among the population of Azerbaijan, carried out by the Association of Azerbaijan Culture "Simurg" in the framework of the project "Support in Establishment of New Cultural Policy in Azerbaijan".
- Decisions and Practical Recommendations of the Participants of the Conference.




Ассоциация культуры Азербайджана «Симург»

# СБОРНИК ДОКУМЕНТОВ И МАТЕРИАЛОВ

Международной конференции и социологического
исследования по проекту
«СОДЕЙСТВИЕ ФОРМИРОВАНИЮ НОВОЙ КУЛЬТУРНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ»,
осуществленному при поддержке Института
Открытое Общество-Будапешт Фонда Сороса.

Баку 27-29 июня 2001г.

## *СОДЕРЖАНИЕ*


- Введение.
- *Фуад Мамедов*. О гражданском содействии формированию новой культурной политики в Азербайджане.
- *Нигяр Ахундова*. Культурная политика в Азербайджане: состояние и перспективы.
- *Фуад Гасымзаде*. Культурная политика и национально-культурное наследие азербайджанского народа.
- *Сольмина Дадашева. Огтай Султанов*. Культурология как методологическая основа культурной политики.
- *Али Аббасов*. Культура в условиях глобализации, становления системы "третьей природы" и трансформации социальных ценностей общества.
- *Джамиля Саттарова*. Роль профсоюзов в формировании культурной политики.
- *Рахман Бадалов*. О философии культурной политики.
- Джеймс Сюарт. Культурная политика в США.
- *Стейн Иверсен*. Политика Норвегии в области культуры. Норвежская модель в международной сравнительной перспективе.
- *Жерар Неро*. Культурная политика во Франции.
- *Морино*. Культурная политика в Японии.
- *Сергей Адасинский*. Современный опыт культурного строительства в России – проблема регионализации.
- *Леонид Медведко*. Культура мира и диалог цивилизаций.
- Результаты социологического опроса населения Азербайджана, проведенного АКА «Симург» в рамках проекта «Содействие формированию новой культурной политики в Азербайджане».
- Решения и практические рекомендации участников конференции.

# GİRİŞ

Müasir texnogen bəşəriyyətdə ruhi mədəniyyətin inkişafına qlobal, regional və lokal problemlərin effektiv həllinə xidmət edən ən vacib bir məsələ kimi baxılır. Ruhi mədəniyyət mütərəqqi cəmiyyət və dövlətlərin əsas dayaq sütunudur. Onun möhtəşəm rolu ondan ibarətdir ki, hətta maraqlarda, mentallıqda və ənənələrdə olan fərqlərə baxmayaraq, o yalnız şəxsiyyətlərarası səviyyədə deyil, həm də milli, regional və qlobal miqyasda güclü birləşdirici faktor kimi çıxış edir. Onun inkişafın məqsədlərini və yollarını təyin edən maraqlara müsbət təsir etmək qabiliyyəti mədəni fərqlərin ağıllı istifadəsinə və ziddiyyətləri yaradıcı, qurucu məcraya döndərməyə imkan verir. XX əsrin kulturoloji şüuru və bununla əlaqəli olan inkişafın əsas məqsədi kimi insana yeni baxış bəşəriyyətin daha yaxşı gələcəyi, yeni humanistik sivilizasiya yaratmaq yolunda təbiətin və insanın dəyişdirilməsinin universal əsası kimi ruhi mədəniyyət qarşısında çox geniş imkanlar açır.

Mədəniyyətdən kənarda insanın inkişafı mümkün deyil, çünki mədəniyyət - insan tərəfindən təbiətin, onun özünün və cəmiyyətin dərk olunması və dəyişdirilməsi, öz həyat və fəaliyyətinin qorunub-saxlanması və yaxşılaşdırılması məqsədilə onun mahiyyət xarakterli qüvvələrinin reallaşması prosesidir. Tarixin, arxeologiyanın, antropologiyanın, entoqrafiyanın, fəlsəfənin, məntiqin, psixologiyanın, linqvistikanın, filologiyanın, incəsənətşünaslığın, sosiologiyanın və digər elmlərin nailiyyət və metodlarına əsaslanan kulturoloji analiz göstərir ki, "yüksək ruhi mədəniyyət" - insanların bütün problemlərinin həllinin açarı, milli təhlükəsizliyin və rifahın əsasıdır. Bu, insanın və cəmiyyətin xilasının, inkişafının və çiçəklənməsinin yeganə yoludur. Yüksək mədəniyyətli insan hər bir ölkənin başlıca milli sərvətidir. İnsanların mədəni səviyyəsinin aşağı vəziyyətində maddi rifah, zəngin təbii ehtiyatlar insanın sosial



inkişafında gözlənilən nəticələri vermir, xoşbəxtliyi təmin etmir. Cahillik – miskinlikdir, bəladır, miskinlik, yoxsulluq isə milli təhlükəsizliyə meydan oxumaqdır və vətəndaş həmrəyliyinin dağılmasına, ölkənin xarici təhlükə qarşısında zəifləməsinə gətirib çıxarır. Ölkənin əsas varidatı, əsas kapitalı – onun mədəni potensialı və ilk növbədə "yüksək" ruhi mədəniyyətin yaradıcısı və daşıcıyısı olan insandır. İnsanın yüksək ruhi mədəniyyət səviyyəsi isə öz növbəsində bütün cəmiyyətin maddi rifahının yeni artımını təmin edir. Bununla yanaşı mədəniyyət insan inkişafının yalnız vasitəsi deyil, həm də onun göstəricisi və məqsədidir. "Yüksək", "elitar" mədəniyyət insan biliklərinin, bacarıqlarının, təşkil olunmasının və mənəviyyatının yüksək səviyyəsini nəzərdə tutur, həyata məna verir, insana öz qarşısına qoyduğu insanpərvər məqsədlərə çatmaq uğrunda mübarizədə zəruri qüvvə verir, xoşbəxtlik üçün imkanlar yaradır. Mədəniyyət həm də insanın dəyərinin ölçüsüdür. "Yüksək mədəniyyət" – şəxsiyyətin mütləq dəyərinin meyarı və onun sivil insanlar birliyinə daxil olması üçün mandat kimi çıxış edir. İrqi, etno-milli, konfessional, siyasi və başqa fərqləri aradan qaldıraraq, mədəniyyət insanlar arasında razılığın və sülhün əsasına çevrilir. İnsanın, cəmiyyətin və bütün bəşəriyyətin gələcəyinə gedən yol yalnız yüksək ruhi mədəniyyətdən keçir.

Üçüncü minilliyin başlanması ilə bəşəriyyət öz sosial-mədəni inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ruhi mədəniyyətin artan sosial rolu, informasiya texnologiyaları inqilabı, təhsil və maarif sistemlərinin təkmilləşdirilməsi ilə bağlı biliklərin kəskin inkişafı yeni mədəni inqilaba – sənayeləşmiş cəmiyyətdən "biliklər cəmiyyətinə" keçidi təmin edən biliklər inqilabına doğru aparır. İnsanın mədəni inkişafının ən vacib nəticəsi olmaqla biliklər getdikcə daha geniş surətdə müasir cəmiyyətin təşkiledici prinsipinə çevrilir, onun dəyər statusunun dəyişməsinə təsir göstərir, insan tərəqqisi üçün yeni imkanlar açır.

Bununla bərabər, dayanıqlı inkişafa və sülhə nail olmaq, yoxsulluğu, zəngin və yoxsul ölkələr arasındakı uyğunsuzluğu dəf etmək, münaqişələri həll etmək, məcburi miqrasiyaların qarşısını almaq, ekoloji təhlükəsizliyi təmin etmək və bəşəriyyətin bir çox başqa qlobal problemlərini həll etmək üçün hələ çox şey etmək lazımdır. Dünya iqtisadiyyatının xarakterini kəskin surətdə dəyişmiş və dünya miqyasında disbalanslara səbəb olmuş qloballaşma şəraitində cəmiyyətin təhsilə və tərbiyəyə yeni yanaşmalara əsaslanan maarifə və humanitarlaşmaya tələbatı daha da artmışdır. Bu, qüvvələr nisbətinin ümumi harmoniya və sülhün xeyrinə dəyişilməsi zərurəti, maraqlar balansının və ümumi təhlükəsizliyin əldə olunması, dəyərlərin humanist idrak istiqamətinə yönəlməsi və hər bir xalqın və bütün bəşəriyyətin gələcək pozitiv obrazının görüntüsü ilə şərtlənir. Daha yaxşı gələcəyə yol - bilik və etikanın, elm və humanizmin sintezi olan yüksək mədəniyyətdən keçir. Texnogen sivilizasiyanın dağıdıcı proseslərini dəf edərək bəşəriyyət birlikdə “tikanlıqlardan ulduzlara doğru“ getməlidir. Belə hərəkət yalnız bəşəriyyətin daha gözəl gələcəyi naminə dünyanın intellektual və mənəvi mədəni nailiyyətlərindən istifadə edən və onları inkişaf etdirən fəal təhsilə və ümumbəşəri dəyərlərə əsaslanan yüksək humanist mədəniyyət əsasında mümkündür.

Bu həyati tələblər alim-kulturoloqlar, dövlət qulluqçuları və qeyri-hökumət təşkilatları qarşısında insanın dayanıqlı inkişafı prosesinin elmi təminatının zəruriliyi ilə bağlı mürəkkəb və məsul məsələlər qoyur. Belə məsələlərdən biri postsovet məkanı xalqlarının milli mədəniyyətlərinin nəzərdən keçirilməsi və tənqidi qiymətləndirilməsi, dünya sivilizasiyası kontekstində onların müqayisəli kulturoloji analizinin aparılmasıdır. Bu məsələnin həlli milli mədəniyyətlərdəki nailiyyətlərin, xətaların və böhran hallarının üzə çıxarılmasına və obyektiv qiymətləndirilməsinə, dünya mədəniyyəti inkişafının ənənələri və tələblərinə müvafiq olaraq onların sonrakı təkmilləşdirilməsi və müasirləşdirilməsi üçün yollar, vasitələr və üsullar müəyyən etməyə imkan verir.



İnsan inkişafının və dövlət quruculuğunun potensial imkanlarının həyata keçirilməsi - təşkilati, maliyyə və dünyagörüşü xarakterli obyektiv və subyektiv çətinliklərlə əlaqədardır. Postsovet məkanının digər ölkələri kimi Azərbaycan Respkblikasının da qarşısında ideoloji yenidənqurma və mədəni yeniliklər, təhsil, elm, səhiyyə şəbəkələrinin, ekoloji strukturun optimallaşdırılması, dövlətin texnoloji rəqabətə davamlılığının təminatı və əhalinin həyat təminatı sistemlərinin effektivliyinin artırılması ilə əlaqədar bir sıra mürəkkəb məsələlərin həlli durur. Struktur, sosial, regional və fərdi ölçülərdə mədəni inkişafın qeyri-müntəzəmliyini də çətinliklərə aid etmək olar. Bu, özünü həm də tam bir sistem kimi baxılan mədəniyyətin ayrı-ayrı sahələrinin bərabərsizliyində, əhalinin elitar və kütləvi mədəniyyətinin inkişafındakı ciddi daxili disproporsiyalarda, inkişaf mənbəyi kimi mədəniyyət nailiyyətlərindən istifadədə gender bərabərhüquqluluğunun olmamasında, ölkənin müxtəlif regionlarının qeyri-bərabər mədəni inkişafında da özünü göstərir. Bu isə mədəniyyətin sosial institutlarının inkişafı prioritetlərinin seçimi məsələsini günün vacib məsələləri sırasına çıxarır. Sadalanan məsələlərin müvəffəqiyyətli həlli mədəniyyət və mədəniyyət siyasəti sahəsində zamanın tələblərinə cavab verən yenilikçi islahatların keçirilməsinə yardımçı olan model və proqramların tərtibini və həyata keçirilməsini təkidlə tələb edir. Belə proqramların yaradılması üçün ruhi mədəniyyətin yüksək missiyasının yeni görümünü və onun insanın, sosial sahənin və dövlətin inkişafında yenilikçi dəyişdirici rolunun imkanlarını açan problemlərin kulturoloji analizi zəruridir.

İnsanın inkişafında ruhi mədəniyyətin getdikcə artan sosial rolundan çıxış edərək, “Simurq“ Azərbaycan Mədəniyyət Assosiasiyası Açıq Cəmiyyət İnstitutu – Budapeşt Soros Fondunun dəstəyi ilə ilk dəfə olaraq “Azərbaycanda yeni mə-

dəniyyət siyasətinin formalaşmasına yardım" layihəsini işləmiş və 2001-ci ilin aprelindən onu həyata keçirir. Layihənin məqsədi Azərbaycanda vətəndaş cəmiyyətinin və hüquqi dövlətin etik-normativ əsası kimi sovet tipli Azərbaycan mədəniyyətinin demokratik mədəniyyətə transformasiya etməsinə yardımdır. Azərbaycanda mədəniyyətin sosial bazasının öyrənilməsi, yeni mədəniyyət siyasətinin xarakterinin və vəzifələrinin müəyyənləşdirilməsi, mədəniyyətin düzgün başa düşülməsində müxtəlif strukturlara və sosial qruplara kömək göstərilməsi, onun insanın inkişafında, həyatın kefiyyətinin və Azərbaycan cəmiyyətinin rifahının yüksəldilməsində funksiyasının və imkanlarının öyrənilməsi layihənin başlıca məqsədlərindəndir.

Kulturoloji metodologiyaya və çoxillik kulturoloji tədqiqatlara əsaslanaraq, Assosiasiya Azərbaycan əhalisi arasında xüsusi sosioloji sorğu keçirmişdir. Layihəni interaktiv dəstəkləmək məqsədi ilə və həmçinin konfrans iştirakçılarını seçib ayırmaq üçün aprel-iyun aylarında "Simurq" Assosiasiyası "Mədəniyyət siyasətində tərəfdaşlıq" xüsusi kulturoloji proqram həyata keçirmişdir. Bu proqrama müvafiq olaraq bir sıra dövlət və qeyri-hökumət təşkilatları ilə birlikdə mədəniyyət və mədəniyyət siyasəti üzrə 17 seminar-treninq və 3 fokus-qrup keçirilmişdir. Bu treninqlərdə dövlət strukturları və qeyri-hökumət təşkilatlarının 300-dən artıq nümayəndəsi iştirak etmişdir. İştirakçıların içərisində müəllimlər, elmi işçilər, incəsənət xadimləri, səhiyyə işçiləri, KİV, qeyri-hökumət təşkilatları, yaradıcı ittifaqların, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin, məktəb, kitabxana, muzey, mədəni-maarif idarələrinin, bələdiyyələrin, həmkarlar ittifaqlarının, gənclər və qadınlar təşkilatlarının nümayəndələri iştirak etmişlər. Bu proqram prosesində "Simurq" Assosiasiyası ilə Respublika mədəniyyət işçiləri həmkarlar ittifaqı arasında mədəni əməkdaşlıq haqqında razılıq əldə edilmişdir. Yaxın vaxtlarda ölkə Parlamenti ilə birgə elmi-praktiki konfransın keçirilməsi planlaşdırılır. Assosiasiya tərəfindən həmçinin Azərbaycan Mədəniyyət Naziliyi ilə birgə seminar keçirilməsi və əməkdaşlıq haqqında razılıq barədə hazırda nazirliyin rəhbərliyi tərəfindən baxılan təkliflər verilmişdir.



Assosiasiyanın kulturoloji tədqiqatlarının nəticələri və layihənin həyata keçirilmə prosesində alınmış yeni məlumatlar 27-29 iyunda Bakıda keçirilən mədəniyyət siyasətinə həsr olunmuş beynəlxalq konfransda müzakirə olunmuşdur. Konfransın işində Azərbaycandan, Rusiya Federasiyasından, ABŞ-dan, Norveçdən, Fransadan, Yaponiyadan tanınmış alim, mütəxəssis və diplomatlar, respublika mədəniyyət və gənclər nazirliyinin, Milli Elmlər Akademiyasının, Parlamentin, qeyri-hökumət təşkilatlarının, MEDİA, yaradıcı ittifaqların, beynəlxalq fondların nümayəndələri iştirak etmişlər. Konfrans həmçinin bir sıra demokratik ölkələrin mədəniyyət siyasəti sahəsindəki təcrübəsini öyrənməyə və Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşması üçün praktiki tövsiyələr hazırlamağa imkan verdi.

Redaksiya heyəti və tərtibatçılar ümid edirlər ki, təqdim olunan sənədlər və materiallar toplusu Azərbaycanın alimləri, müəllimləri, diplomatları, dövlət strukturları və qeyri-dövlət təşkilatları üçün faydalı olacaqdır.

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyanın Rəyasət Heyəti Açıq Cəmiyyət İnstitutu–Budapeştə və şəxsən professor Lidiya Varbanovaya qiymətli məsləhətlərinə, layihəyə mənəvi və maliyyə dəstəyinə görə təşəkkürünü bildirir. Assosiasiya həmçinin öz fəaliyyətinə maliyyə yardımına görə Norveç Krallığının Azərbaycandakı səfirliyinə, səfir cənab Olav Berstada, səfirliyin birinci katibi cənab Steyn İversenə, Dini Qurumlarla İş üzrə Respublika Komitəsinin sədri professor Rafiq Əliyevə, "AZNEFTGEOFİZİKA" birliyinin departament rəisi Rauf Mukimova da öz minnətdarlığını bildirir.

*Fuad Məmmədov*
*"Simurq" Azərbaycan Mədəniyyət*
*Assosiasiyasının prezidenti*

## Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına vətəndaş köməyi haqqında

Mədəniyyət siyasəti üzrə beynəlxalq konfransın hörmətli iştirakçıları, xarici qonaqlar, xanımlar və cənablar!

İcazə verin sizin hamınızı "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət heyəti adından salamlayım və bizim konfransda iştirak etdiklərinə görə məruzəçi, dinləyici və təşkilatçılara öz minnətdarlığımı bildirim. Biz bu görüşə Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına və sosial-mədəni tərəqqiyə, beynəlxalq sosial-mədəni əməkdaşlıq və partnyorluğa, bizim ölkənin sivil dünya birliyinə inteqrasiya etməsinə yardım edə biləcək problemlərin müzakirə edilməsi imkanı kimi baxırıq.

Azərbaycanda optimal mədəniyyət siyasətinin işlənməsi üçün mütərəqqi təcrübənin öyrənilməsi və yaradıcı surətdə istifadə edilməsinə, qloballaşma şəraitində ölkənin sosial-mədəni inkişafının praktiki problemlərinin həllinə optimal yanaşmaların tapılmasına imkan verən sivil ölkələrin mədəniyyət siyasətlərinin müqayisəli təhlili mühüm əhəmiyyət kəsb edir. Buna görə də hər şeydən əvvəl mən konfransda çıxış edən və öz ölkələrinin mədəniyyət siyasəti təcrübəsini Azərbaycana vermələri barədə bizim xahişi qəbul etmiş xarici mütəxəssis və diplomatlara – Ceyms Süarta (ABŞ), Steyn İversenə (Norveç), Jerar Neroya (Fransa), Sergey Adasinskiyə (Rusiya), Leonid Medvedkoya (Rusiya), Morinoya (Yaponiya) xüsusilə təşəkkür etmək istərdim. Biz sizin demokratik və



mədəni həmrəyliyinizi və köməyinizi çox yüksək qiymətləndiririk. Çox sağ olun!

Bu məruzə və bizim işlədiyimiz tövsiyələrin əsasını "Simurq" AMA-nın çoxillik mədəniyyət tədqiqatları, ölkə əhalisi arasında mədəniyyət məsələləri üzrə xüsusi sosioloji sorğunun nəticələri, kulturoloq-ekspertlərin rəyləri, habelə Azərbaycan cəmiyyətinin müxtəlif dövlət və qeyri-hökumət strukturlarının nümayəndələri ilə keçirilmiş iyirmi kulturoloji seminar-treninqlərin sənədləri təşkil edir. Bu zaman Sovet, Qərb və rus mədəniyyət məktəblərinin nailiyyətləri, o cümlədən Rusiya Mədəniyyət institutunun konsepsiya və nailiyyətləri, Norveç və Yaponiyanın sosial-mədəni inkişafının tarixi təcrübəsi, BMT və Yunesko, Avropa Şurası və mədəniyyət siyasəti sahəsində başqa beynəlxalq təşkilatların sənədləri və müasir fəaliyyət təcrübəsi öyrənilmiş və istifadə edilmişdir. Bu materialların müqayisəli təhlili əsasında biz Azərbaycanın konkret şəraiti üçün yeni mədəniyyət siyasətinin formalaşması üzrə sizin nəzərinizə çatdırılacaq praktiki tövsiyələr işləyib hazırlamışıq. Bu zaman həm Azərbaycanın tarixi-mədəni inkişaf özünəməxsusluğu, həm də dünya sivilizasiyası kontekstində ölkənin sosial-mədəni inkişafının sistemli təhlilinin nəticələri nəzərə alınmışdır.

Bizim tədqiqatların əsas metodu mədəniyyətin elmi-idrak, ideoloji və praktiki vəzifələrini sosial fenomen kimi açan sistemli yanaşmadır. O, dialektik cəhətdən qarşılıqlı əlaqədə olan: keyfiyyət, kəmiyyət, struktur, genetik-tarixi, məkan və müqayisəli təhlil kimi tədqiqat prinsipləri əsasında mədəniyyəti bütöv bir sistem kimi kompleks şəkildə, fənlərarası xüsusiyyətlər nəzərə alınmaqla öyrənməyə imkan verir. Bu yanaşmanın metodoloji əsasında dialektika (Hegel fəlsəfəsi daxil olmaqla), tarixilik prinsipi və məntiq (Lütfi Zadənin "qeyri-səlis məntiqi" daxil olmaqla) təşkil edir. Bu cür yanaşma obyektiv dünya görüşünün yaranmasına, sinfilik və

partiyalılıq prinsipindən azad bir surətdə insan, cəmiyyət və dövlətin məkan və zamanda inkişafını vəhdət halında görməyə imkan verir.

Bu metodologiya əsasında mədəniyyətin təbiət, insan və cəmiyyətin yaradıcı surətdə dərk edilməsi və dəyişdirilməsi, onun nəticələri – maddi və mənəvi dəyərlər və normalar məcmusu, habelə insanın həyat fəaliyyətinin dəyərləri, normaları və təcrübəsinin istehsalı, saxlanması, istifadə olunması və çevrilməsi texnologiyalarından ibarət olan triada kimi elmi anlayışı yaradılmışdır. Bu baxıma müvafiq olaraq biz müasir cəmiyyətin irəliyə doğru inkişaf edən bütöv bir sosial sistem, ayrı-ayrı sahələrinin sıx əlaqədə olub bir-biri ilə obyektiv qanunauyğunluqlar əsasında qarşılıqlı təsirdə olan mədəniyyət modelini təklif etmişik. Bu modelə təhsil və tərbiyə, elm və texnologiya, ədəbiyyat və incəsənət, din, etika, informasiya, mətbuat və turizm, hüquq, təşkilat və idarəetmə, həyat tərzi, dil və mədəni irs, səhiyyə, ekologiya və həyat fəaliyyətini təmin edən digər sistemlər daxildir. Həm də mədəniyyətin bütöv sistem kimi inkişafının bazis əsası hərəkətverici qüvvəsi insanın intellektual fəaliyyəti və humanizm olan "mənəvi istehsal"dır. Azərbaycanda yeni mədəniyyət siyasətinin zəruriliyinin, rolunun və əhəmiyyətinin məntiqini dərk etmək üçün bir neçə sxematik şəkli nəzərdən keçirək (qoşma N 1-8-ə bax).

- Şüurlu bəşəriyyətin ali mədəni məqsədi mənəvi kamilliyə və yüksək rifaha nail olmaqdır. Buna uyğun olaraq, mədəniyyət siyasətinin ali məqsədi insan, cəmiyyət və dövlətin harmonik inkişafı üçün mənəvi kamilliyə və rifaha nail olmaq üçün əlverişli şəraitin yaradılması olmalıdır (şəkil 1).
- Lakin müasir sivilizasiya çərçivəsində mədəni yaradıcılıqla yanaşı şər qüvvələr və dağıntılar da mövcuddur. Məsələ mədəniyyətin sosial bazasının genişləndirilməsi və mədəniyyətlə antimədəniyyət arasında balansın ümumiyyətlə





mədəniyyətin və xüsusi olaraq dünya mədəniyyətinin xeyrinə dəyişdirməkdən, dünya mədəniyyəti məkanının dairəsini genişləndirməkdən ibarətdir (şəkil 2).

- Eyni zamanda dialektik inkişaf qanunlarına müvafiq olaraq insani, sosial-coğrafi ölçülərdə mədəni qeyri-bərabərlik vardır. Burada bütün səviyyələrdə, müxtəlif xalqların mədəniyyətləri arasında harmoniyaya nail olunması da daxil olmaqla, mədəni inkişafın harmoniyasına nail olmaq zəruridir (şəkil 3).
- Bu məsuliyyətli sosial-siyasi və iqtisadi məsələlərin həllinə yeni mədəniyyət siyasəti xidmət edə bilər və etməlidir. Bu siyasət mədəniyyət sferasının bütöv bir sosial sistem kimi ideoloji, texnoloji və təşkilati səviyyələrdə inkişafının əsaslandırılmış idarə edilməsini nəzərdə tutur (şəkil 4).
- Lakin mədəniyyətin səmərəli idarə edilməsi mədəniyyətin bir sosial fenomen kimi düzgün dərk edilməsi olmadan mümkün deyildir. Mədəniyyətin dar (adiləşdirilmiş), kontekstual və elmi anlayışları arasındakı fərqi dərk etmək və görmək lazımdır (şəkil 5).
- Bununla yanaşı müasir cəmiyyətin mədəniyyətinin strukturunu bütöv bir sosial sistem kimi aydın təsəvvür etmək lazımdır (şəkil 6). Bu zaman "mənəvi istehsalın" iqtisadi inkişafın əsas vasitəsi, ictimai rifahın artmasının açarı olmasını göstərən kulturoloji qanunauyğunluğu dərk etmək lazımdır. Dövlətin iqtisadi istehsalının səmərəliliyi elmin və elmi texnologiyaların nailiyyətlərinin, təhsil və tərbiyə sisteminin səmərəliliyi ilə düz mütanasibdir.
- Mədəniyyəti yaradan və daşıyan insan olduğuna görə, mədəni insan düsturunu da bilmək zəruridir. O, insanın özünü təkmilləşdirmək və onu əhatə edən dünyanı mütərəqqi dəyişməkdə imkanlarını açıqlayır (şəkil 7).

- Nəhayət, insan, cəmiyyət və dövlətin sosial-mədəni inkişafının əsas istiqamətləri, şərtləri və prioritetlərini düzgün təyin etmək üçün mədəni inkişafın əsas amil və qanunlarını, habelə kulturologiya metodologiyasını bilmək lazımdır (şəkil 8).

Mədəniyyət siyasəti mədəniyyətin inkişafında böyük rol oynayır, çünki mədəniyyət siyasi amillərdən, dövlətin mədəni inkişafına təkan verən və ya tormozlayan siyasi sistemindən asılıdır.

Mədəniyyət sahəsində siyasət - millətin mənəvi, iqtisadi və sosial inkişafının, onun intellektual potensialının artmasını, xalqın mənəvi sağlamlığı və rifahının möhkəmlənməsini təmin edən siyasətdir. Onun əsas vəzifəsi ölkəyə lazım olan mənəvi və maddi dəyər və normaların istehsalı, saxlanması və inkişafı, xalqın mədəni irsindən, sosial-mədəni inkişaf təcrübəsindən və insan dühasının ən yeni nailiyyətlərindən məhsuldar istifadə etmək və yeni nəsillərə ötürmək üçün şəraitin yaradılmasıdır. Sivil dövlətin mədəniyyət siyasəti cəmiyyətin elmi surətdə təşkil və idarə edilməsi əsasında ölkənin harmonik inkişafının əldə edilməsinə yönəlməsi, koordinasiya və tənzimləmə yolu ilə insan və cəmiyyətin qeyri-bərabər mədəni inkişafının aradan qaldırılmasına, mədəniyyəti kütlələrin qəbul etməməzliyinin və mədəni diletantlıq səviyyəsinin aşağı salınmasına kömək etməsidir. O, hər bir şəxsin və bütün xalqın marağını əks etdirməli, insanın azad inkişaf hüququnu, cəmiyyətin müxtəlif sosial qruplarının maraqlarının düzgün balansını təmin etməlidir. Onun səmərəliliyinin şərtləri - kulturologiya elminə, mədəniyyətin milli və ümumbəşər dəyərlərinə əsaslanması; siyasətçi və jurnalistlərin təhlillərinin yüksək səviyyəsi və peşəkarlığı; cəmiyyətin gerçək inkişaf tələbatlarına uyğun gələn idarəetmə; mütərəqqi dünya təcrübəsindən yaradıcı istifadədir. Bu cür siyasət inkişaf prinsiplərinin düzgün seçilməsini, əsas istiqamətlərin və prioritetlərin müəyyənləşdirilməsini, mütəxəssislərin hazırlanması və tərbiyə edilməsini, ölkənin insan kapitalından, müasir dünyanın əsas sosial-mədəni nailiyyətlərindən səmərəli istifadəni nəzərdə tutur. Müvafiq hüquqi təminata arxalanan yaxşı düşünülmüş mədəniyyət siyasəti hadisələri, nəinki milli, həm də dünya miqyasında qabaqlamalıdır. Bütün bunlar eyni dərəcədə planetin müxtəlif xalqlarının sülh şəraitində harmonik inkişafını, mədəni çoxcəhətliliyini və maraqlarının balansını təmin etməyə xidmət edən qlobal mədəniyyət siyasətinə də aiddir.



8046

Demokratik ölkələrdə mədəniyyət siyasətinə inkişaf və rifahın artması siyasəti kimi baxılır. Belə siyasətin əsasında duran əsas motiv insan həyatının qorunub saxlanması və yaxşılaşdırılmasıdır. Bununla əlaqədar olaraq, o, xalqın sosial inkişafı üçün intellektual potensialın qabaqlayıcı inkişafını və ağıllı istifadə olunmasını, xalqın ümummədəni və həyat səviyyəsinin durmadan artmasını təmin etməlidir. Buna müvafiq olaraq, maliyyə kapitalı insanın, sosial kapitalın – insanların ruhi mədəniyyətinin inkişafına düşünülmüş şəkildə investisiya edilir. İnsanın ruhi mədəniyyətinin yüksək səviyyəsi isə öz növbəsində bütün cəmiyyətin maddi rifahının yeni artımını təmin edən "ruhi istehsalın" effektivliyinə kömək edir. O, cəmiyyətdə yüksək siyasi, istehsalat, məişət, tibbi, ekoloji, millətlərarası və dinlərarası mədəniyyət formalaşdırmağa imkan verir.

İctimai inkişafın yeni texnologiyalarının, insanların həyat tərzi və həyati təminat sistemlərinin formalaşdırılması prosesində elmin və elmi ideologiyanın rolu xeyli artır. Elmin prizmasından mədəniyyətin vəziyyəti tənqidi surətdə araşdırılır və yeni ictimai sistemin tələblərinə cavab verən ideologiyanın əsasını təşkil edən mədəniyyətin ideallarının, dəyər və normalarının – ruhi, psixoloji, estetik, siyasi - yeni imperativləri elmi surətdə işlənilir. Mütərəqqi mədəni siyasət

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

üç əsas prinsip üzərində qurulmalıdır. Birincisi – elmin, təhsilin və yüksək texnologiyaların qabaqlayıcı inkişafı üçün prioritetlər təmin edən azad intellektual–yaradıcı fəaliyyət üçün əlverişli şəraitin yaradılmasıdır. İkincisi – yeni mədəniyyətin xalq kütlələri tərəfindən qəbul edilməsinin yüksək səviyyəsini təmin edən dövlətin səmərəli maarifçilik fəaliyyətinin təşkil edilməsidir. Üçüncüsü – mütərəqqi demokratik ölkələrlə aktiv mədəni mübadilə aparılmasıdır. Bu prinsiplərin uğurla gerçəkləşdirilməsi üçün kulturoloji elm və təhsilin inkişaf etdirilməsi, kütlələrin elmi maarifləndirilməsi məqsədi ilə dünya mədəniyyəti nailiyyətlərinin, tarixi və nəzəriyyəsinin təhlili üçün kulturoloji metodologiyanın tətbiqi böyük əhəmiyyət kəsb edir. Kulturologiya vətəndaşların elmi və siyasi biliklərinin artması, praktiki imkanlarının genişlənməsi, onların həyat fəaliyyətlərinin keyfiyyətinin yüksəlməsi, ictimai münasibətlərin inkişafına müsbət təsir göstərən prinsiplər, dəyərlər və normaların təkmilləşdirilməsi üçün zəmin yaradır. Belə siyasətin səmərərəlilik meyarı vətəndaşların bütün cəmiyyətin dayanıqlı inkişafını və rifahının yüksəlməsini təmin edən sosial-aktiv fəaliyyətidir. Bu məqsədin əldə olunması bütövlükdə dünya mədəniyyətinin inkişaf təcrübəsi, qanunauyğunluqları, xüsusiyyətləri və inkişaf istiqamətləri nəzərə alınmaqla vətəndaş cəmiyyəti dəyərləri əsasında xalqın həyati tələbatları və maraqlarının ödənilməsini nəzərdə tutur.

Demokratik dövlətin mədəni siyasətinin məqsədi xalqın mədəni inkişafına yardım etməkdir. Buna görə də demokratik ölkələrdə o, vətəndaşların yaradıcı qüvvələri və bacarıqlarının inkişafı üçün əlverişli iqtisadi, təşkilati və mənəvi-psixoloji şərait yaradılmasını təmin edir. Bu cür mədəniyyət siyasəti sosial yönümlüdür və nəinki ölkə daxilində, habelə beynəlxalq miqyasda ictimai münasibətlərin plüralizm və polisentrizm əsasında harmonikləşdirilməsini təmin edir. Özünün sosial vəzifələrini yerinə yetirərək, demokratik ölkələrin mədəniyyət siyasəti cəmiyyət və dövlət kimi tarixi sosial institutların daimi inkişafı və təkmilləşdirilməsini təmin edir. Demokratik mədəniyyətin dəyərlər sisteminin təkmilləşdirilməsi yolu ilə o, ölkə vətəndaşlarının davranışının seçdikləri siyasi institutlar və demokratiya normalarına şüurlu və könüllü tabe edilməsi üçün zəmin yaradır, vətəndaş cəmiyyətinin idarə olunmasında qeyri-hökumət təşkilatları üçün geniş yol və bərabər imkanlar açır. Vətəndaş cəmiyyətlərində mədəniyyət siyasəti həmçinin ölkənin sosial-mədəni inkişafının mədəni imperativlərinin, istiqamətinin uyğunluğuna, inkişaf sürəti və prioritetlərə riayət edilməsinə sosial nəzarətin həyata keçirilməsini təmin etməlidir. Bu nəzarət həm dövlət-hüquqi və siyasi institutlar, həm də qeyri-hökumət, ictimai institutların köməyi ilə yerinə yetirilir.

Dövlət mədəniyyət siyasətinin səmərililiyi ruhi mədəniyyət sahəsinin ideoloji, texnoloji və təşkilati səviyyələrdə idarəetmə sistemlərinin səmərəliliyindən asılıdır. Əgər idarəetmənin məqsədi mədəniyyətin bütün sahələrinin ahəngdar, qarşılıqlı surətdə əlaqəli inkişafıdırsa, onda onun əsas fəaliyyət sahəsi - mədəniyyətin müasir "mənəvi istehsalın" əsas qüvvəsini təşkil edən təhsil, elm və incəsənət kimi aparıcı sosial institutlarının inkişafının koordinasiyası və tənzimlənməsidir. Bundan ötrü dövlət hüquqi, təşkilati və maddi vasitələrdən istifadə edir.

Mədəniyyətin idarə edilməsi mədəniyyətin inkişafının nəzəri modelinin kulturoloji yanaşma ilə qurulmasını və ölkənin mədəniyyət səviyyəsi barədə obyektiv məlumatın təhlili və sistemləşdirilməsi əsasında müvafiq proqramların işlənməsini də nəzərdə tutur. Mədəniyyətin idarə edilməsində üç mərkəzi problemi qeyd etmək lazımdır. Bunlardan birincisi sosial-mədəni inkişafın strateji istiqamətlərinin müəyyən edilməsi və dövlət prioritetlərinin myəyyən olunması ilə bağlıdır. İkincisi - mənəvi və maddi mədəniyyətin müxtəlif sahələri

üçün mütəxəssislərin hazırlanması və tərbiyə edilməsi, onların fəaliyyəti üçün maddi-texniki şəraitin yaradılmasıdır. Üçüncüsü mövcud mütəxəssislər və onların fəaliyyət nəticələrindən sosial-mədəni və o cümlədən iqtisadi inkişaf məqsədləri üçün səmərəli istifadə edilməsi ilə bağlıdır. Bu problemlər cəmiyyətin beş alt sisteminin: bioloji istehsal, mənəvi istehsal, maddi istehsal, təşkilatlanma və idarəetmə, ictimai münasibətlərin ahəngdar inkişafının dövlət tənzimlənməsi ilə qarşılıqlı əlaqədə həll edilməlidir. Bu kontekstdə dialektik inkişaf edən bütöv mədəniyyət orqanizmi çərçivəsində mədəniyyətin idarə edilməsində mədəniyyətin müxtəlif sosial institutlarının inkişafının koordinasiyası xüsusi əhəmiyyət kəsb edir. O, sosial-mədəni və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi intellektual potensialın prioritet inkişafı və istehsalını təmin edən investisiyaların mədəniyyətin müxtəlif sahələri üzrə düzgün paylanmasını nəzərdə tutur.

Mədəniyyətin demokratik cəmiyyətdə idarə olunması hər bir şəxsin və bütünlükdə cəmiyyətin maraqlarını nəzərə alaraq, onların ölkənin sosial-mədəni inkişafının tələbatları və qanunauyğunluqlarına müvafiq harmonikləşdirilməsini təmin etməlidir. Mədəniyyətin idarə edilməsinin əsas məqsədi özündə milli, ümumsosial və ümumbəşər dəyərlər məcmusu olan "yüksək" mədəniyyətli şəxsiyyətin formalaşmasına kömək etməkdir. Burada əsas yeri ziyalılar və bütün xalqın azad yaradıcı fəaliyyəti, vətəndaşların mədəni dəyərləri, etik normaları və mədəni standartları azad seçmələri və mənimsəmələri üçün əlverişli şəraitin yaradılmasını təmin edən monitorinq və çevik tənzimləmə, habelə mədəniyyətin inkişafı üçün maddi və hüquqi bazanın yaradılması tutur.

Demokratik idarəetmə həm də dövlət strukturları və qeyri-hökumət təşkilatlarının səylərinin ölkənin sosial-mədəni inkişafının vahid proqramı əsasında birləşdirilməsini nəzərdə tutur. Bu, dövlət strukturları ilə qeyri-hökumət təşkilatlar arasında bərabərhüquqlu əməkdaşlıq əsasında həyata keçirilir: dövlət institutları səviyyəsində "yuxarıdan" idarəetmə ("Volterə görə") qeyri-hökumət təşkilatları səviyyəsində "aşağıdan" ("Russoya görə") idarəetmə ilə tamamlanır. Qeyri-hökumət təşkilatlarına sovet mədəniyyətinin demokratik mədəniyyətə çevrilməsində, habelə cəmiyyətin sosial inkişafı və idarə edilməsində mühüm rol ayrılmışdır. Beynəlxalq fondların yardımı ilə onlar birgə kulturoloji layihələr işləməli və həyata keçirməlidir ki, bunların praktiki istifadəsi insanın sosial-mədəni həyatında xalqın yaşayış maraqlarına cavab verən keyfiyyət dəyişmələrinə gətirib çıxaracaqdır.

Keçid dövrünün müasir mərhələsində mədəniyyət siyasətinin gerçəkləşdirilməsində dövlətin rolu ziddiyyətli xarakter almışdır. Onun mədəniyyətin inkişafında təsirinin totalitar sovet quruluşu üçün xas olan ideologiyanın aparıcı rolunun azalması ilə əlaqədar zəifləməsi müşahidə olunur. Demokratik cəmiyyətin qurulması mədəniyyət sahəsinin monopolist idarə edilməsini həyata keçirən köhnə partiya-dövlət aparatının dağılmasına səbəb oldu. Marksizm-leninizmdən imtina edilməsi nəticəsində yaranan ideoloji vakuum vətəndaş cəmiyyətinin maraq və tələbatlarına cavab verən yeni qeyri-hökumət təşkilatlarının əmələ gəlməsi ilə nəticələndi. Onların arasında yüksək həyat keyfiyyətinin əldə edilməsinə istiqamətlənmiş, mədəni irslə yenilikçi dünya mədəniyyətinin sintezi əsasında "yüksək mədəniyyət"in formalaşmasını təmin edən, öz üzərlərinə liderlik rolunu götürən təşkilatlar da vardır. Lakin bu təşkilatların intellektual və yaradıcı potensialını gerçəkləşdirmə imkanları kütlələrin düşüncə stereotipləri, hal-hazırda fəaliyyət göstərən dövlətin siyasi mədəniyyətinin avtoritar amiranə-inzibati tərkib hissəsinin üstünlük təşkil etməsi ilə məhdudlaşır. Bu, ölkənin sosial-mədəni həyatının yeniləşməsinə, sovet, totalitar tipli milli mədəniyyətin demokratikləşməsinə mənfi təsir göstərir. Nəticədə bütün cəmiyyətin

real sosial-mədəni tərəqqisinin katalizatoru olan "elitar", "yüksək" mədəniyyətin ziyanına olaraq "mozaik" kütləvi mədəniyyət üstünlük təşkil edir.

Postsovet cəmiyyətlərində demokratik mədəniyyətin formalaşmasına mənfi təsir göstərən iki tendensiyanın olması müşahidə edilir. Bir tərəfdən ruhi mədəniyyət sferasının kommersiyalaşdırılması baş verir ki, bu da mədəniyyət siyasətinin qeyri-mərkəzləşdirilməsi ilə əlaqədardır. Bu, millətin intellektual inkişafı, onun dünya mədəniyyəti tarixi və müasir elmin nailiyyətləri əsasında mədəni maariflənməsi ilə bağlı olan qeyri-kommersiya sektorunun inkişafına mənfi təsir göstərir. Digər tərəfdən demokratik mədəniyyətin təşəkkül prosesi mədəniyyət sferasının amiranə-inzibati idarəetmə metodlarına hesablanmış və demokratik mədəniyyətin xüsusiyyətlərini nəzərə almayan köhnə sovet mədəniyyət idarəetmə strukturlarının üstünlük təşkil etməsinə görə tormozlanır. Vəziyyət onunla mürəkkəbləşir ki, mədəniyyət siyasəti subyektiv xarakter daşıyır, çünki kulturologiyanın elmi-nəzəri bazasına əsaslanmır. Lakin istehsalat məkanında mədəniyyət siyasətinin qeyri-mərkəzləşdirilməsi mədəniyyət sferasının təşkili və idarə edilməsinin əsas subyekti, cəmiyyətin sosial-mədəni tərəqqisinin əlaqələndiricisi və konstitusiya qarantı kimi dövlətin rolu və məsuliyyətini azaltmır.

Postsovet cəmiyyətlərinin xüsusiyyəti ondan ibarətdir ki, onların mədəniyyəti özündə müxtəlif mədəniyyətlərin çoxlu tipini cəmləşdirən çoxkomponentli sistemdir. Bunlara totalitar sovet, avtoritar-feodal, sosialist, demokratik, oliqarxik, monarxik, elita-aristokratik, adi-kütləvi, ənənəvi xalq və etnik tipləri aid etmək olar. Bununla yanaşı hər bir müasir cəmiyyətdə vəhşilik və barbarlıq dövrü mədəniyyətlərinin fəsadlarına rast gəlinir. Bu şəraitdə dövlətin mədəniyyət siyasətinin çox da asan olmayan vəzifələri bu mədəniyyətlərin vahid milli mədəniyyət çərçivəsində tənzim edilməsi və



harmonikləşdirilməsi, cəmiyyətdə demokratik mədəniyyət dəyərlərinin tədricən bərqərar olmasına yönəldilməsidir. Əsas məsələlərdən biri "yüksək" mədəniyyətə – elmi biliklərə, peşə bacarıqlarına, mütəşəkkilliyə və mənəviyyata malik sosial-aktiv insan şəxsiyyətinin formalaşdırılması üçün zəruri şəraitin yaradılmasıdır.

Bu qanunlar Azərbaycanda yeni mədəniyyət siyasətinin həyata keçirilməsini tələb edir ki, bu da sovet tipli avtoritar mədəniyyətdən demokratiyanın siyasi sistem kimi təşəkkül tapması üçün etik-normativ əsas olan demokratik mədəniyyətə keçidi təmin edir. Mədəniyyətin demokratiya prinsip və dəyərlərinə əsaslanan yeni sosial tipini formalaşdıraraq, bu cür siyasət insanın daxilən dəyişilməsi, sosial inkişaf, dövlət quruculuğu və beynəlxalq münasibətlərin mühüm problemlərinin həllini təmin edəcəkdir. İntellektual inkişaf, azadlıq və etik tərbiyə prioritetlərinə yönəldilmiş demokratik mədəniyyət siyasəti Azərbaycan mədəniyyətinin sosial dinamikasında köklü dəyişikliklərə kömək etməyə, Azərbaycan xalqının yaradıcı potensialını və onun insan, cəmiyyət və dövlətin inkişafı baxımından istifadə edilməsi imkanlarını ölçülməz dərəcədə yüksəltməyə xidmət etməlidir.

Milli mədəniyyətin demokratikləşdirilməsi – şəxsiyyətin özünü realizə etməsi, mədəniyyət nemətlərindən azad istifadə etməsi imkanlarının genişləndirilməsini, habelə mədəniyyətin vətəndaş cəmiyyəti və hüquqi dövlətin siyasi dəyərlərinə cavab verən yeni dialektik diferensiasiya və inteqrasiya proseslərinin tənzim edilməsini nəzərdə tutur. Azərbaycan Respublikasının demokratik mədəniyyətini liberalizm dəyərləri ilə Azərbaycan xalqının milli dəyərlərinin sintezi yolu ilə yaratmaq lazımdır. Bu prosesdə mühüm yeri yeni ümumsosial mədəni dəyərlər və normaların, demokratik mədəniyyətin əsasını təşkil edən ideallar, etika, təhsil sistemi, sosial, istehsalat, ekoloji, hüquqi və məişət normativlərinin, incəsənət və

maddi təcəssümlərin formalaşdırılması tutmalıdır. Ənənəvi milli və yenilikçi dünya mədəniyyətlərinin fəal qarşılıqlı təsiri Azərbaycan cəmiyyətinin mütərəqqi inkişafına kömək edəcəkdir.

Müasir Azərbaycanın mədəniyyət siyasəti mədəniyyətin təşkili və idarə edilməsində dərin struktur islahatları, ölkənin milli-mədəniyyət quruculuğunda sosial-mədəni inkişafın dünya təcrübəsinin məhsuldar istifadə edilməsini təmin etməlidir. Ölkənin mədəniyyət siyasətinin əsas vəzifəsi perspektivliliyi elmi cəhətdən əsaslandırılmış proqramlar əsasında "mənəvi istehsal" sferasının idarə edilməsinin səmərəliliyini artırmaqdır. Bu zaman nəzərə almaq lazımdır ki, vətəndaş cəmiyyətində təkcə dövlət deyil, habelə beynəlxalq normalara müvafiq olaraq cəmiyyətin təşkil və idarə edilməsi məsələlərində milli hökumətlərlə əməkdaş kimi çıxış edən qeyri-hökumət təşkilatları ilə təmsil olunan cəmiyyət də mədəniyyət siyasətinin subyektidir.

Demokratik quruculuq yoluna qədəm qoymuş ölkənin alim və siyasətçiləri müasir Azərbaycan mədəniyyətinə onun tarixi və müasir durumunun sistemli təhlili əsasında obyektiv qiymət verməlidirlər. Onlar dünya sivilizasiyası kontekstində milli mədəniyyəti tənqidi kulturoloji təhlil etməli və cəmiyyətin mədəniyyətinin dünya mədəniyyətinin inkişaf qanunlarına və dövlətin üçüncü minillikdə milli tələbatlarına müvafiq olaraq gələcək inkişafının əsasını təşkil edəcək mütərəqqi ənənələr və perspektiv meylləri seçməlidirlər.

Yuxarıda göstərilənlərə müvafiq olaraq Azərbaycan Respublikasının mədəniyyət siyasətinin ən mühüm vəzifələri bunlardır:

- Dünyaya yeni baxış formalaşdıran kulturoloji elmi əsasda bəşəriyyətin sosial-mədəni inkişaf təcrübəsi kontekstində köhnə baxış və qərarlar, adət və normaların tənqidi surətdə nəzərdən keçirilməsi;



- Avropa və dünya mədəniyyətlərinin ilk növbədə təhsil, elm, yüksək texnologiyalar sahəsində, həmçinin sosial-məişət və ekoloji mədəniyyətin mütərəqqi yeniliklərinin Azərbaycan mədəniyyətinə daim axıb gəlməsi və yaradıcı istifadə edilməsi üçün şəraitin yaradılması;
- İqtisadiyyatın inkişafı və cəmiyyətin rifahının yüksəlməsinin intellektual və etik əsası kimi "mənəvi istehsal" sferasının idarə edilməsinin səmərəliliyinin artırılması; təhsil, elm və incəsənətin inkişafının əlaqələndirilməsi;
- Sosial-iqtisadi tərəqqinin əsas hərəkətverici qüvvəsi kimi intellektual potensialın üstün inkişafı və hasil edilməsini təmin etmək məqsədi ilə mədəniyyətin müxtəlif sahələrinə investisiyaların düzgün bölüşdürülməsi;
- Ziyalıların ictimai statusu, hüquqi və sosial müdafiəsinin artırılması;
- Cəmiyyətdə sistemli kulturoloji təhsil və tərbiyəyə əsaslanan "humanitar" mədəniyyətin formalaşdırılması; mədəni identifikasiya və mədəniyyət müxtəlifliyi proseslərinin harmonikləşdirilməsi;
- Dövlətin iqtisadi və sosial siyasətinin insana doğru yönəldilməsi, əhalinin bütün təbəqələrinin biliklər və kommunikasiyalar əldə etməsinin genişləndirilməsinin, bərabər sosial-mədəni inkişafı imkanlarının təmin edilməsi;
- Liberalizm dəyərlərinin Azərbaycan xalqının mədəni dəyərləri ilə sintezi əsasında, demokratik mədəniyyətin yaranması və inkişafının monitorinq prosesi də daxil olmaqla, sovet mədəniyyətinin ardıcıl olaraq demokratik mədəniyyətə transformasiya edilməsi;
- Dövlət və qeyri-hökumət təşkilatları arasında cəmiyyətin sosial-mədəni inkişafının idarə edilməsi sahəsində bərabər hüquqlu əməkdaşlıq münasibətlərinin qurulması;

- Cəmiyyət və dövlət həyatının yüksək məhsuldar əmək, vətənpərvərlik, humanist sosial qayda, mülki hüquq, intizam və sosial məsuliyyət, vicdanlılıq və ədalətlilik, qanunilik, ali ruhi mədəniyyət prioritetləri – ağıl, bilik və etika kimi prinsiplərinin real bərqərar olması üçün mexanizmlərin işlənməsi;
- Sülh mədəniyyətinin bərqərar olması, regional və qlobal mədəni-iqtisadi əməkdaşlıq proseslərinin harmonikləşdirilməsi, demokratiyanın sülh, təhlükəsizlik və bəşəriyyətin stabil inkişafı zonası kimi genişləndirilməsinə imkan verən qlobal mədəniyyət siyasətinin vahid prinsiplərinin işlənməsinə kömək.

İnkişafın yeni sosial-mədəni texnologiyalarına yönəldilmiş və ölkənin yeni dövlət siyasətində təcəssüm olunan mütərəqqi mədəni islahatların həyata keçirilməsi demokratik ictimai münasibətləri təkmilləşdirməyə imkan verəcəkdir. O, təbii ehtiyatlardan insanın inkişafı üçün səmərəli istifadə etməyə, yoxsulluq və məşğulluq, tibbi və ekoloji mühafizə problemlərini həll etməyə, həyat keyfiyyətinin əsaslı surətdə yaxşılaşmasına və ölkənin sivil dünya birliyinə inteqrasiya olunması sürətinin artırılmasına nail olmağa imkan verəcəkdir. Bütöv, bir-birindən asılı dünyanın bir hissəsi kimi Azərbaycan Respublikası dünya sivilizasiyasının ən mədəni ölkələrindən biri ola bilər və olmalıdır, demokratiyanın bəşəriyyətin həyati maraqlarına cavab verən sülh, stabillik və inkişaf zonası kimi genişləndirilməsində öz tarixi rolunu oynaya bilər və oynamalıdır.

"Simurq" AMA-nın mədəniyyət siyasəti konsepsiyaları, bizim aldığımız elmi nəticələr və tövsiyələr demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsi, əhalinin sosioloji sorğularının yekunları və ekspert-kulturoloqların rəyləri ilə təsdiqlənir. Dünya kulturologiya fikrinin təhlili, aparıcı kulturoloqların rəyləri göstərir ki, dünyanın müasir inkişaf



mərhələsində mədəniyyət siyasətinin mühüm vəzifələri həm də mədəni kapital və mədəni ehtiyatların, mədəni müxtəlifliyin saxlanması və inkişaf etdirilməsinə yardım, ənənəvi dirçəliş prinsipindən müxtəlif xalqların müasirləşdirilməsi və harmonikləşdirilməsi prinsipinə keçid olmalıdır.

Azərbaycanda mədəniyyət siyasətinin formalaşması üçün qiymətli mənbə BMT, YUNESKO, Avropa Şurası və digər beynəlxalq təşkilatların fəaliyyət təcrübələri, habelə Rusiya, ABŞ, Yaponiya və digər dünya ölkələrinin sosial-mədəni inkişaf təcrübələridir. Bu ölkələrdə təhsilə, elm və incəsənətə "mənəvi istehsalın" əsas komponentləri kimi, şəxsiyyət və cəmiyyətin həyat təhlükəsizliyinin, onun keyfiyyətinin artırılmasının, dövlətin mənəvi və maddi rifahının yüksəlməsinin təmin edilməsinə xidmət edən vasitə kimi baxılır.

Mədəniyyətə mənəvi, maddi, intellektual və hissi elementlər kompleksi kimi, yeninin yaranması və köhnənin dəyişməsinin fasiləsiz prosesi kimi geniş baxış, demək olar ki, birinci dəfə mədəniyyət sahəsində siyasət üzrə ümumdünya konfransında (Mondiakult, Mexiko-Siti, 1982) qəbul edilmiş tərifdə öz əksini tapmışdır. Konfrans mədəniyyət və bəşəri dəyərlərə inkişafın əsas amilləri kimi baxılmasının getdikcə daha çox anlanılmasını qeyd etmişdir. Bu konfransın qərarlarına əsaslanaraq 1986-cı ildə BMT Baş Assambleyası 1988-1997-ci illərdə BMT və YUNESKO-nun himayəsi altında mədəniyyətin ümumdünya inkişaf onilliyinin keçiriləcəyini elan etdi. Mədəniyyəti daha geniş inkişaf strategiyalarına, habelə səmərəli praktiki fəaliyyət proqramlarına daxil etmək üçün mədəniyyətin inkişaf onilliyi ilə yanaşı, yaxın keçmişdə BMT və YUNESKO-da mədəniyyət və inkişaf üzrə ümumdünya komissiyası yaradılmış, sivilizasiyaların sülh və dialoq mədəniyyəti onilliyi elan edilmişdi.

Demokratik təkamülün birgə gələcəyini düşünən Avropa ölkələri mədəni siyasətə vətəndaş cəmiyyətinin inkişafının, insan hüquqlarının müdafiəsinin, dayanıqlı inkişaf üçün əhəmiyyəti baxımından plüralistik demokratiya və mədəni eyniləşdirmə imkanlarının genişləndirilməsinin mühüm aləti kimi baxırlar. Mədəniyyətə milli və beynəlxalq sosial-siyasi inkişaf və həyat keyfiyyətinə təsir edən ən mühüm amil kimi baxaraq bu ölkələrdə ruhi mədəniyyətin hərtərəfli inkişafı, cəmiyyətin mədəni səhhətinin möhkəmləndirilməsi üçün əlverişli şərait yaradırlar.

XX əsrin ikinci yarısından başlayaraq mədəniyyət siyasəti Qərb ölkələrinin fəaliyyətində tədricən mühüm yer tutmağa başlayır. Son illərdə Avropa Şurası mədəniyyət siyasətinə demokratik inkişaf siyasəti kimi ciddi diqqət yetirir. 1986-cı ildə Avropa Şurası Avropa ölkələrində geniş yayılmış "Mədəniyyət siyasətinin qısa proqramı"na başlanğıc verdi. Bu proqram mədəniyyət nazirlikləri tərəfindən milli hesabatların hazırlanmasını nəzərdə tutur. Sonra bu hesabatlar Avropa Şurasının ekspertləri tərəfindən qiymətləndirilərək tövsiyələr hazırlanır. Bu tövsiyələr məhsuldar fəaliyyət proqramının işlənilməsi məqsədi ilə Strasburqda və ayrı-ayrı ölkələrdə müzakirə edilir. 1997-ci ildə Avropa Şurasının mədəniyyət siyasəti şöbəsinin fəaliyyətini və onun hərəkətlərini yaxşılaşdırmağa xidmət edən "Mədəniyyət siyasətlərinin tədqiqi və inkişafı ittifaqı" yaradıldı. İttifaq mədəniyyət siyasəti üzrə materialların yığılması, sistemləşdirilməsi və istehsalı, onların çoxaldılaraq müxtəlif ölkələrin dövlət və qeyri-hökumət strukturları arasında yayılması ilə məşğul olur. O, müxtəlif ölkələrdə mədəniyyət siyasəti sahəsində işləyənlər üçün təmas şəbəkəsi müəyyənləşdirir. Avropada mədəniyyətin inkişafı və mədəniyyət siyasəti üzrə diskussiyaların keçirilməsi və informasiya mübadiləsi məqsədi ilə 1998-ci ildə 40-dan çox mədəniyyət şəbəkəsi və təşkilatını



özündə birləşdirən Forum yaradılmışdır. O, müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlaşma körpüləri, dostluq və sülhün qurulmasında, dünya ölkələrində demokratik mədəniyyətin inkişaf etdirilməsində mühüm rol oynayır.

Sənaye cəmiyyətindən "biliklər cəmiyyətinə" keçid zamanı, müasir dünya mədəniyyətinin tərəqqisində bir çox ölkələr üçün nisbətən yeni olan mədəni inkişafın yüksək səmərəli aləti – "İnformasiya texnologiyaları" mühüm rol oynayır. Avropa Şurasının 1997-ci il Strasburq sammitində informasiya texnologiyaları xüsusi diqqət predmeti idi. Avropa Komitəsi tərəfindən Yeni informasiya texnologiyaları üzrə Avropanın siyasəti Bəyannaməsi layihəsi hazırlanmış, Avropa Şurası tərəfindən isə qəbul edilmişdi. Layihənin məqsədi Avropa Şurası və müvafiq ölkələri informasiya cəmiyyətində səmərəli mədəniyyət siyasətinin işlənməsi üçün zəruri məlumatla təmin etməkdir.

Demokratik mədəniyyətin insan hüquqları, mədəni plüralizm və öz fikrini azad ifadə etmək kimi dəyərlərinin yayılmasındakı potensialını nəzərə alaraq, bu gün informasiya texnologiyaları Avropa Şurasının mühüm prioriteti olmuşdur. Mədəniyyətin inkişafı üçün biliklərin strateji əhəmiyyətini nəzərə alsaq, müxtəlif ölkələrdə geniş əhali təbəqələrinin beynəlxalq informasiya əldə etməsinin asanlaşdırılması çox vacib məsələdir. Müasir dünyada demokratik mədəniyyətin sosial-mədəni tərəqqisi və inkişafı üçün 1992-ci ildə Avropada başlanmış kompüter texnologiyalarının köməyi ilə kitab nəşrinin böyük əhəmiyyəti olmuşdur. Sonralar bu, rəqəmli çap və elektron nəşrlərlə zənginləşmişdir. Bu sahədə yeniliklərin tətbiqi sayəsində kitabxana və arxivlərin işində kompüter texnologiyalarının istifadə edilməsinə keçid geniş inkişaf etdi.

Avropa Şurası tərəfindən müxtəlif mədəniyyətli postsovet dövlətlərinin və onlar arasında mədəni əlaqələrin

inkişafı əhəmiyyətə malik olan mədəniyyət siyasəti üzrə güclü verilənlər bazası yaradılmışdır. Bu bazada mədəniyyətin milli, regional, yerli səviyyədə məhsuldar idarəedilməsi metodları barədə informasiya cəmlənmişdir.

Bəşəriyyətin inkişaf maraqlarına cavab verən demokratik mədəniyyət siyasətinin irəli getməsinə Avropa mədəniyyət konvensiyası da kömək edir.

Stokholmda 1998-ci ilin yazında mədəniyyət siyasəti problemləri üzrə hökumətlərarası seminarlarda hər bir ayrıca ölkənin xüsusiyyətləri nəzərə alınmaqla mədəniyyət və mədəniyyət siyasətinin vətəndaş cəmiyyətinin ümumi inkişaf strategiyasının vacib tərkib hissəsi kimi yeni, daha geniş anlayışının qəbul və tətbiq edilməsi zərurəti qeyd edilmişdir. Burada bir sıra məsələlərin vacibliyi göstərilmişdir: mədəniyyət üzrə tədbirlər; təhsil proqramlarının keçirilməsinə yardım etmək; qərar qəbul edən hakim strukturlar, habelə müxtəlif əhali qrupları arasında mədəniyyət və mədəniyyət siyasəti sahəsində ruhi mədəniyyətin sosial rolu barədə bilik səviyyəsinin artırılması üçün yeni informasiya texnologiyalarından istifadə etmək; yerli hakimiyyəti mədəniyyətin inkişaf etdirilməsi üçün xüsusi fondların ayrılmasına cəlb etmək. Göstərilmişdir ki, BMT Fondları və UNDP mədəni inkişaf və mədəniyyət siyasəti sahəsində vətəndaş cəmiyyətinin tələbatlarına cavab verən layihələrə maliyyə yardımını artırmalıdırlar.

Müasir dünyada ruhi mədəniyyətin rolu və əhəmiyyətinin artması, Azərbaycan Respublikasında onun formalaşması və reallaşdırılması üçün ölkənin milli spesifikası nəzərə alınmaqla yeni modellərin və yanaşmaların axtarılmasını tələb edir.

Bizim konsepsiyanın təsdiq edilməsinə digər sübut Soros Fondunun Budapeşt ACİ-nin maliyyə yardımı sayəsində "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsi çərçivəsində 2001-ci ilin aprelində keçirilmiş mədəniyyət və mədəniyyət siyasəti üzrə sosioloji sorğunun nəticələridir.



Assosiasiyanın əhali arasında keçirdiyi sosioloji sorğu, interaktiv kulturoloji seminar-treninqlər və ekspert sorğuları əhalinin mədəniyyəti anlamasını aşkar etməyə, mədəniyyətin sosial bazası, əhalinin müxtəlif qruplarının mədəni tələbatları və maraqları, ekspertlərin rəyi isə mədəniyyətin inkişafı, ölkənin yeni mədəniyyət siyasətinin mahiyyəti, vəzifələri, prinsipləri, əsas istiqamətləri və prioritetləri barədə təsəvvürlər almağa imkan verdi.

Tarix göstərir ki, cəmiyyətin transformasiyası həmişə ölkədə sosial-iqtisadi gərginliklə müşayiət olunur: yaşayışın iqtisadi standartlarınının dəyişməsi ilə əlaqədar respublika əhalisinin müxtəlif qrup və təbəqələrinin sosial statusunun dəyişməsi, sosial ziddiyyətlərin kəskinləşməsi, əhalinin bir hissəsinin imkanlarını reallaşdırması və tələbatlarının ödənilməsi çətinlikləri ilə müşayiət olunur. Azərbaycan cəmiyyətinin sosial qütbləşməsi, sosial-iqtisadi çətinliklər ruhi mədəniyyətə dağıdıcı təsir göstərir. Bu qanunauyğunluq "Simurq" AMA qarşısında ciddi kulturoloji təhlil üçün obyektiv ilkin məlumat almaq və dialektik çətinlikləri aşkar etmək məqsədi ilə ruhi mədəniyyət sferasının vəziyyətinin xüsusi sosioloji tədqiqat vasitəsilə öyrənilməsi vəzifəsini qoymuşdu. Belə təhlil Azərbaycanda vətəndaş cəmiyyətinin real inkişaf tələbatlarına cavab verən və ölkənin milli-tarixi xüsusiyyətlərini nəzərə alan yeni mədəniyyət siyasətinin formalaşdırılması üçün milli-təcrübi tövsiyələrin hazırlanmasına imkan yaradır.

Respondentlərdən intervü götürülməsi ilə ilk dəfə olaraq respublikada mədəniyyətin vəziyyəti barədə kompleks məlumat almaq mümkün oldu. Sosioloji sorğunun gedişində mədəniyyət fenomeninin dərk edilməsi və ona münasibət,

əhalinin mədəni fəallığı, milli özünüdərkin artması, respublikada mədəniyyətin vəziyyəti, rifah səviyyəsi ilə qane olmaq, millətlərarası münasibətlər mədəniyyətinin səviyyəsi, mədəniyyətin inkişaf etdirilməsi sahəsində dövlət və bələdiyyə orqanlarının rolu və əhəmiyyəti, yeni mədəniyyət siyasətinin dərk edilməsi və perspektivlərinin qiymətləndirilməsi kimi məsələlər öyrənilmişdir.

Mədəni inkişafın çətinlik və problemlərinin təhlili keçid dövründə ictimai-siyasi sistemin və adamların yaşayış tərzinin transformasiyası ilə şərtlənən siyasi, iqtisadi və sosial amillərlə əlaqədar ölkə əhalisinin mədəni fəallığının nəzərə çarpacaq dərəcədə aşağı düşməsini aşkar etdi. Bu, KİV materiallarının oxunması barədə ictimai rəy sorğusu ilə də təsdiq olunur. Onlar göstərdi ki, siyasi hadisələr sosial-mədəni həyat hadisələrindən daha çox maraq doğurur. Sosioloji tədqiqatın nəticələri göstərdi ki, rəyi soruşulmuşların əsas hissəsi (72%) öz həyat səviyyələrindən razı deyillər, çünki onların mənəvi-mədəni həyatına mənfi təsir göstərən ciddi maddi çətinliklərlə üzləşirlər. Onlardan 40% həm də sosial bədbinliyə qapılıb, çünki ölkədə sosial müdafiə sisteminin aşağı səviyyədə olmasını təsdiq edən rəyə görə öz həyat səviyyələrinin yaxşılaşmasına inanmırlar. Respondentlərin yalnız 13,6%-i özünü sosial cəhətdən müdafiə olunmuş hiss edirlər. Vətəndaşların tələbat və maraqlarının yeni cəmiyyətdə tam reallaşmasına onların əvvəlki, "sovet" dövründəki həyatları ilə müqayisədə iqtisadi vəziyyətlərinin pisləşməsi mane olur. Mədəni fəallığın azalması kitab, jurnal və qəzetlərin alınması səviyyəsinin, teatrlara, muzeylərə, kinoteatrlara və başqa mədəni-maarif müəssisələrinə gedənlərin sayının azalmasında özünü göstərir. Buna görə də yeni mədəniyyət siyasətinin strateji məsələlərindən biri Azərbaycan xalqının rifahının artmasına yardım etməkdir.



İctimai rəyin öyrənilməsi prosesində milli mədəniyyətin milli özünüdərk kimi tərkib hissəsi barədə maraqlı məlumat alınmışdır. Ölkədə onun yüksəlməsi bir sıra obyektiv amillə şərtlənir. Bunlar arasında cəmiyyətin demokratikləşməsi (31,68%), sovet dövründə inkişafı yaddan çıxarılmış özünəməxsus milli-mədəni ənənələrin intibahı (57,69%), islamın dini-humanistik dəyərlərinə qayıdış (44,38%), milli suverenliyin əldə edilməsi (3,85%), Ermənistan tərəfindən hərbi təcavüz ilə əlaqədar vətənpərvərlik əhval-ruhiyyəsinin yüksəlməsi (1,78%) və başqa amillər vardır. Bununla bərabər, soruşulanların xeyli hissəsi (29,2%) hesab edir ki, cəmiyyətin maddi rifah səviyyəsinin aşağı olması, effektiv maarif və mədəniyyət siyasətinin olmaması, bürokratizm və korrupsiya kimi amillərin təsirindən, mədəni-təhsil səviyyəsinin aşağı düşməsi ilə əlaqədar hal-hazırda milli özünüdərkin artması müşahidə olunmur.

Mədəniyyət siyasətinin ən mühüm istiqamətlərindən biri millətlərarası münasibətlər mədəniyyətidir. Azərbaycan ənənəvi olaraq millətlər və dinlərarası münasibətlərdə yüksək etika nümunəsi olmuş və olmaqdadır. Azərbaycanlıların yüksək tolerantlığının göstəricisi ölkədə bir çox xalq, millət, etnos və dinlərin dinc yanaşı yaşaması və sıxılmadan azad inkişaf etməsidir. Keçid dövrünün dinamik xüsusiyyət və çətinliklərini nəzərə alaraq yeni mədəniyyət siyasəti mədəni-maarif və mədəni plüralizmin imkanlarından istifadə edərək yüksək mədəniyyətin bu humanist ənənələrinin qalmasını təmin etməli, ölkədə müxtəlif mədəniyyətlərin daha da harmonikləşdirilməsinə, bu pozitiv təcrübənin inkişaf və zənginləşməsinə kömək etməlidir.

Yeni mədəniyyət siyasəti çərçivəsində dini mədəniyyətin də, o cümlədən dinlərarası münasibətlər mədəniyyətinin, dinlərin Azərbaycan ictimaiyyətinin mənəvi-mədəni inkişafı üçün harmonikləşdirilməsi və qarşılıqlı əlaqələrinin

inkişaf etdirilməsi üçün çox iş görülməlidir. Bu baxımdan istedadlı alim və ictimai xadim professor Rafiq Əliyevin rəhbərlik etdiyi Dini qurumlarla işlər üzrə Dövlət Komitəsinin yaradılması xüsusilə yerinə düşmüş perspektivli bir hadisədir.

Azərbaycanda demokratik cəmiyyət quruculuğu şəraitində mədəniyyətin köhnə, sovet konsepsiyası və strukturu ilə yeni formalaşan demokratik mədəniyyətin tələbatları arasında dialektik ziddiyyət yaranmışdır. Ölkənin sosial-mədəni inkişafını ləngidən bu ziddiyyətin həll edilməsi yalnız yeni mədəniyyət siyasətinin formalaşmasına kulturoloji elmi yanaşma əsasında mümkündür. Bu vacib həyati problemin həllinin bir sıra obyektiv və subyektiv səbəblərdən ciddi ləngiməsi nəticəsində Azərbaycan mədəniyyəti böhran vəziyyətinə düşmüşdür. Bu, sosioloji sorğunun nəticələri ilə təsdiqlənir. Sorğu göstərir ki, mədəniyyətin böhranı və onun nəticələrinin qiymətləndirilməsinə qeyri-adekvat münasibətə baxmayaraq, respondetlərin əksər hissəsi (73%) hesab edirlər ki, Azərbaycanda mədəniyyətin ümumi böhranı müşahidə olunur. Səbəblər çərçivəsində mədəniyyətin zəif maliyyələşdirilməsi (33,97%), ziyalıların – alim, mütəxəssis, müəllim və incəsənət xadimlərinin xeyli hissəsinin mühacirət etməsi (31,51%), mədəniyyətin mahiyyətinin düzgün dərk edilməməsi (27,12%), respublikada xeyli qaçqın və köçkünün olması (25,03%), səmərəli mədəniyyət siyasətinin olmaması (23,29%), aşağı əyarlı kütləvi mədəniyyətin üstünlük təşkil etməsi (22,74%) göstərilir. Bu səbəblərlə yanaşı istedadlı gənclərin yaradıcılığının inkişafı üçün zəruri şəraitin olmaması, vətəndaşların mədəniyyət sahəsində təşəbbüslərinə hakimiyyət tərəfindən zəruri köməyin olmaması, ölkədə demokratik mədəniyyətin aşağı sürətlə formalaşması, köhnə sovet mədəniyyət sisteminin fəaliyyət göstərməsi də qeyd edilmişdir. Uşaq və gənclərin tərbiyə səviyyəsinin aşağı düşməsi əhalidə xüsusi narahatlıq



doğurur. Soruşulanların əksəriyyətinin (73,15%) rəyincə əksər pozitiv norma və dəyərlərin müasir kütləvi mədəniyyətin təsirindən eroziyası ilə əlaqədar olaraq mədəniyyətin böhranı özünü respublikanın gənc nəsli arasında xeyli dərəcədə biruzə verir. Lakin ən həyacanlı simptom bütün cəmiyyətin "istehlak" etdiyi mədəniyyətin yaradıcısı və əsas hərəkətverici qüvvəsi olan ziyalıların vəziyyətinin ağırlığıdır. İqtisadi vəziyyətin pisləşməsi ilə əlaqədar ziyalıların ən yaxşı nümayəndələrinin respublikadan çıxıb getməsi mədəniyyət səviyyəsinin düşməsinə çox güclü təsir göstərir. Elitar mədəniyyətin yaradıcısı və daşıyıcısı kimi, cəmiyyətin inkişafının lideri, "beyin mərkəzi" kimi ziyalılar keçid dövrünün çətin şəraitində dövlət tərəfindən müdafiə və himayə edilməlidir.

Digər neqativ amil sistemli humanitar təhsilin səviyyəsinin aşağı düşməsidir. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, mədəniyyət böhranının əsas səbəblərindən biri hakimiyyət strukturları tərəfindən Azərbaycan ictimaiyyəti və dövlətinin sosial inkişafında kulturoloji elm və təhsilin rolunun düzgün qiymətləndirilməməsidir. "Simurq" AMA-nın bu istiqamətdə çoxsaylı səylərinə baxmayaraq, ölkədə indiyə qədər mədəniyyət sahəsində müəllim, tədqiqatçı və menecerlərin peşəkarcasına hazırlanması, xalqın ümumi mədəniyyət səviyyəsinin artırılması üçün kulturoloji təhsil və maarif sistemi yoxdur. Mədəniyyət nazirliyində kulturologiya fənni səhvən "mədəniyyətşünaslıq" adlandırılmış və onun tədrisi üçün həddən az – 18 saat ayrılmışdır, Bakı sosial idarəetmə və politologiya institutunda, habelə Pedaqoji Universitetdə 1996-cı ildə kulturologiya kafedraları bağlanmışdır. Nəzərə alsaq ki, kulturologiya biliklər sistemi barədə elmdir, onda kulturologiyaya bu cür münasibəti heç cür izah etmək və buna haqq qazandırmaq olmaz.

İndiyədək ölkədə mədəniyyət üzrə Milli Şura yaradılmamış, nə kulturoloji akademik İnstitut, nə kulturoloji

tədqiqatlar mərkəzi, nə də kulturologiya sahəsində dissertasiyaların müdafiəsi üzrə ixtisaslaşdırılmış şuralar yoxdur. 1995-ci ildə BMT-nin Azərbaycandakı nümayəndəliyinin köməyi ilə təsis olunmuş Dünya mədəniyyəti Beynəlxalq Universitetinin işləməsi üçün şərait yaradılmamışdır.

Lakin kulturologiyanın insanın inkişafı və rifahının artmasının metodoloji əsası kimi sosial rolunun yüksəlməsi kultoroloji təhsil və tədqiqatların dövlət tərəfindən himayə edilməsini, elmi-pedaqoji kadrların hazırlanmasını, xüsusi və ümumi kulturoloji maarifləndirmə sisteminin təşkil edilməsini ciddi tələb edir.

Kulturologiyanın nəinki milli ölçüdə, həm də beynəlxalq miqyasda əhəmiyyətini qiymətləndirməmək mümkün deyil. Bu, qlobalizasiya şəraiti və mütərəqqi ölkələrin sənaye cəmiyyətindən informasiya cəmiyyətinə, "bilik cəmiyyətinə" tədricən keçidi ilə əlaqədardır. Kulturologiyanın inkişafı və institusionalizasiyası problemləri Rusiya Federasiyasında Respublika EA-nın akademiki Kiril Razloqovun başçılıq etdiyi Rusiya kulturologiya institutu tərəfindən ciddi qoyulmuşdur. Bu obyektiv proses Azərbaycanda kulturoloji təhsil və elmə, elmi-pedaqoji kadrların hazırlanmasına və kulturoloji maariflənməyə dövlətin münasibətinin köklü surətdə dəyişməsini tələb edir. Respublikada kulturologiyanın elm və tədris fənni kimi fundamental problemlərinin ciddi işlənilməsi zəruridir. Onun strateji və tətbiqi əhəmiyyəti - dövlət quruculuğu və idarəetməsi, sosial-mədəni inkişafın yeni texnologiyalarının işlənməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişaf tələblərinə cavab verən elmi surətdə əsaslandırılmış mədəniyyət islahatlarının praktiki reallaşdırılmasının elmi-nəzəri bazası kimi artan əhəmiyyəti ilə izah edilir.

Kulturoloji sistemli təhlil obyektiv gerçəklik əsasında mənəvi kamillik və maddi nemətlər istehsalının tükənməz ehtiyatı kimi ruhi mədəniyyətin imkanlarını düzgün qiymətləndirməyə kömək edir, bəşəri inkişafın tarixi tələblərinə cavab verən mədəniyyətin sosial institutlarının strukturu, rolu və vəzifələrinə yeni baxışı verir. Buna görə də kulturoloji tədqiqatlar Azərbaycanda insanın inkişafının xidmətində olmalıdırlar. Kulturoloji tərbiyə, təhsil və maarif nəinki məktəbəqədər müəssisələr, məktəblər, muzey və kitabxanalar kimi mühüm institusional təhsil ocaqlarında, həm də hər bir ailədə mənəvi qida kimi tətbiq olunmalıdır. Bu problemlərin həll edilməsinə, həm də ölkənin mütəxəssis kulturoloqlarının birləşməsi və əlaqələndirilməsi üçün "Simurq" AMA-da tanınmış alim və mütəxəssislərin, o cümlədən Milli Elmlər Akademiyasının akademikləri və müxbir üzvlərini birləşdirən Azərbaycan kulturoloqlar cəmiyyəti təsis edilmişdir. Cəmiyyət kulturologiyanın bəşəri, ictimai və dövlət inkişafının vacib intellektual əsası kimi ictimaiyyət və dövlət tərəfindən tanınmasına, kulturologiyanın ölkənin strateji inkişafı və idarə edilməsinin elmi və təhsil əsası kimi institusionallaşdırılmasına kömək etməyə xidmət etməlidir. Köhnə sovet mədəniyyət sistemi ilə demokratik cəmiyyətin yeni tələbatları arasındakı obyektiv ziddiyyətlər ölkənin sosial-mədəni inkişafı prosesini ləngidərək zamanın tələbinə cavab verən mədəniyyətin yeni struktur institutlarının və mədəniyyət sferasının yeni idarəetmə formalarının yaradılmasına, mədəniyyət sahəsində mütərəqqi islahatların keçirilməsinə köməyə yönəldilmiş vətəndaş təşəbbüslərinə dövlət yardımını tələb edir. Bu istiqamətdə mühüm elmi, maarif və təcrübi əhəmiyyəti olan ciddi bir cəhd "Simurq" AMA-nın bir çox dövlət və qeyri-hökumət strukturları ilə birgə ilk dəfə həyata keçirdiyi "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" layihəsidir.

Sosial-mədəni inkişafın səmərəliliyinin yüksəldilməsi üçün mədəniyyətin düzgün anlanması problemi böyük əhəmiyyət kəsb edir. Mədəniyyətin düzgün başa düşülməməsi və bununla əlaqədar sosial-iqtisadi inkişafın əsas amili kimi ruhi

mədəniyyət və "mənəvi istehsalın" rolunun qiymətləndirilməməsi Azərbaycan ictimaiyyətində şəxsiyyətin formalaşması və harmonik inkişafına, "yüksək mədəniyyət" standartlarının təsbiq olunmasına neqativ təsir göstərir. Buna görə də "Simurq" mədəniyyət Assosiasiyası 1990-cı ildən ardıcıl olaraq ölkədə sosial-mədəni tərəqqiyə yardım edilməsinə yönəlmiş tədqiqat, təhsil-maarifləndirmə və təcrübi fəaliyyət göstərir. Bu fəaliyyət əhali arasında kulturoloji maarifləndirmə, dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi barədə kulturoloji biliklərin yayılması yolu ilə mədəniyyət fenomeninin düzgün anlayışının formalaşmasına yönəlmişdir ki, bu da xalqın ümummədəni səviyyəsinin artmasına, vətəndaş cəmiyyətinin tələbatlarına cavab verən demokratik mədəniyyətin və yeni mədəniyyət siyasətinin formalaşmasına kömək edir. Bu nəcib fəaliyyət düzgün davranış və hərəkətlərin əsası kimi təfəkkür mədəniyyətinin artmasına kömək edərək tədricən müəyyən nəticələr verir. Soruşulanların əksəriyyətinin (59,4%) mədəniyyət dedikdə mənəvi dəyərlər və etika normalarının məcmusu, həmçinin insanın mənəvi dünyası (51%) başa düşməsinə baxmayaraq, insanların şüurunda mədəniyyət haqqında təsəvvürlər getdikcə dəyişir. Belə ki, əgər 90-cı illərin əvvəlində əhalinin əksəriyyəti mədəniyyət dedikdə incsənət, folklar və etik normalar başa düşürdüsə, bu gün belə vətəndaşların sayı azalır (18,8%) və mədəniyyət altında maddi və mənəvi dəyərlərin məcmusu (21%), təhsil, tərbiyə və elm sistemi (56,6%) başa düşənlərin sayı isə artır.

İctimai şüurda bu pozitiv dəyişikliklərin möhkəmləndirilməsində KİV böyük rol oynaya bilər və oynamalıdır. KİV-in faktların və aşağı əyarlı məlumatın ictimai maraqlara zidd olan və millətin səhhətinə ziyan vuran vicdansızcasına şərh edilməsi yolu ilə kütlələrin şüur və davranışlarını idarə etmək aləti olmasına yox, dünya mədəniyyətinin elmi nailiyyətləri və tarixinə əsaslanan xalqın kulturoloji maarifləndirmə tribunası



olmasına nail olmaq lazımdır. Cəmiyyətin təhlükəsizliyindən ötrü, onlar şəxsiyyətin, dövlətin və dünya birliyinin sosial-mədəni təcrübəsindən, predmet və hadisələrin real gerçəkliyindən ayrılmış idarə olunan emosiyalara əsaslanan kütləvi mədəniyyət stereotipləri formalaşdırmaq yolu ilə insanlarla manipulyasiya etmənin dağıdıcı təsisri ilə mübarizə aparmalıdırlar.

Mədəniyyətin xalqın inkişafına təsir göstərən ən mühüm sosial institutu televiziyadır. Lakin, təəssüf ki, televiziya bu gün kütlələrin etik tərbiyəsi və elmi maarifləndirilməsi, elmi biliklərin, vətənimizin və dünya mədəniyyətinin yüksək humanist seçmə nümunələrinin çoxaldılması ocağı olmaq əvəzinə kommersiya effektinə istiqamətlənmiş aşağı əyarlı kütləvi mədəniyyətin ruporu rolunu oynayır. Mədəniyyətin bu mühüm istiqamətində mədəni-maarif fəaliyyətinin kökündən yaxşılaşdırması üçün dünya və vətənimizin əsas yolları, qanunauyğunluqları və nailiyyətlərini işıqlandıran "Dünya mədəniyyəti və Azərbaycan ictimaiyyəti" adlı xüsusi kanalın və ya verilişin təşkil edilməsi yaxşı olardı.

Mədəniyyətin idarə edilməsi aləti kimi KİV vasitəsi ilə ictimai şüurun manipulyasiya edilməsi və folklor incəsənət deyil, həyat fəaliyyəti modellərinin qurulmasına, müasir elmin, insanın sosial-mədəni inkişaf təcrübəsi və humanist dünyagörüşü əsasında gələcəyin pozitiv obrazının "maddiləşməsi"nə sistemli yanaşma olmalıdır. Bu məsələni həll etmək üçün KİV nümayəndələri yüksək dərəcədə elmi hazırlığa və sosial məsuliyyətə malik olmalıdırlar, çünki onlar kütlələrin mədəniyyətini, xalqın mentalitetini, onun dünyagörüşünü formalaşdırırlar. Bizim gələcəyimiz bu prosesin hansı istiqamətdə getməsindən çox asılıdır. Çox vacibdir ki, mətbuat fakt və hadisələrin işıqlandırılmasında müstəqil və həqiqətən obyektiv olsun, sponsorların təsiri və maraqlarından asılı olmasın. Eyni zamanda o, "obıvatelin" kütləvi alabəzək mədəniyyətinin

formalaşmasına yardım edən siyasi sensasiyalar və elmətrafı məlumatla məhdudlanmayıb, ölkəmizin əsas milli sərvəti olan yüksək mədəniyyətli şəxsiyyətin formalaşmasına, cəmiyyətdə mədəni harmoniyanın əldə edilməsinə səy göstərməlidir.

Bu, öz növbəsində xalqın ümummədəni səviyyəsinin yüksəlməsində, onun elmi dünyagörüşünün formalaşmasında, yüksək mədəni təfəkkürünün, həyat tərzi və davranışının inkişafında elmin, təhsilin və humanist ideologiyanın pozitiv rolunun gücləndirilməsini tələb edir. Belə ki, düzgün, götür-qoy edilmiş siyasi qərarların qəbulu üçün zəruri olan Azərbaycan cəmiyyətinin inkişaf qanunlarının və xüsusiyyətlərinin öyrənilməsində və ümumiləşdirilməsində alimlər, müəllimlər və mütəxəssislərin, xüsusilə müstəqil ekspert-kulturoloqlar, sosioloqlar, iqtisadçılar və politoloqların rolunun kəskin şəkildə artırılması vacibdir. Lakin belə yanaşma yalnız siyasi qərar qəbul edən bütün səviyyəli məmurlar üçün daimi fəaliyyət göstərən kulturoloji maarifləndirmə sisteminin təşkil edilməsi şərti ilə nəticə verə bilər. Dövlət tərəfindən yardım edilərsə, “Simurq“ AMA özünün onillik fəaliyyət təcrübəsinə əsaslanaraq, ölkənin rəhbər-idarəedici heyəti, habelə müxtəlif dövlət, qeyri-hökumət və biznes strukturu, MEDİA və Azərbaycan gəncləri üçün dünya mədəniyyəti və mədəniyyət siyasəti üzrə daimi fəaliyyət göstərən kulturoloji seminar-treninqlər təşkil etməyə hazırdır.

Mədəniyyət və mədəniyyət siyasətinin inkişafı üçün mədəniyyət sahəsində qanunvericilik mühüm əhəmiyyətə malikdir. 1998-ci il fevralın 6-da “Mədəniyyət haqqında“ Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə dövlət, ictimai və özəl birlik və təşkilatların, həmçinin ayrı-ayrı vətəndaşların mədəniyyət sahəsində fəaliyyətinin tənzim edilməsi üçün hüquqi baza yaradıldı.

Qanun dövlətin və bütövlükdə cəmiyyətin maraqlarının müdafiə edilməsi baxımından mədəniyyət sahəsində konkret



hüquqi münasibətlər qrupunu tənzimləyən normaları əks etdirir. Qanunda vətəndaş cəmiyyətinin tələblərinə cavab verən müddəaların nəzərdə tutulması müsbət əhəmiyyətə malikdir. Bunlara mədəniyyətlə və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqları və azadlığının müdafiəsi, mədəniyyət təşkilatlarının yaradılması və onların inkişafına kömək, mədəni fəaliyyətə dövlətin müdaxiləsinin məhdudlaşdırılması, mədəniyyət sahəsində inhisarçılığın qadağan edilməsi aiddir.

Eyni zamanda qanunun mədəniyyət haqqında Avropa konvensiyasının əsas müddəaları nəzərə alınmaqla və bu sahədə Rusiya Federasiyasının təcrübəsinə müvafiq olaraq hazırlanmasına baxmayaraq ona, bizim zənnimizcə, mədəniyyətin düzgün elmi anlayışı ilə əlaqədar əlavələrin edilməsinə ehtiyac vardır. Çox güman ki, qanunda mədəniyyətin elmi tərifini vermək və hüquqi tənzimləmə ilə yalnız ruhi mədəniyyət və “mənəvi istehsal“ sahələrinin əhatə edildiyini qeyd etmək olar.

Qanunda mədəniyyətin elmi anlayışı, “yaradıcı fəaliyyət“in tərifi olmadığına görə mədəniyyət fəaliyyəti və onların növləri həddən artıq, əsas etibarı ilə incəsənət sferası ilə məhdudlaşdırılıb ki, bu da mədəniyyətin adi təfəkkürdə yayılmış dar anlayışına uyğun gəlir. Nəticədə, mədəniyyət sahəsində dövlət sisteminə yalnız teatr-konsert müəssisələri, kitabxanalar, rəsm qalereyaları və sərgi salonları; zooparklar, akvariumlar, planetarilər, mədəni və tarixi profilli arxivlər; asudə vaxtın təşkili üzrə klub və idarələr, mədəniyyət sahəsində elmi metodiki mərkəzlər və kabinetlər, mədəniyyət və incəsənətin təbliği və yayılması üzrə təşkilatlar daxildir. Beləliklə, mədəniyyət anlayışının süni surətdə daraldılmasının şahidi oluruq. Nəticədə təhsil və tərbiyə, elm və texnologiya, informasiya, iqtisadiyyat, hüquq, din və mədəniyyətin digər sosial institutları xidmət sahəsindən kənarda qalır.

Müvafiq olaraq mədəniyyət işçisi statusu da "peşəkar yaradıcı fəaliyyətlə məşğul olan və ya mədəniyyət müəssisələrində işləyən" şəxslərlə məhdudlanmışdır.

Nəhayət, deyilənlərə onu da əlavə etmək lazımdır ki, mədəniyyət sahəsində münasibətlərin hüquqi tənzimlənməsi məsələsini daha geniş aspektdə nəzərdən keçirərkən unudulmamalıdır ki, mədəniyyət həddən artıq çoxcəhətli sahədir və ancaq "Mədəniyyət haqqında" qanunun nəzərə alınması ilə məhdudlana bilməz. Bu sahəni tənzimləyən qanunverici aktlara həmçinin "Təhsil haqqında", "Elm haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Dini məzhəblər haqqında", "İnformasiya azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və məlumatın mühafizəsi haqqında", "Kitabxana işi haqqında", "Kinematoqrafiya haqqında", "Tarixi və mədəniyyət abidələrinin qorunması haqqında", "Müəlliflik hüquqları haqqında", "Reklam haqqında", "Patent haqqında", "Turizm haqqında" qanunları da aid etmək olar. Lakin bu sahədə əsas qanun "Mədəniyyət haqqında" qanun olmalıdır və bu qanunda mədəniyyət anlayışının hərtərəfli olmasını, onun sosial fenomen kimi bütün palitrasını göstərmək, konseptual aspektlərini müəyyən etmək, mədəniyyətin bütün istiqamətləri üzrə dövlət siyasətinin əsas parametrlərini qeyd etmək lazımdır. Təsadüfi deyildir ki, BMT çərçivəsində təhsil, elm və mədəniyyət üzrə YUNESKO təşkilatı fəaliyyət göstərir. Bu üç əsas hissə mədəniyyət anlayışının minimal məzmununu müəyyən edir və hər üçü "Mədəniyyət haqqında" qanunda öz əksini tapmalı idi.

Qanunda ölkənin sosial-mədəni inkişafı üçün yaxşı əsaslar qoyulmuşdur. Lakin onlardan cəmiyyətin dialektik inkişaf qanunlarına uyğun olaraq səmərəli istifadə etmək lazımdır. Belə ki, kulturoloji təhsil haqqında, bəlkə də sosial-mədəni siyasətin elmi təminatı, mədəniyyət sferasının strukturu və idarəetmə sisteminin təkmilləşdirilməsi üçün Azərbaycanda



kulturoloji elmin inkişafı haqqında qanun və ya qanundaxili akt qəbul etmək zəruridir.

İdeologiyanın itirilməsi və mədəniyyət sahəsində dövlətin inhisarının ləğvi, bazar münasibətlərinə keçid onsuz da sovet dövründə mədəniyyətin "qalıq prinsipi" ilə aparılan dövlət maliyyələşdirməsini xeyli zəiflətmişdir. Belə bir şəraitdə mədəniyyəti onun keyfiyyəti qurban verilməklə yalnız gəlir barədə düşünən diletantların ixtiyarına vermək olmaz. Bu, mədəniyyətin tənəzzülünün artmasına gətirəcək ki, bu da öz növbəsində azərbaycan cəmiyyəti üçün, onun mənəvi sağlamlığı və mənəvi rifahı üçün heç də təhlükəsiz deyil. Biz hesab edirik ki, yaranmış şəraitdə azərbaycan mədəniyyətinin inkişafının və mədəniyyət siyasətinin formalaşmasının yeganə əsası kulturoloji elm və sistemli kulturoloji təhsil, yüksək sosial mədəniyyətə və rifaha çatmış demokratik ölkələrin sosial-mədəni inkişaf və idarəetmə təcrübələrinin öyrənilməsi və yaradıcı istifadəsidir. Bu ölkələrin təcrübəsi göstərir ki, orada özəl sektorla yanaşı dövlət də mədəniyyətin inkişafına külli miqdarda büdcə vəsaiti ayırır. Dövlət qeyri-hökumət təşkilatlarına maliyyə dəstəyi göstərir, əməkdaşlığa imkanlar yaradır, sosial-mədəni inkişaf və vətəndaş cəmiyyətinin idarə olunması ilə əlaqədar ümummilli problemlərin həllində dövlətlə qeyri-hökumət təşkilatları arasında bərabərhüquqlu tərəfdaşlığı qoruyub saxlayır. Təəssüf ki, ölkəmizdə mədəniyyətin inkişafı büdcə tərəfindən hələ də çox aşağı səviyyədə təmin olunur (ümumi milli məhsulun 0,5%-dən az), qeyri-hökumət təşkilatlarına isə dövlət tərəfindən ümumiyyətlə heç bir maliyyə köməyi göstərilmir.

Belə görünür ki, Azərbaycanda yeni mədəniyyət siyasətinin əhəmiyyətli istiqamətlərindən biri kimi mərkəzi şəhərlərlə əyalətlərin bərabərhüquqlu sosial-mədəni inkişafına, mərkəzi və yerli orqanların, dövlət və qeyri-hökumət təşkilatlarının səlahiyyətlərinin sərhədlərinin demokratik şə-

kildə təyininə və onların məhsuldar əməkdaşlığına yönəlmiş strategiya çıxış etməlidir. Bu da müxtəlif yanaşmalara yenidən baxılmasını, kulturoloji elmin tələblərinə və demokratik ölkələrin sosial-mədəni təcrübəsinə müvafiq tərzdə Mədəniyyət nazirliyinin sisteminin və struktur bölmələri şəbəkəsinin ciddi surətdə yenidən qurulmasını tələb edir. Bu problemin həllərindən biri kimi Azərbaycanın rayonlarında ölkənin əyalət regionlarında sosial-mədəni tərəqqini sürətləndirməli olan beynəlxalq standartlar yönümlü yeni demokratik mədəniyyət mərkəzlərinin yaradılmasını göstərmək olar.

Mədəniyyət siyasətinin formalaşmasında və ölkənin sosial-mədəni inkişafında yeni yerli özünüidarəetmə orqanları – bələdiyyələr vacib rol oynayacaqlar. Buna müvafiq olaraq "Simurq" AMA ölkənin bələdiyyələrinə zəruri elmi-metodik kömək göstərir və gələcəkdə də göstərəcək. Lakin bir çox başqa qeyri-hökumət təşkilatları kimi "Simurq" AMA-nın özünün fəaliyyətinin dövlət yardımına və diqqətinə ehtiyacı var. Təəssüf ki, bu barədə nikbinlik üçün bizim az əsasımız var. Assosiasiyanın on ildən bir qədər artıq müddətdə topladığı ciddi intellektual və insan potensialı, kulturologiya, maarif və praktiki fəaliyyət sahəsində elmi bilik və təcrübə Mədəniyyət nazirliyi tərəfindən istifadə olunmur. Ədalət xətrinə qeyd edək ki, 1999-cu ildən hazırki dövrə kimi Assosiasiya əməkdaşlıq və Azərbaycanda mədəniyyət siyasəti haqqında bir neçə konkret layihə ilə nazirliyə müraciət etmiş, lakin indiyə kimi hələ də cavab almamışdır. Assosiasiyanın Rəyasət heyəti nazirliyin bu cür mövqeyini qeyri-konstruktiv hesab edir və güman edir ki, sosial-mədəni inkişaf sahəsində tərəfdaşlıq münasibətlərinin alternativi yoxdur.

Digər tərəfdən mədəniyyətin səhv, dar mənada başa düşülməsi ilə əlaqədar olaraq, fikrimizcə, Mədəniyyət nazirliyinin strukturu zamanın tələblərinə və kulturoloji elmin nailiyyətlərinə cavab vermir, dünya sivilizasiyasının məntiqini



və tendensiyalarını lazımi dərəcədə nəzərə almır. Mədəniyyət nazirliyi hələ də özünün nə strukturunu, nə metodlarını, nə də fəaliyyət sahələrini əsaslı şəkildə yenidən qurmamışdır. Bu yaxınlarda Avropa Şurasının köməyi ilə son on ildə ilk dəfə Mədəniyyət nazirliyi tərəfindən "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" kitabının dərc olunması faktı bizi sevindirir. Lakin keçən il Mədəniyyət nazirliyində mədəniyyət siyasəti şöbəsinin yaradılmasının nəticəsi kimi bu kitabın meydana gəlməsini müsbət fakt kimi qeyd etməklə yanaşı tənqidi təhlili ölkənin mədəniyyət siyasəti sahəsində uğurlarına kömək etməli olan bəzi nöqsanları da hər halda qeyd etmək istərdik.

Təəssüf ki, kitab daha çox deklarativ xarakter daşıyır. O, azərbaycan kulturologiya elminin nailiyyətlərini diqqətdən kənarda qoyur, milli qeyri-hökumət təşkilatları tərəfindən ölkədə demokratik mədəniyyətin və mədəniyyət siyasətinin formalaşması sahəsində toplanmış və beynəlxalq səviyyədə tanınmış təcrübəni əks etdirmir. Kitabda bir sıra alogizmlər, mədəniyyətin qiymətləndirilməsinə qeyri-peşəkar yanaşmalar, kulturologiyanın əsasları, onun metodologiyası, mahiyyəti, mədəniyyətin və mədəniyyət siyasətinin sosial funksiyaları haqqında biliklərin zəifliyini təsdiq edən səhv tezislər vardır (məsələn, "KİV – elmi tədqiqatlar üçün etibarlı mənbədir" tamamilə səhv fikri və ya dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi haqqında elm olan kulturologiyanın incəsənət sahəsində təhsil bölməsində göstərilməsi və s.). Kitabda müəyyən informativ material verilsə də, burada mədəniyyətin və mədəniyyət siyasətinin hazırki vəziyyəti, Azərbaycan Respublikasının Mədəniyyət haqqında qanununun tənqidi təhlili, gələcək fəaliyyət planına dair tövsiyələr yoxdur. Kitabın hazırlanmasına qeyri-hökumət təşkilatlarında çalışan təcrübəli ekspert-kulturoloqların cəlb olunmasından elmi və təcrübi baxımdan, çox güman ki, kitab xeyli qazanmış olardı.

Qeyri-hökumət təşkilatları – vətəndaş cəmiyyəti qurulmasının yaxşı məktəbi və tükənməz resursudur. Ona görə də hökumət onların dövlət strukturlarının bərabərhüquqlu tərəfdaşları kimi cəmiyyətin inkişafı və idarə edilməsi prosesində, o cümlədən Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasında və həyata keçirilməsində layiqli yer tutmaları üçün zəruri şərait yaratmalıdır.

Müasir sivilizasiyalı dünyada ruhi mədəniyyətə incəsənət çərçivəsi ilə məhdudlanmayaraq, həyat yolu kimi, dövlətin mədəniyyət siyasətinə isə – inkişaf və rifah siyasəti kimi baxılır. "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının fəaliyyət konsepsiyası da mədəniyyətin yüksək missiyasına məhz bu cür baxış əsasında qurulmuşdur. Mədəniyyət nazirliyi ilə ümummilli mənafelərə uyğun olan ciddi tərəfdaşlıq əlaqələrini həyata keçirmək üçün Assosiasiya zəruri elmi-pedaqoji təcrübəyə, müasir elmi metodologiyaya yiyələnmiş və sosial-mədəni inkişaf sahəsində düzgün siyasi qərarlar qəbul etmək üçün kulturoloji tədqiqatların yerinə yetirilməsi üçün dövlət sifarişini icra edə biləcək yüksək ixtisaslı kulturoloq-ekspertlər kollektivinə malikdir. Bu, həmçinin Azərbaycanın mədəniyyət siyasətinin elmi əsaslarının, yeni kulturoloq-mütəxəssislərin – müəllimlərin, tədqiqatçıların və idarəedicilərin – hazırlanmasına da aiddir.

*Beləliklə, aparılmış təhlil respublikada zamanın tələblərinə cavab verən və ölkənin sosial-mədəni və iqtisadi tərəqqisinə yönəlmiş yeni mədəniyyət siyasətinin formalaşdırılmasına kəskin zərurət olduğunu söyləməyə əsas verir. Kulturoloji metodologiyaya əsaslanaraq yeni mədəniyyət siyasəti azərbaycan xalqının mədəniyyət kodunun intellektual inkişafa doğru, onun şüurunun və həyat tərzinin isə daha yaxşı gələcək uğrunda həyatın passiv müşahidəsindən insanın və cəmiyyətin fəal yaradıcı dəyişdirilməsinə doğru səmtlənməsinə yardım etməlidir. Mədəniyyət siyasəti sahəsində qərarlar hökumət və qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin kooperasiyası, milli və beynəlxalq təcrübənin sistemli təhlili, mütəxəssislərin və əhalinin müxtəlif kateqoriyalarının rəyinin öyrənilməsi, alim-kulturoloqların elmi ekspertizası əsasında qəbul edilməlidir.*



Azərbaycanın sosial-mədəni inkişafı maraqlarından və ehtiyaclarından, həmçinin dünya inkişaf tendensiyalarından çıxış edərək, mədəniyyət sahəsində mütərəqqi islahatların aparılmasına yönəlmiş azərbaycan cəmiyyətinin həyati maraqlarına cavab verən fəaliyyət proqramı məsələsinin müzakirəsi sizin diqqətinizə təklif olunur. Bunlara aşağıdakılar aiddir:

- Respublikada mədəniyyətdə sahəsində idarəçiliyin sisteminin və strukturunun islahatı. Hökumət, Milli Məclis nümayəndələrindən, mədəniyyət menecerləri və müstəqil kulturoloq-ekspertlərdən təşkil olunmuş mədəniyyət islahatları üzrə Milli Şura yaratmaq.
- Sovet mədəniyyət sisteminin sosial institutlarının demokratik institutlara transformasiyası. Azərbaycanın rayonlarında demokratik mədəniyyətin yeni informasiya-resurs mərkəzlərinin yaradılması.
- Mədəniyyətin düzgün elmi tərifini bilməyin zəruriliyini nəzərə almaqla Azərbaycan Respublikasının Mədəniyyət haqqında qanununa dəyişikliklər etmək.
- Məktəbəqədər müəssisələrdə, bütün səviyyələrdən olan məktəblərdə və həmçinin yaşlı əhalinin müxtəlif qrupları üçün ikinci təhsil və aktiv maarifləndirmə proqramlarının tədrisini nəzərdə tutan kulturoloji təhsil haqqında qanunun və ya qanunvericilik aktının qəbul edilməsi.
- Kulturologiyanın Ali Attestasiya Komissiyasının ixtisaslar nomenklaturasına daxil edilməsi ilə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində kulturologiya üzrə namizədlik və doktorluq dissertasiyanın müdafiəsi üçün xüsusi şuranın yaradılması.

- Azərbaycan Milli Elmlər Akademiyası tərkibində Kulturologiya institutunun yaradılması.
- Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti nəzdində Kulturoloji tədqiqatlar mərkəzi və Kulturologiya gimnaziyasının yaradılması.
- "Simurq" kulturoloji jurnalının yaradılması.
- Respublika televiziyasında əhalinin ümumi mədəni səviyyəsinin, dünya və vətən mədəniyyəti tarixi, nəzəriyyəsi və təcrübəsi sahəsində cəmiyyətin elmi biliklərinin artırılmasına yönəlmiş xüsusi "Mədəniyyət və cəmiyyət" kulturoloji maarifçilik proqramının açılması.
- Bütün səviyyədən olan dövlət qulluqçuları, qeyri-hökumət strukturları və KİV nümayəndələri üçün dünya mədəniyyət tarixi və nəzəriyyəsi və mədəniyyət siyasəti üzrə daim fəaliyyət göstərən seminar-treninqlərin təşkili.
- 1995-ci ildə Bakıda təsis edilmiş – Azərbaycan ziyalıları, BMT-nin nümayəndəliyi, müxtəlif xarici nümayəndəliklər və beynəlxalq təşkilatlar tərəfindən təqdir edilmiş Dünya mədəniyyəti beynəlxalq universitetinin açılması.
- Dünya mədəniyyəti tarixi və nəzəriyyəsi problemləri ilə məşğul olan xarici ölkə kulturoloqları, elmi-təhsil və maarifçilik mərkəzləri ilə əməkdaşlıq, kooperasiya və partnyorluğun genişləndirilməsi, kulturoloji şəbəkənin yaradılması və inkişafı.
- İnternetdən Azərbaycan mədəniyyət tarixinin xarici ölkələrdə təbliği üçün daha məhsuldar istifadə edilməsi, kulturoloji təhsilin beynəlmiləlləşdirilməsi, bu əsasda dünya mədəniyyətinin və beynəlxalq mədəniyyət siyasətinin təkmilləşdirilməsinin harmonikləşdirilməsi.

Diqqətinizə görə təşəkkür edirəm.

Yekunda icazə verin Açıq Cəmiyyət İnstitutu-Budapeştə və şəxsən professor Lidiya Varbanovaya bizim layihəyə maliyyə və mənəvi dəstəyinə görə təşəkkürümü bildirim. Biz həmçinin fəaliyyətimizə yardımına görə Norveç Krallığının Azərbaycandakı səfirliyinə, xüsusən səfir cənab Olav Berstada və səfirliyin birinci katibi cənab Steyn İversenə, "İrşad" araşdırmalar mərkəzinin direktoru professor Rafiq Əliyevə öz minnətdarlığımızı bildiririk.



## Mənbələr:

1. Promoting Cultural Resherch for Human Development. Report from three seminars. Stockholm, Sweden, 1998.
2. Кирилл Разлогов. Культурология: от социального запроса к общественному признанию. Москва, 1999.
3. Cultural Policies in Europe: a compendium of basic facts and frends. Council of Europe. Digital Druk, Frensdorf, Bonn, 2000.
4. Cultural policy in action throughout Europe. Council of Europe. Belgium, 2000.
5. Simon Mundy. Cultural policy. A short guide. Council of Europe. Germany, 2000.
6. Brinton. The Shaping of Modern Thought. N.Y., 1965.
7. Cultural Pluralism and Culture of Peace. Vilnus, Lithuanian National Comission for UNESCO, 1998.
8. European city of culture in the year 2000. Bergen,1999.
9. International conference on cultural policy research. November 10-12 – 1999, Bergen, Norway.
10. La culture au coer. Contribution a la reflexion sur la culture et le development en Europe. Strasburg, Conseil de L'Europe,1997.
11. La culture au coer. Contribution au debat sur la culture et le development en Europe. Strasburg, Conseil de L'Europe,1998.

12. Politiqe culturelle: vingt et un enjeux strategiques. Unite de Recherche et de Development sur les Politiques Culturelles. Strasburg, Conseil de L'Europe,1999.
13. Redgin D. Culture and the Croud. Philadelphia, 1965.
14. Vers une qestion culturelle integree: pratiques et politiques. Unite de Recherche et de Development surles Politiques Culturelles. Strasburg, Conseil de L'Europe,1999.
15. Williams R. Culture and Sosiety. L., 1968.
16. Культурная политика в Азербайджанской Республике. Министерство культуры Азербайджанской Республики. Баку, 2001.
17. Архив Ассоциации культуры Азербайджана «Симург». Материалы культурологических исследований за 1990-2000 гг.
18. Архив Ассоциации культуры Азербайджана «Симург». Материалы социологического исследования по проекту «Содействие формированию новой культурной политики в Азербайджане». Баку, 2001.
19. Архив Ассоциации культуры Азербайджана «Симург». Материалы культурологических семинаров-тренингов «Партнерство в культурной политике». Баку, 2001.

Məruzənin hazırlanması üçün həmçinin İNTERNET-dən, "Высшее образование в Европе", "Курьер ЮНЕСКО", "International Politik", "Deutschland", "Свободный Китай", "Тренд", "Возрождение - XXI век", "Tarix və onun problemləri", "Təhsil", "Qanun", "Dirçəliş-XXIəsr", "İpək yolu" jurnallarından istifadə olunmuşdur.



Şəkil 1

**DÜNYA SİVİLİZASİYASI PİRAMİDASI**

Mənəvi kamillik və rifah



Şəkil 2

## MƏDƏNİYYƏT VƏ CƏMİYYƏT
## MƏDƏNİYYƏT VƏ SİVİLİZASİYA






Şəkil 3

## Mədəni qeyribərabərlik

- *İnsanın*

- həyat fəaliyyətinin müxtəlif sahələrində (təhsil, elm, incəsənət, ustalıq, etika dilləri bilmək və s.) insanın bilik, bacarıq, mütəşəkkillik və mənəviyyat səviyyəsi ilə bağlı sosial ölçü;

- *Ölkənin*

- kənd, region, şəhər, həmçinin fərdlərin sosial-mədəni inkişaf səviyyəsinin müxtəlifliyi ilə əlaqədar sosial-coğrafi ölçü.

- *Dünya birliyinin*

- kontinent, region, ölkə, xalq, millət və etnosların sosial-mədəni inkişaf səviyyəsinin müxtəlifliyi ilə bağlı sosio-coğrafi ölçü.

Şəkil 4

# MƏDƏNİYYƏTİN BÜTÖV SOSİAL SİSTEM KİMİ İDARƏ EDİLMƏSİ






Şəkil 5

# MƏDƏNİYYƏT ANLAYIŞI

- Dar (adi)

- **Mədəniyyət dar və adi anlamda -** incəsənət, folklor, etik normalar.

- **Kontekstual anlamda mədəniyyət** - hər hansı bir hadisənin və ya insanın özünün inkişaf səviyyəsinin keyfiyyət xarakteristikasıdır. Bu mənada insan, millət, cəmiyyət və ya bütövlükdə bəşəriyyətin həyat fəaliyyətinin müxtəlif sahələrinə nəzərən istifadə edilə bilər.

- **Elmi anlamda mədəniyyət** - triadadır: təbiətin, insanın özünün və cəmiyyətin dərk edilməsi və dəyişdirilməsi; nəticədə yaranmış mənəvi və maddi dəyərlər və normalar, habelə onların istehsalı, saxlanması, istifadə edilməsi və translyasiyası (ötürülməsi) üsullarıdır (texnologiyalarıdır).

Şəkil 6

# MÜASİR CƏMİYYƏTİN MƏDƏNİYYƏTİNİN STRUKTURU

- Təhsil və tərbiyə
- Elm və texnologiya
- İncəsənət
- İqtisadiyyat
- Hüquq, təşkiletmə və idarəetmə
- İnformasiya, mətbuat, turizm
- Həyat tərzi, dil, mədəni irs
- Səhiyyə, ekologiya və digər həyat təminatı sistemləri
- İdeologiya
- Din
- Etika
- Daxili siyasət və beynəlxalq münasibətlər



Şəkil 7

# MƏDƏNİ İNSAN DÜSTURU

**1. Bilik**

➢ *Mühüm mənbələri - təhsil və elm*

**2. Bacarıq – həyat fəaliyyəti vərdişləri və texnologiyaları**

➢ *Mühüm mənbəyi - təcrübə*

**3. Mütəşəkkillik**

- qayda və intizama bağlılıq
- sosial məsuliyyət
- iradə

**4. Pozitiv mənəviyyat**

- humanizm
- məhəbbət
- vicdanlılıq
- həqiqətə bağlılıq
- ədalət
- xeyirxahlıq
- inam
- vətənpərvərlik

➢ *Mühüm mənbəyi - tərbiyə*

Şəkil 8

# MƏDƏNİ İNKİŞAFIN BEŞ AMİLİ

1. **Təbii-coğrafi şərait**
2. **Bioloji kod**
3. **Sosial mühit ***
4. **Tarixi şərait**
5. **Mədəni mübadilə**

❖ *Sosial mühit*

| ibarətdir: | asılıdır: |
|---|---|
| ❑ Ailədən | |
| ❑ Kollektivdən | **Dövlətin siyasi** |
| ❑ Cəmiyyətdən | **sistemindən** |

27 iyun 2001-ci il





## Azərbaycanda mədəniyyət siyasəti. Reallıqlar və perspektivlər

Azərbaycanda müstəqil cəmiyyətin qurulması siyasi, sosial-iqtisadi, təhsil, hüquq və s. bu kimi sferalarda çoxlu sayda reformalarla müşayiət olunmuşdur. Reformaların elan olunması maksimum əlverişli şərait rejimini, dövlət büdcəsindən əlavə maliyyələşdirilməni, böyük beynəlxalq təşkilatlar tərəfindən əhəmiyyətli kömək göstərilməsini nəzərdə tuturdu. Mədəniyyət rəsmi surətdə islahat sahəsi elan edilmədiyinə görə, nəticədə hər hansı bir imtiyazdan məhrum olmuşdur. Lakin deklarasiyalar olunmadan da burada həm yuxarıdan və həm də aşağıdan dəyişikliklər baş vermişdir.

Bu dəyişikliklərin mahiyyəti nədir? Onların həyata keçirilmə mexanizmi necədir? Onların həyata keçirilmə dinamikası necədir? Onların həyata keçirilməsinə cəmiyyətin hansı təbəqələri cəlb olunmuşdur? Qarşısına Azərbaycanın mədəniyyət siyasətinin inkişafının bu günü və prespektivlərini dərk etmək məqsədi qoymuş hər bir kəsdə belə suallar doğur. Etiraf etmək lazımdır ki, mədəniyyət siyasəti anlayışı özü həm Azərbaycanda, həm də bütün dünyada nisbətən yeni anlayışdır. Mədəniyyət siyasətinin bir elm kimi əsasını qoyanlardan biri Fransanın əfsanəvi mədəniyyət naziri, gözəl fransız yazıçısı Andre Malro olmuşdur. 60-cı illərin fransız cəmiyyətində mədəniyyət haqqında yeni anlayışın, onun inkişafının strategiyasının, cəmiyyətdə yeni rolunun formalaşdırılması ona nəsib olmuşdur. Şübhəsiz ki, bu ideyalar cəmiyyətin özünün belə dəyişikliklərə həvəsini, hazırlığını və istəyini əks etdirirdi.

Bu gün biz əminliklə deyə bilərik ki, bizim ölkədə də belə zərurət yetişmişdir. Mədəniyyətin təkcə mənəvi deyil, həm də sosial inkişaf üçün çox güclü faktor olmasını, onun

beynəlxalq münasibətlər qurulmasında, millətlərarası konfliktlərin qarşısının alınmasında önəmli rolunu ildən ilə daha çox adam dərk edir.

Azərbaycanda dövlətin mədəniyyət siyasətinin planlaşdırılması və reallaşdırılması məsələləri aşağıdakıları nəzərdə tutan çoxsəviyyəli sistem vasitəsilə həyata keçirilir:

- Parlamentin mədəniyyətin qanunverici əsasını təşkil edən mədəniyyət məsələləri üzrə daimi komissiyası və sosial qanunvericilik şöbəsi;
- Prezident Aparatının mədəni quruculuğun startegiya və taktikasını işləyib hazırlayan humanitar siyasət şöbəsi;
- Nazirlər Kabinetinin Azərbaycan Respublikasının dövlət büdcəsinin tərtibi və dövlətin sosial proqramlarının həyata keçirilməsini təmin edən elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsi;
- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi: birləşdirici mərkəz rolunu oynayaraq yuxarıda göstərilən bütün funksiyaları özündə cəmləşdirir, rəhbərlik edir, konkret realizasiyaları həyata keçirir və dövlət mədəniyyət siyasətinin həyata keçirilməsinə bilavasitə nəzarət edir;
- Nazirliyin Kollegiyası: məşvərətçi və məsləhətçi orqandır.

Bu sistemlərdən ən mobil xarakterlisi nazirliyin strukturlarıdır ki, onlar da son zamanlar aktiv quruluş dəyişkənliyinə məruz qalır. Belə ki, məsələn, 2000-ci ildə Abidələrin qorunması üzrə dövlət komitəsinin ləğvindən sonra onun funksiyaları yenidən yaradılmış abidələrin mühafizəsi, bərpası və istifadəsi idarəsinə verilmiş və bu idarə Mədəniyyət Nazirliyinin tərkibinə daxil edilmişdir.

2000-ci ilin avqust ayında mədəniyyət naziri Polad Bülbüloğlunun təşəbbüsü ilə mədəniyyət siyasəti adlı tamamilə yeni şöbə yaradılmışdır ki, bu şöbə də mədəniyyətin strateji planlaşdırılması məsələlərini, milli və beynəlxalq proqramların işlənib hazırlanmasını, UNESCO, Avropa Şurası, İSESCO, Britaniya Şurası və digər beynəlxalq təşkilatlarla daimi əlaqədə olmaqla inteqrasiya siyasəti həyata keçirir. Təşkilati və idarəetmə mədəniyyəti sahəsində axırıncı ən əhəmiyyətli dəyişiklik "Azərkinovideo" istehsal birliyinin Mədəniyyət Nazirliyinə verilməsi olmuşdur.



Bu sahəyə az-çox yaxın olan kənar müşahidəçidə sual əmələ gələ bilər ki, mərkəzdənqaçma ideyalarının bu qədər populyar olduğu zamanda "Azərkinovideo" və Abidələrin mühafizəsi komitəsi kimi böyük təşkilatların bir yerə yığılmasının nə mənası ola bilər? Məsələni maliyyə tərəfini bir tərəfə qoyaraq, mədəniyyətin strateji planlaşdırılması nöqteyi-nəzərindən birləşdirilmənin mənası vardır.

Mədəni irsin mühafizəsi Azərbaycanın başlıca milli prioritetlərindəndir. Bir sıra xarici ölkələrdə irs anlayışına dörd mövqe daxil edilir - tarix və memarlıq abidələri, muzeylər, kitabxanalar və arxivlər. Bizim ölkəmizdə arxivlər Mədəniyyət Nazirliyi çərçivəsindən kənardır. Ancaq Abidələrin qorunması üzrə komitənin Mədəniyyət Nazirliyinə verilməsi mədəni irsin mühafizəsi sahəsində vahid siyasətin qurulması üçün münbit şərait yaradır. Belə ki, məsələn, heç kəsə sirr deyil ki, kitabxanalarımızın, muzeylərimizin, bərpa emalatxanalarımızın texniki təchizatı mükəmməllikdən çox uzaqdır. Biz həm də, təəssüf ki, vahid mədəni irs verilənlər bazasının yaradılması üçün lazım olan texniki vəsitələrə malik deyilik. Bununla əlaqədar bizə elə gəlir ki, bütövlükdə irsin mühafizəsi sisteminin müasirləşdirilməsi və ola bilsin ki, reformasiyası üçün məqsədli proqramın yaradılması çox faydalı olardı.

Mədəniyyət Nazirliyi Milli Kitabxananın, Gənclər Kitabxanasının və Korlar üçün kitabxananın modernləşdirilməsi üçün proqram hazırlamışdır. Hal-hazırda muzey sistemin-

də tətbiq edilmək üçün informasiya və kommunikasiya texnologiyaları proqramı üzərində iş gedir. Bu sahədə xarici dilləri və kompüter texnologiyalarını bilən kadrların hazırlanması, müasir bərpa mərkəzinin yaradılması məsələləri çox kəskin durur.

Digər heç də az önəmli olmayan məsələ – yaradıcılığa və bütün incəsənət sahəsində yaradıcı xadimlərə olan qayğı məsələsidir. Musiqi, təsviri və dekorativ tətbiqi incəsənət, teatr və kino vahid yaradıcı prosesin müxtəlif üzləridir. Bunun nəticəsində də, bu incəsənət növlərinin təşkili və idarə olunması, qanunvericilik və maliyyə təminatı sahəsində burada, şübhəsiz, ümumi platforma mövcuddur. Bilirsiniz ki, sovet dövründə çoxşaxəli yaradıcılıq sistemlərinin əsası qoyulmuşdur. Bunların vasitəsi ilə dövlət öz himayəsində olanların "ruhi sağlamlığına" nəzarət edirdi. Digər tərəfdən etiraf etmək lazımdır ki, yaradıcılıq ittifaqları maddi, sosial və peşəkar həvəsləndirmələrin ötürücüsü rolunu oynayırdı. Mədəniyyət Nazirliyinin incəsənət əsərlərinin yaradıcılıq ittifaqlarından satın alması sistemi olduqca təsirli sistem idi. Formal olaraq bu sistemlər ləğv edilməsə də, onlar maddi və sosial kömək mənbəyi kimi öz funksiyalarını itirirlər. Yeni kömək forması kimi ayrı-ayrı yaradıcılıq qruplarına Respublika Prezidentinin fərmanı ilə dövlət yardımının verilməsini, Dövlət simfonik orkestri işçilərinin əmək haqlarının artırılmasını, yaradıcı xadimlərə fərdi təqaüdlərin verilməsini, adı Qırmızı kitaba daxil edilmiş gənc istedadlara prezident təqaüdünün təqdim edilməsini, Azərbaycan Dövlət Akademik opera və balet teatrının balet truppasının sosial təminatının yaxşılaşdırılmasını, gənc yazıçı və şairlərə təqaüdlər verilməsini, xor kapellası artistlərinin əmək haqlarının artırılmasını göstərmək olar. Hal-hazırda Mədəniyyət Nazirliyi Milli Məclislə birlikdə bütün mədəniyyət işçilərinin sosial müdafiəsinin əsasını təşkil



edəcək "Yaradıcı xadimlərin statusu haqqında" qanun layihəsi hazırlayır.

Dövlət mədəniyyətin qanunvericilik təminatına böyük diqqət yetirir. Müstəqilliyin elan olunmasından sonra Azərbaycanda fəal qanun yaradıcılığı işi başlanmışdır. 1991-ci ildən başlayaraq mədəni fəaliyyətin müxtəlif sahələrinə aid 19 qanun qəbul edilmişdir. Hal-hazırda Yaradıcı xadimlərin statusu, teatr, televiziya haqqında qanunlar işlənir. Biz ümid edirik ki, Milli Məclis tezliklə xüsusi kapitalın mədəniyyət sferasına cəlb edilməsinə kömək edəcək "Sponsorluq haqqında" qanun qəbul edəcək.

Dövlətin mədəniyyət siyasətində önəmli istiqamətlərdən biri də beynəlxalq münasibətlər sahəsidir. Burada da başqa sahələrdə olduğu kimi əhəmiyyətli dəyişikliklər baş verir. Başqa ölkələrlə ənənəvi əməkdaşlıq formaları - ayrı-ayrı artistlərin və kollektivlərin qastrol səfərlərinin təşkili, teatr truppalarının qarşılıqlı səfərləri, mədəniyyət günlərin keçirilməsi və digər bu kimi formalarla yanaşı Azərbaycanın beynəlxalq görüşlərdə, yığıncıqlarda, konfranslarda və seminarlarda iştirakı da genişlənir.

Son illərdə Azərbaycan bir sıra beynəlxalq konvensiyalara da qoşulmuşdur ki, onların arasında aşağıdakıları göstərmək olar:

- Silahlı konfliktlər zamanı mədəni sərvətlərin qorunması haqqında UNESCO konvensiyası;
- İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt;
- Dünya mədəni və təbii irsinin mühafizəsi haqqında UNESCO-nun konvensiyası;
- Mədəniyyət haqqında Avropa konvensiyası;
- Arxeoloji irsin qorunması haqqında Avropa konvensiyası;

- Mədəni sərvətlərin gətirilməsi, ölkədən çıxarılması və başqasına verilməsi hüququnun qadağan olunması və qarşısının alınması konvensiyası.

Azərbaycan UNESCO, Avropa Şurası, İSESCO və digər başqa beynəlxalq təhkilatlarla sıx əməkdaşlıq edir. Yaxşı məlumdur ki, "İçəri şəhər" memarlıq kompleksi bu yaxınlarda Dünya mədəni irsi siyahısına daxil edilmişdir ki, bu siyahıda da cəmi 690 obyekt vardır. Buna nail olmaq üçün yerli və beynəlxalq ekspertlər gərgin və səbrlə iş aparmalı olmuşlar.

2000-ci ilin axırında Mədəniyyət Nazirliyinin mədəniyyət siyasəti şöbəsi "Avropada mədəniyyət siyasəti: əsas faktların xülasəsi və tendensiyalar" adlı birgə layihəni başa çatdırmışdır. Azərbaycanın mədəniyyət siyasəti üzrə xülasəsi Bonn mədəniyyət siyasəti və müqayisəli tədqiqatlar institutunun saytında yerləşdirilmişdir. 2000-ci ilin sonunda Strasburqda Avropa Şurasının mədəniyyət üzrə komitəsinin xüsusi iclasında üç Cənubi Qafqaz respublikasının mədəniyyət nazirlərinin görüşü keçirilmişdir. Görüşdə bu ölkələrin yeni mədəniyyət siyasətinə kömək və onu inkişaf etdirmək üçün STAGE regional proqramı təqdim olunmuşdur. Bu proqramın ən mühüm mərhələlərindən biri mədəniyyət siyasəti üzrə milli məruzənin yazılmasıdır ki, bunun da əsas ideyası müxtəlif mədəniyyət sahələrinin tam açılması, mədəniyyət siyasətinin əsas tendensiyalarının aşkar olunması, onun nailiyyətlərinin və çatışmamazlıqlarının qiymətləndirilməsindən ibarətdir.

Hal-hazırda Mədəniyyət Nazirliyinin mədəniyyət şöbəsi "Azərbaycanda mədəniyyət sənayesi: müasir vəziyyət və inkişaf perspektivləri" layihəsini həyata keçirir. Bu layihənin yerinə yetirilməsi Açıq Cəmiyyət İnstitutunun köməyi sayəsində mümkün olmuşdur. Bu təşkilatla dövlət strukturlarının əməkdaşlığı yeni dövrün daha bir əlamətidir.

Müasir Azərbaycanın mədəniyyət siyasətinin prioritet istiqamətlərindən biri də qeyri-hökumət təşkilatları ilə işdir.



Bu gün üçüncü sektorun geniş hərəkətə gəlməsini nəzərə almadan mədəni inkişafın dövlət strategiyasının planlaşdırılması praktiki olaraq mümkün deyil. Qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın tərəfdaşlıq münasibətlərinin zəruriliyinin dərk edilməsi heç də həmişə istədiyimiz qədər dinamik olmur. Ancaq hətta ən konservativ dairələr belə vətəndaş cəmiyyəti qurulması üçün bütün tərəflərin harmoniya və balansına çatmaq zərurətini başa düşməyə bilməzlər. Bu konfransın belə yüksək səviyyədə, dövlət sektorunun nümayəndələrinin, diplomatik dairələrin, elmi ictimaiyyətin cəlb edilməsi ilə keçirilməsi bunu tam aydınlığı ilə təsdiq edir.

Təəssüf ki, qısa bir çıxışda mədəniyyət sahəsində dövlət siyasətinin bütün istiqamətlərini şərh etmək çox çətindir. Baxdığımız məsələlərdən başqa etnomədəni cəmiyyətlər problemi, təhsil və kadrların hazırlanması, yeni texnologiyaların tətbiq olunması, mədəniyyət üzrə sosioloji xidmət institutu, statistik verilənlər bazası və bir çox başqa problemlərə toxunulmadı. Lakin biz "mədəniyyətin idarə olunmasında dövlətin rolu nədir və ümumiyyətlə mədəniyyət kimi incə materiyanı idarə etmək mümkündürmü?" əbədi sualına cavab vermək iddiasında deyildik. Bizim məqsədimiz Azərbaycanın müasir mədəniyyət siyasətinin dövlət prioritetləri və onların milli mədəniyyətin dinamikləşdirilməsi problemində rolunu təsvir etməkdən ibarət idi.

## Mədəniyyət siyasəti və Azərbaycan xalqının mədəni irsi

Mədəniyyət siyasəti və bu sahədə mədəni irsdən, keçmişin mədəniyyətindən istifadə etmək həm nəzəri, həm də praktiki məsələdir. Bu amil çoxcəhətli xarakter daşıyır və müxtəlif funksiyaları yerinə yetirir. Əslində bu, mədəniyyətin öz təbiətindən doğur. Mədəniyyətə insanın yaradıcı-dəyişdirici fəaliyyəti kimi baxmaq lazımdır. O, bütün maddi və ruhani sərvətlərin məcmusudur. İnsan bu sərvətləri yaradır və onlardan istifadə edir. Biz burada bütün, maddi və ruhani sözlərini təsadüfən vuruğulamışıq. Bunu şüurlu surətdə, bilərəkdən etmişik və məsələnin mahiyyəti də məhz bundadır. Təəssüf ki, çoxları bunu anlamır və mədəniyyətə məhdud sahə kimi, yalnız ədəbiyyat və incəsənət kimi baxırlar. Məhz belə anlama təşkilati sahədə də özünü göstərir. Keçmiş SSRİ məkanında, indi isə MDB ölkələrində mədəniyyət nazirliyi, mədəniyyət işləri, mədəniyyət sahəsi dedikdə, əsasən ədəbiyyat və incəsənəti nəzərdə tuturlar. Bəs maddi mədəniyyət?! Bəs digər müxtəlif mənəvi, ruhani sərvətlər?!

Mədəniyyət adaptasiya, idrak, informasiya, kommunikasiya, tərbiyə funksiyalarını, habelə normativ, humanitar, etik, siyasi və estetik xarakter daşıyan funksiyaları yerinə yetirir. Özü də mədəniyyətdə ənənələr və novatorluq, irs və müasirlik, zamanların əlaqəsi özünü göstərir. Mədəniyyətdə milli və ümumbəşəri olanlar öz əksini tapır.

Dünya mədəniyyəti və ayrı-ayrı milli mədəniyyətlər birlik, vəhdət təşkil edir. Odur ki, mədəniyyət sahəsində düzgün siyasət yeritmək üçün bütün bunları nəzərə almaq lazımdır.



Obrazlı əmək, dünəni unutmaq, bu günlə məşğul ol, gələcəyi də düşün. Zira hər şeydə keçmişin qalıqları, indinin əsası, gələcəyin isə rüşeymləri olur.

Deyək ki, bu gün astronomiyadan, astrofizikadan və kosmonavtikadan danışan Nəsrəddin Tusinin cədvəlini, Kopernikin heliosentrik nəzəriyyəsini, Nyutonun ümumi cazibə qanununu bilməklə yanaşı müasir kosmonavtikanın əldə etdiyi nailiyyətləri də bilməli, kosmosun fəthində gələcək nailiyyətləri də indidən düşünməlidir.

Deyək ki, bu gün musiqimizdən danışan muğamlarla, təsniflərlə, xalq mahnıları ilə yanaşı müasir estrada musiqisini, caz musiqisini, udla, qaqunla, tarla, kamanla, sazla yanaşı müasir elektron musiqisindən, sintezatordan da baş çıxarmalıdır.

Digər sahələrdə də həmçinin. Xülasə, mədəniyyət siyasətində hərtərəfli, geniş, əslində universal düşünməli, yeni nailiyyətlərlə yanaşı keçmiş uğurlardan da istifadə etmək lazımdır.

Mədəniyyət siyasəti cəmiyyət həyatının geniş, özü də çox mühüm sahələrini əhatə edir. Burada son dərəcə ehtiyatlı, diqqətli, çevik, yaradıcı olmaq, yüz ölçüb, min ölçüb bir biçmək lazımdır. Xırda və keçici hisslərə qapılmaq, düşünülməmiş, tələsik hərəkətlər etmək yalnız zərər verə bilər. Xüsusən kütləvi mədəniyyətdə, kütləvi informasiya vasitələrində, məişət və gündəlik həyat məsələlərində buna ciddi fikir vermək lazımdır.

Məlumdur ki, xüsusi isimləri, artıq dildə vətəndaşlıq hüququ qazanmış söz və ifadələri orijinalda olduğu kimi saxlamaq, tərcümə etmədən işlətmək lazımdır. Rus dilində çıxan "Bakinski raboçi" qəzetini elə Azərbaycan dilində də olduğu kimi saxlamaq, yəni "Bakinski raboçi" demək lazımdır. Və ya "Mirovaya ekonomika", "Nauka i jizn", "Voprosı filosofii", "Voprosı istorii" və s. jurnalların adlarını da, keçmiş SSRİ-də

Mərkəzi televiziyanın, indi isə ORT kanalının "Vremya" verilişini, Rusiyanın "Vesti" verilişini tərcümə edib "Zaman", "Xəbərlər" və ya Azərbaycan televiziyasının rus dilində olan "Den" verilişini "Gün" adlandırmaq lüzumsuz söz-söhbətə səbəb ola bilər. Vaxtilə Kirovun, Şaumyanın və ya onlar kimi bizə düşmən münasibət bəsləmiş, çirkin əməlli zərərli şəxsiyyətlərin tamamilə yersiz, haqsız olaraq adlarını daşımış obyektlərdən onların adının silinməsi son dərəcə doğru, haqlı, ədalətli və lazımlı işdir. Amma Puşkinin, Qorkinin, Tolstoyun və digər ölməz klassiklərin adını daşımış kiçik bir obyektdən (məktəbdən, kitabxanadan, küçədən və s.) onların adının götürülməsinə heç bir ehtiyac yoxdur və burada tələsikliyə yol vermək, xəta etmək yalnız zərər verə bilər.

Tarixi təcrübə, əsrlərin, minillərin sınağı, istər qədim, istər orta əsrlər, istərsə də yeni tarix, xüsusən XVIII-XX əsrlərin hadisələri göstərir ki, mədəniyyətin, mədəni irsin, onlara münasibətin, mədəniyyət sahəsində aparılan siyasətin dövlət üçün, onun tərəqqisi, nailiyyətləri üçün müstəsna əhəmiyyəti vardır. Öz etnik mədəniyyətinə, xalqının mədəni irsinə, milli mədəniyyətə, həm də digər xalqların mədəniyyətinə, dünya mədəniyyətinin əldə etdiyi təcrübə və nailiyyətlərə əsaslanan dövlət, onun başçıları uğurlar əldə edir və əksinə, bunlara xor baxan, qiymətləndirməyən, birtərəfli qəddar millətçilik edən, digər milli mədəniyyətləri isə sıxışdıran, əzən, məhv edən hakimlər nəhayətdə məğlub olur, tarix səhnəsindən rüsvayçılıqla gedir, lənətlənirlər.

Bir neçə fakt və nümunə göstərək. Qədim dövrdə imperiya yaratmış, uğurlu müharibələr aparmış Makedoniyalı İsgəndər elmə, fəlsəfəyə, ədəbiyyata, incəsənətə (xülasə, mədəniyyətə) ciddi fikir verir, görkəmli alim, mütəfəkkir və sənətkarları öz ətrafına toplayırdı.



Orta əsrlərdə əmir Teymur, Hüseyn Bayqara, Babur, Türkiyədə Sultan Səlim, Süleyman Qanuni, bizdə Atabəylər, xüsusən Şah İsmayıl, Rusiyada I Pyotr, II Yekaterina da belə hərəkət edirdilər.

XX əsrə müraciət edək. Lenin, Stalin kimi şəxsiyyətlərin və onların yaratdıqları Kommunist partiyasının, Sovet dövlətinin siyasəti, fəaliyyəti, o cümlədən mədəniyyət siyasəti özünün ikili xarakteri, ziddiyyətli olması ilə seçilir. Bir yandan millətlərin bərabərlik hüququndan, müqəddaratlarını həll etmək hüququndan danışan, rus və dünya klassiklərinin bir çoxuna qiymət verən Lenin digər tərəfdən də milli mədəniyyətləri iki yerə bölür, bir millətdə iki millətdən, bir milli mədəniyyətdə iki milli mədəniyyətin olmasından danışır, onları qarşı-qarşıya qoyur, hər vəchlə mədəniyyətə bir tərəfli siyasi don geydirir, "sinfi", "partiyalı" sayır, "yeni proletar mədəniyyətini", "burjua mədəniyyətinə" qarşı qoyur, mədəniyyət sahəsində də zora əsaslanırdı. Lev Tolstoy kimi dahini "rus inqilabının güzgüsü" adlandırır, "Tolstoy və proletar mübarizəsi"ndən danışır, "purişkoviçlərin, quçkovların velikorus mədəniyyəti"ni Çernışevski və Plexanovun velikorus mədəniyyətinə qarşı qoyurdu.

Nəticədə də sovet hakimiyyəti gələn kimi bolşevik rəqibindən çəkinən yüzlərlə, minlərlə ziyalı, görkəmli elm və mədəniyyət xadimləri xaricə, mühacirətə getdi və ya Pasternakın "Doktor Jivaqo"da dediyi kimi məhv oldu.

Stalin də onun yolu ilə gedib belə hərəkət etdi. Millətləri iki cür millətə: "burjua" və "sosialist" millətlərinə bölən Stalin bir yandan SSRİ-dəki milli mədəniyyətlərlə maraqlanır, onların az-çox qayğısına qalır, digər yandan da milli mədəniyyətləri amansızcasına əzirdi. Sovetlər dövründə milli respublikalarda, o cümlədən bizdə də Elmlər Akademiyası, neçə-neçə

ali məktəblər yarandı, xeyli sayda ziyalılar yetişdirildi, ana dilində ədəbiyyat buraxıldı, milli mədəniyyət inkişaf etdi və s. Biz, ardımızca digər Şərq respublikaları latın əlifbasına keçdi, Moskvada milli mədəniyyətlərin dekadaları, müxtəlif aylıqlar, həftəliklər, festivallar, müsabiqələr keçirildi və digər tədbirlər oldu. Stalin dahi Nizamidən "Azərbaycan şairi" kimi danışdı, "Koroğlu" operasına, Üzeyir bəyə, Səməd Vurğuna yüksək qiymət verdi və s.

Amma, elə onun da göstərişi və əməlləri sayəsində kütləvi repressiyalar keçirildi, minlərlə milli ziyalı, görkəmli elm və mədəniyyət xadimləri məhv edildi. Azərbaycan xalqı dahi Cavidini, Müşfiqini, Simurğunu, neçə-neçə şair, yazıçı, alim, aktyor, rəssam, müəllim, mühəndis, siyasi və ictimai xadimini itirdi. Mədəniyyətimizin ölməz dühaları olan M.Ə.Rəsulzadə, Əlibəy Hüseynzadə, Əhməd Ağa oğlu "xalq düşmənləri" – "burjuaziyanın sayıq nökərləri" elan edildi. Bu hələ harasıdır? Büsbütün, ellikcə, bütün xalqımızın sürgün edilməsi təhlükəsi yarandı və bu baş tuta bilərdi. Necə ki, Krım tatarları, qaraçaylar, balkarlar, noqaylar, kalmıklar barəsində baş tutdu. 3 milyondan artıq adam, bütöv millət və xalqlar doğma yerlərindən sürgün edildilər, muxtar respublikalar, muxtar vilayətlər ləğv edildi. Biz azərbaycanlıların da dəfələrlə xüsusən Ermənistandan deportasiyaları oldu.

Açıq-aydın ruslaşdırma siyasəti kobudcasına həyata keçirilirdi. 1939-40-cı dərs ilində latın əlifbasından kiril (əslində rus, elə bu cür adlandırırdılar) əlifbasına keçildi. Hələ neçə il əvvəl qədim mədəniyyət mərkəzimiz, Nizami vətəni Gəncə "Kirovabad" oldu, yeganə milli universitetimiz, Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ilk ali məktəbimiz də onun adını daşıdı. Başqa iki ali məktəbimiz də. Neçə-neçə rayon, küçə, meydan, sənaye, kənd təsərrüfatı, təhsil, mədəni-



maarif, tibb müəssisəsi də. Sanki "kirovlaşma" baş verdi. Qəddar düşmənimiz Stepan Şaumyan barəsində də belə oldu. Üç rayon, o cümlədən Dağlıq Qarabağın mərkəzi Xankəndi bu mənfur düşmənin adını daşıdı. Hər ikisinə Bakıda möhtəşəm heykəllər qoyuldu. Mikoyanların, borayanların təşəbbüs və səyi nəticəsində milli-azadlıq hərəkatı olan Şamil hərəkatı mürtəce hadisə, antirus hadisəsi kimi pislənildi, ölməz xalq eposumuz olan "Dədə-Qorqud" yasaq edildi.

O vaxt (30-cu - 40-cı illər) Bakı inzibati bölgü baxımından 17 rayondan ibarət idi. Yalnız biri (Əzizbəyov) müstəsna olmaqla hamısı qeyri-milli adlar daşıyırdı: Lenin, Stalin, Kirov, Orconikidze, Şaumyan, Kaqanoviç, Caparidze, Oktyabr, Fioletov, Artyom və s. Amma, işləri çətinə düşdükdə, ağır vəziyyətlər baş verdikdə bolşeviklər milli şüarlara əl atır, milli irsdən, milli mədəniyyətdən danışır, onlardan istifadə edirdilər. Böyük Vətən müharibəsi illərində, xüsusən sovetlərin məğlubiyyətlərə uğradığı ilk iki ildə Stalin xalqı, xüsusən rusları alman faşizminə qarşı ölüm-dirim mübarizəsinə çağırarkən Aleksandr Nevski, Dmitri Donskoy, Kuzma Minin, Dmitri Pojarski, Aleksandr Suvorov, Mixail Kutuzov kimi sərkərdələrlə yanaşı rus mədəniyyətinin Puşkin, Tolstoy, Qorki, Çexov, Qlinka, Çaykovski, Repin, Surikov, Seçenev, Pavlov kimi mədəniyyət və elm xadimlərinin, görkəmli dühaların adlarını çəkir, faşistlərin rus, ukrayna, digər slavyan, sovet xalqlarının mədəniyyətini vəhşicəsinə dağıtmasından, almanlaşdırma siyasəti yürütməsindən danışırdı. Bəli, həqiqətdə belə idi. Alman faşistləri işğal etdikləri yerlərdə milli mədəniyyət abidələrini vəhşicəsinə dağıdır, talan edir, təhqiramiz hərəkətlər edirdilər. Xüsusən də, Sovet İttifaqının işğal olunmuş yerlərində. Onlar Peterqofun ecazkar fontanlarını dağıtmış, məşhur "Samson" heykəlini söküb aparmış (indiyə kimi

tapılmayıb, indi yerində olan orijinal deyil, surətidir), Rusiyada Mixaylovskoyeni, Yasnaya Polyananı, Ukraynada Kapevi dağıtmış, təhqir etmişdilər. Alman faşizminin bu mənfur hərəkətləri xalqların nifrət və qəzəbinə səbəb olmuşdur.

Qabaqcıl siyasi xadimlər, realist düşünən, mədəniyyətin qədrini bilən dövlət başçıları isə, əksinə, mədəniyyət abidələrinə, ocaqlarına dərin hörmət bəsləyir, bunu aydın bildirirlər. Məsələn, Fransa Prezidenti Valeri Jiskar Destyen SSRİ-yə səfərini Yasnaya Polyanadan başlamış, Tolstoyun qəbrin ziyarət etmişdi. Yeri gəlmişkən deyək ki, vaxtilə SSRİ-yə, indi isə Rusiyaya gələn xarici ölkə başçıları çox vaxt Puşkinin, Tolstoyun adları ilə bağlı olan yerlərə gedir, Peterburqda "Rus muzeyi"ni, "Ermitaj"ı ziyarət edir, Rusiyanın mədəniyyəti ilə, keçmiş irsi ilə maraqlanırlar.

Bu sahədə təbliğatın, ənənələr yaratmağın da mühüm rolu var. Bu xeyli dərəcədə bizim özümüzdən də asılıdır. Çalışmalıyıq ki, Bakıya, Azərbaycana gələn qonaqlar "İçərişəhər"ə getsin, "Qız qalası"nı, "Şirvanşahlar sarayı"nı, Suraxanıda "Atəşgah"ı, Bakıda görkəmli şəxsiyyətlərin ev və ya mənzil-muzeyini, Gəncəyə gedib dahi Nizaminin məqbərəsini, Naxçıvana gedənlər Möminəxatun məqbərəsini, Cavid xatirə kompleksini, Şəkidə olanlar Xan sarayını ziyarət etsinlər. Belə olur, amma bunu möhkəm ənənəyə çevirmək bizim özümüzdən də asılıdır.

Bayaq Stalinin ikili münasibətindən danışdım, təqiblər və zorakılıqla yanaşı bəzi müsbət hərəkətlərindən, milli mədəniyyət məsələlərində az-çox diqqətli olmasından danışdım. Zira o, az saylı millətdən çıxdığından, milli məsələ ilə hələ inqilabdan əvvəl də xeyli məşğul olduğundan millət məsələsini bilirdi. Ondan sonra hakimiyyətə gəlmiş Xruşov isə bu sahədə də özünün avamlığı, savadsızlığı, naşılığı ilə seçi-



lirdi. Əgər Stalin Nizamidən dahi şair kimi danışmışsa, Xruşov Nizami barədə heç nə bilmirdi, heç adını da eşitməmişdi. İran şahı ilə olan söhbəti buna sübutdur.

Hazırda MDB ölkələrini nəzərdən keçirək. Möhtərəm Prezidentimiz istər sovetlər vaxtı və istərsə də indi, müstəqillik şəraitində milli mədəniyyətimizə daim diqqət yetirir, böyük qayğı göstərir və onun inkişafını təmin edir. Onun milli mədəniyyət, bu sahədə kadrlar barədə böyük qayğısı (yubileylər, mükafatlar, böyük tədbirlər keçirməsi və s.) hamıya məlumdur.

Bunu Nursultan Nazarbayev, İslam Kərimov, 2000-ci ildən Rusiya Prezidenti olan Vladimir Putin haqqında da demək olar. Onlar mədəniyyət siyasətini uğurla həyata keçirir, mədəniyyətin inkişafı qayğısına qalırlar.

Azərbaycanda səriştəsiz, rəhbərlik işində heç bir təcrübəsi olmayan adamların hakimiyyəti dövründə mədəniyyət sahəsində qətiyyən düzgün aparılmayan, zərərli və təhlükəli siyasətin şahidi olduq. Onlar M.F.Axundov, A.Bakıxanov kimi Azərbaycan xalqı üçün ölməz tarixi işlər görmüş ulu şəxsiyyətlərin və habelə neçə-neçə görkəmli elm və mədəniyyət xadimlərinin fəaliyyətini bəyənmir, pisləyir, onların kitablardan, dərsliklərdən, tədrisdən çıxarılmasını təklif edirdilər. "Arqumentləri" də bu idi ki. "onlar Rusiyanın xidmətində olmuş, ruslara qulluq etmişlər". Elmlər Akademiyasını bağlamaq, neçə-neçə elm və mədəniyyət müəssisəsini ləğv etmək istəyirdilər.

"Mədəniyyətin siyasəti", "siyasi mədəniyyət" və "mədəniyyət siyasəti" anlayışlarını qarışdırmaq, eyniləşdirmək olmaz, onları fərqləndirmək lazımdır. XX əsrin italyan filosofu Norbert Babbionun (1909-cu ildə anadan olmuş, əsərləri əsasən əsrin ortalarında Turində nəşr olunmuşdur) yaradıcılığı baxımından bu vacibdir. Liberalizm tərəfdarı olan Babbio siyasi

mübarizəni gücləndirməyi, kəskinləşdirməyi ziyalıların vəzifəsi sayırdı. Ziyalıların siyasi fəaliyyətini o "mədəniyyətin siyasəti" hesab edirdi və onu "mədəni siyasət"ə qarşı qoyurdu. Bu, partiyaların mənafeyinə uyğun gəlir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hər il 31 dekabr – Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə dünya azərbaycanlılarına etdiyi ənənəvi Müraciətlərində və bu il "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına Müraciəti"ndə müstəqillikdən, Azərbaycan dövlətçiliyindən, siyasi məsələlərdən, vətənpərvərlikdən danışarkən xalqımızın mədəniyyət və elm sahəsində yetişdirdiyi ölməz dühaların adlarını çəkir, onların görkəmli dövlət xadimləri kimi bu işdə misilsiz rol oynadıqlarını qeyd edir. Adım çəkdiyimiz yeni Müraciətdə "Dədə-Qorqud"un, dahilərimiz Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələtdin Xaqani, Xətib Təbrizi, İmaməddin Nəsimi, Məhəmməd Füzuli kimi bədii korifeylər, Səfməddin Urməvi, Əcəmi Naxçıvani, Sultan Məhəmməd kimi mədəniyyət xadimləri, Nəsirəddin Tusi, Əbülhəsən Bəhmənyar, Şihabətin surətləri kimi alim və mütəfəkkirlər, Cavanşir və Babək kimi sərkərdələr, Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl kimi dövlət xadimləri qeyd olunur. Mirzə Fətəli, Sabir, Mirzə Cəlil kimi dühaların, Üzeyir bəy Hacıbəyov kimi dahi bəstəkarın, Əlibəy Hüseynzadənin, Əhməd Ağa oğlunun, Əhməd Cavadın, Hüseyn Cavidin xidmətləri qeyd edilir.

Ümumiyyətlə zəngin təcrübəyə, səriştəyə, dövlətçilik müdrikliyinə malik olan Prezidentimiz mədəniyyət siyasətinə xüsusi fikir verir, mədəniyyəti, elmi, siyasətdən, dövlət işlərindən ayırmır, onların vəhdətinə əsaslanır.



*Solmina Dadaşova*
*Огтај Султанов*

## Kulturologiya mədəniyyət siyasətinin metodoloji əsası kimi

Azərbaycanda demokratik cəmiyyətin və hüquqi dövlətin qurulması şəraitində kulturologiyanın elm və tədris fənni kimi rolu artır. Bilik sistemi kimi kulturologiya təkcə insanın həyat fəaliyyəti haqqında tarixi və nəzəri biliklərin universal mənbəyi olmamışdır. O, eləcə də dövlət quruculuğu və idarəetmənin metodoloji əsası kimi vacib praktiki əhəmiyyət kəsb etmişdir.

Kulturologiyanın dəyəri ondadır ki, mədəniyyət nəzəriyyəsi və tarixi qədim zamanlardan hazırki günlərədək bəşəriyyətin sosial-mədəni inkişafının əsas mərhələləri və qanunauyğunluqlarının öyrənilməsinə imkan verir. Kulturologiya müxtəlif irq, xalq, etnos və millətlərin inkişaf etdiyi təbii-coğrafi, bioloji, sosial və tarixi şəraitlərin dərk edilməsi və başa düşülməsi üçün vasitədir. O, müxtəlif xalqların həyat tərzi, ənənələri, dinləri, psixologiyası, sosial təcrübəsi xüsusiyyətlərini meydana çıxarır, müxtəlif ictimai-siyasi sistemlərin üstünlüyünü və çatışmamazlığını, cəmiyyətin və dövlətin inkişafının təşkili və idarəedilməsi üsullarını göstərir. Adları çəkilmiş imkanlar hesabına kulturologiya indi Azərbaycanın dövlət mədəniyyət siyasətinin vacib metodoloji əsası olaraq qalır. Kulturoloji biliklər olmadan, kulturoloji tədqiqatlarsız, Azərbaycanın üçüncü minillikdə milli-mədəni inkişafının kulturoloji proqram və layihələri işlənmədən bütün səviyyələrdə dövlət idarəetmə sitemi effektiv ola bilməz.

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının və Azərbaycan Dövlət Mədəniyyət Universitetinin həyata keçirdiyi kulturologiya sahəsindəki məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə həm respublikada, həm də xaricdə razılıq hissi ilə qəbul edilmiş müəyyən nailiyyətlər əldə edilmişdir. Bununla bərabər kulturologiya elm və tədris fənni kimi hələ də Azərbaycanda institutlaşmayıb və zamanın tələblərindən geri qalır. Bunun səbəblərindən biri mədəniyyətin bizim cəmiyyətdə düzgün başa düşülməməsi və bununla da əlaqədar – kulturologiyanın mədəniyyət haqqında elm və insan inkişafının metodoloji əsası kimi başa düşülməməsi və qiymətləndirilməməsidir. Görünür bu problemi həll etmək üçün dövlət və qeyri-hökumət təşkilatlarının birgə məqsədyönlü fəaliyyəti vacibdir. Bu tələbatdan irəli gələrək 2000-ci ilin sentyabrında keçirilmiş "SİMURQ" Azərbaycan Mədəniyyət Assosiasiyasının üçüncü qurultayı Azərbaycan Kulturoloqlar Cəmiyyətini təsis etmişdir. Cəmiyyətin üzvləri məşhur alimlər, Milli Elmlər Akademiyasının üzvləri, kafedra müdirləri və ali məktəblərin professor və müəllimləri, elmi işçilərdir. Bu cəmiyyətə eləcə də mədəniyyət menecerləri, siyasi qərarlar qəbul edən idarəetmə sahəsinin məmurları da qəbul olunacaq. Belə birgə fəaliyyət dünya kulturoloji elm və təcrübəsinin nailiyyətlərinə əsaslanaraq Azərbaycanın yeni mədəniyyət siyasətini formalaşdırmaq və həyata keçirmək imkanı verəcək. Bu, Azərbaycan cəmiyyəti və dövlətinin inkişafı üçün tamamilə yeni imkanlar açan kulturologiyanın elm və tədris fənni kimi möhkəmlənməsinə, ölkəmizin qloballaşma şəraitində dünya mədəni cəmiyyətinə qovuşmasına kömək edəcək.

Lap yaxınlarda - 2001-ci ilin 6 iyununda Kulturoloqlar Cəmiyyəti ilk dəfə bir sıra ən vacib sualları müzakirə etmişdir. Milli maraqlarımıza və Rusiya Federasiyası, eləcə də digər



ölkələrdə kulturologiyanın inkişaf təcrübəsinə əsaslanaraq insan, cəmiyyət və dövlətin metodoloji əsası kimi kulturologiyanın rolu haqqında, qloballaşma şəraitində onun milli və beynəlxalq əhəmiyyəti, kulturoloji təhsil və tədqiqatlara dövlət dayağının vacibliyi haqqında, elmi-pedaqoji kadrların hazırlanması və kulturoloji maarif məsələlərinə baxılmışdır. Cəmiyyət kulturologiyanın elm və tədris fənni kimi institutlaşmasına yardım edilməsinə istiqamətlənmiş qərar qəbul etmişdir. Bu qərar kulturoloji təhsil və tədqiqatlara, Azərbaycanda elmi-pedaqoji kadrların hazırlanmasına və kulturoloji maarifə dövlət yardımında köklü çevrilişə nail olunmasına istiqamətlənmişdir. Söhbət mədəni islahatlar üzrə Milli Şuranın, kulturologiya üzrə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə xüsusiləşdirilmiş şuranın, Elmlər Akademiyası tərkibində Kulturologiya İnstitutunun, Kulturoloji gimnaziyanın, Beynəlxalq Dünya Mədəniyyəti Universitetinin, yeni kafedralar və kulturoloji tədqiqatlar mərkəzlərinin və zamanın tələbinə cavab verən digər strukturların yaradılmasının zəruriliyindən gedir.

Kulturoloqlar Cəmiyyəti, Azərbaycan Mədəniyyət Assosiasiyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ümid edirlər ki, bizim vətəndaş təşəbbüslərimiz Azərbaycan hökuməti və hazırki beynəlxalq konfrans tərəfindən bəyəniləcək. Bu, ölkəmizin canlanma və inkişaf maraqlarına cavab verən, azərbaycan xalqının rifahını və təhlükəsizliyini artıran effektiv mədəniyyət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə imkan verəcək.

## Mədəniyyət - qloballaşma, "üçüncü təbiət" sisteminin təşəkkül tapması və cəmiyyətin sosial dəyərlərinin transformasiyası şəraitində

Mədəniyyət anlayışının təriflərinin böyük əksəriyyəti insan zəkasının, adamların aramsız fəaliyyətinin "vəhşi təbitə", onun cilovlanmayan mühitinə "qəhrəmancasına" qarşı durmasını əks etdirməklə özündə pozitiv, əsasən müsbət məna daşıyır. Köhnə dəyərlərin təftiş edildiyi, daşlaşmış stereotiplərin dağıdıldığı bizim əsrimizdə mədəniyyət ətrafında yaranan anlam və təfsirə ilə bağlı xürafatlara da yenidən baxma zamanı çatmışdır. Get-gedə artan qlobal və sosial ekologiya problemləri yığımı göstərir ki, mədəniyyət, daha dəqiq desək onun bir neçə yüz il şahlıq edən tipi bəşəriyyət üçün təhlükə doğuran çoxsaylı fəlakətlərlə birbaşa əlaqədədir. Mədəniyyət çoxdan öz ilkin mənası olan "torpağın emalı" kimi başa düşülən çərçivədən çıxıb başqalaşmış və bitməz surətdə davam edən "Yerin emalı" olmuşdur. Bu gün indiyə kimi görünməmiş bir dərəcədə "özündən sonra səhra" qoyub gedən (K.Marks) bu tip mədəniyyətin neqativ nəticələri görünür.

Özünün inkişaf məntiqi olan formalaşmış sistem kimi mədəniyyət ağrılı artım, enmə və anormal inkişaf mərhələlərini keçirə bilir və keçirir. Belə tənəzzül edən mədəniyyət tipi bu gün ekoloji şüurdan əlavə feminizmin və genderin nümayəndələri tərəfindən kəskin tənqidə məruz qalır. Bizim planetin ən müxtəlif guşələrində bərqərar olmuş mədəniyyət tipi müşahidə olunan fərqlərə baxmayaraq, feminizm tərəfindən qüvvə, mübarizə və praqmatik rasionalizmin müstəsna maskulin dəyərlərinə əsaslanmış patriarxal hal kimi təyin olunur. Bu dünyagörüşü, mədəniyyətin bu tipi bəşəriyyəti əvvəllər artıq yönəltmiş, indi isə çıxılmaz tarixi dalana salmaqdadır. Mədəniyyət dəyərlərinin oriyentirinin dəyişməsi məcburiyyət qarşısında özündə qadın tolerantlığı, intuisiyası, təbiətə yaxınlığı və məhəbbəti cəmləşdirən, istər qadına qarşı, istərsə də təbiətə qarşı kişi aqqressivliyini rədd edən ekofeminizm kimi mürəkkəb dünyagörüşü sistemini bəşəriyyət tərəfindən inkişaf etdirir.



Hər halda mədəniyyətə "ikinci təbiət" kimi tərif vermək düzgündür. Doğrudur ki, insan özünün ikinci-təbiətdən sonra – süni yaşayış mühitini yaratmışdır. Buna görə də mədəniyyəti insanın, cəmiyyətin, etnosun və ya xalqın həyat tərzi kimi başa düşmək olar. Ancaq həyat tərzi – həm də, ümumbəşəri mədəniyyət təcrübəsi üçün bilavasitə dəyərə malik olan yaşama, sağ qalma tərzi, üsuludur. Üzümüzə gələn qloballaşma dövrü pozitiv anlardan başqa, bəşəriyyət ən həyat qabiliyyətli "ekoloji təmiz" həyat mədəniyyəti tipini aydın edənə qədər bu təcrübənin yoxa çıxma qorxusunu özündə daşıyır.

Bəşəriyyət diqqətlə izləməlidir ki, qloballaşma prosesi ayrı-ayrı xalqların mədəni inkişaf kontekstində indi necə təsir edir və proses necə getməlidir. Unifikasiya prosesi, mədəniyyətlər arasında fərqlərin qəti silinməsi labüd olaraq baş verəcəkmi? Dillərin müxtəlif çeşidliyinin yox olub getməsi, vahid ünsiyyət dili və mədəniyyətin təşəkkül tapmasının bu prosesi qabaqlaması həqiqətən vacibdirmi? Bəşəriyyət vahid mədəniyyət standartlarına gələcəkmi və bu halda nə itirilə bilər? Görünür ki, bu və başqa az kəskin olmayan problemlər mütləq müxtəlif xalqların mədəniyyətlərinin həyati vacib komponentlərinin saxlanması yolları haqqında sual qaldıracaqdır, xüsusən onlardan bu problemləri sərbəst həll etmək imkanından məhrum olanlar bu sualı qaldıracaqlar.

Bununla əlaqədar olaraq dünya mədəniyyətinə müraciət etdikdə biz hansı mənzərəni görə bilərik. Dünya mədəniyyəti sözsüz milli və sivilizasiyalı mədəniyyətləri özünə mənimsəyir. Ancaq bu seleksiyanın mexanizmi və onun xarakteri indiyə qədər detallıqla aydınlaşdırılmamışdır. Dünya mədəniyyətinin müasir mənzərəsinin təbiəti necədir? O, Qərb

mərkəzlidirmi və aqressivdirmi? Bir sıra xalqların mədəni təcrübələrinin bütöv blokları və layları ondan kənarda qalırmı? Bu mənzərə kim tərəfindən və necə formalaşdırılır?

Cəmisi iki misal göstərək. Qərb mənəvi təfəkkürü (əslində – mədəni paradiqma) inadla təkid etməkdə davam edir ki, onun bünövrəsini iudey – xristian ənənələri təşkil edir. Halbuki o özü Qərbə üçüncü avraamatik ənənələr vasitəsilə – islamla, ərəb, müsəlman mənəvi təfəkkürü ilə verilmişdir. İkinci misal daha dramatikdir və mədəniyyətin keçirdiyi radikal transformasiya ilə əlaqədardır. Kütləvi informasiya vasitələrinin təcrübəsi göstərir ki, inadlı nümayişlər vasitəsilə və ya əksinə – bu və ya digər faktlara, hadisələrə və proseslərə saymazlıq göstərməklə, ictimai fikirdə sərfəli stereotiplər yaratmaqla onu nəzarətdə saxlamaq və istiqamətləndirmək olar. Dünya informasiya vasitələrinin köməyindən məhrum olan bir çox ölkələr sadəcə nəzər sahəsindən yox olur və nəticədə onların "mövcudluğu" dayanır. Azərbaycan dəfələrlə özü üçün "aydınaşdırıb" ki, onun haqqında dünyada praktiki olaraq heç nə məlum deyil.

Mədəniyyət "ikinci təbiətin" formalaşdırılmasını yekunlaşdırıb – informasiya inqilabı sayəsində inkişaf edən "üçüncü təbiətin" formalaşdırılmasına keçmişdir. Praktiki olaraq artıq hamıya aydındır ki, "ikinci təbiət" çərçivəsində yaranmış standartlar və həyat tərzini informasiya inqilabı kəskin surətdə dəyişir. Düşüncə tərzi dəyişir, haçansa lazım olan biliklərə yiyələnmək (ən sadə misal – vurma cədvəlini bilmək) insanın audio-vizual informasiyadan və texnikadan asılılığını artıraraq mənasını itirir. Mədəniyyət hələ yadında saxlayır ki, onun inkişafının iki yolu mövcuddur: birinci, insanın gücünü texnikanın inkişafı hesabına artırmaq və insanın problemlərini "onun çiyinlərinə qoymaq" ("Qərb yolu"); ikincisi, insanın gücünü ölçülməz dərəcədə artırmağa kömək edən onun özünün psixofiziki və mental qabiliyyətlərinin inkişaf etdirilməsi ("Şərq yolu"). Lakin bu iki yolun inteqrasiyası üçün vasitələr tapmaq əvəzinə mədəniyyət ardıcıl olaraq



ikinci yoldan azad olur. Məgər təəcüblənmək lazımdırmı ki, müasir insan öz mental qabiliyyətinin cəmisi 6-10%-dən istifadə edir?! Mədəniyyət üçün nə daha vacibdir – kamil bir kompüter yaratmaq, yoxsa insanı elə inkişaf etdirmək ki, onun bu maşını yaratmağa ehtiyacı qalmasın?

Mədəniyyətin qlobal problemlərindən regional problemlərinə keçək. Postsovet respublikalarda yuxarıda qeyd olunan proseslər cəmiyyətin sosiomədəni dəyərlərinin ümumi transformasiyası ilə paralel gedir. Bu da mədəniyyətin dinamikasının ümumi mənzərəsini xeyli mürəkkəbləşdirir. Dövlətin bu sosial münasibətlər sahəsində münasibətlərin tənzimlənməsindən müvəqqəti (və ya daimi) imtinası fonunda mədəniyyətdə köhnə və yeni dəyərlərin paradoksal dolaşması baş verir. Mədəniyyət mənəviyyatın ümummilli formasının təzahürü kimi mövcudluğunu dayandırır. O, artıq vahid dəyərlər sistemi ilə bağlanmayan müxtəlif hissələrə parçalanır. Mədəniyyətin müxtəlif hissələrinin liderlərinin və autsayderlərinin seçilməsi kriterisi onların nə dərəcədə müvəffəqiyyətli kommersiyalaşması və kapitallaşmasıdır. Kütləvi mədəniyyət yalandan özünü ümumiyyətlə mədəniyyət kimi, milli mədəniyyət kimi qələmə verir. Bununla əlaqədar olaraq ən populyar kütləvi informasiya vasitəsində - televiziyada "dəyərlərin" radikal dəyişməsinə diqqət yetirmək kifayətdir.

Hətta ən firavan dövlətlərdə də mədəniyyətin müdafiəsi üsulu kimi onun dövlət tərəfindən dotasiya edilməsindən başqa bir şey hələ fikirləşilib tapılmamışdır. Postsovet ölkələrində indiyə qədər mədəniyyətin "qalıq maliyyələşdirilməsi" sovet prinsipi qalmışdır: dövlət büdcəsinin bütün maddələri üzrə vəsait ayrıldıqdan sonra yerdə qalan məbləğlər mədəniyyətə verilir. Aydındır ki, nə "qalır" və niyə milli mədəniyyət bu vəziyyətdədir. Halbuki öz üzərinə mədəniyyətin müdafiəsi və inkişafı vəzifəsini götürmüş və eyni zamanda dünya mədəniyyət bazarına can atan dövlətə öz ölkəsini şöhrətləndirmək üçün unikal, bəlkə də yeganə imkan nəsib olmuşdur.

## Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasında Həmkarlar İttifaqlarının rolu

Zənnimizcə, hazırki konfransın mövzuları olduqca aktualdır və cəmiyyətin geniş təbəqəsinin mənafeyinə toxunur. Azərbaycanın ictimai həyatının heç bir hissəsi müstəqil inkişaf yoluna qədəm qoyan dövlətimizin yeni mədəniyyət siyasətinin formalaşması prosesindən kənarda qala bilməz.

Mədəniyyət haqqında anlayış, ictimai şüurda onun yeri və mənası cəmiyyətin və onun institutlarının inkişaf səviyyəsindən asılı olaraq, əsrlərlə şəklini dəyişmiş, *transformasiya* olmuş, dərinləşmişdir. İndiki zamanda mədəniyyətə birmənalı tərif vermək çətindir, çünki o hər şeyi əhatə edir. Siz mənimlə razılaşarsınız ki, mədəniyyət insan idrakının tam təzahürünü əhatə edir. Səviyyəsi ilə ümumiyyətlə cəmiyyətin inkişaf səviyyəsini, eləcə də onu təşkil edən hissələrin səviyyələrini təyin edən müəyyən substansiyadır.

Hər bir xalq üçün mədəniyyətin, mədəni irsin rolunu qiymətləndirməmək çətindir. Cəmiyyətin müasirliyi və inkişaf perspektivliyinin qiymətləndirilməsi və dərk edilməsi daha böyük əhəmiyyət kəsb edir. Azərbaycan xalqı üçün XX əsr çətin sınaq və qəti islahatlar əsri olmuşdur. İki dəfə dövlət müstəqilliyi əldə edilmiş, kütləvi savadsızlıq aradan götürülmüş, xalqın əsrlərlə yaratdığı mədəni və mənəvi irs qorunmuş və inkişaf etdirilmişdir.

Azərbaycan mədəniyyəti xüsusilə XX əsrdə bəşəriyyətə dahi alimlər, filosoflar, bəstəkarlar, rəssamlar, ifaçılar verməklə ən yüksək inkişaf mərhələsi keçmişdir.



Bu mərhələdə klassik opera və balet ustalığı, ifaçılıq, təsviri incəsənət, teatr, kino və incəsənətin digər növləri çiçəklənmə dövrünə çatmışdır. Klassik muğam qayğı ilə qorunmuşdur, xalq yaradıcılığına böyük diqqət yetirilmişdir. Təhsil, tibb, idman, kütləvi məlumat vasitələri sürətlə inkişaf edir. Azərbaycan öz mədəni səviyyəsinin inkişafında inkişaf etmiş ölkələrlə bir cərgədə addımlayır.

Ancaq əfsuslar olsun ki, 1988-ci ildən başlayaraq, məlum olduğu kimi, bizim cəmiyyətin siyasi, iqtisadi, ictimai və mənəvi həyatı kəskin surətdə ağırlaşmışdır. Vətəndaş qarşıdurması, xaricdən vadar etdirilmiş müharibə ölkənin çoxlu miqdarda mədəniyyət obyektləri, mədəniyyət irsi, xalqımızın tarixi abidələri yerləşən 20% ərazisinin itirilməsinə gətirib çıxarmışdır.

Öz yaşadığı yerləri itirmiş, öz ölkəsində qaçqın vəziyyətinə düşmüş milyon yarım həmvətənlərimizin vəziyyəti sosial-mədəni səviyyənin aşağı düşməsinə çox mühüm təsir göstərmişdir.

Belə, demək olar ki, fövqəladə vəziyyət mədəniyyətin *inkişafına da öz mənfi təsirini göstərməyə bilməzdi.*

Lakin hadisələrin tarixi dönüşü ona gətirdi ki, xalqın tələbi ilə respublikaya rəhbərliyə dünya miqyaslı siyasətçi, hamının sevimlisi, hörmətli cənab Prezident, Heydər Əliyev qayıtdı.

Qısa tarixi müddətdə Azərbaycanda görülən titanik işlər nəticəsində vətəndaş qarşıdurmasından sonra parçalanan, müharibədə zəifləmiş və məhrumiyyətlərə düçar olan ölkə Qafqaz regionunda ən qabaqcıl və perspektiv respublikaya çevrildi.

Biz indi inkişafın sürətli sosial-iqtisadi dəyişikliklər gedən mərhələsində yaşayırıq. Cəmiyyətdə olan bu dəyişiklik-

lər, yeni mədəniyyət siyasətinin formalaşmasının vacibliyini tələb edir. Müstəqil Azərbaycan bu gün cəmiyyətin bütün təbəqələrinin demokratikləşməsi, dünya ictimaiyyətinə inteqrasiya olunma naminə çıxış edir. Zənnimizcə, hadisələrin bu gedişində məhrumiyyətlərdən, zorakılıqlardan, iqtisadi çətinliklərdən keçmiş və öz inkişafının keçid mərhələsində olan bizim ölkədə incəsənət və mədəniyyət müəyyən dəyişikliklər aləti kimi xidmət edə bilər.

Məlumdur ki, əvvəllər mövcud olan partiya-sovet ideologiyası prinsiplərində və əsaslarında formalaşdırılan cəmiyyətin mənəvi və mədəni həyatının inkişaf siyasəti qətiyyən indiki bizim cəmiyyətin can atdığı ictimai həyata uyğun gələ bilməz.

Ancaq artıq bizdə cəmiyyətin hərtərəfli inkişafını, mənəvi mədəniyyətin əsl zənginlikləri sisteminin yaradılmasını tələb edən yeni baxışlar sistemi formalaşdırılmışdır.

Bu məqsədlə lazımi qanunverici baza yaradılmışdır. 1998-ci ildə "Mədəniyyət haqqında qanun" qəbul edilmişdir. Bundan başqa 90-cı illərdə Respublika Parlamenti tərəfindən mədəniyyətə aid 19 qanun qəbul edilmişdir.

Axır zamanlar mədəniyyəti dövlət tərəfindən idarə edən orqanın – Azərbaycan Mədəniyyət Nazirliyinin mövqeyi fəallaşmışdır və o, bizim ölkədə mədəniyyət siyasətinin perspektiv inkişafı məsələləri ilə yaxından məşğul olur.

Yeni mədəniyyət siyasətini yaratmaq üçün cəmiyyətin bütün qüvvələri birləşməlidir. Həmin prosesin ümummilli və ictimai əhəmiyyətini nəzərə alaraq dövlət idarəetmə orqanları ilə yanaşı respublikanın qeyri-hökumət, ictimai təşkilatlarının da aktiv iştirakı lazımdır. Burada böyük tarixi təcrübəsi və lazımi potensialı olan ən kütləvi ictimai təşkilat - Azərbaycan Həmkarlar İttifaqlarının hədsiz dərəcədə rolu vardır.



Müasir mərhələdə respublikanın həmkarlar ittifaqları yeni ümummilli mədəniyyət siyasətinin yaradılmasına kömək etmək üçün geniş imkanlara malikdir. Əgər əvvəllər həmkarlar ittifaqlarının fəaliyyəti müəssisələr və təşkilatlar səviyyəsində ancaq istehsalat-məişət məsələlərinin həlli ilə məhdudlaşırdısa, bu gün daha da keyfiyyətli səviyyəyə keçərək, istər respublika miqyasında, istərsə də iqtisadiyyatın ayrı-ayrı sahələrində sosial-iqtisadi məsələlərin həllində hökumətə təsir edə bilər.

Buna Hökumət, Sahibkarlar Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası arasında üçtərəfli Əsas Saziş, eləcə də mədəniyyət işçilərinin Müstəqil Həmkarlar İttifaqlarının Respublika Komitəsi və Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Dövlət Teleradio Şirkəti arasında sahələrarası Sazişlər misal ola bilər.

Mədəniyyətin inkişaf problemlərinə onun adi, məişət anlayışı çərçivəsində baxmaq olmaz. Mədəniyyət iqtisadiyyatın aparıcı sahələri ilə bərabər özündə cəmiyyətin siyasi, iqtisadi və sosial problemlərini əks etdirir.

Uzun illərin tarixi təcrübəsinin göstərdiyi kimi hər hansı proqramı onun sosial məsələlərini həll etmədən həyata keçirmək olmaz.

İqtisadiyyatın mədəniyyət sektorunda əmək haqqının aşağı olması bizi ciddi olaraq narahat edir. Burada orta əmək haqqı respublika üzrə orta əmək haqqından iki dəfə azdır. Mədəniyyətin tələbatına büdcə ayırmaları qalıq prinsipi üzrə formalaşdırılır. Mədəniyyət sahələri işçilərinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün hər hansı məqsədli Proqram yoxdur.

Bununla əlaqədar olaraq Respublika Həmkarlar İttifaqları Komitəsinini fəaliyyətinin axırıncı illərdə üstün istiqamət-

lərindən biri işçilərin əmək haqlarının artırılması və sosial-iqtisadi maraqlarının qorunması məsələləri olmuşdur.

Təkcə son illərdə müxtəlif səviyyələrdə maraqları olan tərəfləri cəlb etməklə əmək haqqı məsələləri və bu problemin həlli yolları müzakirə edilən 4 Plenum və 20-dən artıq müxtəlif yığıncaqlar keçirmişik. Bu illərdə biz həmişə mədəniyyət işçilərinin əmək haqlarının artırılmasına aid məsələlərin yubatmadan həllini tələb edərək Prezidentə və hökumətə müraciət etmişik.

Nəticədə axırıncı 5 ildə iqtisadiyyatın mədəniyyət sektorunda əmək haqqı 6,2 dəfə artmışdır. Orta əmək haqqı 120 min manata çatmışdır. Lakin sahənin işçiləri arasında sosial gərginlik hələ də qalmaqdadır. Onlar bizim cəmiyyətin sosial cəhətdən təmin olunmayan təbəqələri kimi qalmışlar.

Yeni ümummilli mədəniyyət siyasətini həyata keçirmək üçün başlıca şərtlərdən biri mədəniyyət sektorunun geniş və budaqlanan infrastrukturunun qorunub saxlanmasıdır. 2000-ci ilin iyun ayında musiqi məktəblərinin Təhsil Nazirliyinə verilməsi haqqında Prezidentin məlum fərmanı mədəniyyət işçilərinin Müstəqil Həmkarlar İttifaqlarının Respublika Komitəsinin ciddi narahatlığına səbəb olmuşdu. Həmin ayda Respublika Komitəsinin Plenumunda bu məsələ ciddi müzakirə olunmuşdur. Plenum Həmkarlar İttifaqlarının həmin məsələ ilə əlaqədar ciddi narazılığı əks etdirilmiş qətnamə qəbul etmiş və onu Dövlət Komissiyasına göndərmişdi.

Mədəniyyət işçilərinin Respublika Həmkarlar İttifaqları Komitəsinin, Mədəniyyət Nazirliyi və Gənclər, İdman və Turizm Nazirliyinin birgə səyləri nəticəsində mədəniyyət sahələrində biz təhsil sisteminin qorunub saxlanmasına nail olduq ki, bununla da respublika rayonlarında mədəniyyət şöbələri strukturu saxlanıldı.



Yeni mədəniyyət siyasətinin həyata keçirilməsinin əsas tərkib hissələrindən biri kütləvi informasiya vasitələridir. Onların arasında bu gün aparıcı yeri televiziya tutur. Televiziya vasitəsilə cəmiyyətin mədəni həyatının sənədli tarixi yaradılır, geniş əhali kütləsinin estetik tərbiyəsi formalaşır. Ən yaxşı teatr quruluşları, konsertlər, incəsənət ustalarının, xalq sənətkarlarının çıxışları, təsviri incəsənət sərgiləri və elmi-publisistik çıxışlar və s. nümayiş etdirilir.

Ancaq burada da mədəniyyət üçün ümumiyyətlə xarakterik olan eyni sosial problemlər mövcuddur. Əmək haqqı məsələləri, əmək kollektivinin sosial-iqtisadi maraqları nəzərdə tutulur. Vəziyyəti nəzərə alaraq Respublika Həmkarlar İttifaqları Komitəsi Teleradio Şirkəti ilə əmək kollektivinin əmək haqqı məsələlərini və sosial-iqtisadi maraqlarını tənzim edən Saziş bağlamışdır.

Lakin biz bilirik ki, mədəniyyətin bütövlükdə inkişafının maliyyə siyasətini dəqiq müəyyən etmədən respublikada ümummilli mədəniyyət siyasətini həyata keçirmək mümkün deyil.

Bazar iqtisadiyyatı şəraitində bütün mədəniyyət sahələrinin gəlirli olmasına ümid bəsləmək olmaz. Buna görə də mədəniyyətin maliyyələşdirilməsində dövlətin rolu çox əhəmiyyətlidir.

Bu gün elə vəziyyət yaranmışdır ki, salamat qalmaq nöqteyi-nəzərindən digər, daha vacib problemlərin çox olması və dövlət vəsaitlərinin azlığından görünür ki, dövlət hələ mədəniyyət sahəsinə lazımi diqqət yetirə bilməyəcək. Zənnimizcə, mədəniyyəti idarə edən orqanları yeni funksiyalara yönəltmək və uyğun olaraq onların bütün fəaliyyətini yenidən təşkil etmək lazımdır. Amma bütün hallarda dövləti mədəniyyət siyasətinin vacib subyekti kimi saxlamaq vacibdir.

Lakin dövlət maliyyələşdirilməsi müxtəlif formalarda həyata keçirilə bilər.

Məlumdur ki, bu sahədə olan ən cüzi vəsait də yaxşı sərf olunmur. Mədəniyyət iqtisadiyyatı sahəsi üzrə ekspertlərin çoxu hesab edir ki, maliyyələşdirməni sosial əhəmiyyətli fəaliyyətlə məşğul olan, əhali arasında kifayət qədər məşhur və yaxşı professional reputasiyası olan yaradıcı adamlar və ya kollektivlərin konkret iş istiqamətlərinə, konkret proqramlara istiqamətləndirmək lazımdır.

Mədəniyyətin maliyyələşdirilməsi və saxlanmasında çox ümidlər verən formalardan biri qeyri-hökumət formaları: kommersiya ilə məşğul olmayan təşkilatlar, fondlar, şuralar, cəmiyyətlər və i.a. tərəfindən yığılan mənbələr ola bilər.

Maliyyələşdirmədə bu və ya digər üsullardan istifadə etmə - vəsait alanın hər bir konkret halda iqtisadi vəziyyətindən, şəraitdən, konkret maliyyə fəaliyyətinin xüsusiyyətindən və istiqamətindən, etibarlığından və digər şərtlərdən asılıdır.

Maliyyələşdirmə sistemi dəqiq məqsədli istiqamətə, lazımi çevikliyə, mədəniyyət fəaliyyətinin müxtəlif sahələrində çoxlu dəyişikliklərə reaksiya vermək imkanına malik olan və ictimai üstünlüklərin dəyişməsini nəzərə alan olmalıdır.

Bu gün biznesdən, fondlardan və sponsorlardan vəsaitlərin cəlb edilməsi vacibdir. Bizim şəraitdə məsələ çox çətindir, çünki təkcə dövlət mədəniyyətin maliyyələşdirilməsində məsuliyyət daşıyır, iqtisadiyyat isə transformasiya mərhələsindədir. Bizim regionda infrastruktura, iqtisadi çətinlik problemləri mövcuddur, eləcə də lazımi və qarşılıqlı əlaqələrin inkişafına maneçilik edən psixoloji sədlər də vardır.

Deyilənlərlə bərabər bu gün mədəni siyasətin ümummilli modeli haqqında danışmaq bir qədər tezdir. Biz yaxşı



anlayırıq ki, nəinki dövlət, həm də müxtəlif qeyri-hökumət və ictimai təşkilatlar öz fəaliyyətlərini aktivləşdirməli, öz güclərini bir yerə cəmləməlidirlər. Ölkənin sosial-mədəni inkişafına vətəndaşlıq köməyi, açıq cəmiyyətin yaradılmasını ifadə edən bir çox mütərəqqi layihələr qeyri-hökumət təşkilatları tərəfindən işlənir. Belə ki, biz əminik ki, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının 90-cı illərin başlanğıcında təqdim etdiyi konsepsiya kulturoloji elmi-təlim və maarifçilik məqsədindən ibarət olan Beynəlxalq dünya mədəniyyəti universiteti layihəsi, öz nəzərə çarpacaq bəhrələrini verəcək və respublikanın sosial-mədəni həyatında keyfiyyət dəyişikliklərinə, onun sivil dünya cəmiyyətində qəbul edilən "yüksək mədəniyyət standartları" əsasında yenidən qurulmasına kömək edəcəkdir.

Azərbaycanın mədəniyyət işçilərinin Müstəqil Həmkarlar İttifaqları bu layihənin həyata keçirilməsinə hər cür kömək etməyə hazırdır və bizim tərəfimizdən bu istiqamətdə ilk addımlar atılmışdır. Bu yaxınlarda "Simurq" Assosiasiyası ilə əməkdaşlıq haqqında Saziş imzalanmışdır.

Nəticə olaraq demək istəyirəm ki, mədəniyyətin inkişaf prosesi sonsuzdur və bizi nəinki bizim ölkə miqyasında, hətta bütün dünyada mədəniyyətin çiçəklənməsinə kömək naminə həqiqi arzu birləşdirir. Bu xeyirxah fəaliyyətdə hamıya uğurlar və müvəffəqiyyətlər arzulayıram.

## Mədəniyyət siyasətinin fəlsəfəsi haqqında

Mənim qarşımda çətin məsələ durur. Mənə çox qısa şəkildə mədəniyyət sahəsində siyasətin fəlsəfəsinin çıxış nöqtələrindən danışmaq lazımdır, çünki məhz bu, mənim çıxışımın mövzusudur. Ancaq hazırki konfrans praktiki məqsədlərlə və praktiki tövsiyələrlə praktiki konfrans kimi kimi planlaşdırıldığından fəlsəfədən reallığa, nəzəriyyədən praktiki məsələlərə keçmək lazımdır.

Mədəniyyət haqqında çox deyilib və yenə də çox deyiləcək, bizim görüşün iştirakçıları uğurlu təriflərdən birini təklif etdilər. Zənnimcə, bəşəriyyətin inkişaf tarixi insanın dünyada mədəni iştirakının dərinləşməsidir və ya başqa sözlə desək, insanın dünyada kök salmasıdır. Bu terminə marağın artması 200 il əvvəl də, 50 il əvvəl də nəinki sadəcə olaraq şərhlər haqqında məşğələ və ya mədəniyyətin inkişaf prosesinin dərk edilməsi cəhdidir, insan həyatı və insan fəaliyyətinin bütün sahələrinin davam edən mədəniyyətləşdirmə prosesinin özüdür. Sadəcə olaraq tək proses özü yox, həyatın "mədəniyyət kimi düşünüldüyü və yaşandığı" (Xeydeqqer) Yeni zamanın hadisələrində sıçrayışlı mərhələdir, *yəni insanı*nı dünyada mövcudluğu daxildən anlanır və təkamülün şüurlu, mədəni mərhələsi kimi təyin olunur.

Biz inamla deyə bilərik ki, ətrafımızda mədəniyyət getdikcə çoxalır. Mən başa düşürəm ki, mənim sözlərim skeptik gülümsəmə doğura bilər və ya hər halda istehza yaradacaq ki, guya mən indiki Azərbaycanla az əlaqəsi olan başqa mədəni qalaktikalardan danışıram. *Amma mən təkid edirəm* ki, mənim sözlərim həm dünyaya bütövlükdə, onun bu günkü vəziyyətində, həm də milli mədəniyyətimizin ondakı iştirakına



aiddir. Ancaq elə fikirləşmək lazım deyil ki, "çox və daha çox" bu həmişə miqdardır və fiziki reallıq dərəcəsidir. Bu heç vəchlə mədəniyyətin bizə "rahatlıq" verdiyi, gündəlik əziyyətlərdən dincəlməyə kömək edən sadə tox həyat deyil.

Mədəniyyət bütün səviyyələrdə - modaların göstərilməsindən bədii janr qaydalarınadək, sosiologiyayadək (kimə, nə və nə qədər daxil olmaqla), bizim həyatımızın estetik aorasını təyin edən stilistlərin axtarışına qədər, mədəniyyətdə idarəetmə strukturundan çoxsaylı nəzəri öyrənmələrə qədər, getdikcə daha da dəyişkən, mütəhərrik və öz-özünə törəyən olmuşdur. Bu mənada kövrək və sınan olmuşdur. Bəzi düymələrin hansı dağıdıcı gücə malik olduğunu düşünmək belə adamı dəhşətə gətirir. Bu və ya digər xakerin *mələk sifətinə* baxaraq belə bir suala cavab tapmaq olmur ki, "Bu necə mümkündür?" Məlum olur ki, onların başqaları qarşısında borc və məsuliyyət hissləri tamamilə ölgünləşmişdir. Eləcə də onunla barışmaq çətindir ki, - mən ən azı öz yaşıdlarımı deyirəm – virtual *reallıq statusu* tədricən, ancaq dönmədən bizim adət etdiyimiz fiziki, o cümlədən ehtiras-seksual reallığı üstələyir. Bütün bu misalları (onları isə davam etdirmək olar) ona görə gətirmək istəyirəm ki, "mədəniyyət getdikcə daha da çoxalır" deyib çəpik çalmayaq və növbəti dəfə yasa batmayaq ki, "mədəniyyət ölmüşdür", gəlin birlikdə "albalı bağı"-nı qorumağa atılaq (Çexov tərəfindən kəşf olunan insan mövcudluğunun dahi *metaforunun buna dəxli yoxdur*) və i.a. Keçmiş əsrin ən böyük mütəfəkkiri Xaydeqqerin sözlərini mən məhz bu mənada və bu kontekstdə başa düşürəm: "Mədəniyyətin mahiyyətinə görə insanın ən yüksək rifahı üçün qayğı özü haqqında qayğı göstərməyə başlayır və mədəniyyət siyasətinə çevrilir" (M.Xaydeqqer, Vremya i bıtiye, M., 1993). Eyni ilə, həqiqətin kənarda olmayan, kənarda ola bilməyən,- dünyadan kənarda, mədəniyyətdən kənarda, insandan kənarda – nəyinsə *artıq* inikası

olmadığı kimi, nə mədəniyyətə qayğı, nə mədəniyyətin idarə olunması bu "qayğının" hansı xoş niyyətlərlə stimullaşdırılmasından asılı olmayaraq (bu "xoş niyyət" isə ən yaxşı halda ideoloji ilə patriotikin sərhədləri arasında hörülüb gizlədilmişdir) artıq kənarda yerləşə bilməz.

Əgər biz bunu başa düşməsək, mədəniyyətin real dağılması ilə və ya bununla eyni olan insan həyatının müxtəlif tərəflərinin real dağılması ilə üzləşəcəyik. İnsan isə bu dağılmanın içərisində olaraq əminliklə sübut edəcək ki, mədəniyyət getdikcə "azalır və azalır" və hətta şəxsi maliyyə dayanıqlığı şəraitində ona psixoloji diskomfortun səbəbləri aydın olmayacaq. Belə düşünürəm ki, bu mənzərədə biz asanca Azərbaycanı tanıya bilərik və bəraət qazandırmaq lazım deyil ki, – oxşar bəraətləri mən tez-tez eşidirəm - əvəzində bizdə vəziyyət pis deyil, hətta ola bilər ki, Gürcüstandan, Türkmənistandan və ya Rusiyadan yaxşıdır, ola bilər ki, hətta Macarıstan və Monqolustandan da yaxşıdır. Belə olan halda, əgər bizdə yaxşıdırsa, niyə biz hər şeydən əvvəl bizim planetin bir parçasının dar çəkilmiş ayrıca sərhədlərində vətənpərvər olmayaq?

Mənim dəlillərimlə razılıq varsa – razı olmayanlar üçün son dərəcə nəzəri "Qlobal dünyada mədəniyyət" problemi yolu qalır - onda bu halda da çoxlu konkret suallar qalır, onların haqqında isə iqrar etməyəcəyəm ki, bilirəm necə olmaq lazımdır, nə etmək lazımdır.

Bu gün konkret olaraq real Azərbaycanın konkret şəraitində 200 il əvvəl, 80 il əvvəl, 10 il əvvəl nə olmuşdur, mədəniyyətlə nə etmək lazımdır və bu real şəraitdə "spontan" və "kövrək" nə deməkdir. Bilmirəm.

"Daxildən" nə deməkdir, "qorumaq", "mühafizə etmək" nə deməkdir və ümumiyyətlə "qorumaq" və "mühafizə



etmək" lazımdırmı, bazara iltizama nə vermək lazımdır və hansı sərhəddə dayanmalı. Bilmirəm.

Yenə də təkrar edirəm: əgər bizim həyatın real şəraitində "idarəetməni" idarəetmə kimi yox, sadəcə olaraq daimi özü-özünü sazlama kimi başa düşsək, o qədər də özümdən arxayın deyiləm ki, mədəniyyətin necə idarə edilməsi üçün reseptlər verəm.

Hər halda görməyə bilmərəm ki, sovet mədəniyyət institutları onların böyüdüb yetişdirdikləri daşıyıcıları ilə o arzudadırlar ki, adət etdikləri kimi yaşasınlar, sovet şablonlarını təkrar edirlər və yenə də təkrar etməkdə davam edirlər, ancaq bu dəfə təbliğat-vətənpərvər ritorika ilə.

Görməyə bilmirəm ki, nəinki mədəniyyət üzrə məmurlara, hətta mədəniyyət xadimləri üçün necə çətindir ki, nəinki azadlığı maliyyə asılılığına dəyişməkdən imtina etsinlər (əgər tarixi bəraətə ekskurs etsək bunu başa düşmək olar) və maliyyə imkanları axtarmağın özünün mədəniyyətin inkişafının daxili, özü-özünü sazlayan faktoruna çevrilmiş olduğunu başa düşsünlər.

Bir NGO nümayəndəsi cavan cazibəli qız, bu yaxınlarda görüşdə mədəniyyət üzrə məmurlara çaşdırıcı sadəliklə müraciət edərək dedi: "Biz sizinlə ümumi bir iş görürük, biz xalq üçün işləyirik". Cavan həmkarımıza necə izah edim ki, bu "üçün" daha olmayacaq, bəlkə də beləliklə müəyyən simasız bir kütlə kimi təsəvvür olunan xalq da olmayacaqdır, ancaq sadəcə NGO-lar, bələdiyyələr olacaq və i.a. və "ümumi iş" də çox olacaq, çünki heç kəs prosesin içində ola-ola onu hesablaya bilməyəcək.

Çoxlu "sovetə" uyğun hallar, "sovetin" üsullarının təkrarlamaları mövcud olduğu keçid dövründə necə olmalı. Eyni zamanda çox məsələlərdə biz lazımi qədər mənimsənilməmiş olsa da, Qərbin parmetrləri ilə yaşayırıq. Çox cəhətdən,

mən bilmirəm. Fikirləşirəm ki, bu real şəraitdə "mədəniyyəti idarə etmək", xaricdən daxilə keçmədir, tədricən qorumaqdan əvvəli və sonu olan layihələrə keçmədir və nəinki davam etmək qabiliyyətinə malik olan, həm də başqa mərhələlərə transformasiya edə bilən layihələrə keçmədir.

Bir neçə misal gətirim.

Kim mübahisə edər ki, Azərbaycana simfonik orkestr lazımdır, ola da bilsin, bir neçəsi. Amma qərar qəbul edildikdən sonra onun qorunması elə "prosesin" qurtarmasıdırsa, onda "prosesin" qurtarması 5 ildən sonra və ya 50 ildən sonra başa gələcək. İş maliyyə müstəqilliyində deyil, "simfonik orkestr" layihəsinin bir çox digər layihələrə, o cümlədən kommersiya layihələrinə qoşulmasında, açıq proses kimi orkestrin fəaliyyətinin proqramını hazırlayan menecerlərin mövcudluğunda, orkestrin fəaliyyətinin festivallar və fondlar haqqında bilikləri də daxil etməklə informasiya təchizatındadır. Orkestrin bu və ya digər fondları maraqlandıra bilən maarifçilik layihələrində iştirakı və s. "mədəniyyət siyasətini" "özü-özünə qayğı" kimi səciyyələndirir. Başlıca cəhət ondadır ki, bir tərəfdən təkəbbürlü olub pul haqqında söhbətdən qaçmayasan, digər tərəfdən bu söhbətləri yalançı "ya bazar, ya da incəsənət" alternativinə çevirməyəsən.

Bu və ya digər əyalətin mərkəzi şəhərinə uşaq kitabxanasının lazım olub-olmadığı haqqında istənilən qədər mübahisə etmək olar. Ancaq əgər bu məsələlərin müzakirəsində bu uşaqların valideynləri iştirak etmirsə, əgər bu məsələlərin müzakirəsində uşaqların NGO-da birləşən valideynləri iştirak etmirsə, hesab etmək olar ki, bu kitabxana kağız üzərində qalacaqdır, kitabxanada işləyən kitabxanaçı isə bizə hər dəfə minnət edəcək ki, hələ də kitabları saxlayır və bizə verir. Respublikanın şəhərlərində və rayonlarında nə qədər istəsəniz mədəni tədbirlər keçirmək olar, ancaq hər dəfə daxildən o



mədəniyyət qalib gələcək ki, onun orada o real şəraitdə bizə nə qədər vulqar və yöndəmsiz görünsə belə, onun özünə məlum olan qanunlarla içəridən inkişaf etmək qabiliyyəti olsun.

Qorxuram biz növbəti dəfə mənim "kiçik şəhərlərin renessansı" adlandırdığım vəziyyətin astanasında olduğumuzu nəzərdən qaçıraq. Bu şəhərlər nəticədə müxtəlif layihələri həyata keçirdikdən sonra bir-birinə oxşamamalıdırlar, təkrarolunmaz və özünə xas olmalıdırlar və bu yalnız o zaman mümkün olacaq ki, bu layihələr insan həyatını təşkil edən həm biznesə, həm iş yerlərinə, həm turizmə və bir çox başqa sahələrə aid olsun. Bunun üçün isə biz gərək "ümumi yer" adlanandan məst olmayaq, real mədəniyyətdə yaşayan insanlar üçün "özü üçün stilə" nail olmaq əvəzinə, korporativ stil ilə, beynəlmiləl stil ilə və ya bizim kosmopolit ürəyimizə xoş olan (onu mən "başqası üçün stil" adlandırıram) digər stil ilə hərəkət etməyək.

Nə vaxtsa Nitsşe "Şən elm" əsərini yazmışdır, görünür sübut etməyə çalışırdı ki, darıxdırıcı, şən olmayan elm - sadəcə pis elmdir. Bəlkə də mədəniyyətin idarə edilməsi onun əsas orqanı da daxil olmaqla "şən" və ya başqa sözlə "canlı" olmalıdır, fondlardan, ekspert və ictimai şuralardan, qısa və uzun müddətli proqramlardan və bir çox başqalarından ibarət olmalıdır ki, bunlar da "daxildən" anlayışı ilə assosiasiya yaradır.

Eynilə şən və ya heç olmasa canlı tərzdə nəticə olaraq mən istəyirəm ki, özümüzə baxaq, bizim 100 il gerimizə, sonra isə "100 il sonra"nı təsəvvür edək. Onda biz başa düşərik ki, biz başqalarından pis də deyilik, yaxşı da deyilik. Bu isə mənim üçün əldə edə bildiyim ən şən kəşfdir.

## Amerikanın mədəniyyət siyasəti

Mən "mədəniyyət" sözündən istifadə edərkən Amerikada bir çox mədəniyyətlərin olduğunu nəzərə alıram. Bir çox ölkələrdə müxtəlif icmalar mövcuddur. Dövlətin rolu ondan ibarətdir ki, müxtəlif mədəniyyətlərə məxsus olan insanların öz mədəniyyətlərini ifadə etmək üçün mühit yaratsın. Bu isə heç də həmişə belə olmamışdır. Şimali Amerikadakı birinci *dəstələr və icmalar* dini xarakterli olmuşlar. Onlar Avropadan çoxu ona görə köçüb gəlirdilər ki, orada onları başqa dinə xidmət etməyə yönəldirdilər. Amerikada onlar öz dinlərini qoruyub saxlamaq istəyirdilər. Lakin onlar demokrat deyildilər və tələb edirdilər ki, icmada hamı bir dinə qulluq etsin. Bu mənada onlarda eyni düşünmə tərzi çox güclü ifadə olunmuşdu. Onların siyasəti də dinlə əlaqədar siyasət idi.

O qədər çox gizli icmalar var idi ki, nəhayət başa düşüldü ki, hökumətin dində heç bir rolu yoxdur. Hökumət din sahəsinə qarışmamalıdır və burdan da belə fikir çıxırdı ki, hökumət mədəniyyət sahələrinə də qarışmamalıdır. Bu ideya demək olar ki, bütün amerikalılar tərəfindən qəbul olunmuşdu.

Əvvəlcə iki əsas icma mövcud idi: ingilis-şotland-irland və alman icmaları. O zaman alman icması çox böyük idi, Pensilvaniya ştatının təxminən yarısını təşkil edirdi, hamı alman dilində danışırdı. Bu artıq millətin formalaşmasının əvvəli idi və icmalararası mədəni, siyasi konsensus axtarmaq lazım gəlirdi.

XIX əsrdə bizdə *assimilyasiya prosesləri* gedirdi. Bütün köçüb gəlmiş yeni icmalar birinci və ya ikinci nəsildən sonra üstünlük təşkil edən ingilis-sakson mədəniyyətinə və siyasətinə tam assimilyasiya etmişdilər. Bu assimilyasiya prosesi az və ya çox II Dünya Müharibəsinə qədər davam etmişdir. II



Dünya Müharibəsindən sonra xüsusilə son 20-30 il ərzində Asiya, Afrika və Cənubi Amerikanın tamamilə başqa ölkələrindən *emiqrantların yeni nəsilləri* gəlməyi başladı. Onlar özləri ilə yeni mədəniyyət də gətirirdilər.

Baxmayaraq ki, assimilyasiya prosesi davam edir, lakin vəziyyət bir qədər dəyişmişdir. Biz o ideyanı qəbul etdik ki, bu mədəniyyət də yaşamaqda və mövcud olmaqda davam edə bilər. Bu mədəniyyətləri qəbul edən insanlar onların ardınca gedə bilərlər. Müxtəlif etnik icmalarda başqa-başqa dillər mövcuddur, bu dillərdə dərs keçilən xüsusi məktəblər də vardır. Bəzi ştatlarda belə ideya var idi ki, bu cür məktəblərdə tədris iki və daha çox dildə aparılsın, ancaq bu mübahisəli mövzudur. Bir var ki, həddən artıq çox adamın danışdığı ispan dili. Lakin yüzdən artıq başqa dillər də mövcuddur. Onlardan tədrisdə istifadə etmək necə mümkün ola bilər? Bəziləri hesab edirlər ki, bu, heç vəchlə məqbul deyil, digərləri isə təkid edirlər ki, belə hüquq mövcud olmalıdır. Beləliklə, bu məsələ artıq siyasi məsələyə çevrilib və adi siyasi yollarla – seçki, bu baxışlardan birini müdafiə edən siyasətçilər vasitəsilə həll olunacaqdır. Bu kontekstdə baxılan məsələ həll olunması tələb olunan əhəmiyyətli mədəniyyət, mədəniyyət siyasəti məsələsidir.

Hal-hazırda Amerikada çox mədəniyyətin – *multi mədəniyyətin* mövcudluğu qəbul olunmuşdur. Bu mədəniyyətlərin inkişafına və özünü ifadə etməsinə hökumətin bəzi idarələri kömək edirlər.

Amerikanın mədəniyyət tarixi haqqında kiçik girişdən sonra indi isə mən hökumətin nə etdiyindən və Amerikada mədəniyyət siyasətinin məhz neçə inkişaf etdiyindən danışacağam.

Mədəniyyətin inkişafı ilə ən çox *qeyri-hökumət təşkilatları* və çoxlu pulu olub mədəniyyətin inkişafına kömək edə bilən *şəxslər* məşğul olurlar. Tomas Cefferson yüksək avropa

mədəniyyətinə malik və öz millətinin yüksək mədəniyyətə malik olmasını arzu edən bir insan kimi məhşurdur. Bizim millətin əsasını qoyan demək olar ki, bütün şəxslər, necə deyərlər, "millət ataları" müxtəlif müəssisələrə, gəmi qayırma kompaniyalarına malik varlı adamlar olmuşlar, cənubdan olanların isə böyük plantasiyaları var idi. Hər halda əsas məsələ bu idi ki, onların çoxlu pulu var idi. Mədəniyyət siyasətini aparmaq üçün çoxlu pula malik olmaq lazımdır.

Belə vəziyyət bu gün də mövcuddur. Mən deməliyəm ki, bizdə Amerikada mədəniyyət nazirliyi yoxdur və bu çox vacibdir. Belə nazirlik heç vaxt olmamışdır və onun haçansa yaradılacağı da gözlənilmir. Bizdə bu cür nazirliyin müxtəlif funksiyalarını yerinə yetirən başqa təşkilatlar vardır və onlar əsasən *qrantlar vasitəsilə fəaliyyət* göstərirlər. Müxtəlif qrantlar verən milli təşkilatlar 60-cı illərdən fəaliyyət göstərirlər. Onların əsası prezident Conson administrasiyası dövründə 1965-ci ildə qoyulmuşdur. Belə bir prinsipdən istifadə olunur ki, hökumət banka maliyyə vəsaiti qoyur, bunun faizləri isə mədəniyyətin maliyyələşdirilməsinə gedir. Banka qoyulan məbləğlər çox böyük olduqda bu faizlər də kifayət qədər böyük olur. Əslində bu pullar yenə də büdcədəndir və o qədər də çox deyil, lakin onların ən effektiv üsulla istifadəsi üçün tədbirlər görülür. Bu fondlardan hər hansı məbləğ, məsələn, 25 min dollar verilirsə, onda başqa mənbələrdən 50 min dolların alınması təmin olunmalıdır. Dövlət tərəfindən belə qrantın verilməsinə razılığın olması faktı özü başqa *qeyri-hökumət donorlarının* tapılmasına çox kömək edir.

Amerikadakı bir çox mədəniyyət müəssisələri hamı üçün açıq və adətən pulsuzdur. Bu, əlbəttə, təkcə dövlət hesabına başa gəlmir. Məsələn, cənab Smitson 1849-cu ildə incəsənətin, Amerika tarixinin öyrənilməsinin inkişafı proqramları üçün dövlətə böyük incəsənət əsərləri kolleksiyası və külli miqdarda pul vermişdir. Bu "Smitson institutlaşması" bir





qədər unikal haldır, çünki mən deyərdim ki, bu, yarımdövlət təşkilatıdır. Orada işləyən adamlar dövlət işçiləri sayılır, ancaq bu sahə özü qeyri-dövlət sahəsidir. Onlar qrantlar vasitəsilə deyil, mədəniyyət abidələrinin və dəyərlərinin qorunub saxlanması proqramları üzrə işləyirlər.

ABŞ-da radio və televiziya yenicə meydana çıxarkən yalnız özəl variantda idi. Kütləvi radio və televiziya isə mədəniyyət proqramları hesabına, ilk növbədə ayrı-ayrı şəxslərin maliyyə yardımı ilə inkişaf etmişdir. Amerikanın demək olar ki, bütün şəhərlərində bu tərzdə fəaliyyət göstərən radio və televiziya kanalları mövcuddur. Burada, əlbəttə, müəyyən qədər dövlət köməyi də olur. Bu cür münasibət Amerikada özəl və dövlət sektorlarının tərəfdaşlığına misallardan biridir.

Ştat səviyyəsində mədəniyyət siyasətinə aid bir fakt göstərmək istəyirəm. Oreqona ştatı o qədər də böyük deyil – onun təxminən 3 milyon əhalisi var, ancaq mədəniyyət sahəsində problemləri başqa ştatlarda olduğu kimi çoxdur. Hər bir ştatın mədəniyyət sahəsinin inkişafını müəyyən mənada idarə edən öz *şurası* vardır. Oreqonada bu struktur qrantları, təşkilatların, şəhərlərin, ayrı-ayrı şəxsiyyətlərin təkliflərini qəbul edir. İşlər yerli, lokal səviyyədə, minlərlə adamın iştirakı ilə aparılır, bu proseslərdə əsl canlı həyat təzahür edir. Mən deyərdim ki, bizdə mədəniyyət nazirliyinin olmamasına baxmayaraq, resursların bölüşdürülməsi və özəl təkliflərə baxılıb razılaşdırılması ilə məşğul olan mürəkkəb sistem mövcuddur. Şura mədəniyyətin təbliği, vəsaitin cəlb olunması üzrə vasitəçiliklə məşğul olur. İşlər adi adamlar səviyyəsində, adi gündəlik həyat səviyyəsində aparılır. Bu ştat üçün bir maraqlı cəhət orada mədəniyyət siyasəti sahəsində fəaliyyət göstərən qrupun olmasıdır. Bu, ştatın mədəniyyət siyasəti ilə məşğul olmaq həvəsində olan, özü də, demək olar ki, məşhur adamlardan təşkil olunmuş qrupdur.

Beləliklə, ABŞ-da mədəniyyət siyasəti mövcuddur və bu tip qruplar, vətəndaş şuraları və s. vasitəsilə fəaliyyət göstərir. Çox əhəmiyyətlidir ki, bu cür təşkilatlar yalnız ştat səviyyəsində deyil, həm də şəhərlərdə və insanların bir-birini yaxşı tanıdığı yerli səviyyələrdə də iş aparırlar.

Bu məsələlərin idarə olunmasının bir üsulu da *vergi siyasətidir.* Bizim konqres, demək olar ki, vergi siyasəti vasitəsilə ölkəni idarə edir. Vergi siyasəti, vergi imtiyazları və azadolmaları vasitəsilə yeni istiqamətlər açmaq, stimullaşdırmaq mümkündür. Bizdə bu sistem çox güclü inkişaf etmişdir. 501S siyahısı adlanan (501S – ABŞ-ın vergi kodeksində maddədir) bütün vegilərdən tam azad olan xüsusi təşkilatların siyahısı var ki, bu təşkilatlar gəlir əldə etmədən, humanitar, ümumi faydalı fəaliyyətlə məşğuldurlar. Vergi siyasəti, əlbəttə, mədəniyyət siyasətində çox güclü alətdir və güman ki, o, Azərbaycanda da istifadə olunacaqdır, lakin ola bilsin ki, bir qədər gec – güclü və varlı istehsal müəssisələrinin sayı artdıqda.

ABŞ-da mədəniyyət siyasətinin həyata keçirilməsinin bir yolu da MET, MOMA, Koçran, Metropoliten muzeyi kimi *böyük institutlaşmalardan* istifadə olunmasıdır. Belə institutlaşmalar müxtəlif şəhərlərdə mövcuddur. Öz prestijliyinə, gücünə arxalanaraq bu qurumlar özləri fond və mənbələr kimi çıxış edərək yerli fərdi şəxslərdən, təşkilat və müəssisələrdən pul, yardım toplayırlar.

Bundan əlavə bizdə böyük, güclü, çox zəngin şəxslər – maqnatlar var. Dünyanın ən varlı adamı Bill Geytsin öz fondu var, Karneqi fondu, Ford fondu – çox məşhur təşkilatlardır. Bu cür *maqnatların və fondların* hər birinin öz mədəniyyət siyasətlərinə müvafiq olaraq haraya nə qədər pul vermək məsələsini qərarlaşdıran şuraları fəaliyyət göstərir.

Ayrı-ayrı fərdlərlə işləməyə istiqamətlənmiş çoxlu sayda müxtəlif təşkilatlar da vardır. Məsələn, təqaüdə çıxan



adamların assosiasiyası: 55 yaşına yaxın hamı bu təşkilatdan ora üzv olmaq təklifi ilə məktub alır. Təşkilat o qədər də çox olmayan 5$ üzvlük haqqı götürür, lakin 25 milyona qədər adam bu pulu göndərdikdə ümumi məbləğ kifayət qədər çox olur və bu pulla artıq öz siyasətini aparmaq, konqresdə öz lobbisini əldə etmək mümkündür. Eyni zamanda yerli səviyyədə mədəniyyət siyasətini hazırlayıb həyata keçirməyə kömək üçün insanlar öz pullarını yerli mədəniyyət assosiasiyalarına da verirlər.

Mədəniyyət və xarici siyasət barədə bir müəyyən informasiya da əlavə etmək istərdim. Mən bizim xarici xidmət idarəsinin diplomatıyam, lakin buna qədər mən haçansa əsası 1955-ci ildə qoyulmuş bütün dünyada amerika mədəniyyətini təbliğ edən və böyük "soyuq müharibə" dövründə sovet mədəniyyətinə qarşı duran bir təşkilatda işləmişəm, o dövrün, o münasibətlərin şahidiyəm. Lakin həmin dövr artıq arxada qalmış, soyuq müharibə çoxdan qurtarmışdır.

Amerika hökuməti mədəniyyət, mədəniyyət siyasəti məsələlərinə çöx böyük əhəmiyyət verir. 2000-ci ilin noyabr ayında Ağ Evdə mədəniyyət mövzusunda keçirilən konfransda amerika mədəniyyətinin xaricdə nümayişinin və təbliğinin bizim mədəniyyət siyasətinin çox vacib hissəsi olduğu xüsusilə qeyd olunmuşdu. Mən də hal-hazırda məhz həmin işlə məşğulam. Bizim hər hansı bir ölkə ilə münasibətlərimizdə mürəkkəb vəziyyət olduqda biz bu sahə vasitəsilə işləməyə çalışırıq. Çinlə olduğu kimi: 20-30 illik soyuq münasibətdən sonra ilk əlaqələr məhz mədəniyyət sahəsində yaranmağa başlandı.

Biz Azərbaycan kimi dost ölkə ilə də münasibətləri təkcə neft sahəsində deyil, həm də bir çox başqa sahələrdə və ilk növbədə böyük potensiala malik olan mədəniyyət sahəsində də inkişaf etdirmək istəyirik.

## Mədəniyyət sahəsində Norveç siyasəti. Beynəlxalq müqayisə perspektivində Norveç modeli

Əvvəlcə mən "Cultural policy" ifadəsinin tərcümədə mənasını dəqiqləşdirmək istəyirəm. Mənim təsəvvürümdə bu ifadə "mədəni siyasət" və ya "mədəniyyət sahəsində siyasət" mənasını verir və gələcəkdə bu ifadədən istifadə edəcəyəm.

**Giriş**

Səksəninci illərin ortalarında bir neçə alim müxtəlif sənaye ölkələrinin mədəniyyət siyasətinin tipologiyasını inkişaf etdirməyə çalışırdılar. Belə tipologiya modellərin aşağıdakı növlərini təsvir etməyə meyllidir.

1. Birinci tip: siyasi hakimiyyət və bütün hakimiyyət rəmzləri Parisdə cəmləşdirilmiş Fransanın Mədəniyyət Nazirliyinin spesifik modeli. Nazir özü tez-tez birbaşa mədəni həyata qarışır. "Mədəniyyətin istisnası" prinsipinə uyğun olaraq, fransız modeli həmçinin bu və ya digər dərəcədə mədəniyyəti bazardan qoruyur. Fransanın dövlət strukturları mədəni həyat üçün öz üzərinə böyük məsuliyyət götürür. Onlar tez-tez Pompidu mərkəzi və Bastiliya Operası kimi daha qabaqcıl mədəniyyət layihələrinə birinci dərəcəli rolu verirlər.
2. Həmçinin müdaxilə etməməyə əsaslanan xüsusi Britaniya modeli haqqında da danışmaq olar. Protestant və bu ölkənin liberal-tarixi ənənəsinə görə ən vacib prinsip qarışmamazlıq olmuşdur. Bu prinsipə əsasən, hökumət mədəniyyət sahəsinə çox açıq qarışmaqdan çəkinməlidir. İncəsənət işləri üzrə Şura deyilən bir qurum vardır ki, o da yarıhökumət birliyidir. O ancaq ən yüksək bədii keyfiyyətlərə birinci dərəcəli əhəmiyyət verməklə kifayətlənir. Bunun üçün onu hədsiz elitarlıqda günahlandırırlar. Beləliklə mədəniyyət idarələrinə və yaradıcı işçilərə maliyyə yardımı göstərilməsi Böyük Britaniyada Fransa və Skandinaviya ölkələrinə nisbətən azdır.
3. Bütün dünya alimləri eləcə də məsuliyyətin böyük bir hissəsinin regional səviyyəyə həvalə edildiyi alman qeyri-mərkəzləşdirilmiş və federal modelini təsvir edirlər. Bu modelə uyğun olaraq hökumət orqanları artistlərə və mədəniyyət idarələrinə yaxşı qayğı göstərirlər. Regional və bələdiyyə səviyyələrində ifaçılıq incəsənətinin idarələri şəbəkəsi çox yaxşı inkişaf etmişdir.
4. Nəticədə mədəniyyət siyasətinin skandinaviya modeli haqqında da tez-tez danışırlar. Korporativlik, eqalitarizm (əmlakın bərabər bölüşdürülməsinə əsaslanan prinsip – *red.*) və rifah bu modelin başlıca elementləridirlər. Burada mədəniyyətin dövlət tərəfindən müdafiə səviyyəsi yüksəkdir, artistlər də, digər yaradıcı işçilər də öz üzərlərinə dövlət məmurları rolunu götürmək meylində olurlar. Çoxları tez-tez skandinaviya mədəniyyət siyasətinin korporativ aspektlərini bəyənmirlər. Onlar bizim rəssamların və başqa yaradıcı işçilərin nisbətən güclü həmkarlar ittifaqlarını kollektiv və ya kommunist keçmişinin qalıqları hesab etməyə meyllidirlər.

Belə tipologiya, əlbəttə ki, reallığın çox sadə təsviridir. Buna baxmayaraq, ümidvaram ki, mədəniyyət siyasətinin müxtəlif modelləri haqqında mənim eskizlərim beynəlxalq müqayisəli perspektivdə mənim Norveç mədəniyyət siyasətini analizim üçün çərçivə yaradır.

Beləliklə Norveç halı haqqında nə demək olar?

Hər şeydən əvvəl demək istəyirəm ki, Norveçin mədəniyyət siyasəti haqqında tez-tez ictimai rəydə bizim ziddiyyətli milli imicimiz, xüsusən bu imic xarici ölkələr haqqında bizim təəssüratlarla qarşılaşanda qeyd edilir. Bir tərəfdən, biz Avropa periferiyasında özümüzə ədəbsiz kəndçi kimi baxmağa meylliyik və hesab edirik ki, hansısa "mifik xaricdə" hər şey yaxşıdır. Digər tərəfdən, hərdən

hətta mədəniyyət sahəsində də özümüzü beynəlxalq çempion dərk etmək kimi natamamlıq komplekslərini özümüzdə birləşdirməyə çalışırıq. Bizim milli qəzetlərə istinad etsək, bir növ Norveç artistlərinin beynəlxalq karyerası çox müvəffəqiyyətlidir. Hərdən bu o qədər də düzgün deyil. Beləliklə, bizim beynəlxalq əhəmiyyətimizi biz həm aşağı qiymətləndiririk və həm də həddindən artıq qiymətləndiririk.

Norveç mədəniyyətini və mədəniyyət siyasətini daha nəhəng Avropa ölkələrininki ilə müqayisə edərkən biz bu ziddiyyəti yadda saxlamalıyıq. Əlbəttə, Avropanın periferiyasında Norveç çox balaca, amma varlı ölkədir. Bizim siyasi və mədəni təsirimiz məhduddur. Ancaq mən fikirləşirəm ki, Avropanın bir çox başqa ölkələrinə nisbətən bizim həddindən çox və ya az mədəni olmadığımızı başlanğıc nöqtə kimi qəbul etmək ağla batan olardı.

## Norveç mədəniyyət siyasətinin xarakteristikası

Bəs o zaman başqa Avropa ölkələri ilə müqayisədə norveç mədəniyyət siyasətinin əsas xarakteristikaları hansılardır?

*I. Bərabərlik prinsipi*

Noveçin mədəniyyət siyasətində bərabərlik prinsipi çox əhəmiyyətli yer tutur. Buna görə dövlət orqanları ümummilli səviyyədə, eləcə də cəmiyyətin bütün sahələrində mədəniyyəti inkişaf etdirmək üçün xüsusi müəssisələrin yaradılmasının əhəmiyyətliliyini qeyd edirlər. Məsələn, əllinci, altmışıncı və yetmişinci illərdə teatr, vizual incəsənət və musiqi sahəsində belə qastrola çıxan və ya mobil milli idarələr yaradıldı. Bu, müharibədən sonra mədəniyyət siyasəti sahəsində skandinav sosial-demokratlarının dəyərlərini əks etdirir. Skandinav sosial-demokratları hesab edirdilər ki, bu, sadəcə olaraq ictimai rifahın inkişafının başqa aspektidir.



Norveç dövlətinin eqalitarizm siyasəti həmçinin yaradıcı işçilərə də tətbiq edilə bilər. İkinci Dünya Müharibəsindən sonra və xüsusən yetmişinci illərdən sonra həmrəyliyi və rifahı artırmağa yönəldilən ayrı-ayrı artistlərə və digər yaradıcı işçilərə dövlət qrant və fərdi kömək sistemləri müəyyən edildi. Bu siyasətin ən mənalı cəhəti həmkarlar ittifaqları ritorikası izi daşıyan "zəmanətli minimal gəlir" oldu. Bu gün o Norveçin beş yüz iyirmi (520) yaradıcı işçicinə verilir. Tez-tez onlar bunu öz karyeralarının zirvələrinə çatana qədər alırlar və sonra adətən bu gəlirləri təqaüd yaşınadək saxlayırlar. Yeganə mənə məlum oxşar misal Hollandiyadır ki, orada 1987-ci ilə qədər vizual janr artistləri üçün zəmanətli gəlir mövcud idi.

*II. Mədəniyyət fəaliyyətinə səxavətli dövlət maliyyə yardımları*

Bir çox başqa ölkələrlə, xüsusən ingilis dillilərlə müqayisədə mədəniyyət sahəsində fəaliyyətə maliyyə yardımları böyükdür. Norveç hakimiyyət orqanları, məsələn, teatrlar, simfonik orkestrlər və milli opera kimi əhəmiyyətli incəsənət müəssisələrinin cari xərclərinin 70-dən 90%-ə qədərini ödəyir. Bu, təqribən skandinaviya ölkələrində və kontinental Avropanın bir çox ölkələrində olan səviyyə qədərdir. Bu ölkələrdə maddi yardımlar teatrın və ya orkestrin cari xərclərinin 40-dan 50%-ə qədərini ödəyən Böyük Britaniyadakından çoxdur. ABŞ-da dövlət maddi yardımları hətta bundan azdır.

Digər tərəfdən Norveçdə mədəniyyət sahəsinin özəl maliyyələşdirilməsinin, yəni hamilik, sponsorluq və pul ianələri verilməsinin çox da geniş olmayan ənənələri vardır. Bütövlükdə belə vəziyyət, Böyük Britaniya istisna olmaqla digər Avropa ölkələrinə də aiddir. Bizə hamilik, sponsorluq və pul yardımları hesabına mədəniyyət müəssisələrinin cari xərclərinin böyük hissəsini ödəyən ABŞ-dakı yaxşı təşkil olunmuş sistemə diqqət yetirmək lazımdır.

*III. Mədəniyyət müəssisələrinin daimi fəaliyyət göstərən səmərəli sistemi*

Norveçdə bir neçə geniş səlahiyyətli daim fəaliyyət göstərən idarə və təşkilatlar mədəni həyatı təşkil edir və təyin edir. İncəsənət əsərlərinin tamaşalarının qoyuluşu daimi müəssisələr tərəfindən müvəqqəti layihələr çərçivəsindəkinə nisbətən daha tez-tez həyata keçirilir. Dövlət tərəfindən maliyyələşdirilən teatrlar ənənə üzrə norveç aktyorlarını daimi işə götürür, çünki dövlət məmurları işə qəbul edir. Bu, əsasən skandinav və qismən alman ənənəsidir. Fransada və Böyük Britaniyada vəziyyət tamam başqadır. Fransız və britaniya aktyorları adətən muzdla işləyirlər. Onlar tez-tez açıq əmək bazarında müxtəlif iş təklifləri ilə işsizlik arasında tərəddüd etməli olurlar.

*IV. Korporativlik*

Mən artıq qeyd etdim ki, korporativlik norveç modelinin digər əhəmiyyətli aspektidir. Başqa ölkələrlə müqayisədə Norveçdə mədəniyyət siyasətinin həyata keçirmə məsələləri üzrə hökumət orqanları ilə sıx əməkdaşlıq edən nisbətən güclü qeyri-hökumət təşkilatları vardır. Məsələn, iş artistlərə dövlət qrantlarını təqdim etməyə gəlib çıxdıqda korporativliyin təsiri daha güclü hiss edilir. Artistlərin peşəkar təşkilatlarının qrantların təqdimi prosesinə böyük təsirləri vardır. Fransada və Böyük Britaniyada bu təşkilatlar az nüfuzlu, az təsirlidirlər və dövlət orqanları həmkarlar ittifaqlarına daha skeptik münasibət bəsləməyə meyllidir.

*V. Qeyri mərkəzləşmə (mərkəzdənqaçma)*

Başqa ölkələrlə müqayisədə mədəniyyət sahəsində Norveçin siyasəti əsasən desentralizasiya meyllidir. Hakimiyyətin böyük bir hissəsi yerli və regional inzibati səviyyələrə həvalə edilir. Yetmişinci və səksəninci illərdə bələdiyyələrdə mədəniyyət işləri üzrə güclü inzibati orqanlar yaradıldı. Doxsanıncı illərdən başlayaraq idarəetmənin yenidən qurulması



prosesi bu inzibati orqanları zəiflədirdi. Ancaq bələdiyyələr və dairə orqanları hələ də mədəniyyət siyasətində əhəmiyyətli rol oynayır. Məsələn, ictimai kitabxanaların nisbətən güclü sistemi və bələdiyyə musiqi məktəblərinin unikal sistemi qeyri-mərkəzləşdirmənin güclü dəyərlərini əks edir.

*Mədəni bircinslik*

Mədəniyyət nöqteyi-nəzərindən Norveç hələ də bircins, yekrəng ölkə kimi qalır. Mədəni eynilik əhəmiyyətli dərəcədə mədəni-siyasi yeknəsəqlikdir. Məsələn, doxsanıncı illərə qədər Norveçdə ancaq bir dövlət televiziya kanalı var idi. Bundan əlavə mədəniyyətin bir neçə sahəsi adamları ümumi maraqlarla birləşdirən ancaq bir milli təşkilatın təsiri altındadır. Başqa ölkələrdə çoxlu kiçik təşkilatlar tez-tez eyni bir sahədə fəaliyyət göstərirlər. Bu, incəsənətin çox sahələrinə, eləcə də idmana aiddir.

*Oxşarlıq və fərqlər*

Nəticə kimi, icazə verin, Norveçin mədəniyyət siyasətini yuxarıda göstərilənlər və bəzi beynəlxalq parametrlərlə müqayisə edim.

1. Birinci biz qeyd edirik ki, skandinaviya ölkələrində, Norveç də daxil olmaqla, mədəniyyətə dövlət dəstəyinin səviyyəsi başqa ölkələrə nisbətən yuxarıdır. Amma əsas beynəlxalq uyğunsuzluq bir tərəfdən skandinaviya və kontinental mədəniyyət ölkələri (məsələn, Almaniya, Fransa, Avstriya və Hollandiya) və digər tərəfdən ingilis – amerikan dünyası ilə gedir. Deməli, bu sistemlər ya səxavətli dövlət maliyyə yardımlarına, ya da hamiliyə və pul ianəsinə əsaslanmışdır.
2. Müdaxilə etməmək prinsipi ondan ibarətdir ki, incəsənət dünyası və siyasət dünyası ayrı olmalıdır. Bu prinsip Britaniyada güclü inkişaf etmişdir. Fransada isə mədəniyyət naziri birbaşa mədəniyyət dünyasına müdaxilə edir.

Norveç və başqa skandinaviya ölkələri hardasa bu iki kənar vəziyyət arasındadır.

3. Bərabərlik prinsipinə əsaslanan eqalitar dəyərlərin Norveçin mədəniyyət siyasətinə başqa ölkələrə nisbətən daha böyük təsiri vardır. Fərdi mədəniyyət işçilərinə aid siyasət - sosial ödəmələrə əsaslanan ayrı-ayrı artistlərə birbaşa kömək sistemidir. Belə yanaşma skandinaviya ölkələrində, xüsusən Norveçdə mövcud olan sistemi xarakterizə edir. Az-az başqa ölkələr bizim eqalitar siyasətimizlə razılaşırlar və bir çoxları hətta onu tənqid edirlər ki, o, keyfiyyəti kəmiyyətə qurban verir.

4. Yekun: mədəniyyət haqqında yerli müzakirələrdə tez-tez deyirlər ki, Norveç başqa ölkələrdən ona görə fərqlənir ki, biz, necə deyərlər, mədəniyyətin genişləndirilmiş konsepsiyasını tətbiq edirik. Yetmişinci illərdən idman və ictimai-mədəni fəaliyyətin müxtəlif növləri mədəniyyət sahəsinə aid edilir. Beləliklə "mədəniyyət" anlayışı Norveçdə daha geniş məna kəsb edir.

Mən indicə sizi Norveç mədəniyyət siyasəti haqqında geniş məlumatla tanış etdim, ancaq başqa ölkələrlə müqayisədə Norveç nümunəsi model kimi xidmət edə bilər və deməli müəyyən maraq kəsb etməlidir.





## Fransanın mədəniyyət siyasəti

Mədəniyyət - hər bir fərdin və cəmiyyətin inkişafının ayrılmaz hissəsi, mədəni sərvətləri və ənənələri başqa xalqlarla bölüşmək istəyi olmaqla təbii və çox önəmli amildir.

Fransanın mədəniyyət siyasətində xarici dövlətlərlə münasibətlərin inkişafına mühüm və əhəmiyyətli yer ayrılır. Bu münasibətlər mədəniyyətin inkişafına kömək və ya mədəni mübadilə kimi müxtəlif rakurslarda təzahür edir.

Bu və ya digər ölkədə Fransanın mədəniyyət siyasəti həmin ölkənin hansı istiqamətdə mədəni əməkdaşlığı inkişaf etdirmək istəyindən asılıdır.

Başqa ölkələrdə Fransanın mədəniyyət siyasəti əsasən Xarici İşlər Nazirliyi və müxtəlif qeyri-hökumət təşkilatları vasitəsilə həyata keçirilir.

Mən öz çıxışımda Fransa Xarici İşlər Nazirliyinin xaricdə Fransanın Mədəniyyət siyasətinin yayılmasında necə vasitəçilik etməsi haqqında danışmaq istəyirəm.

Fransa Səfirliyinin nümayəndəliyi olan hər bir ölkədə, səfirlik yanında Mədəni əməkdaşlıq şöbəsi, Mədəniyyət üzrə müşavir, müxtəlif sahələr üzrə bir neçə attaşe və digər əməkdaşlar vardır.

Böyük ölkələrdə müxtəlif şəhərlərdə Fransa Xarici İşlər Nazirliyinin tabeçiliyində olan Mədəniyyət mərkəzləri fəaliyyət göstərə bilər.

Bildiyiniz kimi Fransanın Azərbaycandakı Səfirliyində əməkdaşlıq və mədəniyyət şöbəsi və müasir Fransa haqqında informasiya mərkəzi fəaliyyət göstərir. Bəzi ölkələrdə Mədəniyyət siyasəti mərkəzi ofisi Parisdə – Raspay bulvarında yerləşən, artıq 100 ildən çox müddətdə fəaliyyət göstərən "Alliances Françaises" – adlanan və yerli kadrlar tərəfindən

idarə olunan qurumlar tərəfindən həyata keçirilir ki, onların da fəaliyyəti mərkəzi ofis tərəfindən koordinasiya edilir.

Başqa ölkələrlə bütün münasibətlər əməkdaşlıq ruhunda qurulur. Son bir neçə ildə mədəniyyət siyasəti müddəti, adətən, 2-3 il və müəyyən məqsədi olan müxtəlif konkret layihələr üzrə həyata keçirilir. Layihə bitdikdən sonra onu konkret nəticələrə görə qiymətləndirmək olar. Layihələr vasitəsilə aparılan mədəniyyət siyasəti daha effektiv olub heç də həmişə qarşılıqlı əlaqəsi olmayan mədəni tədbirlərdən ibarət əvvəlki siyasətdən fərqlənir. Bu və ya digər mədəni layihənin məqsədi və müddətini, adətən, tərəflər birgə müəyyən edir. Belə layihələr əsasən Fransa hökuməti tərəfindən maliyyələşdirilir, lakin xərclərin ödənilməsində tərəfdaşlıq edən yerli təşkilatın və ya institutun iştirakı vacib hesab olunur. Belə layihələrlə yanaşı biz, əlbəttə, ayrıca tədbirlər də həyata keçiririk və bununla da həmin sahədə fəaliyyətin müntəzəmliyi təmin olunur.

Hər hansı layihə fransalı ekspertlərin dəvət olunaraq həmkarları ilə görüşü formasında həyata keçirilir. Yerli mütəxəssislər staj keçmək üçün Fransaya göndərilir, layihə çərçivəsində Fransada təhsil alaraq ölkəyə qayıdıb layihənin yerinə yetirilməsində iştirak edəcək tələbələr üçün təqaüdlərin verilməsi də mümkündür.

Mən əməkdaşlığın əsas prinsiplərini, elementlərini göstərdim. Mədəniyyət siyasəti dedikdə, mən mədəniyyət sözünü ən geniş mənada nəzərdə tuturam: incəsənətin müxtəlif növləri, elm, təhsil, yeni kadrların yetişdirilməsi və s.

Azərbaycanla mədəni əməkdaşlıq Azərbaycanın müstəqilliyi ilə başlanmışdır. Xüsusilə qeyd etmək istərdim ki, Azərbaycan çox qədim mədəni ənənələri olan gənc, müstəqil ölkədir və sizin bütün dünyaya nümayiş etdirməli çox nailiyyətləriniz var.



Müstəqil Azərbaycanla əməkdaşlığa biz müstəqil hüquqi dövlətin yaradılması sahəsində başlamışıq: diplomatlar, siyasi xadimlər, jurnalistlər və digər dövlət məmurları fransız hökumətinin təcrübəsi ilə tanış olmaq üçün imkan əldə etmişlər. Sonra onların istəyi ilə biz müxtəlif təcrübə kursları təşkil edirik.

Hal-hazırda biz jurnalistlər üçün Regional kəsilməz təhsil mərkəzi yaratmaq üçün çox maraqlı birgə layihə üzərində işləyirik. Bu mərkəzdə Azərbaycan jurnalistləri ilə yanaşı bütün regionun – Qafqaz, Orta Asiya, Türkiyə və digər ölkələrin jurnalistləri də müasir jurnalistika texnologiyalarını öyrənəcəklər.

Ötən həftə biz Azərbaycan Daxili İşlər Nazirliyi ilə birlikdə "Qəlp pullar" adlı təcrübə kursuna yekun vurduq.

XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı planetin aparıcı neft şəhərlərindən biri olmuşdur. Biz indi də səylərimizi Azərbaycan mütəxəssislərinin bu sahədə yeni texnologiyalarla tanış olmasına yönəldirik.

Təhsil sahəsində də çox böyük işlər görülmüşdür. Biz öz səyimizi əsasən Azərbaycanda fransız dilinin tədrisini inkişafına yönəltmişik: Avropa standartlarına uyğun olaraq fransız dili müəllimlərinin ibtidai təhsili, rayonların çoxunda kəsilməz təhsil verən məktəb-mərkəzlərin yaradılması, avropalı ekspertlərlə birlikdə orta məktəblər üçün yeni fransız dili dərsliklərinin yaradılması. Təkcə fransız dilinin tədrisi deyil, təhsilin pedaqogikasının digər problemləri sahəsində də əməkdaşlığımız məhsuldar inkişaf etməkdədir. Radio və televiziya - əməkdaşlığın prioritet istiqamətlərindəndir.

# Yaponiyanın mədəniyyət siyasəti

## 1. 1868-ci ildə Meydzi restavrasiyası

1867-68-ci illərdə Tokuqava dövrü Meydzi restavrasiyasını başa çatdırdı. İmperator Meydzi Kioto şəhərindən yeni paytaxta - Tokioya köçdü; onun imperator hakimiyyəti bərpa oldu. Əsl siyasi hakimiyyət Tokuqava Bakufunun əlindən kiçik qrup zadəganların və keçmiş samurayların əlinə keçdi. Restavrasiyanı həyata keçirən gənc samuraylar ölkəni qoruyub saxlamaq, yaxşılaşdırmaq və gücləndirmək istəyirdilər. Bütün Meydzi dövründə (1868-1912) bu proses sürətlə irəliləyirdi. Yaponiyanın yeni rəhbərliyinin şüarı *fukoku kyohey* (Ölkəni Zənginləşdirmək, Hərbi Gücləndirmək) idi. Bu, sosial, siyasi, iqtisadi və mədəni institutların Qərbi Avropa cəmiyyəti tərzində islahatları demək idi. Meydzi Yaponiyası Yaponiya ilə Qərb hakimiyyəti arasındakı məsafəni daraltmağa çalışırdı. Siyasətin bütün sahələrində qətiyyətli islahatlar keçirildi. Bu dövr haqqında geniş məlumat vermək məqsədilə bəzi misallar göstərmək yerinə düşərdi. İyirmi il ərzində Meydzi Yaponiyasının rəhbərləri imperator institutlarının dəyişdirilməsi üçün praqmatik siyasi eksperimentlər etmək imkanına malik oldular. 1889-cu il 11 fevralda Meydzi Yaponiyasının Konstitusiyasının elan olunması ilə imperator mərkəzləşmiş və unitar dövlətdən konstitusiya monarxiyasına qayıtdı. Bu, eyni zamanda həm də böyük siyasi hakimiyyətin Yapon tarixində bəzi əvvəlki dövlət formaları ilə müqayisədə sınaqdan çıxması idi.

Meydzi dövrü ərzində (1868-1912) kabinet sisteminin yaradılması, 1887-ci ildə N0.37 saylı imperator dekretinin (Kanri Fukumu Kiritsu) və 1889-cu ildə İmperator Yaponiyasının Konstitusiyasının qəbul olunması Prussiya modelinə əsaslanan milli bürokratiyanın konturlarının əsasını qoydu. Meydzi rejiminin yaradıcıları güclü parlamentə, yerli avtonomiyaya və partiyalı hökumətə, milli birliyə və şəhər sənayeləşməsinə təhlükə kimi baxırdılar.



Həmin dövrdəki beynəlxalq mədəni mübadilə haqqında da danışmaq yerinə düşərdi. O dövrdə müasir Qərbi Avropa mədəniyyətinin Yaponiyaya gətirilməsi məsələsi çox ağır idi. Sonrakı dövrlərə nisbətən o zaman, xarici ölkələrlə mədəni mübadilə etmək imkanı çox məhdud idi. Digər tərəfdən Yaponiya beynəlxalq mədəni münasibətlərin genişlənməsinə çox həvəsli idi. Baxmayaraq ki, Yapon hakimiyyəti hələ də Qərb millətləri ilə müqayisədə xeyli zəif idi, mədəni münasibətlərin inkişafına güclü meyl var idi. Bu prosesin icraçılarının fəaliyyəti həm dövlət, həm də dövlət himayəsində olan təşkilatlar tərəfindən məhdudlaşdırılsa da, bu fəaliyyət təkmilləşir və Yaponiyanın beynəlxalq mövqelərinin yaxşılaşdırılması həmişə əsas məqsəd kimi qalırdı.

Toa Dobunkay (Ümumi Şərqi Asiya Mədəniyyəti Cəmiyyəti; 1898-ci ildə əsası qoyulub) Çinlə əlaqələr yaratmış və əsasən Qərb ölkələrinə yönəlmiş bir çox ikitərəfli cəmiyyətlərin əsasını qoymuşdur.

(Göstərilənlərə əlavə edək ki, 1890-cı ildən 1910-cu ilə kimi yapon cəmiyyətinin təkmilləşdirilməsi xüsusilə sürətlə gedirdi. XX əsrin ilk illərində Yaponiyada sənaye inqilabı əsasən başa çatdı və Yaponiya müasir dövlətin ümumi cizgilərini əldə etdi. Müstəsna inkişaf sürətinə və əldə etdiyi nailiyyətlərinə görə 1919-cu il Paris konfransında ölkə dünyanın ən qüdrətli beş dövləti sırasına daxil oldu. Meydzi inqilabından sonra yapon mədəniyyətinin inkişafının ən vacib amili elmin qabaqlayıcı inkişafı oldu. Maariflənmə vasitəsilə müasir elmə əsaslanan rasional biliklər və rasional ruh geniş əhali təbəqələri arasında yayıldı. 1945-ci ildən sonra "ölkənin ikinci kəşfi" adlandırılan dövrdə Yaponiyada burjua demokratiyası prinsiplərinə əsaslanan, ölkənin yüksək dərəcədə təkmilləşməsinə imkan yaratmış və Yaponiyanı dünya inkişafının liderləri sırasına çıxarmış yeni konstitusiya qəbul edildi.- *red.*)

## 2. Mədəniyyət siyasəti

Yaponiyanın hazırki mədəniyyət siyasətinin bəzi aspektlərinə baxaq. Yaponiyanın cari mədəniyyət siyasəti cəmiyyətin mənəvi zənginləşməsinə və dünyada Yapon mədəniyyətinin üstünlüyünə nail olmağa yönəlmişdir. Bu, Yapon dövlətinin mədəni inkişafda 5 əsas siyasi xətti ilə təyin olunur.

*a) Milli xüsusiyyətlərin qorunması və istifadəsi*

Mədəni xüsusiyyətlər Yapon tarixini və mədəniyyətini düzgün başa düşmək üçün zəruri olan milli göstəricilərlə xarakterizə olunur. Buna görə də onların lazımi şəkildə qorunub saxlanması və istifadə olunması hədsiz vacibdir və bu üsulla gələcək nəsillərə çatdırıla bilər.

Mədəni İrsin Qorunması haqqında Qanuna əsaslanaraq, Yapon dövləti mədəni xüsusiyyətləri aşağıdakı kateqoriyalara ayırır: Milli Xəzinə, Vacib Mədəni Xüsusiyyətlər, Tarixi İncəsənət Yerləri, Təbii Monumentlər. Yapon hökuməti mədəni irsi təhlükəli vəziyyətlərdən qoruyur, bərpa edir, saxlayır, qazıntı işləri aparır, tarixi əsərləri satın alır, onları bərpa edir və bir çox başqa tədbirlər həyata keçirir.

Mədəni marağın yaradılması üçün Yapon hökuməti qorunma üsullarını rəngarəng edir, məsələn, xüsusi qeydiyyat sistemləri tətbiq edir. Bu, xüsusi mədəni keyfiyyətlərin (teatr, musiqi və sənətkarlıq incəlikləri kimi), xalq mədəniyyəti xüsusiyyətlərinin (il dönümləri və bədii ifaçılıq) və həmçinin gələcək üçün peşəkarların hazırlanmasına diqqət yönəltməyin yüksək səviyyədə saxlanmasına imkan verir.

*b) Mədəni imkanlar*

Əsas milli muzeylər öz kolleksiyalarını nümayiş etdirir, incəsənət sahəsində ən vacib işlərin tədqiqatını aparır, onların qorunub saxlanmasında iştirak edirlər.



Milli Teatr Kabuki, Noh və Bunraku kimi ənənəvi Yapon mədəniyyətini nümayiş etdirir və gələcək üçün mütəxəssislər hazırlayır.

Yeni Milli Teatr opera, rəqs və teatr ifaçılığının müasir səviyyəsini təqdim edir və opera müğənniləri üçün xüsusi tədris proqramları aparır.

Milli Mədəni Xüsusiyyətlərin Tədqiqat İnstitutu mədəniyyət xüsusiyyətləri üzrə tədqiqatlar aparır və beynəlxalq əməkdaşlıq layihələrində iştirak edir.

Milli Dilin Tədqiqat İnstitutu Akademik tədqiqatlar yerinə yetirir və Yapon dilinə, "xalqın həyat dilinə" aid araşdırmalar aparır.

*v) Milli dil siyasətinə yardım*

Yapon hökuməti günün tələblərinə cavab verən və dilin istifadəsinə həsr olunmuş nəşrlərə diqqət yetirir və onları öyrənir. O həmçinin "xalqın həyat dilinin" daha da təkmilləşdirilməsi üçün milli dildə yazını öyrənir. Bundan əlavə, Yaponiyada və ondan kənarda Yapon dilini öyrənən əcnəbilərin sayının artması ilə əlaqədar olaraq Yapon dilini öyrənilməsinə yardım siyasəti yeridir.

*q) İncəsənətin dəstəklənməsi*

İncəsənətin dəstəklənməsi üçün elə şərait yaradılmalıdır ki, ayrı-ayrı incəsənət adamları və incəsənət təşkilatları sərbəst yaradıcı fəaliyyət göstərmək imkanına malik olsunlar və belə mədəni fəaliyyət bütün xalq üçün mümkün olsun. Bu üsulla Yaponiya hökuməti incəsənət adamlarını inkişaf etdirən və öyrədən yaradıcı incəsənət fəaliyyətini dəstəkləyir, həmçinin yerli mədəni fəaliyyətə o cümlədən uşaqlara aid olan, mədəni imkanları zənginləşdirən hər cür fəaliyyətə yardım edir.

Bundan əlavə, milli maddi yardımlar və özəl sektor hesabına maliyyələşdirilən Yaponiya İncəsənət Fondu bu yardımları müxtəlif sahələrdə köməklik etmək üçün istifadə edir.

*d) Müəlliflik hüququ*

Müəlliflik Hüquqları Mərkəzi tərəfindən dəstəklənən bir çox müxtəlif tədqiqatlar informasiya texnologiyalarının hazırki inkişafının nəticəsi kimi meydana çıxmış müəlliflik hüqüqları və müəlliflik hüqüqları müdafiə olunan işlərin ətrafındakı vəziyyətin sürətlə dəyişilməsi ilə bağlıdır. Müəlliflik hüquqları haqqında məlumatların artması ilə əlaqədar olaraq hər il ölkənin bütün regionlarında belə hüqüqları verən idarələr yaradılır.

Eyni zamanda Yaponiya Ümumdünya İntellektual Mülkiyyəti Təşkilatı ilə əlaqədə elektron kommersiyanın və İnternetin inkişafı nəticəsində meydana çıxmış müəlliflik hüququ barədə beynəlxalq nəşrlərə müvafiq olan yeni qaydaların formalaşdırılmasında fəal rol oynayır. Bundan başqa, Yaponiya digər ölkələrdə, xüsusilə də Asiya regionu ölkələrində müəlliflik hüququ sisteminin yaradılması üçün müxtəlif kooperativ layihələrdə də iştirak edir.

3. Yuxarıda bəhs etdiyimiz siyasətlə əlaqədar olaraq **Beynəlxalq Mədəni Mübadilə** Yapon mədəniyyətində əhəmiyyətli yer tutur. Yaponiyanın xarici kontaktlar üçün artıq açıq olduğu XIX əsrin sonu və I Dünya Müharibəsi arasındakı dövrdə Yaponiya Qərb Mədəniyyətinin ölkəyə daxil olmasına öz mədəniyyətinin xaricə yayılmasına nisbətən daha az fikir verirdi. Bu gərgin dövrdən sonra Qərb modeli əsasında müasir dövlət qurmaq niyyəti üstünlük təşkil etdi. I Dünya Müharibəsindən sonra mədəni mübadilə vasitəsilə Yaponiyanın anlanmasının vacibliyi etiraf olundu və 1934-cü ildə Beynəlxalq Mədəni Əlaqələr Cəmiyyətinin əsası qoyuldu.

II Dünya Müharibəsindən sonra güclü iqtisadi inkişaf və Yaponiyanın beynəlxalq aləmdə rolunun artması xarici ölkələr arasında Yapon mədəniyyəti və cəmiyyətinə qarşı böyük maraq doğurdu. Yaponiyanın beynəlxalq mədəni münasibətlərini daha da sistematik əsasa keçirmək üçün Yapon hökuməti 1972-ci ildə yeni mədəni mübadilə təşkilatı – Yapon Fondunu



yaratdı. Hökumət tərəfindən Yaponiyanın Beynəlxalq Mədəni Mübadilə sahəsində fəaliyyətinə başlıca olaraq Xarici İşlər Nazirliyinin Mədəniyyət Departamenti və Təhsil Nazirliyinin Elm və Beynəlxalq Əlaqələr Bürosu rəhbərlik edir. Bundan əlavə bu nazirliklərə birləşdirilmiş iki ictimai korporasiya da – Yapon Fondu və Yaponiya Elmə Yardım Cəmiyyəti – fəaliyyət göstərir ki, bunların da əsas funsiyaları aşağıdakılardır:

1) Tələbələr, müəllimlər və tərbiyəçilər daxil olmaqla təhsil mübadiləsi.
2) Alimlər və tədqiqatçılar daxil olmaqla akademik mübadilə. Bu zaman Yapon dilinin öyrənilməsinə və Yapon dilinin xaricdə tədris olunmasına yardım etmək də nəzərdə tutulur.
3) İncəsənət xadimlərinin, incəsənət əsərlərinin və həmçinin incəsənət üzrə vizual və ifaçılıq proqramlarının sponsorluğu da daxil olmaqla incəsənət sahəsində mübadilə.
4) Kitab, filmlər, radio və teleproqramlar da daxil olmaqla maddi xarakterli mədəni mübadilə.
5) UNESCO ilə, Cənub-şərqi Asiya Təhsil Nazirlikləri təşkilatı və digər beynəlxalq mədəniyyət təşkilatları ilə kooperasiya çərçivəsində çoxtərəfili mədəni mübadilə.

Hazırda beynəlxalq mədəni mübadilənin dəstəklənməsində iştirak edən 500-ə yaxın özəl təşkilat və fondlar mövcuddur. Belə təşkilatlardan Beynəlxalq Yaponiya Evini, Yapon Beynəlxalq Mübadilə Assosiasiyasını, Hoso Bunka Fondunu, Toyota Fondunu və Yoşida Beynəlxalq Təhsil Fondunu göstərmək olar.

Meydzi restavrasiya dövründən başlayarq artıq 150 ildir ki, Yaponiyada mədəniyyət siyasəti və beynəlxalq mədəni mübadilə mövcuddur. Ümid etmək olar ki, bu məlumat Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşması üçün faydalı ola bilər.

*Sergey Adasinski*
*(Rusiya Federasiyası)*

## Rusiyada mədəniyyət quruculuğunun müasir təcrübəsi – regionlaşdırma problemi

**Giriş.** Totalitarizmdən demokratiyaya keçid kimi təntənəli surətdə elan edilən Rusiyanın müasir siyasi həyatı ictimai həyatın bütün sahələrində əhəmiyyətli dəyişikliklər nəzərdə tutur. Sovet vaxtında çox qeyri-səlis və özünəməxsus sərt mərkəzləşmiş ideoloji nəzarət altında olan mədəniyyət sahəsi üçün islahatın zərurəti hələ 70-80-cı illərdə aşkar idi. Artıq o zaman işlərin forma və üsullarının əhalinin ehtiyac və tələbatından tədricən uzaqlaşması baş vermişdi.

Təbliğ edilən və ən əsası, mədəniyyətin inkişafını aktiv reallaşdıran maarifçilik yanaşması Sovet cəmiyyətinin əsas hissəsinin artan mədəni tələbatı ilə ziddiyyətə girdi. Bu toqquşmanı alimlər və praktiki mədəniyyət işçiləri müşahidə edirdilər, ancaq idarəetmənin real praktikası olduğu kimi qalmışdı. Təəssüf ki, bunun nəticələri indiyə qədər hiss olunur, onları bir dəfəyə aradan qaldırmaq olmaz – indiyə qədər ölkədə zal ilə bir yerdə qeyri-formal ünsiyyət və dərnək işçiləri üçün otaqları az olan klub idarələri çoxluq təşkil edir, çoxzallı kinoteatrlara isə tək-tək rast gəlinir və bu reallıqla hesablaşmalı olursan. Bu vəziyyət obyektivdir və yalnız vaxt keçdikcə dəyişə bilər.

60-70-ci illərdən başlayaraq mədəniyyətin bütün sahələrinin işində auditoriyanın tələbatlarını nəzərə almağın lazımlığı deyilib və müvəffəqiyyətlər vardır. Mədəniyyət idarə və müəssisələrinin (aşağıda - obyektlərin) çoxunun real praktiki işləri əhəmiyyətli dərəcədə əhalinin tələbatına yönəldilmişdir. Onlara yeni idarəetmə üsulları, hər şeydən də əvvəl mədəniyyət idarələrində tətbiq edilmiş maliyyə idarəetmə üsulu kömək etmişdir.



Təbliğ olunan ideoloji baxışlara sadiqlik müəyyən zamandan başlayaraq real auditoriyanın tamamilə təbii müxtəlif meyllərini və tələbatlarını tədricən reallaşdırmağa keçmək üçün bir şirma idi. Bu dəyişikliklərin təzahürü mədəniyyət sahəsində hətta indiyə qədər ideoloji diversiya sayılan müxtəlif özfəaliyyət hərəkatlarının ("andeqraund", müxtəlif rok-ansambllar, VİA, özfəaliyyət mahnıları hərəkatı və i.a.) əvvəlcə faktiki, sonra isə rəsmi leqallaşdırılmasıdır.

"Aşkarlıq" və demokratikləşdirmə dövründə siyasi təsisatların dəyişməsindən elə güman etmək olardı ki, auditoriyanın ölkənin mədəni həyatının dinamikasına birbaşa təsiri daha da artacaq, mədəniyyət sahəsinin və əhalinin mədəniyyət tələbatlarına yaxınlaşması prosesi davam edəcəkdir. Təbii olaraq işin o istiqamət və formalarının inkişafını gözləmək olardı ki, o, "aşağının" təşəbbüsü ilə onların arzusunu əks etdirsin. Təəssüf ki, bu mərhələ ölkədə mədəniyyət, incəsənət və asudə vaxt istifadəsinin struktur və idarəetmə üsullarında ciddi dəyişikliklərə səbəb olmadı.

Rusiyanın müstəqilliyinin və dövlət quruluşunun federativ əsaslarının təntənə ilə elan edilməsi formal olaraq bu sahəyə ciddi təsir göstərdi, ancaq hər halda deklarativ xarakter daşıdı. Dövlət strukturu ilə - yuxarıdan aşağıya - mədəniyyət sahəsinə o hissə ayrılmışdı ki, birbaşa əhali ilə işləməyə istiqamətlənmişdir, yəni bələdiyyələrə. Rayonlarda, şəhərlərdə mədəniyyətin keçmiş dövlət şəbəkəsi – bütün mədəniyyət maarifçiliyi, muzeylərin çoxusu, teatrların bir hissəsi ona aid edilmişdir. Əslində teatrların əsas hissəsindən başqa konsert təşkilatları və kollektivlərinin, vilayət və ona bərabər kitabxana və muzeylərin bütün şəbəkəsi (federal və dövlət tabeçiliyində olan, yəni vilayət və dövlətin) ona aid edilir.

Amma bu və başqa obyektlərin idarəetmə funksiyaları və vəzifələri aydın bölüşdürülməmişdi. Vilayət idarələri regionun **bələdiyyələri** və **əhalisi** qarşısında hansı vəzifələr daşıyır, onlar mövcuddurlarmı, onların icrasının yoxlama sistemi necədir və ya icra olunmadığına görə bələdiyyələr tərəfindən hansı sanksiyalar tətbiq edilə bilər və i.a. təyin olunmamışdı. Eyni ilə bələdiyyələrin əhali qarşısında maliyyə, kadr və i.a. sahələrdə təminatlar üzrə onların öz ərazisindəki əhali qarşısında **öhdəliklərinin** yerinə yetirilməməsi məsuliyyətləri təyin edilməmişdi.

Yeni vəziyyətə adekvat olan idarəetmə strukturu qurulmadan, siyasi təsisatlarla paralel olaraq iqtisadi şərtlərin də dəyişməsi (səmtin planlılıqdan formal elan edilmiş bazar əsaslarına kəskin dəyişməsi) istər istehsal sahəsində, istərsə də ölkənin iqtisadiyyatında ümumiyyətlə, o cümlədən mədəniyyət sahəsi, incəsənət və asudə vaxtdan istifadədə çox neqativ nəticələrə gətirib çıxardı. Nəticədə əhalinin ictimai və mədəni aktivliyini təcəssüm etdirən təbəqəsi – ziyalılar – məlum oldu ki, iqtisadi cəhətdən ən sıxılıb əzilmişidir, bu da onun cəmiyyətin mədəni həyatına cəlb edilməsinə təsir etməyə bilməzdi.

Mədəniyyətin bəzi sahələrində mənasız iqtisadi siyasət xüsusilə kinematoqrafiyada nəhəng və əvvəllər pis təşkil olunmamış kinoistehsalın və kinoprokatın sxeminin praktik olaraq dağılmasına gətirib çıxardı. Mədəniyyət sahəsinin texniki təchizatının yeniləşdirilməsi işi praktiki olaraq aradan çıxdı, texnikanın gəlirli formaları bizim sahədən kənarda qaldı (hər şeydən qabaq - oyun avtomatları).

Ənənəvi olaraq texniki və kadr baxımından ən mükəmməl mədəniyyət obyektləri olan sarayları və mədəniyyət evlərini, kitabxanaları, stadionları və i.a. öz balansında saxlayan sənaye müəssisələri bu "yük"dən azad olaraq onu öz öhdəsinə götürməmək məcburiyyətində qaldılar, yaxşı halda



yerli hakimiyyət orqanlarının balansına verdilər, pis halda isə bağladılar və ya onların profilini dəyişdilər. Onların çoxu formal olaraq mədəni profilini saxlasa da (vergi güzəştlərini saxlamaq məqsədilə), real olaraq fəaliyyətinin başlıca hissəsi heç də mədəniyyət olmayan kompleks kommersiya müəssisələrinə çevrildilər.

Sovet vaxtlarında mədəniyyətin "dövlətləşdirilməsi" haqqında açıqcasına neqativ çalarda danışılırdı. Ancaq mədəniyyət obyektlərinin strukturu kifayət qədər diversifikasiya olunmuşdu – dövlət obyektləri ilə bərabər ya əhalinin, ya da müəssisələrin tələbatlarına bu və ya digər dərəcədə yönəldilmiş həmkarlar ittifaqlarının, kolxozların və digər strukturların şəbəkələri hələ də fəaliyyət göstərirdilər. Buna onların dövlət orqanlarının mədəniyyət idarələrinə metodoloji tabeçilikdə olmaları heç mane olmurdu.

Bu gün formal olaraq mədəniyyətin "dövlət" sahəsi daralmışdır – mədəniyyət obyektlərinin çoxusu bələdiyyə statusu almışdır. Amma sual yaranır, bu "yeni" tabeçilik tam mənada indi təntənə ilə elan edilən demokratiyaya, daha doğrusu xalq hakimiyyəti prinsipinə uyğun gəlirmi? İndi mövcud olan mədəniyyət obyektləri şəbəkəsinin kifayətlilik dərəcəsi, klub və kitabxanaların texniki və tematik təchizatı, fəaliyyətin seçilən istiqamətinin məntiqliyi və ya düzgünlüyü haqqında və i.a. əhalinin rəyi nəzərə alınırmı. Ələlxüsus əgər nəzərə alınsa ki, yeni yerli - bələdiyyə idarəetməsinin strukturu idarəetmə kadrlarının seçilməsinin köhnə sistemini dağıtmışdır, yenisinin isə səmərəliliyi hələ də sual altındadır.

Biz müasir mədəniyyətin inkişafının bəzi xüsusiyyətlərini izləməyə cəhd edəcəyik.

Hər şeydən öncə qeyd edək ki, əvvəllər mövcud olan nisbətən vahid mədəniyyət, incəsənət və asudə vaxt sistemi ciddi dağılmışdır və həqiqətdə idarəetmə sistemindən məh-

rumdur. Belə ki, əvvəllər filarmoniyalar vasitəsilə idarə olunan ifaçılıq incəsənəti hissəsi, əvvəlki kimi dövlət və bələdiyyə tərəfindən aparılan filarmoniya fəaliyyətinə və necə deyərlər "şoubiznes"ə, son dərəcə inhisarlaşmış, xeyli dərəcədə kriminallaşmış, praktiki olaraq dövlət idarəetmə orqanları tərəfindən nəzarət olunmayan fəaliyyətə parçalanmış oldu. Bu gün heç kəs deyə bilməz ki, ölkədə keçmiş estrada janrında neçə konsert verilmişdir, onlarda nə qədər tamaşaçı olmuşdur, qiymətlərin səviyyəsi necədir və i.a.

Audio və video-məhsulların istehsal və satış sistemi hər hansı dövlət (o cümlədən vergi və statistik) nəzarətindən kənarda qalıb və şairlərin, bəstəkarların və ifaçıların müəlliflik hüququ kütləvi surətdə pozulur, belə hal bu sahənin inkişafına təsir etməmiş olmur. Oyun avtomatlarının yayılma və gəlir dərəcəsi haqqında məlumat sıfıra yaxınlaşır və i.a. Beləliklə ölkənin mədəniyyət sahəsinin vəziyyətinin hər hansı araşdırılması cəhdi qabaqcadan məlumdur ki, tam olmayacaq və deməli yanlışdır. Buna baxmayaraq analiz faydasız olmaya bilər.

## MƏDƏNİYYƏT SAHƏSİNİN İNKİŞAF DİNAMİKASI

*MƏDƏNİ-MAARİF İDARƏLƏRİ.* Mədəni-maarif idarələri üzrə statistikanın analizi göstərir ki, XX əsrin axırıncı onilliyi ərzində Rusiya Federasiyasında onların sayı və strukturu xeyli dəyişilmişdir. Hər şeydən əvvəl ümumi say azalmışdır: klub idarələri – 20 minə qədər və kitabxanalar – 10 minə qədər. Bu mərhələdə klublar çox bağlanmışdır, bağlı kitabxanaların sayı isə bu mərhələdə əvvəlki 10 il ərzində açılmışlara nisbətən 10 dəfə çoxalmışdır. Klubların ən çox ixtisar olunması 1992-ci ilə düşür (4156 və ya bütün bağlı klubların 30%-i), kitabxanaların isə – 1991-ci ilə (3089 və ya 35%).

Klubların və kitabxanaların idarələrə məxsusluq strukturu çox dəyişmişdir: bu dövrdə bağlanan idarələrin ümumi sayından 10% kitabxana və klub idarələri mədəniyyət nazir-



liyinə aid idilər, 90% kitabxana və klublar – sair idarələrə (müəssisələrə). Nəticədə əgər 1990-cı ildə başqa idarələrə (müəssisələrə) 23%, klub idarələrinə 19% kitabxanalar məxsus idisə, 1996-cı ilə bu göstərici həm klublar üzrə, həm də kitabxanalar üzrə – 7%-ə qədər aşağı düşmüşdü. Əvvəllər klub idarələrinin dövlət şəbəkəsi kənd yerlərində üstünlük təşkil edirdi, şəhərlərdə isə əsas hissəni həmkarlar ittifaqları idarələri təşkil edirdi, indi şəhərlərdə də klub idarələrinin üçdə ikisi – bələdiyyələrindir. Bu, idarələrin təkcə bağlanması nəticəsində deyil, həm də idarələrin məxsusiyyətinin dəyişməsi – həmkarlar ittifaqlarının, kolxozların və i.a. bir sıra mədəniyyət obyektlərinin yerli hakimiyyət orqanlarının (bələdiyyələrin) balansına verilməsinə görə belədir. Halbuki, bu sahənin tədricən "dövlətləşdirilməsi" prosesi davam edir.

Baxılan dövrdə kitabxana fondları hər il ixtisara düşürdü, 1991-ci ildə ən çox sayda kitabxanaların bağlanması baş verdi. Yalnız 1994-cü ildə fondun həcmi 60 min nüsxə və ya ondan əvvəlki ilə nisbətən 5,7%-ə qalxdı. Ancaq ümumiyyətlə on ildə fondun həcmi 100 min nüsxə və ya 7%-ə qədər ixtisara düşüb. Nəzərə almaq lazımdır ki, əgər onların səmərəli əvəz olunma sistemi olsaydı, köhnəlmiş fondların silinməsi daha çox ola bilərdi.

Bütün ədəbiyyat spektri üzrə fondların komplektləşdirilməsi çətinliklərini bu gün praktiki olaraq bütün kitabxanalar keçirlər. Ən acınacaqlısı sosial-lazımlı ədəbiyyatın - tədris, sorğu, hüquq və i.a. az tapılan olmasıdır. Həddindən çox misallar vardır ki, kitabxanaların jurnallar kənara qalsın, hətta lazımi miqdarda qəzetlərə də abunə olmağa imkanları yoxdur. Qeyd edək ki, ölkədə fərdi abunənin ümumi azalması şəraitində ancaq bu defisitin ləğv edilməsi çoxlu sayda oxucular axınına səbəb olardı.

Qeyd etmək lazımdır ki, bir çox kitabxanalar kitab fondlarını artırmaq imkanı olmadığından, silinməni azaltmışlar, bu da ümumi fondların köhnəlməsinə gətirib çıxarır. Ümumiyyətlə obyektiv demək lazımdır ki, kitabxanaların iş şəraiti çox pisləşmişdir. Şəbəkənin ixtisarı kitabxanalardan istifadə mümkünlüyünü azaltmışdır, kitab fondlarının artırılması çətinlikləri bu idarələrin cəlbediciliyinə təsir etməyə bilməzdi, özü də yaxşı tərəfə yox.

Mədəni-maarif idarələrinin kadr təminatı vəziyyəti ziddiyyətlidir. Kitabxanaların işçilərinin sayı on il ərzində təxminən 10% azalmışdır (1993-cü il müstəsna olmaqla, onların sayı hər il 2-7% azalmışdır). Klub idarələrinin ümumi miqdarı azaldığı halda burada ödənişlə işləyən mədəni maarif işçilərinin sayı hər il çoxalırdı və ümumiyyətlə artmışdır.

Mədəni-maarif işinin "infrastrukturunun" analizindən, onun fəaliyyətinin göstəricilərinə keçdikdə bir çox suallar yaranır. Belə ki, şəbəkədən fərqli olaraq kitabxanaların istifadəsi ilə bağlı vəziyyət daha da mürəkkəbdir. Mədəniyyət Nazirliyinin kitabxanalar sistemində oxucuların sayı 1994-cü ilədək (1993-cü il müstəsna olmaqla) hər il azalırdı. Amma sonralar əks təmayül üzə çıxmağa başladı. İndi oxucuların az miqdarda artdığını deməyə imkan var (demək olar ki, 1 milyon nəfərə qədər). Bu dövrdə oxumağa verilən kitab, jurnal və kitabçalar daha çox – 6% artmışdır, bu halda verilən həcmin əsas artımı 1994-1996-cı illərə təsadüf edir. Yuxarıda deyilən bütün neqativ hallara – şəbəkənin ixtisara düşməsi, fondların azalması və köhnəlməsi vəziyyətinə baxmayaraq, görünür oxucuların kitabxanaya qayıtma prosesinin başlanğıcı haqqında danışmaq olar.

Klub tipli müəssisələr üzrə də nə isə yaxın vəziyyət qeyd edilir və on il ərzində idarələrə məxsus klubların sayı çox az da olsa artmışdır - təxminən 5% (1993-cü ilədək o hər il



azalmışdır). Eləcə də orada olan iştirakçıların sayı hər il üzrə dəyişərək, bütövlükdə artmışdır (Rusiya Federasiyasının bütün klub idarələri üzrə). Qeyd edək ki, bu işin hər iki növü üzrə fəaliyyətin göstəricilərində dönüş vəziyyəti 1994-1995-ci illərə düşür.

***Altbölmə üzrə nəticələr:*** *mədəni-maarif fəaliyyətinə aşkar surətdə marağın artmasına baxmayaraq klub idarələri və kitabxana şəbəkəsi azalır, onların işlərinin texniki və məlumat təminatı pisləşir, bu sahənin dövlətləşdirilməsi prosesi davam edir, alternativ obyektlər və onların iş forması praktiki olaraq yoxdur. Daha doğrusu bütün 70-80-cı illərdə mövcud olan problemlər nəinki aradan qaldırılıb, hətta daha da dərinləşib.*

Klub və kitabxana idarələrinin, kitabxana fondları həcmlərinin həddindən çox sayda ixtisar olması fonunda **muzeylərin** vəziyyəti xeyli daha müvəffəqiyyətli idi, onların miqdarı (filialları nəzərə almaqla) nəinki azalmışdı, hətta onilliyin axırında artmışdı. Eləcə də muzeylərin işini xarakterizə edən bir sıra göstəricilər də artmışdı: işçilərin sayı, hər il açılan sərgilərin sayı, oxunan mühazirələr, əsas fondun eksponatlarının sayı artmışdır (ancaq 1991-ci il müstəsna olmuşdur). Amma bununla bərabər, baxılan dövrdə bu müəssisələrə gələnlərin miqdarı 25%-dən artıq azalmışdır.

Bu azalma ən çoxu 1991 və 1992-ci illərdə olmuşdur. Gələnlərin sayının artımı 1993-1995-ci illərdə qeyd edilmişdir, ancaq 1996-cı ildə yeni enmə – əvvəlki illə müqayisədə 10%-ə qədər azalma baş verdi. Nəticədə 10 il ərzində muzeylərə gələnlərin sayının azalması, əvvəlki 10 ildə bu göstəricinin artmasına nisbətən daha çoxdur. Təşkil olunma forması üzrə işlərdə də dinamika az həyəcanlı olmamışdır, məsələn, ekskursiyaların sayı təxminən 2 dəfə aşağı düşmüşdür.

1991-1994-cü illərdə pullu xidmətlərdən daxil olan vəsait mədəniyyət təşkilatlarının bütün maliyyə vəsaitlərinin

formalaşmasında cüzi rol oynamışdır. Ən çox ixtisar bu dövrdə muzeylərdə edilmişdir - 2/3-dən çox, klub idarələrində təxminən 10%-ə qədər, daxil olan vəsaitlərin ən aşağı faizi qeyd edilən kitabxanalarda isə o iki dəfəyə qədər artdı, bu da onların kompüterlərlə və çoxaldıcı texnika ilə təchizatının artmasının nəticəsidir. Qeyd etmək lazımdır ki, kompüterlərlə təchizat xüsusi federal proqram çərçivəsində aparılmışdır. Kitabxanalarda və klublarda pullu xidmətdən daxil olan vəsaitin xüsusi çəkisinin artması bu idarələrin qeyri-profil fəaliyyətlərinin genişlənməsi hesabına da mümkündür.

***Altbölmə üzrə nəticələr:*** *muzeylərin şəbəkəsinin və miqdarının artması auditoriyanın onlara uyğun maraqları ilə müşayiət olunmur, onların işinin maliyyələşdirilməsi ilə, xüsusən fondların doldurulması, formalaşdırılması və yeni sərgilərin və ekspozisiyaların təşkil edilməsi ilə bağlı ciddi problemlər mövcuddur.*

*TEATR-TAMAŞA MÜƏSSİSƏLƏRİ.* Doxsanıncı illərdə teatr şəbəkələri ardıcıl və əvvəlki illərə nisbətən xeyli daha intensiv artmışdır. Əgər 1985-1990-cı illərdə teatrların sayı 42 obyektə qədər və ya 13% artmışdırsa, 1991-dən 1996-cı illərə qədər artıq 99-a qədər və ya 26% artmışdır. Dramatik, opera və balet teatrları və gənc tamaşaçılar teatrlarının sayı xeyli artmışdır. Ancaq bütün bu dəyişikliklər teatr strukturlarına əhəmiyyətli dərəcədə təsir etməmişdir: əvvəlki kimi ən nüfuzlu qrup kimi (ümumi miqdarın yarıdan çoxu) dramatik teatrlar qalmışdır.

1995-ci ilə qədər teatrların miqdarının artması ilə paralel eyni ardıcıllıqla tamaşaların mütləq sayının ixtisarı prosesi gedirdi. 1994-cü ildə o, baxılan dövr ərzində öz minimal qiymətinə qədər çatdı - tamaşaların sayı 34 minədək azaldı və ya 1990-cı ilə nisbətən təqribən 1/4 qədər azaldı. Bütövlükdə onilliyin axırında tədbirlərin sayı 1990-cı ilin səviyyəsindən 32



min əskik olmuşdur. Daha böyük dərəcədə yaranan vəziyyət bir teatr tərəfindən il ərzində orta hesabla göstərilən tamaşaların sayı kimi nisbi göstərici ilə xarakterizə olunur. 1990-cı ildə o, 372 tamaşa idi, dövrün axırına təxminənə 40% aşağı düşdü. Tamaşaların uşaqlara istiqamətləndirilmiş hissəsi kəskin artmışdır (onların sayının yarısı qədər), daha doğrusu o auditoriyaya ki, asan təşkil olunur.

Teatr fəaliyyətinin belə kəskin aşağı düşməsinin əsas faktorlarından biri səyyar və qastrolda göstərilən tamaşaların mütləq və nisbi sayının kəskin azalması olmuşdur. Stasionarda göstərilən tamaşaların sayı 1991-ci ildən başlayaraq artmışdır. Amma bu, başlıca olaraq qastrolların sayının artmasına görə baş verirdi, çünki stasionarda orta hesabla bir teatra düşən tamaşaların sayı praktiki olaraq dəyişmirdi.

Görünür ki, teatrlar fəaliyyətinin zirvəsinə 80-cı illərin ortalarında çatmışlar və o zamandan hətta şəbəkənin genişlənməsi tamaşalara olan marağın artmasına səbəb deyildi. 1987-ci ildə teatr eksperimenti şərtlərinin bütün teatr massivində yayılması onların işinin səmərəliliyinin artması istiqamətində nəzərə çarpan dəyişikliklərə gətirmədi.

Ciddi neqativ nəticə kimi teatr yaradıcılığı ilə şəhər stasionar teatrlarından kənarda yaşayan auditoriyanın tanışlıq həcminin həddindən çox azalmasını qeyd edə bilərik. İşin mahiyyətinə görə teatrların qastrolları indi məhdudlaşdırılmışdır – ən yaxşı hallarda bir qayda olaraq bilavasitə vilayət mərkəzlərinə və böyük şəhərlərin yaxınlığında yerləşən şəhərlərə qastrollar qalmışdır. Qeyd edək ki, öz teatrının stilinə adət etmiş auditoriyasına məcburən istiqamətlənmə teatr kollektivinin yaradıcı komponentinin pisləşməsinə səbəb olurdu. Yeni tamaşaların haqqının ödəmə sisteminin dəyişməsi teatrların, ilk növbədə də əyalət teatrlarının həyatını mürəkkəbləşdirir – rejissorlara indi həmişə öz teatrında işləmək mənfəətli deyil,

müxtəlif teatrlarda birdəfəlik tamaşalar hazırlamaq daha sərfəlidir. Baş rejissorun olmaması, ya da baş rejissorun acınacaqlı müntəzəmliklə dəyişməsi indi əyalət teatrı üçün normal haldır. Buradan da sabit yaradıcı rəhbərlikdən məhrum olan konkret teatrın strategiyası haqqında məlum nəticələr çıxarmaq olar.

***Altbölmə üzrə nəticələr:*** *teatr kollektivlərinin sayının artması (xüsusən Moskva və S.-Peterburqda) onların işinə marağın aşağı düşməsi regional teatr auditoriyasının kəskin daralması və daha yaxşı təşkil olunan tamaşaçıya – uşaqlara yönəldilməsi ilə paralel getmişdi.*

***Bölmə üzrə nəticələr:*** bütövlükdə mədəniyyət sahəsi işin kifayət qədər neqativ nəticələrini göstərir – əgər axırıncı nəticələrə görə mühakimə yürüdülürsə, mədəniyyət sahəsinin səmərəliliyi bütövlükdə aşağı düşmüşdür. Nə qədər paradoksal olsa da, burada məsələ ancaq maliyyə çatışmamazlığında deyil – mədəniyyət sahəsinin inkişafının regional xüsusiyyətlərinin analizi göstərir ki, maliyyə sahəsində firavan regionlarda (federal büdcənin donorları) olan işin nəticələri ilə firavan olmayan regionlardakı (resepiyent regionlar) işin nəticələrində prinsipial fərq yoxdur. Beləliklə, bütün mədəni-asudə vaxt sahəsində işin yaxşılaşması nəinki əhəmiyyətli dərəcədə pul ayırmaları nəticəsində (bu da ki, mütləq zəruridir), lakin həm də bütün bu kompleksin yeni idarəetmə sistemini tətbiq etdikdə mümkündür.

Hər şeydən əvvəl nəzərdə tutulur ki, mədəniyyəti idarə edən orqanlarda bütün idarəetmə vertikalı üzrə funksiyalar və vəzifələr dəqiq ayrılmalıdır – dövlət və bələdiyyələr arasında bir tərəfdən, bu sahənin dövlət tərəfindən idarə edilməsi ilə müstəqil mədəni-asudə vaxt fəaliyyəti arasında - digər tərəfdən. Əlavə olaraq bu qarşılıqlı hüquq və öhdəliklərin qanunverici qaydada uyğun möhkəmləndirilməsi və onların yerinə



yetirilməməsinə görə sanksiyaların hazırlanması da təmin olunmalıdır.

ÜMUMİ NƏTİCƏLƏR. Təəssüf ki, azad yaradıcılığın sadəcə təntənəli elan edilməsi və bu sahədə fəaliyyətin növü və formalarına qadağanların ləğv edilməsi ciddi müsbət təsirə malik ola bilməz. Heç olmazsa onların işinin obyektiv şəraitinin pisləşməsinin – maliyyələşdirmə səviyyəsinin aşağı düşməsi, əhalinin daha sosial-aktiv təbəqələrinin yoxsullaşması, öz qabiliyyətlərinin tətbiqinin daha əlverişli sahəsini axtaran kadrların daha dinamik hissələrin mədəniyyət sahəsindən çıxıb getməsinin qarşısını almaq üçün kifayətedici təsirə malik ola bilməz.

Bu fəaliyyət sahəsində toplanmış problemlərin həll olunma üsulu hər şeydən əvvəl o faktın dərk edilməsidir ki, dövlət aşağıdakılar üzrə siyasəti nəinki təntənəli elan etməli, həm də fəal surətdə həyata keçirməlidir:

- mənəviyyat sahəsində vətəndaşların konstitusiya hüquq və azadlıqlarının təmin edilməsi;
- mədəniyyətin və incəsənətin rifah və xidmətlərinə vətəndaşların yol tapma imkanlarının bərabərləşdirilməsi;
- ərazi yerləşməsindən asılı olmayaraq yaradıcı fəaliyyətlə məşğul olan fərdin və kollektivin yaradıcı fəaliyyəti üçün şəraitin təmin edilməsi;
- mədəniyyət və asudə vaxtı idarə edən dövlət və bələdiyyələr arasında hüquq və vəzifələri ayıran kompleks tədbirlərin aparılması;
- bu sahənin idarəolunma səlahiyyətlərinin vacib hissəsinin cəmiyyətin qeyri-hökumət və qeyri-bələdiyyə idarəetmə orqanlarına verilməsinin hərtərəfli həvəsləndirilməsi.

*Leonid Medvedko*
*(Rusiya Federasiyası)*

## Dünya mədəniyyəti və sivilizasiyaların dialoqu

Mən mədəniyyət məkanı problemi üzərində dayanmaq istəyirəm. "Dünya mədəniyyəti və sivilizasiyaların dialoqu" mövzusunu seçməyim təsadüfi deyil. Hal-hazırda Qafqaz, o cümlədən Azərbaycan, hər halda sülhün yox, aşağı səviyyəli mədəniyyətin, zorakılığın və müharibənin episentridir.

Yəqin ki, heç də siz hamınız bilmirsiniz ki, ötən il "sülh mədəniyyətinin müharibə mədəniyyəti əleyhinə beynəlxalq ili" elan olunmuşdu. Sizə bəyan edə bilərəm ki, bu beynəlxalq sülh mədəniyyəti ili uğursuzluğa düçar oldu. Nəyə görə? Ona görə ki, o, müharibə mədəniyyətsizliyinin bütün rekordlarını vurub keçdi. Həmin ili Roma Papası böyük və görünməmiş bir ziyarətdən başlamaq istədi. İraqda Ur adlı şəhər var, məhz onun adından "kultura" sözü əmələ gəlib (yəni Ura şəhərinin kultu, ona pərəstiş). Öz yaşına görə çox fəal olan Roma Papası ona görə bu şəhərə gedə bilmədi ki, İraq bunda diskriminasiya görürdü. Məsələ ondadır ki, bu, yalnız ziyarətin başlanğıcı olacaqdı, onun sonu isə İbrahimin (Avraam) vətəni, onun dini yaratdığı və vəfat etdiyi İsrail olmalı idi. Halbuki müsəlman dünyası təkcə İslamın deyil, həm də monoteizmin vətənidir. İbrahim İslamın əsasını qoymuşdur. İbrahimdən Məhəmmədə qədərki dövr isə, məlum olduğu kimi, Cahiliyyə, yəni vəhşilik, savadsızlıq dövrü olmuşdur.

Əqidəcə mən fundamentalistəm. Kulturoloq dostlarımla söhbət edərkən mən qeyd edirəm ki, əgər bu sözdə monoteizm, İbrahimçilik mənası nəzərdə tutulursa, ondan qorxmaq



lazım deyil. Çünki məhz İbrahim sülh mədəniyyətinin əsasını qoymuşdur.

İlk dünya müharibəsi zamanı (müəllif İbrahim Dəməşq yaxınlığında semitlərə rəhbərlik edərək beş Mesopotamiya şahına qalib gəldiyi müharibəni nəzərdə tutur-*red.*) qalib gəlmiş İbrahimə orduya başçılıq etməyi və qənimətləri bölüşdürməyi təklif etdikdə, o bundan imtina etdi. "Mən heç bir şey götürməyəcəyəm, çünki müharibə nəsə maddi bir şey əldə etmək vasitəsi olmamalıdır". Bu prinsipdən çıxış etsək, fundamentalizmdə heç bir pis şey yoxdur.

Mənim təcrübəm, Orta Asiyadakı mühazirələrim göstərir ki, "islam" sözünün də əsl mənası heç də həmişə düzgün başa düşülmür. İş burasındadır ki, nə qədər qəribə olsa da, avrosentrizm islam dünyasının ürəyinə sirayət etmişdir. Ona görə də hamı islamı avropasayağı, yəni Allaha itaət kimi başa düşür.

Əslində isə "islam" sözü İslamın özündən çox qədim olan və hamıya yaxşı məlum olan görüşərkən deyilən "əs-salamü əleyküm" ifadəsindən gəlir. "İslam" və "əs-salam" sözlərinin kökü üç hərfdən ibarətdir və onun mənası allah yox, aləm (mövcudluq) deməkdir. Özü də bu zaman adi "dünya" yox, məhz "harmoniya" (uyğunluq, tarazlıq, münaqişəsizlik) nəzərdə tutulur.

Mən bir fikrimlə də bölüşmək istəyirəm. İslam – sülh dinidir, cihad dini deyil. Geniş istifadə olunan "cihad" sözünü də adətən müqəddəs müharibə kimi başa düşürlər. "Cəhadə" – ərəb sözü olub bu imanı (İslamı) yaymaq üçün müxtəlif cür cəhd göstərilməsi deməkdir: dil cihadı, ürək cihadı, söz cihadı və son növbədə qılınc cihadı. Peyğəmbər səfərdən qayıdarkən

söyləmişdi: "Biz kiçik cihaddan qayıtdıq, böyük cihadı başlayırıq ". Böyük cihad isə – ürək cihadıdır.

Bu yaxınlarda Rusiya Elmlər Akademiyasının Fəlsəfə institutunda rəsmən peyğəmbərin nəslindən olan "Əl–Əttasa" islam təşkilatının prezidenti ilə onun "İslamın metafizikası" kitabının təqdimatı ilə əlaqədar çox maraqlı görüş keçirilmişdi. O, L.Tolstoyun ivritdən əvvəl türk və ərəb dillərini öyrəndiyini eşitdikdə çox təəcübləndi. O həm də bilmirdi ki (cavanların çoxu kimi), "Hərb və sülh" ("Война и Мир") kitabının adında artıq hörmə yazı (вязь) istifadə olunmayan dövrdə "mir" sözü hörmə yazı ilə yazılmışdı. Bu isə o deməkdir ki, L. Tolstoy "mir" sözünü yazarkən onu nə "dünya" , nə də "sülh, müharibəsizlik" mənasında deyil, məhz "əs-salam" mənasında nəzərdə tutmuşdur. Bu cür hörmə yazı ilə olan "mir" – harmoniya, ruhun vəziyyətidir.

Burada artıq mənim həmkarım S.S. Adasinskinin dediyi kimi mən də ürək yanğısı ilə deməliyəm ki, Rusiya Mədəniyyət Nazirliyi Rusiyada mədəniyyətin vəziyyətini bilmir. Mən kədər hissi ilə deməliyəm ki, tək Rusiyanın Mədəniyyət Nazirliyi deyil, yəqin ki, Azərbaycanın da Mədəniyyət Nazirliyi, bütün postsovet ölkələrində də, biz də sizinlə birlikdə hansı dünyada yaşadığımızı, bizi əhatə edən dünyanın mədəniyyətini bilmirik. Məhz II Dünya müharibəsinin başlanmasının 60-cı ilinə bizdə bir böyük mədəniyyət qalmışdır. Vahid iqtisadi məkan, vahid strateji məkan alınmadı, lakin yalnız bir mədəniyyət yaddaşı məkanı qaldı. Mən veteranların Moskvaya öz hesablarına (veteranlar komitələrinin hesabına yox) necə gəldiklərini gördüm. Onlar Böyük Teatrın qarşısında görüşmək, naməlum əsgərin məzarı üstünə çiçəklər qoymaq üçün gəlmişdilər.



İndi bəzən görürsən ki, bəzi ölkələrdə pulların üzərində naməlum xanların şəkillərini yerləşdirirlər. Mən başa düşürəm ki, öz tarixlərini yaratmaq istəyirlər. Bəs siz bilirsinizmi ki, Böyük Vətən müharibəsində neçə nəfər azərbaycanlı həlak olmuşdur? Bəs neçə nəfər qəhrəman olub? Azərbaycanda bunu bilirlər. Lakin hər yerdə belə deyil. Özü də bu təzə tarixdir. Burdan isə tarixlə möhtəkirlik ortaya çıxır. Müsəlman Sovet İttifaqı qəhrəmanları faizlə götürdükdə slavyan qəhrəmanlardan az deyillər. Panfilovçu qəhrəmanlar əsasən Orta Asiyadan idilər.

Bir qədər də dialoq haqqında. Mən artıq qeyd etdim ki, "sülh mədəniyyəti müharibə mədəniyyəti əleyhinə" ili artıq keçdi. Yeri gəlmişkən, "müharibə mədəniyyəti" ifadəsi mövcud ifadədir. Biz indi UNESCO-nun növbəti ilinin – "sivilizasiyaların dialoqu" ilinin yekun hissəsini yaşayırıq. Fikrimcə, bu il də eyni müvəffəqiyyətlə uğursuzluğa doğru gedir. Nəyə görə? Ona görə ki, məhz kulturoloqlar əmin olurdular ki, "sivilizasiyaların dialoqu"nu elan etməmişdən əvvəl "dialoq mədəniyyəti" ilini elan etmək lazım idi. Azərbaycanlılarla ermənilər, ərəblərlə İsrail, bütün düşmənçilik edən ölkələr arasında dialoq mədəniyyəti olmadan dialoq mümkündürmü? Burada mən yanğı ilə deməliyəm ki, biz hələ özümüz bu mədəniyyətə malik deyilik.

Bu yaxınlarda biz "Rusiya və Qafqaz: sülh və inkişaf şəraitində" konfransı çərçivəsində məsələləri müzakirə etmək üçün Rusiyada Elmlər Akademiyası Prezidentinin zalında Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz ölkələri alimlərini toplamışdıq. Biz MDB ölkələri rəhbərlərinin sammiti üçün sənəd hazırlamalı idik. Mən narazılıqla müşahidə etdim ki, bizim alimlər də bu dialoq mədəniyyətinə malik

deyillər. Alimlər salamlaşırdılar, hamısı çıxış edirdilər, xüsusən gürcü alimi çox alovlu və barışmaz çıxış edirdi. Hər halda göründü ki, biz dialoq mədəniyyəti nümayiş etdirə bilmirik.

Dialoq mədəniyyəti haqqında ilk konfransı almanlar keçiriblər. Dialoq mədəniyyəti ondan ibarət deyil ki, qarşı tərəf haqqında fikirləşdiyinizin hamısını deyəsiniz, ürəyinizdə yığılanların hamısını onun üstünə atasınız. Dialoq etirafdan başlamalıdır. Əvvəlcə hər kəs özünün bütün pis hərəkətlərini boynuna alıb deməlidir. Nəyisə ölçmək, Qarabağda azərbaycanlıların, yaxud ermənilərin, Fələstində isə ərəblərin, yaxud izarillilərin daha çox olduğunu hesablamağa başlamaq lazım deyil. Əhalinin sayını, kimin neçə il əvvəl köçüb gəldiyini hesablamaqla məşğul olmaq lazım deyil. Bunun əvəzinə edilmiş xeyir və şər işlərin balansını aparmaq lazımdır. Bizim görkəmli həmvətənimiz xaricdə yaşamış sosioloq Pitirim Sorokinin adı, yəqin ki, sizə məlumdur. Ona sülh tərəfdarlarına qoşulmağı təklif eidikdə, o, burada Moskvanın əli olduğundan bundan imtina etmişdi. O belə hesab edirdi ki, dünyada bütün qüvvələr neqativ və pozitiv polyarlığa malik qüvvələrə bölünür. Əsas budur: dağıdıcı, şər törədici qüvvələr və müsbət, yaradıcı qüvvələr. Belə demək olmaz ki, hər bir insan müsbətdir və ya mənfidir. Hər bir adamda bu iki polyarlıq (iki başlanğıc) mövcuddur. Hər bir xalqın, etnosun da daxilində neqativliyi və ya pozitivliyi üstün olan şəxslər var. Dialoqu, söhbəti də məhz bu baxımdan aparmaq lazımdır.

"Sülh mədəniyyəti", "dialoq mədəniyyəti" anlayışlarının düzgün başa düşülməsi və müxtəlif dövlətlərin onların həyati maraqlarına cavab verən düzgün mədəniyyət siyasətinin formalaşmasında müvəffəqiyyətlə istifadəsi üçün hələ çox şey etmək lazım gələcək.



# "SİMURQ" AMA-nın "AZƏRBAYCANDA YENİ MƏDƏNİYYƏT SİYASƏTİNİN FORMALAŞDIRILMASINA YARDIM" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN ƏHALİSİ ARASINDA APARDIĞI SOSİOLOJİ TƏDQİQATIN NƏTİCƏLƏRİ

Məlumdur ki, bir sosial-siyasi sistemdən digərinə keçid mərhələsi həmişə ölkədə sosial-iqtisadi gərginliklə müşayiət edilir: yaşayışın iqtisadi standartlarının pisləşməsi, peşəkarlıq səviyyəsinin aşağı düşməsi, ziddiyyətlərin gərginləşməsi nəticəsində ölkə əhalisinin müxtəlif qrup və təbəqələrinin sosial statusu dəyişir. Bütün bunlar cəmiyyətin mədəni həyatının vəziyyətinə bütövlükdə xeyli dərəcədə neqativ təsir etmişdir. Bununla əlaqədar olaraq cəmiyyətin keçid mərhələsində qarşılaşdığı mədəniyyətdəki əsas çətinlik və böhran hallarını müəyyənləşdirmək qabiliyyətinə malik olan sosioloji məlumatların sistematik əldə edilməsinin əhəmiyyətini qiymətləndirməmək olmaz.

## *I. SOSİOLOJİ SORĞUNUN APARILMASI METODİKASI*

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsinin məqsəd və vəzifələrinə uyğun olaraq 2001-ci il aprel-may aylarında respublikada ilk dəfə mədəniyyət məsələləri və mədəniyyət siyasəti haqqında sosioloji sorğu aparılmışdır.

Sorğunun əsas vəzifəsi Azərbaycanda ruhi mədəniyyətin vəziyyəti haqqında ictimai fikrin öyrənilməsi və analizidir. Bu məsələ çərçivəsində ölkənin mədəniyyəti və mədəniyyət siyasəti haqqında əhalinin müxtəlif qruplarının təsəvvürləri, ruhi mədəniyyətin maddi bazası kimi həyat səviyyəsi haqqında onların mülahizələri, vətəndaşların ruhi mədəniy-

yətinin inkişafının göstəriciləri, onların mədəni aktivlik və milli özünü dərketmə, millətlər arası münasibətlərdə mədəni səviyyəsi, Azərbaycanın mədəni siyasətinin perspektivləri haqqında fikirləri öyrənilmişdir.

## 1. İlkin sosioloji məlumatların alınma metodları

Tədqiqat 2 mərhələdə həyata keçirilmişdir:

**I mərhələ – keyfiyyət tədqiqatı.** Metod – Azərbaycan ziyalılarının müxtəlif qrup nümayəndələri ilə ekspert sorğusunun aparılması, o cümlədən: məmurlarla və Milli Məclisin deputatları ilə, mədəni-maarif idarələrinin rəhbərləri ilə, ali məktəblərin alimləri və müəllimləri ilə, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə, yaradıcı ittifaqlarla, həmkarlar ittifaqları ilə, kütləvi informasiya vasitələri ilə.

**II mərhələ – kəmiyyət tədqiqatı.** Metod - formallaşdırılmış müsahibə.

Hazırki tədqiqatın xüsusiyyətini nəzərə alaraq həmin mərhələnin həyata keçirilməsi üçün aşağıdakıların aparılması nəzərdə tutulmuşdur:

**Aşağıdakı şəhərlərdə respondentlərin pilotaj sorğusu (zondaj):**

- Bakı – 20 nəfər;
- Şəki – 10 nəfər;
- Neftçala – 10 nəfər.

**Aşağıdakı şəhərlərdə respondentlərin səyyar sorğusu:**

- Bakı – 400 respondent;
- Şəki – 50 respondent;
- Neftçala – 50 respondent.

**Seçimin təyini metodikası və sosioloji tədqiqat aparmaq üçün onun prosedurlarının həyata keçirilməsi.**

Bu sosioloji tədqiqatı aparmaq məqsədilə seçmə metodikasının əsasına Bakı, Şəki və Neftçalada mövcud olan



müxtəlif sosial göstəricilərin fəza paylanması prinsipi qoyulmuşdur.

**Tədqitatın baş məcmusu** – 2017000 nəfər *(Dövlət Statistika İdarəsinin verilənləri. Əhalinin siyahıya alınması. 1 yanvar 1999-cu il.)* təşkil etmişdir – bu da yuxarıda göstərilən şəhərlərin əhalisinin sayının cəmidir.

**Seçmə məcmu** – 500 nəfər və ya baş məcmunun 0, 02479%-i.

**Seçmə tipi** - təsadüfi. Respondentlərin seçilməsi onların yaşayış yerləri üzrə həyata keçirilmişdir. Bununla bərabər tədqiqat vahidi (respondentlər) təyin edildikdə imkan daxilində əsas demoqrafik xarakteristikalar üzrə (cins, yaş, sosial status və i.a.) – mütənasib miqdar uyğunluğu saxlanılmışdır.

## 2. Təsadüfi seçmə şəraitində respondentlərin ayırd edilmə metodikası

Respondentlərin təsadüfi seçilməsində seçmə yekununun formalaşması 3 mərhələdə aparılmışdır.

*1-ci mərhələ* – yuxarıda göstərilən hər şəhərdən sorğuya məruz qalan respondentlərin sayı təyin edilmişdir (ayrıca Bakıda, paytaxtın rayonlarında əhalinin sayı nəzərə alınmaqla);

*2-ci mərhələ* – hər şəhərdə tədqiqat marşrutu təyin edilmişdir;

*3-cü mərhələ* – hər tədqiqat marşrutunda ailə təsərrüfatları və orada sorğu keçiriləsi respondentlər müəyyənləşdirilmişdir.

Respondentlərin ayırd edilməsi statistik təsadüfilik (seçmə addımı) əsasında keçirilmişdir, bu da soruşulanların arasına düşmək üçün baş məcmunun hər elementinə bərabər imkanlar yaratmışdır.

Təsadüfi seçmə metodu aşağıdakı prinsip üzrə respondentlərin ayırd edilməsini nəzərdə tutmuşdur:

**Şəxsi və bir mərtəbəli evlərdə** – bir respondent;
**Çoxmərtəbəli evlərdə:**
- 5 mərtəbəyə qədər – hər 2 mərtəbədən bir - bir respondent;
- 9 mərtəbəyə qədər – hər 3 mərtəbədən bir - bir respondent.

Ailə təsərrüfatlarının təyin edilməsi - hər mərtəbədə mənzillərin cüt və tək nömrələri növbə ilə bir-birini əvəz etməklə (məsələn, 2-ci mərtəbədə – 3 N-li mənzil, 4-cüdə - 7 N-li mənzil, 6-cıda – 11 N-li mənzil və i.a.).

**Çoxbloklu evlərdə** (5 blokdan çox) respondentlərin ayırd edilməsi aşağıdakı kimi aparılmışdır.
- 5 mərtəbəyə qədər – 1-ci (və ya 2-ci) və 3-cü (və ya 4-cü) bloklarda;
- 9 mərtəbəyə qədər – 1-ci (və ya 2-ci) və 4-cü (və ya 5-ci) bloklarda.

Bakı şəhərinin bütün 11 inzibati vahidində əhalinin sayına mütənasib olaraq (ümumi say 400 nəfər), hər rayonda sorğuya məruz qalan respondentlərin sayı aşağıdakı kimidir:

| Şəhərin rayonu | Rayonda əhalinin ümumi sayı | Rayonda soruşulan respondentlərin sayı |
|---|---|---|
| Əzizbəyov | 77800 | 25 |
| Binəqədi | 139800 | 47 |
| Qaradağ | 63000 | 22 |
| Nərimanov | 98700 | 33 |
| Nəsimi | 130700 | 45 |
| Nizami | 106200 | 35 |
| Səbail | 49600 | 17 |
| Sabunçu | 126000 | 42 |
| Suraxanı | 110700 | 37 |
| Xətai | 143900 | 48 |
| Yasamal | 147900 | 49 |
| **Cəmisi Bakı ş.üzrə** | **1194300 nəfər** | **400** |



## *II. RESPONDENTLƏRİN XARAKTERİSTİKALARI*

### Respondentlərin sosial-demoqrafik göstəriciləri

Təsadüfi seçmə və hazırki sosioloji tədqiqatın aparılma metodikası prinsipləri ilə müvafiq olaraq sorğuda 500 respondent iştirak etmişdir, onlardan kişilər 235 n. və ya 47%, qadınlar 265 n. və ya soruşulanların ümumi sayından 53% təşkil etmişdir.

Azərbaycanda mədəniyyət siyasətinin formalaşma perspektivləri haqqında vətəndaşların ictimai şüurunda formalaşmış meyllər haqqında analitik xarakterli məlumat almaq məqsədilə tədqiq olunan problemin mövzusunda Bakı, Şəki və Neftçala şəhərləri sakinlərinin rəylərinin müqayisəli analizi keçirilmişdir.

Cədvəl 2.1.-dən göründüyü kimi yuxarıda adları çəkilmiş şəhərlərdə sorğuda iştirak etmiş kişi və qadınların nisbəti aşağıdakı kimidir:

**CƏDVƏL 2.1.** *(Burada və sonralar cədvəllərdə hər şəhərdə soruşulan respondentlərinin sayından faizlər göstərilmişdir.)*

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| *Kişilər* | 177 n. və ya 44,25% | 21 n. və ya 42% | 37 n. və ya 74% |
| **Qadınlar** | 223 n. və ya 55,75% | 29 n. və ya 58% | 13 n. və ya 26% |
| **Cəmi** | 400 n. | 50 n. | 50 n. |

Hər üç şəhərdə respondentlər arasında kişi və qadınların say nisbətində bir qədər uyğunsuzluq tədqiqatda təsadüfi seçmə metodunun tətbiqi ilə əlaqədardır.

Tədqiqatın nəticələrinin göstərdiyi kimi sorğuda 18-dən 66 və daha artıq yaşa kimi bütün yaş qruplarının nümayəndələri iştirak etmişdir. Bakı, Şəki, Neftçala şəhərlərində respondentlərin yaş senzinin göstəricilərinin müqayisəli təhlili soruşulanların içərisində cavan, orta, ahıl yaşlılarının kifayət qədər təmsilçilik tərkibini aşkar etmişdir (bax, cədvəl 2.2).

**CƏDVƏL 2.2**

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| **18-25 yaş** | 100 n. və ya 25% | 10 n. və ya 20% | 10 n. və ya 20% |
| **26-35 yaş** | 77 n. və ya 19,25% | 13 n. və ya 26% | 11 n. və ya 22% |
| **36-45 yaş** | 104 n. və ya 26% | 13 n. və ya 26% | 16 n. və ya 32% |
| **46-55 yaş** | 61 n. və ya 19% | 7 n. və ya 14% | 6 n. və ya 12% |
| **56-65 yaş** | 34 n. və ya 8,5% | 5 n. və ya 10% | 2 n. və ya 4% |
| **66 yaş və yuxarı** | 24 n. və ya 6% | 2 n. və ya 4% | 5 n. və ya 10% |

Yuxarıda göstərilən cədvəlin verilənləri sübut edir ki, respondentlərin bütün yaş qruplarının sorğusunda təmsilçiliyi hazırki tədqiqatın aparılması gedişində Azərbaycan cəmiyyətində mədəniyyətin vəziyyəti mövzusuna dair müxtəlif nəsil vətəndaşlarının rəyini obyektiv nəzərə almağa imkan vermişdir. Ölkənin mədəni-mənəvi həyat problemlərinə daha fərqli yanaşma məqsədilə təhsil və intellektual səviyyəsini nəzərə almaqla respondentlərin onlara olan münasibətinin təyin edilməsi məqsədəuyğun hesab edilmişdir.

Sorğu iştirakçılarının təhsil senzininə görə respondentlər arasında ən böyük təmsilçiliyə orta təhsilli şəxslər – cəmi 57,4%, onlardan 26,8%-i – orta xüsusi, 26%-i – ümumi orta və 4,6%-i – natamam orta təhsilli - təşkil etmişdir.

Natamam ali və ali savadlı soruşulanlar qrupu cəmisi 42,6% təşkil etmişdir (onlardan natamam ali – 7%, ali – 30,8%,



bakalavr – 2,8%, magistr və elmlər namizədi elmi dərəcəsi olanlar soruşulanların ümumi sayından 1%-dir).

Bakı, Şəki, Neftçala şəhərlərində sorğu nümayəndələrinin təhsil senzinin müqayisəli göstəriciləri cədvəl 2.3.-də göstərilmişdir.

**CƏDVƏL 2.3.**

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| **Natamam orta** | 15 n. və ya 3,75% | 3 n. və ya 6% | 5 n. və ya 10% |
| **Ümumi orta** | 84 n. və ya 21% | 16 n. və ya 32% | 30 n. və ya 60% |
| **Orta xüsusi** | 105 n. və ya 26,35% | 21 n. və ya 42% | 8 n. və ya 16% |
| **Natamam ali** | 31 n. və ya 7,75% | 1 n. və ya 2% | 3 n. və ya 6% |
| **Ali** | 143 n. və ya 35,75% | 7 n. və ya 14% | 4 n. və ya 8% |
| **Bakalavr** | 13 n. və ya 3,25% | 1 n. və ya 2% | --- |
| **Magistr** | 4 n. və ya 1% | 1 n. və ya 2% | --- |
| **Elmlər namizədi** | 5 n. və ya 1,75% | --- | --- |
| **Elmlər doktoru** | --- | --- | --- |

Baxılan problemin aktuallığını nəzərə alaraq Azərbaycan cəmiyyətinin mədəni inkişafının ümumi və spesifik faktorları ilə yanaşı həm də respublika ərazisində mövcud olan müxtəlif etnik submədəniyyətlər arasındakı qarşılıqlı əlaqələr də öyrənilmişdir. Bu mənada respondentlərin milliyət tərkibini aşkar etmək məqsədəuyğundur. Sorğunun nəticələri göstərdi ki, köklü azərbaycan milliyətindən olan vətəndaşlardan başqa (440 n. və ya soruşulanların ümumi sayının 88%-i) seçmə tədqiqat məcmusuna eləcə də rus – müvafiq olaraq 29 n. və ya 5,8%, ləzgi – 19 n. və ya 3,8%, tatar- 3 n. və ya 3,6%, hər

birində 2 n. və ya 0,4% - ukrayna, yəhudi, talış və 1 n. və ya 0,2% - qazax, tat, gürcü milliyyətlərinin nümayəndələri də düşmüşdür.

Ümumiyyətlə tədqiqatın nəticələri azərbaycan xalqının çoxmillətli tərkibini təcəssüm etdirən millət və xalqların geniş spektrinin nümayəndəliyi planında respondentlərin milli əlamətlərə görə seçmə məcmusunun təmsilçiliyini xeyli dərəcədə təsdiq etmişdir.

Respondentlərin sosial tərkibi: sorğuda sahibkarlar – 32 n. və ya 6,4%, ziyalılar – 161 n. və ya 22,2%, fəhlələr – 84 n. və ya 16,8%, kəndlilər – 2 n. və ya 0,4%, tələbə və şagirdlər – 70 n. və ya 14%, eləcə də təqaüdçülər – 56 n. və ya 11,2% və evdar qadınlar – 95 n. və ya soruşulanların ümumi sayının 19% sosial qrup nümayəndələri iştirak etmişdir.

Bakı, Şəki, Neftçala şəhərlərində respondentlərin sosial statusunun müqayisəli göstəriciləri aşağıdakı cədvəldə göstərilmişdir:

**CƏDVƏL N 2.4.**

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| **Sahibkarlar** | 24 n. və ya 6% | 2 n. və ya 4% | 6 n. və ya 12% |
| **Ziyalılar** | 141 n. və ya 35,25% | 18 n. və ya 36% | 2 n. və ya 4% |
| **Fəhlələr** | 61 n. və ya 15,25% | 5 n. və ya 10% | 18 n. və ya 36% |
| **Kəndlilər** | 1 n. və ya 0,25% | --- | 1 n. və ya 2% |
| **Tələbələr, şagirdlər** | 59 n. və ya 14,75% | 3 n. və ya 6% | 8 n. və ya 16% |
| **Təqaüdçülər** | 41 n. və ya 10,25% | 8 n. və ya 16% | 7 n. və ya 14% |
| **Evdar qadınlar** | 73 n. və ya 18,25% | 14 n. və ya 28% | 8 n. və ya 16% |



Yuxarıda göstərilmiş verilənlərdən göründüyü kimi (cədvəl 2.4.) praktiki olaraq bütün sosial qrupların nümayəndələri daxil edilmiş sorğu nümayəndələrinin təmsilçi tərkibi respublikada mədəniyyətin vəziyyəti haqqında müxtəlif qrup və əhali təbəqələrinin rəyini kifayət dərəcədə öyrənməyə imkan vermişdir.

Məlumdur ki, sosial proseslərin əlverişli inkişafının indikatorlarından biri eləcə də ilk növbədə ölkə mədəniyyətinin səviyyə göstəricilərinə təsir göstərən əhalinin əmək məşğulluğu sahəsindəki vəziyyətidir. Buna əsaslanaraq tədqiqatın gedişində respondentlərin istehsalat prosesinə cəlb olunma dərəcəsini təyin etmək məqsədəuyğundur. Sorğunun nəticələri aşağıdakıları aşkar etdi: soruşulanların ümumi qismindən 164 nəfər və ya 46,99%-nin daimi işi, 45 n. və ya 12,89% - müvəqqəti işi var. Lakin 140 n. və ya 40,11% - tədqiqatın keçirildiyi dövrdə ümumiyyətlə işləmirdilər.

Bakı, Şəki, Neftçala şəhərlərində sorğu iştirakçılarının məşğulluq göstəricilərinin müqayisəli verilənləri aşağıdakı cədvəl 2.5-də təqdim olunmuşdur. (Cədvəldə təqaüdçülər və evdar qadınlar istisna olmaqla bütün sosial qruplar üzrə verilənlər göstərilmişdir)

**CƏDVƏL 2.5.**

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| **Daimi işə malik idilər** | 137 n. və ya 47,9% | 16 n. və ya 57,14% | 11 n. və ya 31,43% |
| **Müvəqqəti işə malik idilər** | 31 n. və ya 10,84% | 3 n. və ya 10,71% | 11 n. və ya 31,43% |
| **İşləmirdilər** | 118 n. və ya 41,26% | 9 n. və ya 32,14% | 13 n. və ya 37,14% |

Hər 3 şəhərin respondentlərinin məşğulluq səviyyəsinin müqayisəli analizi işsiz vətəndaşların kifayət qədər

yüksək faizini aşkar etmişdir: Bakıda – 41,26%, Şəkidə – 32,14%, Neftçalada – 37,14%. Bundan əlavə sorğunun işsiz və yalnız müvəqqəti iş yeri olan iştirakçılarının cəmi göstəricilərini nəzərə aldıqda (müvafiq olaraq Bakıda – 52,1%, Şəkidə – 42,85%, Neftçalada – 68,57%) aydın olur ki, respublika əmək bazarında mövcud vəziyyət ölkədə mədəniyyət proseslərinin əlverişli inkişafına ciddi təsir edə bilər.

Yuxarıda qeyd olunduğu kimi Azərbaycan cəmiyyətində təcili həllini tələb edən kəskin məsələlərdən biri kimi Dağlıq Qarabağ problemi durur. Aydındır ki, Azərbaycan ərazisinin 1/5 hissəsini işğal etmiş və ölkəyə məcburi köçkünlərin axınını gücləndirmiş erməni silahlı dəstələrinin aqressiv hərəkətlərinin nəticələri cəmiyyətdəki mədəniyyətin vəziyyətində bütövlükdə həddən artıq neqativ əks olunmuşdur. Buna əsaslanaraq qaçqın və məcburi köçkünlər sosial qrupunun respublikanın mədəni-mənəvi həyatı sahəsində mövcud vəziyyətə və yeni mədəniyyət siyasətinin formalaşdırılmasının perspektivlərinə aid rəyinin öyrənilməsi lazım gəlir. Sorğudan alınmış nəticələr göstərir ki, respondentlərin ümumi qismindən qaçqın və məcburi köçkün nümayəndələrinin cəmi qrupu 32 nəfər və ya 6,4% təşkil etmişdir. Ümumiyyətlə, nəticələrin göstərdiyi kimi sorğu iştirakçılarının sosial-demoqrafik tərkibi əsasən sosiologiyada qəbul olunmuş təmsilçilik tələbələrinə cavab verir. Müxtəlif sosial və cins-yaş kateqoriya və qruplarından olan nümayəndələrin rəyi və mülahizələrinin analizi tədqiqatın gedişində alınmış respublikadakı ruhi mədəniyyətin vəziyyəti haqqında empirik verilənləri ətraflı öyrənməyə və sistemləşdirməyə, eləcə də Azərbaycandakı yeni mədəniyyət siyasətinin formalaşdırılması üzrə perspektivləri və əsas (respondentlərin fikrincə) istiqamətləri təyin etməyə imkan vermişdir.



## *III. RESPONDENTLƏRİN HƏYAT SƏVİYYƏLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ*

Respondentlərin öz həyat səviyyələri ilə razılıq dərəcəsini təyin etmiş hazırki sosioloji tədqiqatın nəticələri sübut edir ki, respublika əhalisinin əsas hissəsi ictimai varlığın bütün sahələrinin göstəricilərinə xeyli dərəcədə neqativ təsir göstərən ciddi maddi çətinliklərə məruz qalır (bax, cədvəl 3.1.).

**CƏDVƏL 3.1.**

| | **Respondentlərin həyat səviyyələri ilə razılıqlarının göstəriciləri** | |
|---|---|---|
| **Razı deyildirlər** | 289 n. | 57,8% |
| **Demək olar ki, razı deyildirlər** | 71 n. | 14,2% |
| **Demək olar ki, razıdırlar** | 91 n. | 18,2% |
| **Razıdırlar** | 49 n. | 9,8% |

Yuxarıdakı cədvəldən göründüyü kimi, həyat səviyyəsindən razı qalmayan və demək olar ki, razı qalmayan respondentlərin cəmi göstəricisi 360 n. və ya soruşulanların ümumi sayından (500 n.) 72% təşkil etmişdir. Həyəcana o fakt səbəb olur ki, ancaq 49 nəfər və ya 9,8% razılığını və ancaq 91 nəfər və ya 18,2% demək olar ki, həyat səviyyəsindən razı qaldığını bildirmişlər.

Yuxarıda deyilənləri respondentlərin 2000-ci ilin nəticələrinə görə maddi vəziyyətlərində baş vermiş dəyişikliklərə dair cavabları da təsdiq edir. Belə ki, həyat səviyyəsinin pisləşməsi haqqında 188 nəfər və ya 37,6% bildirmişdir, 206 nəfər və ya 41,2% hesab etmişdir ki, bu mənada onların həyatında yaxşılığa doğru heç bir dəyişiklik baş verməmişdir. Maddi vəziyyətinin yaxşılaşmasını göstərmiş respondentlərin

sayı yalnız 64 nəfər və ya soruşulanların ümumi sayının 12,8%-i təşkil etmişdir.

Sosial pessimizmin digər təzahürü kimi respondentlərin həyat səviyyələrinin dəyişiklik perspektivlərinə münasibətdə mümkün ümidlərini təyin edən sorğu nəticəsində alınmış nəticələri göstərmək olar (bax, cədvəl 3.2.).

CƏDVƏL 3.2.

| Cari 2001-ci il ərzində həyat səviyyəniz nə dərəcədə dəyişəcəkdir? (respondentlərin rəyi) | | |
|---|---|---|
| Yaxşılaşacaq | 124 n. | 24,8% |
| Dəyişməyəcək | 202 n. | 40,4% |
| Pisləşəcək | 97 n. | 19,4% |
| Xeyli pisləşəcək | 14 n. | 2,8% |
| Cavab verməyə çətinlik çəkirəm | 63 n. | 12,6% |

Cədvəldən göründüyü kimi, soruşulanların əksəriyyəti həyat səviyyələrinin yaxşılaşmasına inamının olmadığını bildirmişlər – 202 nəfər və ya 40,4%. Pisləşmə və xeyli dərəcədə həyat səviyyəsinin pisləşməsini gözləyən respondentlərin faizi müvafiq olaraq 97 n. və ya 19,7% və 14 n. və ya 2,8% təşkil etmişdir. Ancaq 124 n. və ya soruşulanların ümumi sayından 24,8%-i hesab edir ki, həyat səviyyələri il ərzində yaxşılığa doğru dəyişəcək.

Ümumiyyətlə keçirilmiş tədqiqatın nəticələri ölkə əhalisinin müxtəlif sosial təbəqələrinin zəif sosial müdafiə olduğunu sübut edir. Ancaq 68 n. və ya soruşulanların ümumi sayının 13,6%-i özünü sosial müdafiə olunmuş hesab edir. (bax, cədvəl 3.3.)



CƏDVƏL 3.3.

| Özünüzü sosial müdafiə olunmuş insan kimi hiss edirsinizmi ? (respondentlərin rəyi) | | |
|---|---|---|
| Bəli | 68 n. | 13,6% |
| Demək olar ki, yox | 103 n. | 20,6% |
| Xeyr | 328 n. | 65,6% |
| Cavab verməyə çətinlik çəkirəm | 1 n. | 0,2% |

Bu nəticələr respublikada vətəndaşların sosial müdafiəsi və təminatı sisteminin aşağı səviyyədə olması haqqında insanların ictimai şüurunda mövcud fikirləri təsdiq edir. Aparılmış təhlil göstərir ki, cəmiyyətin transformasiyası əhalinin sosial-iqtisadi vəziyyətinin pisləşməsi, sosial-mədəni və iqtisadi həyatın mexanizmlərinin dəyişməsi şəraitində gedir. Əhalinin rifahının aşağı səviyyəsi, sosial münaqişələrin artımına gətirən, Azərbaycan cəmiyyətindəki son zamanlar güclənən qütbləşmə, son nəticədə cəmiyyətin ruhi mədəniyyətinin vəziyyətinə mənfi təsir göstərir.

## *IV. AZƏRBAYCANDA MƏDƏNİYYƏTİN VƏZİYYƏTİNİN RESPONDENTLƏR TƏRƏFİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ*

Mədəniyyətin düzgün başa düşülməsindən cəmiyyətin həyat fəaliyyətinin mobilliyinin və nəticəliliyinin xeyli dərəcədə asılı olduğuna əsaslanaraq, hazırki tədqiqatın gedişində respondentlər tərəfindən mədəniyyət fenomeninin başa düşülməsini araşdırmağa cəhd göstərilmişdir (bax, cədvəl 4.1.)

CƏDVƏL 4.1.

| "Mədəniyyət" anlayışı respondentlər üçün nə deməkdir ? | | |
|---|---|---|
| Əxlaq dəyərləri və etika normaları | 297 n. | 59,4% |
| Təhsil, tərbiyə və elm sistemi | 283 n. | 56,6% |
| İnsanın yaratdığı maddi və mənəvi dəyərlərin məcmusu | 105 n. | 21% |
| İnsanın həyat fəaliyyətinin texnologiyası, həyat üsulu | 40 n. | 8% |
| Bu, insanın yaradıcılıq qabiliyyətini həyata keçirməsidir | 85 n. | 17% |
| İnsanın mənəvi dünyasıdır | 255 n. | 51% |
| İnsanın həyatında yaratdığı məskunlaşma mühiti | 91 n. | 18,2% |
| İncəsənət və folklor | 94 n. | 18,8% |
| Respondentlərin digər cavabları | 2 n. | 0,4% |

Sorğunun nəticələrinin göstərdiyi kimi, respondentlərin əksəriyyəti üçün mədəniyyət əxlaq dəyərləri və etika normalarının məcmusu – soruşulanların ümumi sayından 59,4% (297 n.), təhsil, tərbiyə və elm sistemi – 56,6% (283 n.), insanın mənəvi dünyasıdır – 51% (255 n.), respondentlərin 21%-i göstərmişdir ki, "mədəniyyət" anlayışı – insanın yaratdığı maddi mənəvi dəyərlərin məcmusudur. Rəqəmlər göstərir ki, respublikanın əhalisi tədricən mədəniyyətin mahiyyətinin keçmişdə ənənəvi olan incəsənət sahəsi və mənəvi irs kimi başa düşülməsinə əsaslanmış təsəvvüründən kənara çıxır. Bunu statistik verilənlər təsdiq edir: soruşulanların təkcə 18,8% hesab edir ki, "mədəniyyət" anlayışına ancaq incəsənət və folklor daxildir.

Məlum olduğu kimi əgər ictimai-siyasi sistemin transformasiyası prosesi yeni tarixi şəraitdə mədəniyyətin qabaqcıl inkişafını təmin edən, elmi əsaslandırılmış mədəniyyət siyasəti ilə himayə olunmursa, onda cəmiyyətdə ruhi mədəniyyətin



eroziyası, vətəndaşların dünya görüşündə və həyat tərzində dəyişikliklər, dəyərlər sisteminin dağılması, ümumi qeyri sabitlik ilə əlaqədar olan böhranlı hadisələr müşahidə olunur. Bu, hazırki sosioloji sorğu ilə də təsdiq olunur: onun gedişində soruşulanların əksər hissəsi 365 n. və ya 73% hesab edir ki, Azərbaycanda mədəniyyətin ümumi böhranı müşahidə olunur. Yalnız 25,2% (126 n.) ölkənin mədəni-ruhi həyatında nisbətən firavan vəziyyət olduğunu bildirmişdir. Cəmiyyətdə mədəniyyətin vəziyyətini təyin etməyə 9 n. və ya soruşulanların ümumi sayından 1,8%-i çətinlik çəkmişdir. Bu mənada Bakı, Şəki, Neftçala şəhərində sorğunun nəticələrinə görə həmin göstəricilərin müqayisəsi diqqətə layiqdir (bax, cədvəl 4.2.).

CƏDVƏL 4.2.

| Respondentlərin müasir Azərbaycan cəmiyyətində mədəniyyət böhranının olması haqqında rəyi | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| Bəli | 286 n. və ya 71,5% | 43 n. və ya 86% | 36 n. və ya 72% |
| Xeyr | 107 n. və ya 6,75% | 6 n. və ya 12% | 13 n. və ya 26% |
| Cavab verməyə çətinlik çəkirəm | 7 n. və ya 1,75% | 1 n. və ya 2% | 1 n. və ya 2% |
| Cəmi | 400 n. | 50 n. | 50 n. |

Yuxarıdakı cədvəldən göründüyü kimi, Bakı və Neftçala şəhərlərində soruşulanların ümumi miqdarından Azərbaycanda mədəniyyət böhranı olduğunu hesab edən respondentlərin əsas sayı müvafiq olaraq 71,5% və 72%, Şəki şəhərində isə belə fikrə respondentlərin daha çox hissəsi – 86% tərəfdar durur. Bu faktlar, mədəniyyət böhranının təkcə respublikanın paytaxtında deyil, Azərbaycanın regionlarında da baş verdiyini sübut edir. Mövcud vəziyyətin əsas səbəbləri kimi respondentlərin əksər hissəsi ölkə mədəniyyət sisteminin zəif

maliyyələşdirilməsini – 124 n. və ya 33,97% və respublikadan ziyalıların yaradıcı hissəsinin axınını – 115 n. və ya 31,51% hesab edir. Mədəniyyət böhranının səbəblərinin əhəmiyyətliliyinə görə daha sonra respondentlər tərəfindən qeyd olunmuşdur: əhalinin mədəniyyətin mahiyyətini qeyri-düzgün başa düşməsi – 99 n. və ya 27,12%, respublikada çoxlu miqdarda qaçqın və məcburi köçkünlərin olması – 95 n. və ya 26,03%. Azərbaycanda effektiv mədəniyyət siyasətinin olmamasını və aşağı səviyyəli kütləvi mədəniyyətin üstünlüyünü müvafiq olaraq soruşulanların 23,29%-i (85 n.) və 22,74% (83 n.) göstərmişdir. Mədəniyyət böhranının digər səbəbləri kimi aşağıdakılar qeyd olunmuşdur:

- Azərbaycan ərazisinin bir hissəsinin erməni silahlı dəstələri tərəfindən işğalı – 17,26% (63 n.);
- Respublikada ədəbiyyat və incəsənətin gənc nümayəndələrinin ustalığının artırılması və təkmilləşdirilməsinə şəraitin olmaması – 16,44% (60 n.);
- Mədəniyyət sahəsində effektiv qanunverici bazanın olmaması – 14,25% (52 n.);
- Mədəniyyət sahəsində vətəndaş təşəbbüslərinə hakimiyyət tərəfindən lazımi dayaq verilməməsi – 13,97% (51 n.);
- Ölkədə demokratik mədəniyyətin ləng formalaşdırılması – 12,88% (47 n.);
- Köhnəlmiş sovet mədəniyyət sisteminin fəaliyyət göstərməsi – 6,58% (24 n.) və i.a.

Həmin sual üzrə Bakı, Şəki, Neftçala şəhərləri respondentlərinin rəylərinin müqayisəli maraq doğurur (bax, cədvəl 4.3.). Faizlər verilmiş suala cavab vermiş respondentlərin ümumi sayından – 365 n. hesablanmışdır.



**CƏDVƏL 4.3.**

| Ölkədə mədəniyyət böhranının əsas səbəbləri | | | |
|---|---|---|---|
| | **Bakı** | **Şəki** | **Neftçala** |
| **Əhalinin mədəniyyətin mahiyyətini düzgün başa düşməməsi** | 80 n. və ya 29,97% | 9 n. və ya 20,93% | 10 n. və ya 27,78% |
| **Köhnəlmiş sovet mədəniyyət sisteminin fəaliyyət göstərməsi** | 19 n. və ya 6,64% | 4 n. və ya 9,3% | 1 n. və ya 2,78% |
| **Azərbaycanda effektiv mədəniyyət siyasətinin olmaması** | 57 n. və ya 19,93% | 9 n. və ya 20,93% | 19 n. və ya 52,78% |
| **Mədəniyyət sahəsində effektiv qanunverici bazanın olmaması** | 40 n. və ya 13,99% | 3 n. və ya 6,98% | 9 n. və ya 25% |
| **Ölkədə demokratik mədəniyyətin ləng formalaşdırılması** | 35 n. və ya 12,24% | 2 n. və ya 4,65% | 10 n. və ya 27,78% |
| **Aşağı səviyyəli kütləvi mədəniyyətin üstünlüyü** | 55 n. və ya 19,23% | 9 n. və ya 20,93% | 19 n. və ya 52,78% |
| **Mədəniyyət sahəsində vətəndaş təşəbbüslərinə hakimiyyət tərəfindən dayağın olmaması** | 43 n. və ya 15,03% | 8 n. və ya 18,6% | --- |
| **Respublikanın mədəniyyət sisteminin zəif maliyyələşdirilməsi** | 91 n. və ya 31,82% | 14 n. və ya 32,56% | 19 n. və ya 52,78% |
| **Azərbaycan ərazisinin bir hissəsinin erməni silahlı dəstələri tərəfindən işğalı** | 45 n. və ya 15,73% | 13 n. və ya 30,23% | 5 n. və ya 13,89% |
| **Çoxlu miqdarda qaçqın və məcburi köçkünlərin olması** | 77 n. və ya 26,92% | 14 n. və ya 32,56% | 4 n. və ya 11,11% |
| **Ziyalıların yaradıcı hissəsinin respublikadan axını** | 90 n. və ya 31,47% | 20 n. və ya 46,51% | 5 n. və ya 13,89% |
| **Respublikada ədəbiyyat və incəsənətin gənc nümayəndələrinin ustalığının artımı və təkmilləşməsi üçün şəraitin olmaması** | 47 n. və ya 16,43% | 11 n. və ya 25,58% | 2 n. və ya 5,56% |
| **Respondentlərin digər cavabları** | 20 n. və ya 6,99% | 1 n. və ya 2,33% | --- |
| **Cavab verməyə çətinlik çəkiblər** | 2 n. və ya 0,7% | 1 n. və ya 2,33% | --- |

Bu cədvəldən göründüyü kimi respondentlər Azərbaycanda mədəniyyət böhranının səbəblərini müxtəlif cür izah edirlər. Belə ki, əgər Bakı və Neftçala şəhərlərində soruşulanların xeyli hissəsi ölkədə mədəniyyət sisteminin zəif maliyyələşdirilməsini göstərmişlərsə – müvafiq olaraq 31,82% və 52,78%, Şəki şəhərində isə əsas səbəb kimi respublikadan ziyalıların yaradıcı hissəsinin axını – 46,51% qeyd olunmuşdur. Bu zaman xarakterikdir ki, Neftçala şəhərində eyni sayda respondentlər – 19 n. və ya 52,78% (verilmiş suala cavab vermiş 36 nəfərdən) tərəfindən eləcə də effektiv mədəniyyət siyasətinin olmaması və cəmiyyətdə aşağı səviyyəli kütləvi mədəniyyətin üstünlüyü bildirilmişdir.

Ümumiyyətlə, keçirilmiş analiz göstərir ki, Azərbaycanda mədəniyyət böhranının əsasında həm obyektiv, həm də subyektiv səbəblər durur. Bu halda, bizim zənnimizcə, respublikada effektiv mədəniyyət siyasətinin olmaması mövcud vəziyyəti daha da ağırlaşdırır. Bununla bərabər vətəndaşların ictimai şüurunda hələ də mədəniyyət böhranı və onun mümkün nəticələrinə qarşı adekvat münasibət tam formalaşmamışdır. Belə ki, Azərbaycanda mədəniyyət böhranı qeyd etmiş 365 respondentdən (73%), ancaq 15%-də (75 n.) bu problem ən böyük narahatlıq yaradır (bax, cədvəl 4.4.).

Mədəniyyət böhranı kontekstində soruşulanların əksər hissəsində – 68,2% əhalinin maddi rifah səviyyəsinin aşağı düşməsi ən böyük narahatlıq törədir ki, bu da (bax, cədvəl 3.1.) respublikada vətəndaşların xeyli hissəsinin həddindən artıq aşağı həyat səviyyəsi haqqında verilənləri bir daha təsdiq



**CƏDVƏL 4.4.**

**Respondentlərdə ən böyük narahatlıq yaradan həyati problemlər (bir neçə cavab variantlarına icazə verilirdi)**

| | Qeyd olunmuş cavab variantlarının sayı | % |
|---|---|---|
| **Əhalinin rifahının aşağı düşməsi** | 341 | 68,2 |
| **İnsanların sosial müdafiəsinin olmaması** | 138 | 27,6 |
| **Dağlıq Qarabağ problemi** | 332 | 66,4 |
| **Qaçqın və məcburi köçkünlərin problemləri** | 65 | 13 |
| **Uşaq və gənclərin tərbiyələndirilməsi** | 154 | 30,8 |
| **Rüşvətxorluq** | 111 | 22,2 |
| **Cinayətkarlıq** | 52 | 10,4 |
| **Yerlibazlıq, himayədarlıq** | 56 | 11,2 |
| **Ekoloji problemlər** | 47 | 9,4 |
| **Əhalinin mədəniyyət səviyyəsi** | 75 | 15 |
| **Cəmiyyətdə əxlaqın vəziyyəti** | 30 | 6 |
| **Digər problemlər** | 7 | 1,4 |

edir. Respondentlər üçün Dağlıq Qarabağ problemi az zəruri və az əhəmiyyətli deyildir (66,4%) ki, bu da ölkədə mədəniyyətin ümumi səviyyəsinə neqativ təsir edir. Mədəniyyət böhranından çıxmağın əsas yollarından birini respondentlər Qarabağ münaqişəsinin tezliklə həllində görürlər.

Respublika vətəndaşlarında güclü narahatlığı eləcə də uşaq və gənclərin tərbiyəsi problemi yaradır: bunu soruşu-

lanların 1/3 hissəsi göstərmişdir – 154 n. (bax, cədvəl 4.3.). Soruşulanların əksəriyyətinin rəyinə görə – 73,15% (267 n.) – mədəniyyət böhranına xeyli dərəcədə məhz respublikanın gənc nəsli məruz qalır. Buna baxmayaraq aşkardır ki, mədəniyyət böhranına bütün digər əhali qrupları da eyni dərəcədə məruz qalır (bax, cədvəl 4.5.).

**CƏDVƏL 4.5.**

| **Respondentlərin cəmiyyətin sosial təbəqələrində mədəniyyət böhranının mövcudluğu haqqında rəyi** | | |
|---|---|---|
| **Sahibkarlar** | 51 n. | 13,97% |
| **Ziyalılar** | 178 n. | 48,77% |
| **Fəhlələr** | 112 n. | 30,68% |
| **Kəndlilər** | 57 n. | 15,62% |
| **Gənclər** | 268 n. | 73,15% |
| **Təqaüdçülər, evdar qadınlar** | 70 n. | 19,18% |
| **İşsizlər** | 161 n. | 44,11% |
| **Cavab verməyə çətinlik çəkmişlər** | 1 n. | 0,27% |

Göstərilmiş cədvəlin verilənləri sübut edir ki, respondentlərin rəyinə görə, mədəniyyət böhranı bu və ya digər dərəcədə praktiki olaraq cəmiyyətin bütün sosial təbəqələrini əhatə etmişdir. Bu zaman gənclərlə yanaşı soruşulanların əksər hissəsi ziyalı, işsiz və fəhlə qruplarını göstərmişdir - müvafiq olaraq, 48,77% (178 n.), 44,11% (161 n.) və 30,68% (112 n.).

Qeyd etmək lazımdır ki, ziyalıların sosial-iqtisadi vəziyyətinin kəskin pisləşməsi respublikadan onların ən yaxşı nümayəndələrinin güclü axınına səbəb olmuşdur. Bu da ölkədə mədəni səviyyənin aşağı düşməsinə təsir göstərməyə bilməzdi. Bu proses humanitar təhsilin əlverişsiz vəziyyəti fonunda baş verir ki, onun da səviyyəsi heç də yaxşı vəziyyətdə deyil. Respublikanın orta məktəblərində olmayan və bəzi ali məktəblərdə əsassız olaraq məhdud həcmdə tədris



olunan kulturoloji təhsillə əlaqədar olan vəziyyət daha da ağırlaşır. Bu halı hazırki tədqiqatın nəticələri də təsdiq edir. Belə ki, respublikanın təhsil müəssisələrində tədris olunan əsas ictimai və kulturoloji fənlərin keyfiyyətini təhlil edərkən soruşulanların əksər hissəsi göstərib ki, bu fənlər təhsil müəssisələrində zəif işıqlandırılır və ya ümumiyyətlə işıqlandırılmır: Azərbaycan tarixi – cəmisi 242 n. və ya 48,4%, Azərbaycan mədəniyyəti tarixi – 324 n. və ya 64,8%, dünya mədəniyyəti tarixi – 275 n. və ya 55%, dünya mədəniyyəti tarixi və nəzəriyyəsi (kulturologiya) – 275 n. və ya 55%, mədəniyyət fəlsəfəsi – 375 n. və ya 85%, din – 326 n. və ya 63,2%, Azərbaycan fəlsəfəsi – 376 n. və ya 70,7% (bax, cədvəl 4.6.).

Verilmiş cədvəllərin təsdiq etdiyi kimi respondentlərin rəyinə görə bütün yuxarıda göstərilən fənlərdən daha ardıcıl və dolğun Azərbaycan ədəbiyyatı – cəmi 372 n. və ya 74,4% və milli incəsənət, milli ənənələr, Azərbaycan xalqının adət və mərasimləri – cəmi 294 n. və ya soruşulanların ümumi sayından 58,8%-i onların təhsil məktəbində işıqlandırılır (və ya işıqlandırılıb). Bizim fikrimizcə, belə göstəricilər öz pozitiv məna və əhəmiyyətini kəsb edir, çünki respublikanın müasir inkişaf dövründə Azərbaycan xalqının mədəni irsini, onun tarixi keçmişini öyrənmək və bilmək, ölkədə hüquqi vətəndaş cəmiyyətinin müvəffəqiyyətlə qurulmasının vacib şərtidir. Sorğunun nəticələri aşağıdakıları aşkar etmişdir: soruşulanların əksəriyyəti – cəmi 341 n. və ya 68,2% bu və ya digər dərəcədə Azərbaycanın mənəvi irsi haqda öz biliklərini təsdiq etmişdir. Bununla belə respondentlərin xeyli hissəsi – müvafiq olaraq 29,6% (148 n.) və 2,2% (11 n.) – öz xalqının mədəni-tarixi keçmişi haqqında hələ də zəif məlumatlandırılıb və ya ümumiyyətlə məlumatlandırılmayıb. Ümumiyyətlə sorğu

## CƏDVƏL 4.6.

Respondentlərin öz təhsil müəssisələrində humanitar və kulturoloji fənlərin işıqlandırılması dərəcəsi haqqında rəyləri

| | Yaxşı | Kifayət qədər | Zəif | İşıqlandırılmır (işıqlandırılmayıb) | Cavab verməyə çətinlik çəkiblər |
|---|---|---|---|---|---|
| Azərbaycan tarixi | 110 n. və ya 22% | 140 n. və ya 28% | 192 n. və ya 38,4% | 50 n. və ya 10% | 8 n. və ya 1,6% |
| Azərbaycan mədəniyyəti tarixi | 62 n. və ya 12,4% | 104 n. və ya 0,8% | 185 n. və ya 37,5% | 139 n. və ya 27,8% | 10 n. və ya 2% |
| Dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi (kulturologiya) | 77 n. və ya 15,4% | 139 n. və ya 27,8% | 167 n. və ya 33,4% | 108 n. və ya 21,6% | 9 n. və ya 1,8% |
| Mədəniyyət fəlsəfəsi | 36 n. və ya 14,4% | 72 n. və ya 7,2% | 154 n. və ya 30,8% | 221 n. və ya 44,2% | 17 n. və ya 3,4% |
| Din | 75 n. və ya 15% | 90 n. və ya 18% | 83 n. və ya 16,6% | 243 n. və ya 48,6% | 9 n. və ya 1,8% |
| Azərbaycan fəlsəfəsi | 34 n. və ya 6,8% | 79 n. və ya 15,8% | 140 n. və ya 28% | 236 n. və ya 47,2% | 11 n. və ya 2,2% |
| Azərbaycan ədəbiyyatı | 218 n. və ya 43,6% | 154 n. və ya 30,8% | 80 n. və ya 16% | 41 n. və ya 8,2% | 7 n. və ya 1,4% |
| İncəsənət, milli ənənələr, Azərbaycan xalqının adət və mərasimləri | 166 n. və ya 33,2% | 128 n. və ya 25,6% | 95 n. və ya 19% | 104 n. və ya 20,8% | 7 n. və ya 1,4% |

Azərbaycan xalqının öz tarixi keçmişinə, dinə, milli dəyərlərə, ənənələrə, adət və mərasimlərə qayıdışına yönəlmiş meyli aşkar etmişdir.



Bununla belə respublikada demokratik islahat təkcə milli mədəni irsin canlanmasına deyil, həm də Avropa və dünya mədəniyyəti standartları və dəyərlərinin birbaşa və ya yaradıcı mənimsənilməsi ilə əlaqədar milli mədəniyyətin müasirləşməsinə kömək edir. Bu prosesdə Azərbaycan mədəniyyətinə təkcə qabaqcıl deyil, həm də onun üçün məqbul olmayan Qərbin kütləvi mədəniyyətinin bəzi standart və dəyərlərinin keçməsi də baş verir. Vətəndaşların Azərbaycan cəmiyyəti üçün Qərbin kütləvi mədəniyyətinin nə dərəcədə dəyərli olması haqqında sualına rəyin öyrənilməsi göstərir ki, respondentlərin demək olar ki, yarısı – 49% (245 n.) belə alternativi inkar edir. Ancaq soruşulanların digər xeyli bir hissəsi – cəmisi 48,2% (241 n.) bu və ya digər dərəcədə yuxarıda göstərilmiş perspektivin mümkünlüyünü qəbul edir (bax, cədvəl 4.7.).

## CƏDVƏL 4.7.

**Qərb kütləvi mədəniyyətinin real dəyərlərinin Azərbaycan cəmiyyətinə gətirilməsi haqqında respondentlərin rəyi**

(Sual: *Siz inanırsınızmı ki, Qərb mədəniyyəti nümunəsinə istiqamətlənmək Azərbaycan cəmiyyəti üçün həqiqi dəyər təşkil edə bilər?*)

| | | |
|---|---|---|
| **Bəli** | 70 n. | 14% |
| **Qismən** | 171 n. | 34,2% |
| **Xeyr** | 245 n. | 49% |
| **Cavab verməyə çətinlik çəkirəm** | 14 n. | 2,8% |

Bakı, Şəki, Neftçala şəhərləri respondentlərinin yuxarıdakı problemə dair rəylərinin müqayisəli analizinin nəticələri diqqətəlayiqdir (bax, cədvəl 4.8.).

CƏDVƏL 4.8.

Qərb kütləvi mədəniyyətinin real dəyərlərinin Azərbaycan cəmiyyətinə gətirilməsi haqqında respondentlərin rəyi

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| Bəli | 58 n. və ya 14,5% | 12 n. və ya 24% | - |
| Qismən | 130 n. və ya 2,5% | 19 n. və ya 38% | 22 n. və ya 44% |
| Xeyr | 201 n. və ya 50,25% | 18 n. və ya 36% | 26 n. və ya 52% |
| Cavab verməyə çətinlik çəkirəm | 11 n. və ya 2,75% | 1 n. və ya 2% | 2 n. və ya 4% |

Yuxarıda göstərilən verilənlərdən məlum olur ki, göstərilən şəhərlərin respondentlərinin rəyləri ayrılmışdır. Əgər Bakı və Neftçala şəhərlərində əsasən vətəndaşların bu məsələyə *mənfi münasibəti* izlənirsə – müvafiq olaraq 50,25% və 52%, Şəkidə əksinə – Qərb kütləvi mədəniyyətinə istiqamətlənməyə üstünlük verən respondentlərin sayı qalan göstəriciləri çox üstələmişdir – soruşulanların ümumi sayının 62%. Ümumiyyətlə analiz göstərir ki, respublika vətəndaşlarının ictimai şüurunda milli-tarixi irsiyyət, din və ənənə birinciliyinə əsaslanmış cəmiyyətin mədəni inkişaf meylləri xeyli dərəcədə üstünlük təşkil edir.

Mədəniyyətin sosial institutu kimi dinin artan əhəmiyyətinə əsaslanaraq həmçinin dinin respublika vətəndaşlarının dünyagörüşünə təsiri də öyrənilmişdir. Sorğunun nəticələri aşağıdakıları aşkar etmişdir: respondentlərin sayca əksəriyyəti – 381 n. və ya 76,25%-i dinin onların mənəvi dünyagörüşünün formalaşmasına çox böyük təsir etdiyini bildirmişlər. Soruşulanların digər hissəsi (117 n. və ya 23,4%) hesab edir ki, din elə də təsir göstərmir. Ancaq respondentlərin ümumi sayının



0,4%-i (2 n.) verilən suala cavab verməyə çətinlik çəkmişdir. (bax, cədvəl 4.9.)

CƏDVƏL 4.9.

**Respondentlərin mənəvi inkişaf prosesinə dinin təsiri**
(Sual: *Din Sizin mənəvi inkişafınıza təsir göstərirmi?*)

| | | |
|---|---|---|
| Təsir göstərir | 223 n. | 44,6% |
| Demək olar ki, təsir göstərir | 158 n. | 31.6% |
| Demək olar ki, təsir göstərmir | 37 n. | 7,4% |
| Təsir göstərmir | 80 n. | 16% |
| Cavab verməyə çətinlik çəkirəm | 2 n. | 0,4% |

Sorğunun nəticələri göstərir ki, din cəmiyyətin mədəni həyatına daha sıx qoşularaq vətəndaşların mənəvi inkişafının determinəedici faktorlarından birinə çevrilir.

## *V. RESPONDENTLƏRİN MƏDƏNİ FƏALLIĞININ GÖSTƏRİCİLƏRİ HAQQINDA*

Keçid dövrünün çətinliklərinin doğurduğu cəmiyyətin sosial strukturu və həyat tərzinin transformasiyası əhalinin mədəni aktivlik səviyyəsinin göstəricilərindən biri olan asudə vaxtın həcmində və məzmununda xeyli dərəcədə dəyişikliklərə gətirib çıxarmışdır. Bunu hazırki tədqiqatın gedişində alınmış nəticələr də sübut edir

Asudə vaxtın keçirilməsinin ən kütləvi növləri kimi respondentlər musiqiyə, mahnı oxumağa və xoreoqrafiyaya olan marağı 286 n. və ya 57,2%, qiraəti 281 n. və ya 56,2% qeyd ediblər. Respondentlərin sonrakı cavabları aşağıdakı kimi paylanmışdır: bədən tərbiyəsi və idmanla məşğuliyyət - 127 n. və ya 25,4%, dillərin öyrənilməsi 79 n. və ya 15,8%, kompü-

ter və İnternetdən istifadə 69 n. və ya 13,8%, tədris və maaarif işi 58 n. və ya 11,6%, təsviri incəsənət - 39 n. və ya 7,8%, elmi iş – 31 n. və ya 6,2%. Bundan başqa digər maraqlar içərisində qeyd edilmişdir: televerilişlərə baxış – 24 n. və ya 4,8%, tətbiqi incəsənət - 14 n. və ya 2,4%, ailə ilə gəzinti – 9 n. və ya 1,8%, evdarlıq – 6 n. və ya 1,2%, radioelektronika – 6 n. və ya 1,2%, təbiətdə istirahət 5 n. və ya 1% və i.a. Beləliklə aparılan tədqiqatın nəticələri respondentlərin asudə vaxtının əsas məzmunu və tərkibini təşkil edən maraqlarının geniş spektrini aşkar etmişdir. Göstərilən statistik rəqəmlər sübut etdiyi kimi bir çox respondentlərin həyatında bədən tərbiyəsi və idman az əhəmiyyətli deyildir, eləcə də dillərin öyrənilməsi, kompüter və İnternetə maraq da əhəmiyyətlidir ki, bunları bilməyə müasir mərhələdə Azərbaycan cəmiyyətində daha çox tələbat vardır. Sorğunun nəticələrinə görə respondentlərin əksəriyyəti üçün asudə vaxtın əsasən ev şəraitində keçirilməsi xarakterikdir – 464 n. və ya 96,7% (bax, cədvəl 5.1).

**CƏDVƏL 5.1.**

| Maraqlarının həyata keçirilməsi yerləri haqqında göstəricilər | | |
|---|---|---|
| **Evdə** | 464 n. | 96,7% |
| **Kitabxanalarda** | 70 n. | 14,5% |
| **İşdə** | 50 n. | 10% |
| **İdman müəssisələrində** | 32 n. | 6,4% |
| **Kompüter mərkəzləri və internet-klublarda** | 31 n. | 6,2% |
| **Mədəniyyət sarayları və mədəniyyət evlərində** | 15 n. | 3% |
| **Təbiətin qoynunda** | 12 n. | 2,4% |
| **Muzeylərdə** | 10 n. | 2% |
| **Digər yerlərdə** | 41 n. | 8,5% |

Cədvəldən göründüyü kimi, soruşulanların ancaq az hissəsi maraqlarını kitabxanada – 70 n. və ya 14,5%, işdə 50 n. və ya 10%, idman müəssisələrində 32 n. və ya 6,4%, kompüter



mərkəzlərində və internet-klublarında 31 n. və ya 6,2%, mədəniyyət sarayları və mədəniyyət evlərində 15 n. və ya 3%, təbiət qoynunda 12 n. və ya 2,4%, muzeylərdə 10 n. və ya 2% və i.a. keçirir. Analiz göstərir ki, ümumiyyətlə əhalinin maddi rifahının, mənəvi tələbatlarının, mədəni səviyyəsinin artması və ya azalması insanların asudə vaxtının məzmununa və təşkilinə bilavasitə təsir göstərir.

İctimai şüura və varlığa təsir edən ən vacib mədəniyyət institutu və aləti kütləvi informasiya vasitələridir. Buradan irəli gələrək bizim tərəfimizdən respondentlərin respublikada dərc olunan kütləvi informasiya mətbuat vasitələrindən onların istifadə etmə dərəcəsi öyrənilmişdir (bax, cədvəl 5.2.).

Cədvəldə respondentlərin 10 dəfədən çox adını çəkdikləri dövri nəşrlərin siyahısı göstərilmişdir (soruşulanların sayı 339 n. və ya 67,8%).

**CƏDVƏL 5.2.**

| Qəzetlərin adı | Oxucuların sayı | |
|---|---|---|
| **Yeni Müsavat** | 157 n. | 46,3% |
| **Krossvord** | 61 n. | 18% |
| **Oxu məni** | 60 n. | 17,7% |
| **Zerkalo** | 55 n. | 16,2% |
| **Şərq** | 39 n. | 11,5% |
| **Azadlıq** | 30 n. | 8,8% |
| **Azərbaycan** | 25 n. | 7,4% |
| **Xalq qəzeti** | 25 n. | 7,4% |
| **Exo** | 24 n. | 7,1% |
| **Nedelya** | 21 n. | 6,2% |
| **Supermarket** | 21 n. | 6,2% |
| **Azərbaycan müəllimi** | 13 n. | 3,8% |
| **Ayna** | 13 n. | 3,8% |
| **Birja** | 18 n. | 3,8% |
| **Naş vek** | 12 n. | 3,5% |
| **Respublika** | 11 n. | 3,2% |

Aparılmış sorğu respondentlərin üstünlük verdiyi həm ictimai-siyasi, həm də məlumat-əyləncə xarakterli ölkə dövri nəşrlərinin geniş spektrini aşkar etmişdir. Bu halda sorğu nəticələrinə görə respondentlərdə ən yüksək dərəcədə rəğbət qazanan "Yeni Müsavat" qəzetidir – soruşulanların ümumi sayından 157 n. və ya 46,3%-i. Digər ictimai-siyasi nəşrlərin sırasında respondentlər tərəfindən bu qəzetlərin adları çəkilmişdir: "Zerkalo" – 55n. və ya 16,2%, "Şərq" – 39 n. və ya 11,5%, "Azadlıq" – 30n. və ya 8,84% və i.a. (bax, cədvəl 5.2.). Soruşulanların çox böyük hissəsi "Krossvord" və "Oxu məni" əyləncə qəzetlərinə üstünlük verir (müvafiq olaraq 61 n. və ya 18% və 60 n. və ya 17,7%). Ümumiyyətlə, tədqiqatda təqdim olunmuş ictimai-siyasi qəzetlərin geniş spektri ölkədə baş verən hadisə və proseslərə marağın yüksək olduğunu sübut edir. Azərbaycan cəmiyyətinin mədəni həyatının digər sahələrindəki hadisələrə gəldikdə isə, statistika sübut etdiyi kimi onlar hələ də əhalinin xeyli hissəsində lazımi maraq oyatmır. Belə ki, ölkədə fəaliyyət göstərən, respublikanın mədəni həyatını işıqlandıran – "Mədəniyyət", "Ədəbiyyat və incəsənət", "Qobustan" və i.a. ixtisaslaşmış dövri nəşrlər praktiki olaraq əhalidə rəğbət qazanmamışdır. Bununla belə o fakt həyəcan doğurur ki, respublikanın 3 şəhərində soruşulanların təxminən 1/3 hissəsi (161 n. və ya 32,2%) o cümlədən onların ailə üzvləri dövri mətbuat nəşrinə nə abunə yazılmır nə də satışdan almırlar. Bu halda 57 n. və ya 60,25% mövcud vəziyyətin əsas səbəbi kimi maddi çətinlikləri göstərmişlər. Yuxarıda göstərilən səbəbdən başqa soruşulanların 50 n. və ya 31,06%-i həmin mətbuat məhsullarına qarşı marağın olmadığını qeyd etmişlər.

Əhalinin mədəni aktivliyinin enməsinin sübutlarından biri ölkənin mədəni-maarif müəssisələrinə davamiyyət göstəriciləridir. Belə ki, respondentlərin ümumi sayından yarıdan az hissəsi respublikanın müxtəlif mədəni-maarif müəssisələrinə



gedir (219 n. və ya 43,8%). Bu göstəricilər üzrə 3 şəhərin respondentlərinin cavablarının müqayisəli analizinin nəticələri müəyyən maraq doğurur (bax, cədvəl 5.3.).

**CƏDVƏL 5.3.**

**Üç şəhər respondentlərinin mədəni-maarif müəssisələri və tədbirlərdə davamiyyət göstəricilərinin müqayisəli analizi**

| | **Bakı** | **Şəki** | **Neftçala** |
|---|---|---|---|
| Gedirlər | 179 n. və ya 44,75% | 28 n. və ya 56% | 12 n. və ya 24% |
| Getmirlər | 221 n. və ya 55,25% | 22 n. və ya 44% | 38 n. və ya 76% |
| Cəmi | 500 n. | 50 n. | 50 n. |

Cədvəldən göründüyü kimi, mədəni-maarif müəssisələri və tədbirlərinin davamiyyətinin ən yüksək göstəricisi paytaxt və Şəki şəhərinin respondentlərində qeyd olunmuşdur – müvafiq olaraq 44,75% və 56%. Bundan əlavə qeyd etmək lazımdır ki, Şəkidə mədəni-maarif müəssisələrinə və tədbirlərə gedənlərin 56% (28 n.) təşkil etməsi, bizim fikrimizcə, mənəvi irsi zəngin olan bu qədim şəhər əhalisinin (Bakı və Neftçala əhalisi ilə müqayisədə) mədəni aktivlik dərəcəsinin kifayət qədər yüksək olmasını sübut edir. Eyni zamanda Neftçala şəhərində asudə vaxtın belə keçirilmə formasından 12 n. və ya soruşulanların 24%-i istifadə edir.

Nəticələr göstərir ki, mədəniyyət müəssisələrinin təklif etdiyi xidmətlər çeşidinin genişlənməsinə baxmayaraq respublikada onların auditoriyasının nəzərə çarpan artımı müşahidə olunmur. Respondentlərin çox hissəsi sorğunun verilənlərinə uyğun olaraq – 281 n. və ya 56,2%-i ümumiyyətlə ölkənin mədəni-maarif müəssisələrinə getmirlər. Bu halda mövcud vəziyyətin əsas səbəbləri qismində bunlar qeyd olun-

muşdur: maddi çətinliklər – 174 n. və ya 62%, vaxtın olmaması 73 n. və ya 26%, bu müəssisələrə marağın olmaması – 51 n. və ya 18,1%. Bundan əlavə 9 n. və ya 3,2% mədəni müəssisələrə iradlarını ifadə etmişlər ki, onlardan: təklif edilən xidmətlər arasında əhalidə maraq oyadan xidmətlərin olmaması, keçirilən tədbirlərin səviyyəsinin aşağı olması, mədəniyyət müəssisələrinin respondentlərin yaşayış yerindən uzaq olması və i.a. qeyd olunub. Ümumiyyətlə, keçirilmiş sorğunun nəticələri bir daha təsdiq etmişdir ki, **vətəndaşların maddi rifahının aşağı səviyyəsi son illərdə onların mədəni aktivliyinin xeyli dərəcədə aşağı düşməsinə səbəb olmuşdur.** – Bu haqda aşağıda verilmiş tədqiqat nəticələrinə baxaq: (Sual: *Siz aşağıda göstərilən mədəni-maarif müəssisə və tədbirlərinə bir il ərzində nə dərəcədə tez-tez gedirsiniz?*)

**CƏDVƏL 5.4.**

| Mədəni-maarif müəssisə və tədbirləri | Hər ay və daha tez-tez | Rübdə 1 dəfə | Yarım ildə 1 dəfə | İldə 1 dəfə | Axırıncı 3-5 ildə getməmişlər |
|---|---|---|---|---|---|
| **Teatrlar** | 25 n. və ya 11,42% | 38 n. və ya 17,35% | 34 n. və ya 15,53% | 12 n. və ya 19,18% | 80 n. və ya 36,53% |
| **Kinoteatrlar** | 18 n. və ya 8,22% | 24 n. və ya 10,96% | 17 n. və ya 7,76% | 22 n. və ya 10,05 % | 138 n. və ya 63,01% |
| **Konsertlər** | 20 n. və ya 5,13% | 16 n. və ya 21% | 11 n. və ya 18,72% | 18 n. və ya 21,92% | 64 n. və ya 29,22% |
| **Sərgilər** | 11 n. və ya 5,02% | 11 n. və ya 5,02% | 18 n. və ya 8,22% | 15 n. və ya 15,98% | 144 n. və ya 65,75% |
| **Yaradıcılıq gecələri** | 10 n. və ya 4,57% | 13 n. Və ya 5,94% | 19 n. və ya 8,68% | 21 n. və ya 9,59% | 156 n. və ya 71,23% |
| **Muzeylər** | 1 n. və ya 4,11% | 14 n. Və ya 6,39% | 19 n. və ya 13,24% | 14 n. və ya 15,53% | 139 n. və ya 60,73% |



Cədvəldən göründüyü kimi soruşulanların xeyli hissəsi son 3-5 il ərzində ümumiyyətlə konsertə, sərgiyə, kinoteatra, muzeylərə və i.a. getməyib. Nəzərə alsaq ki, mədəniyyət müəssisələri bütün cəmiyyət üzvlərinin mənəvi tərbiyəsində, onların milli və dünya mədəniyyətinə, bədii-estetik dəyərlərə və incəsənət əsərlərinə cəlb edilməsində müəyyən rol oynayır, həmin problem xüsusi aktuallıq kəsb edir. Bu cəhətdən kitabxanaların rolunu xüsusi qeyd etmək lazımdır. Yuxarıda adları çəkilmiş mədəniyyət müəssisələri ilə müqayisədə onlar təkcə intellektual elitaya yox, həm də əhalinin geniş təbəqələrinə istiqamətlənməlidir. Bununla bərabər hazırki sorğunun nəticələri göstərmişdir ki, Neftçalada kitabxana xidmətlərindən soruşulanların həddən az hissəsi istifadə edir (bax, cədvəl 5.5.).

(*Sual: Siz kütləvi kitabxanaların və ya tədris müəssisələrinin kitabxanalarının xidmətindən istifadə edirsinizmi?*)

**CƏDVƏL 5.5.**

| | Bakı | | Şəki | | Neftçala | |
|---|---|---|---|---|---|---|
| | *Bəli* | *Xeyr* | *Bəli* | *Xeyr* | *Bəli* | *Xeyr* |
| **Kütləvi kitabxanalar** | 65 n. və ya 16,25% | 335 n. və ya 83,75% | 12 n. və ya 24% | 38 n. və ya 76% | 6 n. və ya 12% | 44 n. və ya 88% |
| **Tədris müəsssisələrinin kitabxanaları** | 51 n. və ya 12,75% | 349 n. və ya 87,25% | 8 n. və ya 16% | 42 n. və ya 84% | 8 n. və ya 16% | 42 n. və ya 84% |

Kütləvi kitabxanalara və tədris müəssisələrinin kitabxanalarına gələn respondentlərin cəmi göstəricisi müvafiq olaraq 148 n. və ya 29,6% və 67 n. və ya 13,4% təşkil etmişdir. Bu zaman soruşulanların müəyyən hissəsi (75 n. və ya 15%) kitabxanada xidmət və oxucuların kitablardan istifadə mədəniyyəti ilə razılığını ifadə etmişdirsə, yalnız 5% (25 n.) bu barədə öz narazılıqlarını bildirmişlər. Kitabxana fondunun

vəziyyəti və kompüter texnikasının olmasından razı və ya demək olar ki, razı qalan respondentlərin sayının cəmi göstəricisi 60 n. və ya bütün 3 şəhərdə bu suala cavab verənlərin ümumi sayının 60%-i qədər olmuşdur. Eyni zamanda respondentlərin müəyyən hissəsi kitabxanaların kitablar, digər mətbuat nəşrləri və kompüter texnikası ilə təmin olunmasından razı qalmayıb və ya demək olar ki, razı qalmayıb – müvafiq olaraq 24% (24 n.) və 16% (16 n.). Respublikanın 3 şəhərində soruşulanların əksər hissəsi ümumiyyətlə nə kütləvi kitabxanalara, nə də tədris müəssisələrinin kitabxanalarına getmir ki, bu da bir daha ölkə əhalisinin mədəni aktivliyinin aşağı düşmə meylini təsdiq edir. Bizim zənnimizcə, mövcud vəziyyətin səbəblərindən biri respondentlərin xeyli hissəsinin müxtəlif cür ədəbiyyatın geniş siyahısına malik olan ev kitabxanalarının mövcud olmasıdır (bax, cədvəl 5.6.).

**CƏDVƏL 5.6.**

**Ev kitabxanalarının mövcudluğu haqqında respondentlərin cavabları**

| | Bəli | Xeyr |
|---|---|---|
| **Bədii** | 361 n. və ya 72,2% | 139 n. və ya 27,8% |
| **Elmi publisistik** | 224 n. və ya 44,8% | 276 n. və ya 55,2% |
| **Texniki** | 174 n. və ya 34,8% | 326 n. və ya 65,2% |
| **Digərləri** | 26 n. və ya 5,2% | |

Respondentlərin çox hissəsinin kitabxana fonduna bədii ədəbiyyatla yanaşı – 77,2% (361 n.), elmi-publisistik – 44,8% (224 n.) və texniki – 34,8% (174 n.) ədəbiyyat daxildir. Ümumiyyətlə keçirilmiş analizin nəticələri sübut edir ki, soruşulanların əksəriyyəti özlərinin kitabxana fondlarının həcmi və məzmunu ilə razıdırlar, bu da kütləvi kitabxanalara aşağı davamiyyətin ilkin səbəblərindən biri ola bilər.



Səciyyəvidir ki, mövcud neqativ vəziyyət kinoteatr kimi mədəniyyət müəssisələri üçün də xarakterikdir. Belə ki, nümayiş etdirilən filmlərin müxtəlifliyinin xeyli genişləndirilməsi, texniki yeniliklərin işlədilməsi bu mədəniyyət müəssisələrinə davamiyyətin artmasına gətirib çıxarmadı: respondentlərin ümumi sayından 63,01% (138 n.) bildirdilər ki, son 3-5 ildə kinoteatrda olmayıblar. Təsəvvür olunur ki, mövcud vəziyyətin səbəblərindən biri də insanlara son zamanlar güclənən elektron KİV təsiridir ki, onların arasında müəyyənedici rol cəmiyyətdə baş verən sosial-mədəni proseslərə təsir aləti olan televiziyaya məxsusdur.

Yuxarıda göstərilənlərə istinad edərək respublikada mədəni həyatın aktual problemləri üzrə televiziya verilişlərinin keyfiyyətinə aid respondentlərin rəyi aşkar olunmuşdur (bax, cədvəl 5.7.).

**CƏDVƏL 5.7.**

**Mədəniyyətin aktual problemləri haqqında televiziya verilişlərinin keyfiyyəti və miqdarı ilə respondentlərin qane olunma göstəriciləri**

| | | |
|---|---|---|
| **Qane edir** | 57 nəfər | 11,52% |
| **Demək olar ki, qane edir** | 248 nəfər | 50,1% |
| **Demək olar ki, qane etmir** | 103 nəfər | 20,81% |
| **Qane etmir** | 70 nəfər | 14,14% |
| **Cavab verməyə çətinlik çəkiblər** | 17 nəfər | 3,43% |

Nəticələr göstərdi ki, soruşulanların böyük hissəsi (305 n. və ya 61,62%) mədəniyyətin aktual problemlərini işıqlandıran televiziya verilişlərinin keyfiyyəti və miqdarı ilə bu və ya digər dərəcədə razılıqlarını ifadə etmişlər. Bununla bərabər mədəniyyət tematikası üzrə televiziya verilişlərinin məzmunundan razı qalmayan və ya demək olar ki, razı qalmayan

respondentlərin cəmi göstəricisi müvafiq olaraq 173 n. və ya soruşulanların 34,59%-i təşkil etmişdir. Belə düşünmək olar ki, ölkə televiziyasında milli və dünya mədəniyyətinin tarix, nəzəriyyə və praktikası mövzularını kifayət qədər işıqlandıran ixtisaslaşmış kanalın yaradılması, bizim fikrimizcə, respublika əhalisinin ümumi mədəni səviyyəsinin gələcək yüksəlişinə kömək edərdi.

## *VI. AZƏRBAYCAN VƏTƏNDAŞLARININ ÖZÜNÜ DƏRK ETMƏSİNİN ARTMASI DİNAMİKASININ ÖLÇÜLMƏSİ*

Aparılmış sosioloji tədqiqat respublikada hüquqi demokratik dövlət quruluşunun təşəkkülü şəraitində Azərbaycan vətəndaşlarında milli dərk etmənin formalaşmasına respondentlərin münasibətini aşkar etməyə imkan vermişdir (bax, cədvəl 6.1.).

**CƏDVƏL 6.1.**

**Azərbaycan milliyyətli vətəndaşlarda milli özünü dərketmənin artması haqqında respondentlərin rəyi**

| | | |
|---|---|---|
| **Bəli** | 338 nəfər | 67,6% |
| **Xeyr** | 146 nəfər | 29,2% |
| **Cavab verməyə çətinlik çəkirəm** | 16 nəfər | 3,2% |

Cədvəldən göründüyü kimi, Azərbaycanda milli özünü dərk etmənin artmasına meyl qeyd olunur ki, bu haqda soruşulanların 67,6%-i bildirmişdir. Respublikanın şəhərləri üzrə müqayisəli analiz göstərdi ki, milli özünü dərketmənin yüksəldiyini göstərən respondentlərin sayı əyalətdə (Şəki və



Neftçala) Azərbaycan paytaxtına nəzərən xeyli çoxdur (bax, cədvəl 6.2.).

Sual: *Sizin fikirinizcə, hal-hazırda azərbaycan millətindən olan vətəndaşlarda milli özünüdərketmənin inkişafı müşahidə olunurmu?*

**CƏDVƏL 6.2.**

**Azərbaycan milliyyətli vətəndaşlarda milli özünü dərk etmənin artması haqqında respondentlərin rəyi**

| | **Bakı** | **Şəki** | **Neftçala** |
|---|---|---|---|
| Bəli | 254 n. və ya 63,5% | 38 n. və ya 76% | 46 n. və ya 92% |
| Xeyr | 132 n. və ya 33% | 12 n. və ya 24% | 2 n. və ya 4% |
| Cavab verməyə çətinlik çəkirəm | 14 n. və ya 3,5% | - | 2 n. və ya 4% |

Yuxarıda göstərilən verilənlər sübut edir: respondentlərin təsdiqedici cavablarının faiz göstəricilərinin Bakı və Şəki şəhərləri arasındakı fərqi 12,5% təşkil etmişdir. Bakı ilə Neftçala arasında isə – 28,5%-dir. Güman etmək olar ki, verilmiş göstəriciləri müəyyən edən əsas səbəb əsasən azərbaycanlılar yaşayan rayonlarda milli tərkibin bircins olmasıdır. Yuxarıda göstərilənlərə əsasən eləcə də Azərbaycanın köklü əhalisinin nümayəndələrində milli özünü dərketmənin artımına səbəb olmuş və onu təyin etmiş faktorlar haqqında respondentlərin rəyini öyrənmək də nəzərdə tutulmuşdur. Buna dair ölkə vətəndaşlarının rəyi aşağıdakı cədvəldə göstərilmişdir (bax, cədvəl 6.3.)

CƏDVƏL 6.3.

| Azərbaycan milliyyətli vətəndaşlarda özünü dərketmənin artmasına səbəb olmuş faktorlar | | |
|---|---|---|
| Cəmiyyətin bütün sahələrində baş verən demoqrafik proseslər | 107 n. | 31,66% |
| Milli xalq mədəniyyəti, ənənə, adət və ayinlərin bərpası | 195 n. | 57,69% |
| İslamın dini dəyərlərinə qayıtma | 150 n. | 44,38% |
| Əsil ruhi mədəniyyət elitasının əmələ gəlməsi ilə | 29 n. | 8,58% |
| Müstəqilliyin əldə edilməsi | 13 n. | 3,85% |
| Ölkədə müharibə şəraiti | 6 n. | 1,78% |
| Əhalidə vətənpərvərliyin artması | 3 n. | 0,89% |
| Respublikada təhsil səviyyəsinin yüksəlməsi | 1 n. | 0,3% |
| Milli özünü eyniləşdirmənin artımı | 1 n. | 0,3% |
| Sosial problemlər | 1 n. | 0,3% |
| Cavab verməyə çətinlik çəkirəm | 13 n. | 3,85% |

Cədvəldən göründüyü kimi azərbaycanlılarda milli özünü dərk etmənin artımı əsasən "milli xalq mədəniyyəti, ənənə, adət və ayinlərin bərpası" ilə əlaqələndirilir. Təsəvvür olunur ki, özünü dərk etmənin məhz bu artım faktoruna istinad etmiş respondentlərin belə yüksək faizi (57,69%) ölkə vətəndaşlarının özünün mədəni- tarixi irsə demokratizasiya prosesi şəraitində yaranan marağını sübut edir.

Məlumdur ki, SSRİ-də fəlsəfənin əsas məsələsinin həllində volyuntarizm və subyektivizm göstərilərək mədəniyyətin tərkib hissəsi olan dini kütləyə təsirdən məhrum etməyə, barışmaz ateizmin zorla tətbiqinə cəhd göstərilirdi. Dini ənənələrin islamın milli-mədəni dəyərləri ilə sıx qarışdığı Azərbaycanda millətin mentallığının ayrılmaz hissəsinin təzahürü olduğunu bilərək aydındır ki, belə cəhdlər müsbət nəticələr gətirə bilməzdi. Bundan əlavə onlar gizli etirazlar yaratdı və bununla da millətin parçalanmasına səbəb olaraq, milli özünü dərketmədə milli ruhun artmasına mane olurdu. Bu vəziyyəti hazırki gündə milli özünü dərketmənin artmasının səbəblərinin ikincisi islamın dini dəyərlərinə qayıtmanı qeyd etmiş respondentlərin cavabları da sübut edir (44,38%). Eyni zamanda yuxarıda qeyd olunduğu kimi, əhalinin aşağı həyat səviyyəsi ekspertlər hesab etdiyi kimi, din sahəsində əsaslandırılmış biliklərin olmaması ilə birlikdə bəzi islam ardıcıllarını müxtəlif ekstremist və radikal dini təşkilat düşərgələrinə sürükləyir. Qeyd edək ki, bu təhlükənin mahiyyətini Azərbaycan Prezidenti H.Əliyev Bakı şəhərində 18 may 2001-ci il tarixdə MDB ölkələrinin müdafiə idarələrinin başçıları ilə görüşündə göstərmişdir.

Tədqiqat həm də təsdiq etmişdir ki, plüralizm və demokratikləşdirmə - milli özünü dərketmənin artmasına məhdudiyyət və manecələrin olmaması kimi çox əhəmiyyətlidir. Bu haqda respondentlərin 107 nəfəri (31,66%) bildirmişdir. Bundan əlavə respondentlər səbəb kimi: "mədəniyyətin həqiqi mənada mənəvi elitasının təşəkkülü" (29 respondent və ya 3,85%), ölkədə müharibə şəraiti (6 respondent və ya 1,78% cavablar) və i.a. göstərmişlər (bax, cədvəl 6.3.).

Eyni zamanda respondentlərin böyük bir hissəsi (146 nəfər və ya soruşulanların 29,2%-i) hesab edir ki, hal-hazırda Azərbaycanın köklü əhalisində milli dərketmənin artımı, təəssüf ki, müşahidə edilmir. Milli özünü dərketmənin artmasına manecçiliklərin əsas səbəbləri kimi, respondentlər aşağıdakıları göstərmişlər (bax, cədvəl 6.4.).

## CƏDVƏL 6.4.

**Azərbaycan milliyyətli vətəndaşların milli özünü dərketmə artımının olmamasının səbəbləri (Müsahibə blankının açıq sualına respondentlərin cavabları)**

| | | |
|---|---|---|
| Sosial problemlər (aşağı maddi səviyyə, işsizlik) | 54 n. | 36,72% |
| Əhalinin aşağı mədəni səviyyəsi | 14 n. | 9,52% |
| Milli-mədəni irsin təbliğ olunmaması | 8 n. | 5,44% |
| Qərb mədəniyyətinin neqativ təsiri | 8 n. | 5,44% |
| Korrupsiyalaşma | 6 n. | 4,08% |
| Düzgün olmayan dövlət siyasəti | 6 n. | 4,08% |
| Şəxsi maraqların ictimai maraqlardan üstün olması | 4 n. | 2,72% |
| Hakimiyyət strukturları artmaya mane olurlar | 4 n. | 2,72% |
| "Sovet düşüncəsi" | 4 n. | 2,72% |
| Milli mənsubiyyətin mənasının itirilməsi | 3 n. | 2,04% |
| Dinin əsaslarını bilməmək | 3 n. | 2.04% |
| Azərbaycan tarixini bilməmək | 3 n. | 2.04% |
| İnsanlarda inamın olmaması, qəddarlıq | 3 n. | 2,04% |
| Qarabağ problemi | 2 n. | 1,36% |
| Millətlərarası nigahın çoxlu sayda olması | 2 n. | 1,36% |
| Vətənpərvərliyin və ailədə vətənpərvərlik tərbiyəsinin olmaması | 2 n. | 1,36% |
| Respublikada qanunvericiliyə riayət edilməməsi | 2 n. | 1,36% |
| Milli birliyin olmaması | 2 n. | 1,36% |
| Demokratik proseslərin ləng inkişafı | 2 n. | 1,36% |
| Azərbaycan dilini bilməmək | 1 n. | 0,68% |
| Çoxsaylı ideologiyaların olması | 1 n. | 0,68% |
| Milli dəyərlərə biganəlik | 1 n. | 0,68% |
| İnsanlarda dərin düşüncənin olmaması | 1 n. | 0,68% |
| Yerlibazlıq | 1 n. | 0,68% |
| Söz azadlığının olmaması | 1 n. | 0,68% |
| Zəif genofond | 1 n. | 0,68% |
| Cavab verməyə çətinlik çəkirəm | 7 n. | 4,79% |



Yuxarıdakı verilənlərdən görünür ki, respondentlərin əksəriyyətinin rəyinə görə milli özünü dərketmənin artmasına əsas maneə (36,72%) kimi ümumi sosial problemlər çıxış edir. Aşağı maddi həyat səviyyəsi, bir qayda olaraq, şəxsiyyətin marginallaşması və lümpenləşməsinə şərait yaradır, fərdin mədəni səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır. Bu baxımdan həm birinci, həm də ikinci səbəblər (əhalinin aşağı mədəni səviyyəsi – 9,52% qeyd etmişdir) bir-birilə qarşılıqlı əlaqədədir. Bundan əlavə, təsəvvür olunur ki, şəxsiyyətin ətraf dünyada öz yerini düzgün anlaması və bir qədər kənardan müşahidəsi üçün müvafiq əqli və mədəni səviyyə lazımdır. Bizim fikrimizcə, bu şərtlərə riayət etmədən milli özünü dərk etmənin təkamülü qeyri-mümkündür.

Milli özünü dərk etmənin artımına mane olan digər səbəb kimi, respondentlər milli-mədəni irsin təbliğinin olmamasını hesab edirlər – 5,44%. Belə hiss olunur ki, verilmiş problemin həllində əsas rolu Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi və i.a. kimi müvafiq dövlət strukturları oynamalıdır. Eyni zamanda respondentlərin qeyd etdiyi boşluğu doldurmaq üçün Azərbaycanın qeyri-hökumət təşkilatlarının, yerli özünü idarəetmə orqanlarının və i.a. potensialından istifadə edilməsi də məqsədəuyğundur. Üçüncü sektorun inkişafı və vətəndaş təşəbbüslərinin müsbət qiymətləndirilməsi bugünkü halda müasir Azərbaycan qarşısında duran ən aktual məsələlərdəndir. Bundan əlavə, mədəniyyətin inkişafı üçün şərait yaratmadan, mədəniyyət siyasəti çərçivəsində dövlət tərəfindən bu prosesi himayə etmədən vətəndaş mədəni təşəbbüslərinin həyata keçirilməsi mümükün deyil.

Müasir cəmiyyətin transformasiyası şəraitində Azərbaycanın milli-mədəni irsinin təbliğatında olan boşluğu müxtəlif qərb kütləvi-mədəniyyət məhsulları – cürbəcür sektalar, filmlər və qeyri-adekvat davranış tərzi tutmağa çalışır. Ola bilsin ki, bu növ məhsulla tanışlıq respondentləri milli özünü

dərk etmənin inkişafına maneə kimi "Qərb mədəniyyətinin neqativ təsiri"ni göstərməyə vadar etmişdir (5,44%). Ancaq qeyd etmək lazımdır ki, Qərb mədəniyyəti - təkcə Action janrında filmlər və "İyeqova şahidləri" məzhəbi deyil. Bu həm də Mikelancelo, Rembrandt, Aristotel, Tatsit, Eynşteyndir. Bundan əlavə Azərbaycanda formalaşan vətəndaş cəmiyyətinin məqsədlərindən biri həm qərb, həm də şərq mədəniyyətlərinin yüksək nailiyyətlərinin sintezi şərtilə dünya mədəniyyət cəmiyyətinə inteqrasiya zərurətinin irəli çıxmasıdır. Bu zaman Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşması gedişində tarixin spesifikasını, milli bənzərsizliyi, həm azərbaycan millətinin, həm də ümumiyyətlə xalqın adət və ənənələrini nəzərə almaq lazım gələcək. Tədqiqatın nəticələri sübut etdiyi kimi Azərbaycan cəmiyyətində milli özünü dərketmənin artımının digər ciddi maneəsi korrupsiya kimi sosial hadisənin ictimai şüurda möhkəmlənməsidir. Buna öz neqativ münasibətini soruşulanların 4,08%-i bildirmişdir. Milli özünü dərk etmənin artmasına mane olan digər səbəblərin içərisində respondentlər tərəfindən "qeyri-düzgün dövlət siyasəti", "hakim strukturların maneçiliyi" və i.a. qeyd olunmuşdur (bax, cədvəl 6.4.).

Azərbaycanlıların milli özünü dərketməsinin artması ilə əlaqədar problemlərə toxunarkən düşünülmüş mədəniyyət siyasətinin Azərbaycan diasporası mühitində xarici ölkələrdə, xüsusilə Rusiya, ABŞ və i.a. həyata keçirilməsinin vacibliyini yada salmaq lazımdır. Qeyd etmək lazımdır ki, ölkənin siyasi elitası son zamanlar bu istiqamətdə böyük səy göstərir, buna Azərbaycan Respublikası Prezidentinin Bakıda 9-10 noyabrda dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında 23 may 2001-ci il tarixli sərəncamı və bu sahədə digər tədbirlər misal ola bilər.

Mədəni irsin ölkənin mədəniyyət siyasətində vacib yer tutmasına əsaslanaraq respondentlərin müasir şəraitdə keçmişin bəzi elementlərinin bərpasına münasibətini təyin etmək məqsədəuyğundur (bax, cədvəl 6.5.).



**CƏDVƏL 6.5.**

**Müasir şəraitdə mədəni-mənəvi dəyərlərin canlanmasına respondentlərin münasibəti**

| | Müsbət | Neytral | Mənfi | Cavab verməyə çətinlik çəkirəm |
|---|---|---|---|---|
| **Xalq gəzintiləri** | 377 n. və ya 75,4% | 97 n. və ya 19,4% | 22 n. Və ya 4,4% | 4 n. və ya 0,8% |
| **Xalq təbabəti** | 384 n. və ya 76,8% | 92 n. və ya 18,4% | 21 n. Və ya 4,2% | 3 n. və ya 0,6% |
| **Xalq sənəti və peşələri** | 439 n. və ya 87,8% | 53 n. və ya 10,6% | 8 n. Və ya 1,6% | - |
| **Dini tematikada televerilişlərin təşkili** | 328 n. və ya 65,6% | 132 n. və ya 24,6% | 44 n. Və ya 8,8% | 5 n. və ya 1% |
| **Bəzi dini bayramların dövlət səviyyəsinə qaldırılması** | 344 n. və ya 68,6% | 99 n. və ya 19,8% | 49 n. Və ya 9,8% | 8 n. və ya 1,6% |

Tədqiqatın yuxarıda göstərilmiş nəticələrinin sübut etdiyi kimi müasir mərhələdə respondentlərin əksəriyyəti keçmişin elementlərinin canlandırılmasının zəruriliyini müsbət qiymətləndirirlər. Əldə olunmuş nəticələr mədəniyyət siyasətində dünya mədəniyyətinin innovasion nailiyyətləri ilə Azərbaycan mədəniyyətinin ənənəvi komponentlərinin yaradıcı şəkildə uyğunlaşdırılmasının zəruriliyini təsdiq edir.

## *VII. MÜASİR MƏRHƏLƏDƏ RESPUBLİKADA TƏŞƏKKÜL TAPMIŞ MİLLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN MƏDƏNİYYƏT SƏVİYYƏSİNİN RESPONDENTLƏR TƏRƏFİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ*

Demokratik və suveren Azərbaycanın qurulduğu müasir şəraitdə ölkə çərçivəsində millətlərarası münasibətlər mədəniyyətinin meyllərinin proqnozlaşdırılması və vaxtında aşkar olunması xüsusi əhəmiyyətə malik olur ki, bu da hazırki sosioloji sorğunun məqsəd və vəzifələrindən biridir. Sosioloji tədqiqat qrupunun kütləvi informasiya vasitələri ilə keçirdiyi kontent-analizin təsdiq etdiyi kimi bu gün Azərbaycandakı milli münasibətlərin vəziyyəti də sabitliyi ilə xarakterizə olunur. Milli və etnik azlıqların nümayəndələri ölkədə Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində özünü ifadə etmə və özünü realizə etmə azadlığının kifayət qədər yüksək dərəcəsinə malikdirlər. Bundan başqa onlar dövlət hakimiyyətinin müxtəlif qollarında və respublikanın ictimai təşkilatlarında kifayət qədər tam təmsil olunmuşlar.

Qeyd edək ki, respondentlərə eyni vaxtda bir neçə cavabı göstərmək imkanı verilmişdir.

Tədqiqat göstərir ki, respondentlər başqa xalq və ölkələrin mədəniyyətinə maraq göstərirlər. Eyni zamanda bu maraqların həyata keçirilməsi əsasən elektron kütləvi informasiya vasitələri vasitəsilə aparılır: televiziya və radio. Ancaq müqayisəli analiz respublika paytaxtının əhalisi və tədqiq olunan ölkə regionları arasında ümumdünya İnternet şəbəkəsi istifadəçilərinin miqdarında çox böyük fərq aşkar etmişdir.



CƏDVƏL 7.1.

**Başqa millət və xalqların mədəniyyətinə respondentlərin maraq göstəriciləri**

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| **Ədəbiyyatla maraqlanıram** | 134 n. və ya 33,5% | 17 n. Və ya 34% | 14 n. və ya 28% |
| **Radioya qulaq asıram** | 111 n. və ya 27,75% | 15 n. Və ya 30% | 9 n. və ya 18% |
| **Musiqini dinləyirəm** | 247 n. və ya 61,75% | 41 n. Və ya 82% | 43 n. və ya 86% |
| **Televerilişlərə və kinofilmlərə baxıram** | 316 n. və ya .79% | 45 n. Və ya 90% | 46 n. və ya 92% |
| **Tamaşalara baxıram** | 38 n. və ya 9,5% | 7 n. Və ya 14% | - |
| **Konfranslarda, disputlarda və görüşlərdə iştirak edirəm** | 16 n. və ya 4% | 4 n. və ya 8% | - |
| **İnternet şəbəkəsi ilə məlumat alıram** | 22 n. və ya 5,5% | - | - |
| **Marağım yoxdur** | 56 n. və ya 14% | 2 n. və ya 4% | 2 n. və ya 4% |
| **Tarixlə maraqlanıram** | - | 1 n. Və ya 2% | - |
| **Məişət və folkloru öyrənirəm** | 1 n. və ya 0,25% | 1 n. Və ya 2% | - |
| **İncəsənəti öyrənirəm** | 3 n. və ya 0,25% | - | - |
| **Xarici rəssamların əsərlərini öyrənirəm** | 1 n. və ya 0,25% | - | - |
| **Görkəmli şəxsiyyətlərin həyatı ilə maraqlanıram** | 1 n. və ya 0,25% | - | - |
| **Poçt və elektron poçtu ilə yazışmalar aparıram** | 1 n. və ya 0,25% | - | - |

Azərbaycan - SSRİ-nin mövcudluğu zamanında da, hazırki dövrdə də müxtəlif etnos və xalqların dinc birgə yaşayış nümunəsidir. Eyni zamanda ekspertlərin hesab etdiyi kimi preventivlik millətlər arası münasibətlərdə sabitliyin saxlanılması üçün əsas faktorlardan biri kimi çıxış etməlidir ki, bu da respublikada yaşayan etnik azlıqların mədəni özünü ifadə etmə formalarının axtarışını və müəyyənləşdirilməsini tələb edir. Bu formaların hüdudları Azərbaycanın Konstitusiyası ilə təyin edilir. Buna əsaslanaraq hazırki tədqiqatda respondentlərin özlərinə respublikanın etnik azlıqları üçün uyğun özünü ifadə etmə formalarını təyin etmək təklif edilmişdir. Respondentlər hesab edir ki, Azərbaycanda başqa millətlərdən olan şəxslərə özünün mədəni cəmiyyətlərini və mərkəzlərini (cavabların 76,2%-i) yaratmağa, öz doğma dillərində qəzet və jurnallara, tele-radio verilişlərə malik olmağa (67%) və respublikanın tədris müəssisələrində öz dillərini öyrənməyə (57,4%) imkan yaradılmalıdır. Eyni zamanda respondentlərin cavabları həm də azlıqların milli-mədəni özünü ifadə formalarına bir qədər ehtiyatlılığı aşkar etmişdir ki, bunu qoyulmuş suala yüksək dərəcədə mənfi cavablar sübut edir. Belə ki, soruşulanların 25,6%-i hesab edir ki, başqa millətlərin nümayəndələrinə mədəni cəmiyyətlər və mərkəzlər yaratmaq, doğma dilində qəzet və jurnallara, tele-radio verilişlərə malik olmaq (30,8%), öz dilini respublika tədris müəssisələrində öyrənmək (11,2%) imkanı verilməməlidir. Bununla bərabər soruşulanların 5,8%-i göstərir ki, respublikada milli azlıqların nümayəndələri dövlət (azərbaycan) dilini öyrənməlidir. Fikrimizcə, bu simptomlar öz təyinat xarakterinə görə xüsusi, tam miqyaslı tədqiqat və analiz tələb edir. Bu cavablardan başqa respondentlər Azərbaycanda yaşayan müxtəlif millətlərin mədəniyyət cəmiyyətləri və mərkəzlərinin sıx qarşılıqlı əlaqələrinin də vacibliyini (0,8%) və i.a. qeyd etmişlər.



Ölkənin çap və elektron kütləvi informasiya vasitələrinin monitorinqi, aparılan tədqiqatın nəticələri respublikada başqa millət və xalqların nümayəndələrinə azərbaycanlıların yüksək dərəcədə tolerantlığını sübut edir. Belə ki, soruşulanların əksər hissəsi (89%) hesab edir ki, respublikada köklü milliyyətdən olan vətəndaşlarla yanaşı ənənəvi olaraq müxtəlif etnosların nümayəndələri də birgə yaşamalıdırlar. Bizim müəyyənləşdirdiyimizə görə Azərbaycanda müxtəlif etnosların birgə yaşayış ənənələrinin təşəkkül tapması, respublikada monoteistik dinlərin qarşılıqlı telerantlığı böyük elmi maraq doğurur və bu məsələlərə ayrıca tədqiqat və ümumiləşdirmə predmeti kimi baxıla bilər. Bununla yanaşı yuxarıda adları çəkilmiş göstəricilər baxımından respondentlərin müxtəlif millətlərdən olan insanlar arasında nigahlara bir qədər ziddiyyətli münasibəti görünür. Belə ki, soruşulanların çox böyük faizi (41,8%) bu imkanı mənfi qəbul edir. Təxminən bu qədər də respondent (40%) millətlər arası nigaha əsaslanmış ailələri alqışlayır, 17% bu məsələyə biganə yanaşır. Çox güman ki, mənfi cavabların belə yüksək göstəricisi Azərbaycan cəmiyyətində dini faktorların rolunun artmasının təzahürüdür. Bu halda dini mənsubiyyət respondentlərin cavabında determinant kimi çıxış edir. Belə bir fərziyyənin əsaslandırılması respondentlərin nigahın qeyd olunmasında dini mərasimlərin zəruriliyinə münasibəti ilə də sübut olunur (bax, cədvəl 7..2.).

**CƏDVƏL 7.2.**

| Никаһын гејд олунмасында дини мәрасимләрә респондентләрин мүнасибәти | | |
|---|---|---|
| **Vacib hesab edirəm** | 316 n. | 63,2% |
| **Müəyyən dərəcədə vacib hesab edirəm** | 103 n. | 20,6% |
| **Demək olar ki, vacib hesab etmirəm** | 42 n. | 8,4% |
| **Vacib hesab etmirəm** | 37 n. | 7,4% |
| **Cavab verməyə çətinlik çəkirəm** | 2 n. | 0,4% |

Tədqiqatın nəticələrinin göstərdiyi kimi, soruşulanların 63,2%-i hesab edir ki, nikah zamanı dini adətlərə riayət edilməsi vacibdir. Bu da yuxarıda irəli sürülmüş fərziyyəni təsdiq edir.

Qeyd etmək lazımdır ki, mütəxəssislərin çoxsaylı proqnozlarına görə, milli konfliktlər dünya mədəni-tarixi proseslərinə getdikcə daha çox təsir edəcəkdir. Etnoloqların məlumatlarına görə, dünyada öz müqəddaratını həll etməyə və dövlət yaratmaq hüquqlarını bəyan etməyə potensial hazır olan 5 minə qədər etnik qrup mövcuddur. Bu hərəkatların böyük hissəsi latent və ya qeyri-zorakı formada cərəyan edir. Eləcə də eyni zamanda nəzərə almaq lazımdır ki, hər hansı bir münaqişə artaraq mütləq gizli fazadan aktiv fazaya keçir. Kütləvi informasiya vasitələrinin böyük təsiri şəraitində millətlər arası gərginliklərin qorxulu simptomlarından biri başqa millətlərin mentaliteti, xarakteristikası haqqında müxtəlif növ neqativ və ədəbsiz bəyanat, qiymətlər olan çıxışlardır. Soruşulanların 66,6%-i hesab edir ki, Azərbaycanda belə simptomlar yoxdur. Eyni zamanda respondentlərin 4,8%-i bildirdi ki, onlar tez-tez "başqa millətlərin nümayəndələrindən öz millətləri haqqında hörmətsiz rəylər" eşidirlər. Respondentlərin 9,8%-i cavab veriblər ki, vaxtaşırı milli dözülməzlik ilə rastlaşırlar, 12,8%-i isə belə halların nadir olduğunu qeyd edir. Respondentlərin ümumi sayının 5,8%-i belə fikirləri heç vaxt eşitməyiblər, ancaq onlarda olan məlumata görə bu cür hallar Azərbaycan cəmiyyətində baş verir. Şübhəsiz ki, müxtəlif etnosların mədəniyyətinin harmonikləşməsinin və dünya mədəniyyətinin inkişafının açarı - mədəniyyət sahəsində maariflənmədə, son nəticədə "azərbaycan xalqı" anlayışını formalaşdıran Azərbaycan ərazisində yaşayan millətlər və xalqların mədəniyyət və tarixlərinin ümumiliyinin təbliğatındadır.



Aşağıdakı cədvəl respondentlərin qarşılaşdığı milli dözülməzliyin neqativ hadisələrinin mahiyyətini və səbəblərini açır (bax, cədvəl 7.3.).

Sual: *Zəhmət olmasa, deyin, müxtəlif millətlərdən olan insanlar arasında münasibətlərdə Siz məhz hansı neqativ hallarla rastlaşmısınız?*

CƏDVƏL 7.3.

**Respondentlərin müxtəlif milliyyətli insanlar arasındakı münasibətlərdə neqativ hadisələrin mövcudluğu haqqında rəyi (bir neçə cavab variantına icazə verilmişdi)**

| | | |
|---|---|---|
| **Başqa millətlərdən olan vətəndaşların adət-ənənələrinə, mərasimlərinə və dillərinə hörmətsizlik** | 73 n. | 53,28% |
| **Bəzi adamlarda milli-mədəni məsələlərə qərəzli münasibətin qalması** | 55 n. | 40,15% |
| **Dinin və allaha inanan insanların hisslərinin başqa millətdən olan adamlara qarşı kin və ədavət oyatmaq üçün istifadə edilməsi** | 38 n. | 27,74% |
| **Təhqirlər** | 2 n. | 2,74% |
| **Tamahkarlıqda ittiham** | 1 n. | 1,37% |
| **Mədəniyyətsizlikdə ittiham** | 2 n. | 2,74% |
| **Mənəviyyatsızlıqda ittiham** | 1 n. | 1,37% |
| **Ermənilər tərəfindən Azərbaycana qarşı təbliğatın aparılması** | 1 n. | 1,37% |
| **Azərbaycanlıların özü tərəfindən öz xalqına hörmətin olmaması** | 1 n. | 1,37% |

Respondentlərin cavabları göstərir ki, millətlərarası neqativ hadisələr hər şeydən əvvəl mədəniyyət sahəsində baş verir. Belə ki, soruşulan 137 nəfərdən 53,28%-i milli adətlə-

rə, ənənələrə və dilə qarşı hörmətsizlik faktını qeyd etmişlər. Bundan başqa, onların rəyincə, ölkənin vətəndaşlarının milli-mədəni xurafatı da mənfi rol oynayır (40,15%). Eləcə də milli ədavəti qızışdırmaq üçün dindarların dini hisslərindən istifadə də mövcuddur, bu haqda respondentlərin 27,74%-i bildirmişdir və bununla da ekspertlərin Azərbaycanda müxtəlif istiqamətli dini cəmiyyətlərin millətlərə və dövlətə qarşı fəaliyyəti haqqında rəylərini təsdiq etmişdir. Respondentlərin 0,55%-i millətlərinin ünvanına birbaşa təhqirlə rastlaşmışlar. Maraqlıdır ki, bu suala cavablarda soruşulanlar təkcə Azərbaycandakı milli azlıqların vəziyyətini yox, həm də Azərbaycanın köklü millətinin ünvanına olan fikirləri nəzərdə tutmuşlar (bax, cədvəl 7.3.).

Respublikada millətlərarası münasibətlərin mədəniyyəti sahəsində aparılmış analizin nəticələri ehtimal etməyə imkan verir ki, Azərbaycan dövlətinin yeni mədəniyyət siyasətinin başlıca istiqamətlərindən biri millətlərin özünü ifadə etmə və demokratiyanın dəyərləri prinsipi olmalıdır ki, bunların başa düşülməsi və həyata keçirilməsi son nəticədə millətlər arası münasibətləri sabitləşdirir. Bu prosesdə xüsusi rol mədəniyyətin kütləvi informasiya vasitələri kimi sosial instituta məxsusdur. Qeyd etmək lazımdır ki, söz azadlığı demokratiyanın yüksək nailiyyətidir ki, bu da sayından asılı olmayaraq hər bir etnosa müstəqil, sərbəst inkişaf hüququna nail olmağa imkan verir. Ancaq yeni demokratik mədəniyyətin formalaşması, demokratik hüquqlar və azadlıqlar prinsipinə riayət olunması - Azərbaycan mədəniyyətinin inkişafı mənafeyi üçün müxtəlif mədəniyyətlərin xüsusiyyətlərini dərk etmək, onların qarşılıqlı surətdə bir-birini zənginləşdirmək, dialoq və əməkdaşlıq imkanını və yollarını müəyyən etmək imkanı verir.



## *VIII. RESPONDENTLƏRİN AZƏRBAYCANDA MÜASİR MƏRHƏLƏDƏ MƏDƏNİYYƏT SİYASƏTİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ HAQQINDA RƏYİ*

### 8.1. Mədəniyyətin inkişafında bələdiyyə orqanlarının rolunun və əhəmiyyətinin müəyyənləşdirilməsi

Azərbaycan cəmiyyətinin demokratik dövlət quruluşu və bazar iqtisadiyyatına keçidi ideologiyanın itməsi və dövlət monopoliyasının ləğvi ilə müşayiət edilir. Bu, partiya və dövlət orqanları tərəfindən total ideoloji nəzarətdən imtinaya, incəsənətin bütün sahələrində böyük azad yaradıcılığın üzə çıxmasına, vətəndaşların sosial-mədəni maraqlarının hərtərəfli həyata keçirilməsinə gətirib çıxardı. Bununla belə dövlət mədəniyyət sahəsinin donor, sponsor və sosial sifarişçisi olmasını dayandırmaqla onun özəl və büdcədənkənar maliyyələşdirilməsi kimi effektiv alternativini yaratmadı və heç yarada da bilməzdi (keçid dövrünün obyektiv səbəbləri ilə əlaqədar), bu da mədəniyyət sahəsinin idarə olunmasına öz mənfi təsirini göstərmişdir.

Keçirilmiş sorğu göstərdi ki, bazar münasibətləri şəraitində mədəniyyət sahəsində Qərbin təbliğ edilən "kütləvi mədəniyyət"inin təsirinin nəzərə çarpan artımı hiss olunur. Bu, vətəndaşların mənəvi səviyyəsinin enməsinə, incəsənət əsərlərinin səviyyəsinin aşağı düşməsinə, onların Azərbaycan xalqının milli-mədəni irsindən ayrılmasına və mənəviyyat, əxlaq mahiyyətindən məhrum edilməsinə aparır. Digər tərəfdən tamamilə aydın olur ki, mədəniyyət sahəsinin təkcə bazar mexanizmləri və mesenatlıq hesabına maliyyələşdirilməsi obyektiv olaraq arzu olunan nəticəyə gətirə bilməz. Demokratik dövlətlərin əksəriyyətində müxtəlif sosial qruplar üçün mədəni nemət və xidmətlərin mümkünlüyünü təmin etmək məqsədilə mədəniyyət sahəsi xeyli dərəcədə büdcədən maliyyə-

ləşdirilir. Bu zaman yüksək əqli və insan potensialına malik olub, ölkənin mənəvi və maddi mədəniyyətinin inkişafının güclü faktoru şəklində çıxış edən qeyri-hökumət strukturlarına dövlətin ciddi yardımı göstərilir. Buna əsaslanaraq demokratik mədəniyyətin sosial institutları – yerli özünü idarəetmə orqanlarının (bələdiyyələrin) Azərbaycan mədəniyyətinin inkişafında rolu və əhəmiyyətini müəyyən etməyə cəhd göstərilmişdir. Yuxarıdakıları nəzərə alaraq respondentlərə hazırki dövrdə respublikada bələdiyyələrin fəaliyyətinin səmərəlilik dərəcəsini təyin etmək təklif olunmuşdur (bax, cədvəl 8.1.).

**CƏDVƏL 8.1.**

**Bələdiyyə orqanlarının fəaliyyətinin səmərəlilik dərəcəsinin respondentlər tərəfindən qiymətləndirilməsi**

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| **Yüksək** | 8 n. və ya 2% | 1 n. və ya 2% | - |
| **Orta** | 94 n. və ya 23,5% | 18 n. və ya 36% | 16 n. və ya 32% |
| **Aşağı** | 263 n. Və ya 61,75% | 28 n. və ya 56% | 33 n. və ya 66% |
| **Cavab verməyə çətinlik çəkirəm** | 35 n. və ya 8,75% | 3 n. və ya 6% | 1 n. və ya 2% |

Proqnozlaşdırıldığı kimi respondentlərin əksər hissəsi (324 nəfər və ya soruşulanların ümumi sayının 64,8%) bələdiyyə orqanlarının fəaliyyətinin səmərəliliyini həddən artıq aşağı qiymətləndirir. Bundan əlavə bələdiyyələrin neqativ qiymətləndirmə göstəriciləri hər üç tədqiq olunan şəhərdə (Bakı, Şəki, Neftçala) soruşulanların ictimai rəyində xeyli dərəcədə üstünlük təşkil edir. Əldə olunan verilənlər bir daha bizim fərziyyəmizi təsdiq etdi ki, respublikada yerli özünü idarəetmə orqanları yeniliyi və zəif maddi-texniki bazasına görə hələ də



ölkə vətəndaşlarının əksəriyyətinin ictimai şüurunda lazımi status və əhəmiyyət kəsb etməmişdir. Əhalinin mədəni səviyyəsinin yüksəldilməsində bələdiyyə orqanlarının rolunun müəyyənləşdirilməsinə dair respondentlərin rəyinin müqayisəli analizinin nəticələri də yuxarıda göstərilmiş ictimai rəyə yaxın alınmışdır (bax, cədvəl 8.2.).

**CƏDVƏL 8.2.**

**Əhalinin mədəni səviyyəsinin yüksəldilməsində bələdiyyə orqanlarının rolunun respondentlər tərəfindən qiymətləndirilməsi**

| | Bakı | Şəki | Neftçala |
|---|---|---|---|
| **Əhəmiyyətli** | 30 n. və ya 7,5% | 7 n. və ya 2% | 1 n. və ya 2% |
| **Az əhəmiyyətli** | 71 n. və ya 17,75% | 19 n. və ya 38% | 13 n. və ya 26% |
| **Rol oynamır** | 267 n. və ya 66,75% | 21 n. və ya 42% | 35 n. və ya 70% |
| **Cavab verməyə çətinlik çəkirəm** | 32 n. və ya 8% | 9 n. və ya 18% | 1 n. və ya 2% |

Cədvəldən göründüyü kimi hazırki dövrdə bələdiyyə orqanları soruşulanların əksəriyyətinin rəyinə əsasən (cəmi 323 nəfər və ya 64,6%) hələ də vətəndaşların ruhi mədəniyyətinin inkişafında nəzərə çarpan rol oynamır və iştirak etmir.

Ümumiyyətlə, keçirilmiş analiz bələdiyyə orqanlarının səlahiyyətlərinin genişləndirilməsinin, maddi-texniki bazanın gücləndirilməsinin, onların nüfuzunun artırılmasının, həm də bələdiyyələrin sosial institutlar, respublikadakı dövlət və qeyri-hökumət mədəniyyət təşkilatları ilə əməkdaşlığı və partnyorluğunun inkişaf etdirilməsinin vacibliyi haqqında ekspertlərin rəyini bir daha təsdiq edir.

## 8.2. Azərbaycanda yeni mədəniyyət siyasətinin inkişaf perspektivləri haqqında ictimai rəy

Respondentlərin mədəniyət siyasətinin mahiyyəti və funksiyaları haqqında təsəvvürünü öyrənmək üçün onlara elə suallar təklif olunmuşdur ki, cavabların məcmusu qoyulmuş məqsədlərə nail olmağa kömək etsin. Respondentlərə eləcə də bir qrup açıq suallara da cavab vermək təklif olunmuşdur ki, bu da onların "mədəniyyət siyasəti" anlayışının mahiyyətini nə dərəcədə qavradıqlarını tam təyin etmək imkanı yaradırdı. Bu məsələnin öyrənilməsi həmin sahədə biliklərin səviyyəsini və Azərbaycan xalqının mentalitetinin xüsusiyyətlərini nəzərə almaq məqsədilə vacibdir. Sorğunun nəticələri "mədəniyyət siyasəti" anlayışının mahiyyətinin təyin edilməsinə dair respondentlərin kifayət qədər geniş rəy spektrini aşkar etmişdir (bax, cədvəl 8.3.).

**CƏDVƏL 8.3.**

| **"Mədəniyyət siyasəti" anlayışının təyininə dair respondentlərin rəyləri** | | |
|---|---|---|
| **İctimai həyatın mənəvi dəyərlərinin inkişafının tənzimlənməsi ilə bağlı tədbirlər kompleksidir** | 127 n. | 25,4% |
| **Fərdin və ya insan qrupunun müəyyən davranış və hərəkət xətti** | 120 n. | 24% |
| **Əhalinin mədəni fəallığının sosial mexanizmlərinin və şəraitinin formalaşdırılması və uzlaşdırılması ilə bağlı tədbirlər** | 75 n. | 15% |
| **Əhalinin müxtəlif sosial qrup və təbəqələrinin yaradıcı, mədəni və asudə vaxtla əlaqədar tələbatlarının inkişafına yönəldilmiş fəaliyyət proqramı** | 143 n. | 28,6% |
| **Cavab verməyə çətinlik çəkirəm** | 35 n. | 7% |



Yuxarıdakı verilənlər sübut edir ki, respublika əhalisinin keçmişdə ənənəvi olan mədəniyyət mahiyyətini qavramaq tərzindən (incəsənət və mənəvi irsiyyət sahəsi kimi başa düşülməsinə əsaslanmış) tədricən kənara çıxmasına baxmayaraq, vətəndaşların xeyli hissəsinin ictimai şüurunda hələ də mədəniyyət siyasəti "əhalinin yaradıcı, mədəni və asudə vaxt tələbatlarının inkişafına istiqamətlənmiş tədbirlər proqramı" kimi başa düşülməsi meyli üstünlük təşkil edir – 143 n. və ya 28,6%. Soruşulanların müəyyən hissəsi hesab edir ki, mədəniyyət siyasəti "ictimai həyatın mənəvi-dəyər aspektlərinin inkişafını tənzimləyən tədbirlər kompleksidir" – 127 n. və ya 25,4%, "şəxsiyyətin və ya insanlar qrupunun əxlaq və fəaliyyətiinn müəyyən xətti" – 120 n. və ya 24%. Respondentlərin digər hissəsi hesab edir ki, mədəniyyət siyasəti "sosial mexanizmlərin və əhalinin mədəni aktivlik şəraitlərinin formalaşdırılması və uyğunlaşdırılması ilə əlaqədar fəaliyyətdir" – 75 n. və ya 15%. Soruşulanların 29,6%-i (148 nəfər) hesab edir ki, mədəniyyət siyasəti düzgün elmi təşkil və cəmiyyəti idarə etmək yolu ilə ölkənin harmonik inkişafına nail olmasına istiqamətlənməlidir. Soruşulanların ümumi sayının 1/3-dən artıq hissəsi (172 nəfər və ya 34,4%) mədəniyyət siyasətinin müxtəlif qrup və əhali təbəqələrinin siyasi və sosial maraqlarının ümumiliyi əsasında formalaşmasının vacibliyini qeyd etmişdir. Mədəniyyət siyasətinin respublikada yüksək istehsalat, siyasi, millətlər arası və dinlər arası mədəniyyətin formalaşmasına yardım etməli olduğunu 149 respondent və ya 29,8% bildirmişdir.

Sosioloji sorğu vasitəsilə həmçinin Azərbaycanda vətəndaş cəmiyyətinin tələblərinə cavab verən yeni mədəniyyət siyasətinin formalaşdırılması perspektivləri haqqında respondentlərin rəyi öyrənilmişdir. Bu cəhətdən verilmiş suala 3 şəhərin (Bakı, Şəki, Neftçala) respondentlərinin cavablarının müqayisəli analizi diqqətəlayiqdir. Bakı şəhərində soruşulanların xeyli hissəsi (180 n. və ya 47%), Şəki və Neftçala şəhər-

lərinin respondentlərinin əksəriyyəti - müvafiq olaraq 68% (34 n.) və 54% (27 n.) - mədəniyyət sahəsində yeni siyasət konsepsiyasının gələcəkdə formalaşdırılması və inkişafı perspektivlərini başlıca olaraq mədəniyyətin sosial sisteminin madditexniki bazasının möhkəmləndirilməsində görürlər. Bakı və Şəki şəhərində respondentlərin kifayət qədər yüksək faizi Respublika Mədəniyyət Nazirliyinin sisteminin və strukturunun əsaslı islahat edilməsinin vacibliyini bildirmişlər – müvafiq olaraq 32,5% (130 n.) və 40% (20 n.). Elmi anlama əsaslanmış mədəniyyət haqqında yeni qanunun qəbul edilməsinin vacibliyini Şəkidə soruşulanların 40%-i (20 n.) qeyd etmişdir. Bakı və Neftçalada isə bu göstərici müvafiq olaraq ancaq 26,5% (106 n.) və 26% (13 n.) təşkil etmişdir.

Aparılmış analizin nəticələri göstərir ki, vətəndaşların əksəriyyətinin ictimai şüurunda siyasətin ölkənin mədəniyyət sahəsində mahiyyəti haqqında kifayət qədər tam və düzgün təsəvvür formalaşmamışdır. Mədəniyyətin inkişafının tənzimlənməsi sahəsində vacib tədbirlərin mahiyyətinin lazımi dərəcədə başa düşülməməsi ölkədə ruhi mədəniyyətin inkişafına mane olan faktorlardan biridir.

Ümumiyyətlə, hazırki sosioloji tədqiqatın nəticələri çoxillik kulturoloji tədqiqatların əsas nəticələrinin, eləcə də bunların əsasında işlənib hazırlanmış Azərbaycanda ruhi mədəniyyətin inkişafı və yeni mədəniyyət siyasətinin formalaşdırılması üzrə "SİMURQ" Azərbaycan Mədəniyyət Assosiasiyasının praktiki tövsiyələrinin düzgünlüyünü sübut etmişdir.

*Sosioloji sorğu "SİMURQ" AMA-nın sosioloji tədqiqatlar departamenti tərəfindən Roman Şulmanın rəhbərliyi ilə keçirilmişdir. Tədqiqatlarda sosioloqlar Yuliya Adilova, Yaşar Zeynalov, İlham Rzayev, Könül Kərimova, eləcə də təcrübəli supervayzer və intervüerlər qrupu iştirak etmişdir. Sosioloji verilənlərin kompüter işlənməsi Firudin Əhmədovun rəhbərliyi ilə həyata keçirilmişdir. Kulturologiya məsələləri üzrə elmi məsləhətlər Fuad Məmmədov tərəfindən verilmişdir.*



**"Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" beynəlxalq konfransının iştirakçılarının**

## QƏRARI

(Bakı, 27-29 iyun 2001-ci il)

"Simurq" Azərbaycan mədəniyyət Assosiasiyanın prezidenti Fuad Məmmədovun "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına vətəndaş köməyi haqqında" məruzəsini, əlavə məruzələri, Azərbaycan dövlət strukturları və ictimai təşkilatlarının nümayəndələrinin çıxışlarının, inkişaf etmiş demokratik ölkələrin – ABŞ, Fransa, Norveç, Yaponiya, Rusiya Federasiyasının və həmçinin ISAR beynəlxalq Fondunun mütəxəssis və alimlərinin çıxışlarını dinləyib və müzakirə edərək konfrans iştirakçıları aşağıdakıları qeyd edirlər.

Konfrans hesab edir ki, Azərbaycanda demokratik cəmiyyət və hüquqi dövlətin qurulmasının ən vacib məsələlərindən biri Azərbaycan xalqının sosial-mədəni və iqtisadi problemlərinin həllinə yönəldilmiş yeni mədəniyyət siyasətinin formalaşdırılmasıdır. Belə məsələ köhnə "sovet sistemi" və mədəniyyətinin strukturu və yeni vətəndaş cəmiyyətinin qurulması tələbləri arasında olan dialektik ziddiyyətlər nəticəsində mədəniyyətdə yaranan böhran hallarının aradan qaldırılması zərurətindən doğur.

Belə siyasətin formalaşdırılması milli və ümumbəşəri dəyərlərə, müxtəlif strukturların rəhbərlərinin və jurnalistlərin yüksək peşəkarlığına və səriştəsinə, qabaqcıl dünya təcrübəsinin yaradıcı istifadəsinə əsaslanmalıdır. Dəqiq düşünülmüş, effektiv mədəniyyət siyasəti nəinki milli, həm də qlobal miqyasda sosio-mədəni inkişafı proqnozlaşdırmağa imkan verir ki, bu

da Azərbaycan dövlətinin sivil dünya birliyinə inteqrasiya olunmasına kömək edir.

Konfrans iştirakçıları "Simurq" AMA-nın Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı tələblərinə cavab verən, ölkədə yeni demokratik mədəniyyətin, sosial-mədəni tərəqqinin əldə olunmasına yönələn çoxillik tədqiqatçılıq, maarifçilik və praktik fəaliyyətini müsbət qiymətləndirirlər.

Assosiasiya tərəfindən işlənib hazırlanmış və əsasını çoxillik kulturoloji tədqiqatlar təşkil edən yeni mədəniyyət siyasəti konsepsiyası Azərbaycanın müxtəlif dövlət və qeyri-dövlət strukturlarının nümayəndələri ilə keçirilmiş 20 kulturoloji seminar-treninqlərin və hazırki beynəlxalq konfransın iştirakçıları tərəfindən bəyənilmiş və təsdiq edilmişdir.

Bu konsepsiya həm də 2001-ci ilin aprel-may aylarında ölkənin əhalisi arasında keçirilmiş xüsusi rəy sorğusu zamanı öz təsdiqini tapmışdır. Assosiasiya tərəfindən ilk dəfə ruhi mədəniyyətin öyrənilməsi üçün keçirilmiş ciddi sosioloji tədqiqatlar ölkə əhalisinin müxtəlif qruplarının mədəniyyət və mədəniyyət siyasəti haqqında rəyini əks etdirən ümumiləşmiş empirik material alınmasına kömək etmişdir.

"Simurq" AMA-nın konsepsiyası hazırlanarkən sovet, Qərb və Rusiya kulturologiya məktəblərinin, o cümlədən Rusiya Kulturologiya İnstitututun konsepsiya və nailiyyətlərindən, Norveç və Yaponiyanın soial-mədəni inkişaf tarixi təcrübəsindən, BMT, UNESCO, Avropa Şurası və digər beynəlxalq təşkilatların müasir fəaliyyət təcrübəsindən və sənədlərindən istifadə edilmişdir. Adları çəkilən materialların kompleks analizinə asalanaraq, Assosiasiya tərəfindən Azərbaycanın konkret şəraitinə uyğun yeni mədəniyyət siyasətinin formalaşdırılması üçün praktik tövsiyələr işlənilmiş və konfransa müzakirəyə çıxarılmışdır. Bu zaman Azərbaycanın həm tarixi-mədəni inkişaf spesifikası, həm də ölkənin dünya sivilizasiyası



kontekstində soial-mədəni inkişafının sistemli analizinin nəticələri nəzərə alınmışdır.

Konfrans iştirakçıları qeyd edirlər ki, yeni mədəniyyət siyasətinin düzgün formalaşdırılması üçün kulturologiya insanın, cəmiyyətin və dövlətin inkişafının əsasını təşkil etmək baxımından getdikcə daha böyük əhəmiyyət kəsb edir. Mütərəqqi ölkələrin sənaye cəmiyyətindən informasiya, "biliklər" cəmiyyətinə keçməsi səbəbindən, kulturologiyanın əhəmiyyətini nəinki milli, həm də qlobal baxımdan qiymətləndirməmək çox çətindir. Kulturologiyanın inkişafı və institutlaşdırılması Rusiya Federasiyasında ciddi şəkildə qoyulmuşdur. Bu obyektiv proses Azərbaycanda da dövlətin kulturoloji təhsil və tədqiqatlara, elmi-pedaqoji kadrlara və kulturoloji maariflənməyə diqqətinin köklü dəyişməsini tələb edir. Ölkədə elm və tədris fənni kimi kulturologiyanın fundamental problemlərinin ciddi şəkildə işlənməsi zərurəti mövcuddur. Onun strateji və tətbiqi vacibliyi kulturologiyanın dövlət quruculuğu və idarəetmənin, sosial-mədəni inkişaf üçün yeni texnologiyalar işlənməsinin, elmi əsaslandırılmış mədəni reformaların praktik realizasiyanın vətəndaş cəmiyyətinin inkişaf tələblərinə cavab verən elmi-nəzəri bazası kimi artan əhəmiyyətindədir.

**Yuxarıdakıları nəzərə alaraq konfrans iştirakçıları qərara alırlar.**

1. "Simurq" AMA-nın keçirdiyi sosioloji sorğunun nəticələri və Azərbaycanda yeni mədəniyyət siyasətinin təklif edilən modeli konkret fəaliyyət planı işləmək üçün elmi-nəzəri əsas kimi bəyənilsin.
2. Təhsil və tərbiyə, maarif, elm, incəsənət, hüquq və informasiya mədəniyyət siyasətinin prioritet istiqamətləri kimi təyin edilsin. Hesab edilsin ki, ruhi mədəniyyət və mənəvi "istehsalın" üstün inkişafı Azərbaycan Dövlət siyasəti üçün strateji istiqamət olmalıdır.

3. Ölkədə başdan-başa kulturoloji təhsilin və kulturoloji tədqiqatların, demokratik ölkələrin sosial-mədəni inkişaf və mədəniyyət siyasəti təcrübəsinin dərindən öyrənilməsinin üstün inkişafına kömək edilsin.
4. Mədəniyyət Nazirliyindən və "Simurq" AMA-dan Azərbaycan bələdiyyələrinin mədəniyyət siyasətinin formalaşdırılmasına elmi-metodik kömək göstərilməsi xahiş olunsun.
5. Ölkənin müxtəlif sosial qruplarının milli və dünya mədəni sərvətlərinə və demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsinə geniş yol tapmaları üçün zəmin hazırlamaq. Bu məqsədlə "Simurq" AMA-nın aşağıdakı təklifini dəstəkləmək:
   - mədəniyyət siyasətinin həyata keçirilməsi üçün yeni struktur forması kimi Azərbaycanın rayonlarında demokratik mədəniyyətin informasiya-resurs mərkəzləri şəbəkəsinin yaradılması.
6. Yerli özünüidarəetmə orqanlarını da cəlb etməklə Azərbaycanda əhalinin mədəni maariflənməsi, məişət, istehsalat, hüquq, millətlərarası, siyasi, sosial mədəniyyətin yüksək standartlarının formalaşdırılması. Bu məqsədlə sosial-mədəni tərəqqi, qarşılıqlı zənginləşmə və mədəniyyətin harmonizasiyası, mədəni plüralizmin inkişafı, beynəlxalq əməkdaşlığın və sülhün inkişafı naminə "Simurq" AMA-nın nəzdində aşağıdakıların yaradılması bəyənilsin və təqdir edilsin:
   - Dünya tarixi mədəniyyəti və nəzəriyyəsinin, demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsinin öyrənilməsinə həsr edilmiş "Simurq" elmi-maarifçilik jurnalı.
   - Azərbaycan mədəniyyətinin İctimai Forumu.
   - Dünya mədəniyyətinin informasiya-resurs mərkəzi.



7. Azərbaycanın maraqlarını və sosial-mədəni inkişaf tələblərini, dünyanın inkişaf tendensiyalarını əldə rəhbər tutaraq, Azərbaycan hökumətinə Azərbaycanın həyati vacib maraqlarına cavab verən, mədəniyyət sahəsində mütərəqqi reformaların keçirilməsinə yönəlmiş və aşağıdakıları nəzərdə tutan fəaliyyət proqramı tövsiyə edilsin:
   - Respublikada mədəniyyət sisteminin və bu sahədə dövlət idarəetmə strukturlarının reforması. Hökumətin, Milli Məclisin, mədəniyyət menecerlərinin və müstəqil ekspert-kulturoloqların iştirakı ilə mədəni reformalar üzrə Milli Şuranın yaradılması və həmçinin sovet mədəniyyət sisteminin sosial institutlarının demokratik institutlara transformasiyası.
   - Mədəniyyətin düzgün elmi tərifini daxil etmək zərurətini nəzərə almaqla, Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanununa əlavələr və düzəlişlər edilməsi.
   - Məktəbəqədər müəssisələrdə, bütün səviyyələrdən olan məktəblərdə və həmçinin yaşlı əhalinin müxtəlif qrupları üçün ikinci təhsil və aktiv maarifləndirmə proqramlarının tədrisini nəzərdə tutan kulturoloji təhsil haqqında qanunun və ya qanunvericilik aktının qəbul edilməsi.
   - Kulturologiyanın Ali Attestasiya Komissiyasının ixtisaslar nomenklaturasına daxil edilməsi. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində kulturologiya üzrə namizədlik və doktorluq dissertasiyanın müdafiəsi üçün xüsusi şuranın yaradılması.
   - Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti nəzdində Kulturoloji tədqiqatlar mərkəzi və Kulturologiya gimnaziyasının yaradılması.

- Azərbaycan Milli Elmlər Akademiyası tərkibində elmi-tədqiqat Kulturologiya institutunun yaradılması.
- "Simurq" kulturoloji jurnalının yaradılması.
- Respublika televiziyasında əhalinin ümumi mədəni səviyyəsinin, dünya və vətən mədəniyyəti tarixi, nəzəriyyəsi və təcrübəsi sahəsində cəmiyyətin elmi biliklərinin artırılmasına yönəlmiş xüsusi "Mədəniyyət və cəmiyyət" kulturoloji maarifçilik proqramının açılması.
- 1995-ci ildə Bakıda təsis edilmiş – Azərbaycan ziyalıları, BMT-nin nümayəndəliyi, müxtəlif xarici nümayəndəliklər və beynəlxalq təşkilatlar tərəfindən təqdir edilmiş Dünya mədəniyyəti beynəlxalq universitetinin açılması.
- Dünya mədəniyyəti tarixi və nəzəriyyəsi problemləri ilə məşğul olan xarici ölkə kulturoloqları, elmi-təhsil və maarifçilik mərkəzləri ilə əməkdaşlıq, kooperasiya və partnyorluğun genişləndirilməsi, kulturoloji şəbəkənin yaradılması və inkişafı.
- İnternetdən Azərbaycan mədəniyyətinin təbliği üçün daha məhsuldar istifadə edilməsi, kultuoroloji təhsilin beynəlmiləlləşdirilməsi, bu əsasda dünya mədəniyyətinin və beynəlxalq mədəniyyət siyasətinin təkmilləşdirilməsinin harmonizasiyası.

8. Praktik tövsiyələr və sosioloji tədqiqatın nəticələri də daxil olmaqla Konfransın materiallarının sənədlər və materiallar toplusu şəklində çap edilib dövlət və qeyri-hökumət təşkilatlarında, kitabxanalarda, KİV orqanlarında, bələdiyyələrdə, tədris, elmi və yaradıcı təşkilatlarda və digər maraqlı idarələrdə yayılması.

Bu qərarın icrası "Simurq" AMA-ya həvalə edilir.

Bakı şəhəri 29 iyun 2001-ci il.



*Tərcüməçilər:* Ağazəki Məlikov, Arif Əliyev, Əbülfət Fətullayev və Nailə Mehrabova.

*Kompüter yığımı və dizaynı:* Sürəyya Səmimi, Sevinc Zeynalova, Gülnarə Şahmərdanova.

Çapa imzalanıb: 14.11.2001
Kağız formatı 60x84 $^{1}/16$.
Tirajı 500.
Sifariş № 132.

"Elm" RNPM-in mətbəəsində çap edilmişdir
(İstiqlaliyyət, 8).